3.1. Varlık Dergisi Hakkında Genel Bilgiler

Cevat Heyet, 1979 inkılabından sonra Türk dili ve edebiyatı alanında faaliyet gösteren arkadaşları Hamit Nutki, Mehmet Ali Ferzane, Gulamhüseyin Begdili, Hamit Mehmetzade, Hasan Mecidzade "Savalan", Kerim Meşruteçi "Sönmez", Timur Pirhaşimi, Aziz Muhsini, Abdulkerim Menzuri, Samet Serdariniya, Ali Kemali ve Muhammet Taki Zehtabi ile birlikte Varlık dergisini çıkarmıştır. İlerleyen yıllarda Mir Hidayet Hesari, İsmail Hadi, Büyük Resuloğlu, Mehmet Rıza Heyet, Alirıza Sarrafi, Hasan Raşidi, İbrahim Refref, Ekber Azad, Hüseyin Muhammethani "Güneyli", Haydar Bayat, Tuğrul Atabay, Muhammet Rıza Goçi, Muhammet Alim Lebib ve İbrahim Arıkan derginin yayın kurulunda yer alan diğer aydınlardır. Muhammet Hüseyin Şehriyar ise ilk sayıdan itibaren derginin Şeref Üyesi olmuştur. "Varlık" adı ise İran'da Türklerin varlığını inkâr politikasına karşılık Hamit Nutki tarafından önerilmiştir.[13] Ayrıca Nutki'ye göre Varlık dergisinin en önemli rolü gerçeğin saf aynasında millî benliğini göstermek ve millî şuuru uyandırmak olmuştur.[14]

Varlık dergisinin sayfalarında birçok yazar ve şairin makalelerine rastlamak mümkündür. Dergide 1987 yılına kadar makale yazmış olan edipler şunlardır: Abbas Abdullah, A. Ağçaylı, A. Ali Feyzade, Abdullah Hüdabende, Abbas Eşrefi, A. Manzuri Hamaney, Abbas Kihyar, Abdulkerim Manzuri, Abdulhalik Yusuf, Abbas Zamanof, Adsız, Ağazedei Hoşgünabi, Ahmet Alizade, Akay C. Ordubeli, Akay Hamid, Akay M. A.

---

[13] "Varlıq Tanıtımı", Varlıq - Dil, Edebiyat, Kültür ve Toplum Araştırmaları Dergisi, erişim 20 Ocak, 2024, https://varliq.org/#1614929887779-5c6b09fb-2229.

[14] Həmid Nitqi, "Biçaq ve Qələm", *Əziz Dost* içinde, der. Bexruz Axundov (Bakı: Təhsil Nəşriyyatı, 2000) 45.

Ferzane, Akay Nekabi, Akif Tebrizi, Ali Aka Vahit, Ali Kemali, Alirıza Sarafi, Ali Tebrizi, Aşık Alesger, Aydın Selimzade, Aziz Muhsini, Bahtiyar Vahapzade, B. K. Sehend, Başgöz, Balaş Azeroğlu, Behram Elçin, Burhan Buharalı, Cami, Cafer Cabbarlı, Cavid, Cevad Heyet, C. Remzi, Ekber Rezzaki, Fahreddin Melcai, Fikret Sadık, Gaffar Berdi, Genceli Sabahi, Gulam Hüseyin Bekdili, Gulam Rıza Mecidfer Güneş, Habib Sahir, Hacı Rabai Eskü, H. Coşkun, H. Debiran, Hamid, Halil Rıza, Hamid Mehmetzade, Hamid Nutki, Hamit Araslı, Hasan Ali Reyis Şekaki, Hasan Dehkani, H. N. Altay, Hasan Necidzade (Savalan), Hamit Seyit Nukvi, Hekime Billuri, Hidayet Hisari, Hüseyinoğlu, Hüseyin Arif, Hüseyin Rıza, Kasım Cihani, K. Sabahi, Kemal Habibzade Çiçek, Kerim Aka Salih, Kurbanali Mehmetzade Şebisteri, M. A. Mahzun, M. A. Yaşar, M. H. Bahtiyar, M. Şami, M. Şebisteri, Medine Gülgün, Mehdi Derhani, Mehdi Müçtehidi, Mehmet Ali Musaddık, Mehmet Akif, Mehmet Cafer Caferov, Mehmet Mehmedov, Mehmet Hoşnuvis Savabey, Mehmet Rıza Ruhini, Mesud, Mehmet Taki Zehtabi, Mir Ali Kenafi, Mir Ali Münafi Hüsrevşahi, Mirza Abdulkerim Vesaki, Mirza İbrahimav, Mir İsmail Cabbari Necat, Mirza Pir Abbas Ordubeli, Murtaza Mecidfer, Musaddık, Mehmet Ali, Muzaffer, Rahim Dakik, Rehgüzar, Rıza Berahni, Rüstem Aliyev, Sahir, S. Kurbani, Samed Serdarinya, Samet Vurgun, Sehend, S. Heyet, Seyfettin Altaylı, Seyit Abdulhamit Serhabi, Sönmez, Süleyman Rüstem, Şehriyar, Şükufe Babayev, Talim Han, T. Pir Haşimi, Ülker, Vala, Volkan, Yahya, Şeyda, Zeynelabidin Makas.[15]

Cevat Heyet, kurucusu ve baş editörü olduğu dergide yayınladığı makaleler ile birlikte seksen yıl boyunca yasaklanmış olan Türk dili ve edebiyatını yeniden canlandırmayı başarmıştır. İlk sayısı 1979 yılının Nisan ayında yayınlanan Varlık dergisi Güney Azerbaycan'da Türkçe yayımlanan ilk dergi olması nedeniyle okuyucuda derin bir etki bırakmış ve zamanla bir mektep hâline gelmiştir. Dergi Azerbaycan Türkçesi ve Farsça olmak üzere iki dilde yayımlanmıştır. Ayrıca Varlık dergisinin ilk yıllarında Türkçeyi okumakta güçlük çeken okuyucular için her sayının sonuna Türkçe-Farsça sözlük bölümü eklenmiştir.[16]

[15] Ali Taştekin, "Varlık Dergisinde Edebiyat Tarihi Araştırmaları" (Yüksek Lisans tezi, Ege Üniversitesi, 1991), 5.
[16] "Varlıq Tanıtımı".

Varlık dergisi ilk sayılarından itibaren sosyokültürel bir dergi olarak tanıtılmış ve sayfalarında edebî, medeni ve sosyal meselelere yer verilmiştir. Dergideki yazılar genellikle dil, edebiyat, tarih ve medeniyete ilişkin konuları içermektedir.[17]

Varlık dergisi, kültürel faaliyetlerinin yanı sıra Türk dilinin imlası ile ilgili olarak İran'da kullanılan Arap harfli Türk alfabesinin standartlaşması için çeşitli sempozyumlar düzenlemiştir. Bu sempozyumun sonuçlarını ise basılı ve dijital ortamda yayımlamıştır. Hamit Nutki'nin *Yazı Kâideleri veya İmlâ Kılavuzu* adlı kitabında önerdiği kurallara göre düzenlenen ve diğer yayınlarda da büyük ölçüde uygulanan Varlık imlası, Haziran 2000 ve Eylül 2001 tarihlerinde Türkmen ve Kaşkay yazarlarının da katılımıyla Tahran'da düzenlenen iki sempozyumda karara bağlanmıştır.[18]

3.2. Cevat Heyet'in Varlık Dergisindeki Faaliyetleri

Cevat Heyet, Güney ve Kuzey Azerbaycan arasında manevi bir köprü, Varlık dergisi ise bu köprünün temelidir. Kendisinin de söylediği gibi Varlık onun varlığıdır. Varlık dergisi ayrı düşmüş iki kardeşin aynı düşünce etrafında birleşmesinde önemli bir yere sahiptir. Güney'i Kuzey'e, Kuzey'i ise Güney'e kavuşturmuştur. Varlık dergisinde Güney Azerbaycan'da yaratılmış olan folklor ürünleri yayımlanmış ve böylece halkın zengin şifahi söz varlığı tanıtılmaya ve yaşatılmaya çalışılmıştır. Dergi bu yönüyle geçmişe ışık tutan bir ayna olmuştur.[19]

Cevat Heyet ve Hamit Nutki'nin makaleleri ise daha çok Türkçe ve Azerbaycan Türkçesi ile yazılmıştır. Varlık dergisi İran Türklerinde millî kimlik şuur ve ruhunun oluşmasında büyük rol oynayarak Güney Azerbaycan tarihinde eşsiz bir dönem başlatmıştır. Bununla birlikte kimliğinin farkında olan ve Türk ırkına mensubiyetiyle övünen bir neslin yetişmesine vesile olmuştur. Ayrıca Varlık dergisi, Türklük kavramını öne çıkararak Türkçeyi siyasi ideolojilerin etkisinden kurtararak halk arasında yaymayı başarmıştır.[20] Dergide Azerbaycan birçok şair ve yazarın çeşitli eserleri yayımlanmış ve böylece dil ve edebiyatın yeniden canlanması, eski eser ve sanatkârların unutulmaması amaçlanmıştır.[21]

---

17 Kürüm, "Prof. Dr. Cevat Heyet'in 'Varlık'ını Adadığı Azerbaycan ve Türk Milliyetçiliği", 171.
18 "Varlıq Tanıtımı".
19 Pərvanə Məmmədova, "*Varlıq" Jurnalında Ədəbiyyat Məsələləri* (Bakı: Elm, 2000) 185.
20 Heyet, "Prof. Dr. Cevat Heyet'in Hayatı ve Eserleri", 11.
21 Nureddin Rıza, "Maneviyat ve Medeniyetin Cavad Heyet Zirvesi", *Prof. Dr. Cevat Heyet* içinde, der. M. Rıza Heyet ve Gaye Akyıldız Örek (Ankara: Ahmet Yesevi Üniversitesi Yay., 2005) 59.

Varlık dergisi tüm bu yönüyle Türk dili, edebiyatı, tarihi ve medeniyeti ile ilgili birçok konuyu ihtiva eden ve sadece Güney ve Kuzey Azerbaycan'a değil tüm Türk dünyasına yeni kapılar açan bir ansiklopedi ve bir okul vazifesi görmüştür.[22] Ayrıca derginin ilk çıktığı günden itibaren dil, edebiyat, tarih ve kültür ile ilgili olan yazılar, dil ve kültürün Türkler için ne kadar önemli olduğunu ve yazarların bu konuda ne kadar hassasiyetli olduklarını göstermektedir.[23]

Cevat Heyet, derginin çıkış yılı olan 1979 yılından vefat tarihi 2014 yılına kadar Güney Azerbaycan Türklerinde millî şuurun yeniden canlanması, Azerbaycan Türkçesinin Kuzey Azerbaycan'da kullanılan dilden kopmadan aynı doğrultuda kullanılması ve yaygınlaştırılması için büyük çaba sarf etmiştir. Ayrıca tarihî süreçte yapılmış olan tahriflerin dile getirilmesi, söylenmiş olan yalanların düzeltilmesi ve gerçeklerin ortaya çıkarılması yolunda yılmadan mücadele vermiştir. Heyet, yine yürütülmüş olan asimilasyon politikaları doğrultusunda yazmış olduğu makaleleriyle onlar ile ilmî anlamda mücadele etmiştir. Heyet, ayrıca Karabağ sorunu üzerinde durmuş ve bu sorun ile ilgili birçok makale kaleme alarak onu gündemde tutmaya çalışmıştır.[24]

3.3. Günümüzde Varlık Dergisi

Varlık dergisi, 2014 yılına kadar kurucusu ve baş editörü olan Cevat Heyet'in öncülüğünde yayımlanmıştır. 2015 yılı itibarıyla M. Rıza Heyet'in baş editörlüğünde Ankara'da yayımlanmaktadır. Daha sonra İran'a ve çeşitli ülkelere gönderilmektedir. Varlık dergisi, Türkiye, Azerbaycan, İran ve dünyanın çeşitli ülkelerinin bilim insanlarından oluşan bilim kuruluyla Ocak 2021 tarihinden itibaren "uluslararası hakemli dergi" statüsü kazanmıştır. Her yılın mart, haziran, eylül ve aralık aylarının sonunda yayımlanmaktadır. Türkçe ve Farsça olmak üzere iki dilde yayımlanan derginin ortalama yüzde sekseni Türkçe, yüzde yirmisi Farsçadır. Farsça yazıların muhatabı ise genellikle ana dilinde okuma yazması olmayan ancak Türk dili, edebiyatı ve tarihine ilgi ve merak duyanlar ile Fars okuyuculardır. Varlık dergisi, İran'da Türk dili, edebiyatı, tarihi ve medeniyetinin geliştirilmesini, ortak Türk yazı dili temelinde yeniden oluşturulmasını,

---

[22] Kürüm, *Cevat Heyet'in Azerbaycan Türklüğüne Hizmetleri ve Varlık Dergisi*, 24.

[23] M. Rza Heyət, "Varlıq Dergisi və Onun Görkemli Yaradıcısı". *Biçaq ve Qələm* içinde, der. Bəxruz Axundov (Bakı: Təhsil Nəşriyyatı, 2000) 134.

[24] Heyet, "Prof. Dr. Cevat Heyet'in Hayatı ve Eserleri", 11.

tahrif edilmiş olan Türk tarihi karşısında doğruların açık bir şekilde yansıtılmasını, Türklük ruhunun ve şuurunun geliştirilmesini ve Türklerin maddi ve manevi mirasının tanıtılarak diğer Türk topluluklarıyla dil ve kültür bağlarının kuvvetlendirilmesini amaçlamaktadır. Varlık dergisinin içeriğini ise Türk dili, edebiyatı, tarihi ve kültürü alanında yazılmış olan bilimsel makaleler, İran Türkleri başta olmak üzere Türk dünyasının toplumsal meseleleriyle ilgili çalışmalar, Türkçe şiir ve kısa hikâyeler ve Türklük bilimiyle ilgili kitapların tanıtım yazıları oluşturmaktadır.[25]

[25] "Varlıq Tanıtımı".

DÖRDÜNCÜ BÖLÜM

TRANSLİTERASYONLU METİN

4.1. Transliterasyonlu Metin

[1] (1) Müqəddimə yerinə

(2) “Azərbaycan ədəbiyyat tarixinə bir baxış” Varlıq məcmuəsində müsəlsəl məqalələr (3) şəklində çap olduqdan sonra bir kitab halında buraxılmaqdadır, kitabın həcmi kiçik? (4) Adı iddiasız? Yazarı da bir doqtor-cərrahdır. Bütün bu görünüşlərə qarşı, bu hadisəni (5) candan salamlamalıyıq. Onunla iftixar etməliyik; sevinməliyik. Niyə?

(6) Qorxuram cavan nəsil bu böyük işin, kafi dərəcədə, dərin mənasını başa düşməsin. (7) Düşmənlərimiz, uzun zamanlar bizim höviyyətimizi göstərən ən kiçik qarniyyəni silmək, (8) aradan aparmaq və bu mümkün deyilsə təbir, təfsir yolu ilə ən zəif rəvayətə dayanaraq (9) gün kimi aydın dəlilləri heçə saymaq və unutdurmaq istədilər. Bu işdə bilərək və (10) nəqşə üzrə xəyanət edənlər olduğu kimi hakim mühitin ümumi atmosferinə uyaraq (11) bilmərək də o yolu gedənlər çox oldu.

(12) Bu düşmənlərin və düşmənlərin dostlarının təbiidir ki lap baş hədəfləri dilimiz idi. (13) Əlbəttə dili inkar edə bilsələr, ədəbiyyatımız və onun tarixi də öz-özünə müntefi olur. (14) Dədiyimiz kimi baş hədəf dilimiz idi. Ona bir neçə tərəfdən hücuma keçdilər. (15) Lap başda Azərbaycanlı münəvvərlərin Fars dil və mədəniyyətinə[26] bəslədikləri səmimi və qədimi (16) əlaqədən sui-istifadə etdilər. Bu əlaqəyə dayanaraq öz ana dilinə soyuqluq yaratmaq istədilər.

[26] Bu kəlmə Fransalıların kültür və Ərəblərın səqafə sözlərinin mükabilindədir.

(17) Ana dilin təlim və təallümü mümkün olmayınca və dil ancaq gündəlik, səthi (18) münasibətlərə həsr edilincə, kəlmələr unudulur, xəzinəsi tükənir, dil **[2]** (1) faqırlaşır[27], bu faqır, sonra münəvvərin başına qaxınç olur, xəbərsiz tutulduğu içün, bu altdan-altdan (2) xəbisanə təbliğ yalanına inanır.

(3) Həqarət hissi ilə özünü və dilini inkar etməyə başlar. Uşağına əlimizdə əskidən (4) dəb olan gözəl adlar yerinə, heç Azərbaycan Türkünün ağzında düzgün tələffüz edilə məyəcək (5) fars və fərəngi adlar taxar, onunla ana dilində danışmaz və axırda "iki məscid (6) arasında bi-namaz" və "از آنجا رانده از اینجا مانده" , "nə o nə bu" yəni höviyyətsiz, (7) şəxsiyyətsiz "Heimatlas" (Heimatlos) olur. Firdovsinin dədiyi kimi:

(8) نه ترك و نه دهگان نه تازی بود سخنها به کردار بازی بود

(9) Bu cinayəti təsbit etmək içün, İranlılıqla Farslığı bir tutmaq xəyanətə qədər (10) gedilipdi. (11) Halbuki İranlılıq bu məmləkətdə yaşayan bütün xalqların şanlı və müştərək sifətidir. (12) Azərbaycanlı özünə xəs dili ilə mədəniyyəti ilə və başqa imtiyazları ilə, İranlılıqda (13) farsların heç birisindən, qıl qədər, dalı deyildir- Biz bunu söz və ləf-ü güzaflar yox, (14) amələn tərtəmiz, qanımız, sayısız qəhrəman və şəhidlərimiz (uzaxlara getməsək bilə) (15) Səttar xanlarımız və xiyabanilərimizlə minlərcə dəfə sabit etmişik.

(16) Nə isə bu şəraitdə vəqahət ilə İranlılığı Farslıq inhisarında tutmaq, başqa (17) xalqları Farslılıqda hal etmək. "Asimilasyon" siyasəti-inqilabımıza qədər davam etdi. Burada bu (18) siyasətin ictimai, nizami, iqtisadi və jeopolitik yanlarını bir tərəfə bıraxaraq, məsələni (19) dil-ədəbiyyat-mədəniyyət zaviyəsindən qısaca mütaliəyə çalışacağıq.

(20) İran xalqlarının bu günə qədər doğru-dürüst bir tarixi daha yazılmadı tarix (21) deyib bəyinlərimizə soxuşdurulan məlumat aryani şovenizm xidmətində olan təbliğlərdən (22) ötəyə keçməz. Bunlarda xalq kütlələri yox, padşahlar rəsmi keçidi (dəfiləsi-rejesi) (23) vardır. Hətta bu rəsmi portrelər qalərisində (galərisində) Fars olmayan **[3]** (1) çəhrələr həddindən artıq, çirkin, təsvir edilmişlər[28]. Təhriflər burada qalmaz və bunlara (2)

[27] İndi qarşımızda duran vəzifələrdən biri də yüksək mənalı, əsil Azəri Türkcə kəlmələri, yavaş-yavaş işlətmək və onlar içün lüğət kitabları tərtib etmək və münəvvərlərimizə bu kəlmələrin lap öz malımız olduğunu anlartmaqdır. Yanaşı olaraq gramer və sintaqs (sərf və nahv) işini də ciddi tələqqi etməliyik. Qələt danışmaq, mühavərəyə xas və ədəbi yazı dilindən uzaq şəkillərdə məqalə və şeir, istisna olmalıdır qaidə deyil!

[28] Sadinin İblis portresi haqqında dediyi kimi:
که ای نیک بخت این نه شکل من است ولیکن قلم در کف دشمن است

məhdud olmaz, Fars olmayan ellər, “düşmən” və ya “vəhşi” adlandırılar; “çader-nişin”lər (3) təhqir edilir. Pis tərəflər zərrəbin altında mübaliğə ilə böyütülür; yaxşı tərəflər isə sükut (4) ilə keçirilir.

(5) Böyük alimlər, şairlər, mürşidlər, xülasə müsbət simalar haqqında əməliyyat başqa cürdür: (6) Bir şair şeirlərinin on yerində belə sarıhan Təbrizliyəm dəsə və Farscanın yanında (7) Türkcə gəzəlləri mövcud olsa da yenə bir bəhanə tapıb “Saib Təbrizi” yox, “Saib (8) İsfəhani” diyə israr edərlər. Musiqidə də “Bayatı Türk”i Bayatı İsfəhana çevirdikləri (9) kimi. Nizamini də yenə bir heçdən bəhanəyə dayanaraq Gəncədən Quma daşırlar.

(10) Onlar bu yolda hər şeyi caiz bilirlər, bir kiçik misallə bunu göstərmək istəyirik: (11) 1967-də Bakıda çap olmuş “Qətran” ın divanının müqəddiməsində, professor doqtor bəyləri (12) bu babda calib nümunələr verməkdədir.

(13) Aşağıdakı sətirləri bərəbərcə oxuyaq:

(14) “Qətranın Azərbaycanın ürəyi olan Təbriz şəhərindən olmasına baxmayaraq, görünür ki (15) R. Şəfiq də bəzi “cəbəli” “gıylı” “dəyləmi” “türmüzlü” adlandıran müəlliflər kimi onu (16) Azərbaycandan ayırmaq fikrində olmuşdur. Lakin nə Şefiqin bu yanlış mülahizəsi, nə də ki, (17) başqalarının bu haqdakı səhv mülahizələri və şairin Təbrizli olmasına hətta kiçik şübhə (18) belə yarada bilməz.”

(19) “Necə ki, bəziləri onu “ciyli” (giyli) qələmə almışlar. Bizcə həmin səhvin də (20) səbəbi bu olmuşdur ki, vəqti ilə Həmədandan başlayaraq Şimali Qafqaz hüduduna qədər bir (21) ərəziyə farslar “Kuhistan” (dağlıq) deyirmişlər. Ərəb istilasından sonra onlar (22) “cəbəl” (dağlıq) adlandırmışlar. Bu ərəzidə yaşayan əhaliyə də “cəbəli” (dağlı) adı (23) vermişlər. Bizcə qədim bir sənəd kimi əlimizə gəlib çıxan Qətranın seçilmiş əsəri divanında (24) şair Ənvəri Əbivərdi onu “əl-Ciyli əl-Azərbaycani” yox, “əl-Cəbəli əl-Azərbaycani” qələmə (25) almışdır ki, sonralar bəzi katiblərin savadsızlığı ucundan bu söz “cebeli” yox, (26) “ciyli” yazılmışdır. Daha sonralar bu səhv təzkirəcilər tərəfindən də təkrar olunaraq (27) belə bir təhrifə yol verilmişdir”[29] Və mudaqiq mühaqiqlərimiz “el Azərbaycani” kimi böyük bir **[4]** (1) kəlməyə iltifat eləməyib, bütün mövcud dillər və

[29] Professor Gulamhüseyin Bigdəli, Qatran Təbrizi İrani, safha 16.

şairin divanına bilə təvəccöh etmədən (2) Qətranı da Təbrizə çox görmüşdür. Kim demiş "Qılınc öz qınını kəsməz" yalandır, bu (3) "elanlar" bixüsus "Öz yuvalarına əyri girmək" içün tərbiyət olmuşlar.

(5) Adı keçən kitabda, eyni alim və mühəqiqin, Qətranın ana dili və Nasir Xosrovun məşhur (6) qeydi haqqında da yazdıqlarına oxuyucunun diqqətini çəkmək istəyirik:

(7) "Nasir Xosrov Aləvi (1004-1088) qərbə səyahətə çıxtığı zaman 438 (1046-1047)ci (8) ildə Təbrizdə Qətran ilə görüşmüşdü. Nasir Xosrov bu görüş haqqında (9) yazır: Təbrizdə Qətran adlı bir şair gördüm ki, yaxşı şeir yazırdı. Ancaq Fars dilini (10) yaxşı bilmirdi. Mənim yanıma gəldi, Muncık və Daqiqi divanlarını gətirdi və oxudu, ona (11) çətin olan sözlərin mənasını soruşdu, söylədim, izahlarını yazdı. Öz şeirlərin (12) də mənim içün oxudu… Nasir Xosrov Aləvinin bu müxtəsər lakin mühüm qeydindən şairin (13) adı və həm də onun Fars dilini yaxşı bilməməsi ortaya çıxır! Bu məsələni bəzi (14) burjuva alimləri guya Qətran fars dilinin ancaq Azəri ləhcəsini yaxşı bilib, o (15) zaman Horosanda dəbdə olan, o günün şeir və danışıq dili sayılan "dəri" ləhcəsini (16) yaxşı bilmədiyi ilə izah etmişdilər."[30] Halbuki bu, belə olmamışdır. Çünkü Qətran (17) özü də şeirlərinin birində fars dilinin "dəri" ləhcəsində şeir yazmasına və bu dildə şeir (18) yazmaq içün ilk dəfə olaraq digər şairlərə də yol və qapı açmasına işarə etmişdi:

(19). من در شعر دری بر شاعران نگشادمی ور مرا بر شعر گویان جهان رشک آمدی

(20) …Bu beytdən aydın görünür ki, Qətran Azərbaycanda Fars dilinin "dəri" ləhcəsində (21) şeir yazmaqda özünü birinci və ilk cığır açan şair hesab etmişdir. Lakin (22) Fars dili ana dili olmadığına görə Qətran da digər Azərbaycanlılar kimi bu dildə (23) yaranmış ədəbiyyatı yaxşı öyrənmişdi. Fars dilində isə danışıq bacarığı zəif (24) olmuşdur. Odur ki Nasir Xosrov Aləvi onun haqqında yuxarıdakı qeydi qələmə almışdır. (25) Qətranın bəzi çətin sözlərin mənasını Nasir Xosrovdan soruşması məsələsinə gəlincə (26) demək lazımdır ki, bu zaman, yəni Nasir Xosrovun Təbrizə gəlib çıxdığı vəqt Qətran (27) özünün məşhur "et-tefasil" adlı izahlı fars lüğət kitabın tərbit edirdi. Nasir (28) Xosrova müraciət edib ondan bəzi sözləri soruşması, görünür, həmin kitabın **[5]** (1) tərtibi ilə əlaqədər

[30] O cümlədən bax: Zebihullah Safa, Tarixi Ədəbiyyat Dər İran, Tehran 1336 safha 442; Seyid Əhməd Kəsrəvi. Qətran şair Azərbaycan "Armağan" məcəlləsi, Tehran 1931 nomero 12.

olmuşdur.[31] Professordən daha sonralar Qətranın dilinin Türkcə olduğuna dair gətirdiyi dəlilləri buraya almayırıq.

(2) Görünür ki bizi imha siyasətinin ədəbi və fərhəngi bünövrəsi, belə-belə təfsir, (3) təvil və yalanlar üzrə görülmüşdür. Habelə başqa bir "ədəbi şəxsiyyət" də, dilimizi bilmədiyi (4) halda Dədə Qorqudu bizə çox görmək vəzifəsini ifa içün qollarını çırmalamışdı. (5) Bizdən Qatransız, Nizamisiz, Saibsiz, Dədə Qorqudsuz, (və qadağanlar üzündən Füzulilərdən, (6) Xətailərdən, Nəsimilərdən də…. xəbərsiz), osuz, busuz bir kütlə yaratdıqdan (7) sonra dilimizə son həmlə başlar. Məskur "otoritə!" bu dəfə Azərbaycan dili gramərini (8) "montaj" buyurdu və bu surətdə hətta öz dilimiz içün də, dilimizi bilməyənlərdən (9) "qəyyim" ehtiyacımız olduğu həqarət hissimizi dərinləşdirmək içün-göstərildi. Bu (10) kobud düzənbazlıqlardan sonra sıra "zəban ariyət", "Yadigar Moğul" tərcibəndlərinə (11) gəldi. Bu cahilanə və iyrənc yalanlar, "Doqtor Möhsüni"lər və "məstufi"lərin zəhərlədikləri (12) havada və müzaəf istimar düpə-düz istimar zəncirləri altında təkrarlandı. Mədrəsələrdə (13) ana dili ilə danışmaq yasaqlandı, vəiz və rövzəxanlarımız belə xalqa onların (14) başa düşmədiyi dildə xitab etməyə məcbur edildilər.

(15) İndi bu ağız zəncirləri ayaqlarımızdan və əllərimizdən söküb-atmaq imkanı (16) varkən, görək vəziyyət nədir?

(17) Söylənilən yalanlar, uzun illər davam edən təbliğat və iftiraların cavabı hələ (18) verilməmişdir. Dilimizi yazmaq və oxumaq təşəbbüsü məhduddur. Bayramda ana dilimizdə (19) kartların yeri boşdur. Mətbuatımız yoxdur. Günlük bir qəzet açılmamışdır. Hələ də (20) "Çingiz gətirdi", "Moğol götürdu" həzəyan və əfsanələrini puça çıxardanlar meydanda (21) yoxdurlar. Hələ də bir-birimizə öz dilimizdə yazanlarımız azdır.

(22) Bixüsus bu iki nəsilliq dövrədə, bu qara günlərdə yediyimiz dərbələrin təsirindən (23) çıxmamışıq.

(24) İndi belə "iyadı biganə" yalanına inananlar az deyildir. Bu töhmət və əfsanəni kökündən qazmaq içün, bir kiçik misal kafidir:

[31] Professor G. Bəydili, adı keçmiş əsər safha 4-5.

(25) 1958-də Şimali Azərbaycanda, Bakıda, böyük şair Füzulinin "ən qədim və mükəmməl (26) divanı"nı çap eləyiblər. Bu 980 ilində (1569 miladi) tamamlanmış bir əlyazmasının (27) qutu surətidir. Professor Həmid Araslı bu kitaba bir müqəddimə yazmış və Füzuli **[6]** (1) divanın daş basma və sair çaplarını tərtib ilə gətirmişdir. Bu müqəddimənin 3-cü 02 safhasından bu qəydi əynən alırıq:

(3) "Füzuli divanının aşağıdakı nəşirləri vardır: Təbriz (daş basma) 1244 (4) (1828), Təbriz 1247 (1831), Təbriz 1266 (1849), Təbriz 1270 (1854), (5) Təbriz 1274 (1857), Divan Füzuli Bulaq mətbəəsi 1254 (1838), (6) Bulaq mətbəəsi 1256 (1840), İstanbul -daş basması- 1268 (1851), İstanbul 1268 (1851), (7) İstanbul 1268 (1852), İstanbul -mətbəə usulü ilə- 1284 (1868), İstanbul (8) 1286 (1870), İstanbul 1288 (1872), İstanbul 1291 (1875), (9) İstanbul 1296 (1879) İstanbul 1284 (1868), İstanbul 1286 (1870), (10) İstanbul 1288 (1872), İstanbul 1291 (1875), İstanbul 1296 (1879), (11) İstanbul 1296 (1879), İstanbul 1296 (1879), İstanbul 1308 (1915), İstanbul 1924, (12) İstanbul 1948, İstanbul 1950, Hive 1300 (1882), Daşkənd 1311 (1893), (13) Daşkənd 1312 (1894), Daşkənd 1325 (1908), Daşkənd 1334 (1913), Daşkənd 14 1915, Bakı 1944, Bakı 1958."

(14) Bu qəyd calib bir nöqtəni işıqlandırır: 1958 miladiyə qədər Füzulinin divanı (15) 33 dəfə nəşr edilmişdir.

(16) İlk nəşr miladi 1828-də olmuş. Diqqət etdininər mi harada? Təbrizdə! Sonralar (17) Bulaqda (1838-də).

(18) İstanbulda isə ilk nəşr 1851-də olmuş və Daşkənddə 1893-də. Bakıda (19) isə ancaq 1944-də.

(20) İstanbulda ilk dəfə nəşrinə qədər, bu kitab Təbrizdə üç dəfə çap olmuşdur! (21) Demək bizim babalarımızın öz ədəbiyyat və dillərinə o qədər eşqləri var-imiş ki böyük (22) Füzulinin divanı Türkiyə və Qafqaz və sair ölkələrdə çap olmaqdan qabaq hər yerdən 23 əvvəl, (24) Təbrizdə çap olmuşdur. O da nə bir dəfə bəlkə 29 ildə tam altı dəfə! Demək "bu (25) sözləri" bizim ağzımıza nə Türkiyəlilər, nə də Qafqazlılar qoymuşlar; demək Füzulini (26) və onun şəxsində və əsərində dilimizi və ədəbiyyatımızı sevməyi və mənimsəməyi biz həm (27) Türkiyə Türklərindən həm də otaydakılardan çoq əvvəl sübut

etmişik. Bu eşq (28) bizim içimizdə qaynamış, bizim ellərdə çiçəklənmiş, ilk meyvələrini də buralarda (29) vermiş.

(30) Böyük cinayətlər və xəyanətlər dövrəsindən sonradir ki yadırqamalar vücuda gəlmiş; **[7]** (1) ağzımıza eyrəti nəğmələr soxulmuş; şeytan, ruhumuzu oğurlamış; düşmən, (2) höviyyətimizə qəst etmişdir. Görürsünüz, Füzuli divanının müsəlsəl nəşr dalğaları (3) 1856-da durmuş! Yəni biz yazıb-çap edən rolundan oxucu roluna (4) itələnmişik, sonraları, yaşadığımız şovenizm cəhənnəmində öz dilimizdə oxumağı belə (5) unutmuşuq.

(6) İndi bu tarixi ləhzədə bir durub düşünək: Əski sağlam halımıza dönmək, (7) hər insan kimi öz dilimizdə yazmaq və yaratmaq haqqına malik olmaq və bu haqdan istifadə (8) etmək içün nə eləməmiz lazımdır? Əlbəttə bir çoq şeylər: Ən başda, özümüzü tanımaq, (9) və bizə aşılanmış bu məlun həqarət hissindən yaxamızı qurtarmaq. Özlüğümüzə dilimizə, (10) ədəbiyyatımıza iftixar etmək. Bu hedəfə keçmişi haqqıyla öyrənmədən yetişmək olmaz. Beləcə o (11) burada der ki doqtor Cavad Heyətin əsərinin dəyəri anlaşılmış olar.

(12) Doqtor Cavad Heyət, şahid olduğumuz qədər diyə bilirik ki bütün həyatını iki (13) eşqə adaxlamışdır: Xalqımız və dilimizə olan eşqi, təbabət və cərrahlığa bəslədiyi (14) əlaqəsi. Bunlardan ikincisindən bəhs etmək daha asandır zira düz bir xətt ilə (15) onun kat etdiyi mərhələlər və eriştiyi müvəffəqiyyətləri təqib etmək və sıralamaq mümkündür, (16) məsəla demək olar ki:

(17) O 1946-da İstanbul tibb fakültəsindən məzun oldu, cərrahlıq ixtisasını (18) İstanbul və Parisdə apardı, ondan sonra sayısız və hesabsız operasyonlarla (19) insanların imdadına yetişdi və yetişməkdədir, İranda ilk dəfə açıq qəlb cərrahlığını (20) müvəffəqiyyət ilə eləyən odur, böyrək nəqlini insanda qəlb nəqlini köpəklərdə bacaran odur, (21) bəynəlxalq cərrahi qurultaylarında İran cərrahisini təmsil edən, Paristə və iyirmiyə yaxın (22) millətlər arası cərrahlıq iclaslarına dəvətli olaraq qatılan, mütəaddid elmi (23) qonferanslar aparan və Paris Aqadəmiyası aza namizədi olan yenə də odur. O araşdırma (24) və tədqiqat işlərində də çalışmışdır, 1965-də cərrahi dərsləri kitabını yazmış, İngiliz (25) və fransız elmi jurnallarında 20 məqaləsi çıxmış, 50 qədər də ayrı elmi məqalə və (26) tədqiqatı çap olmuş, 13 il "danişi pizişki" məcəlləsinin baş yazar və

müdürlüyünü (27) etmiş, nəhayət Fransa tibbi-cərrahi ansiqlopediyasında adı keçmiş və çalışmalarından (28) bəhs edilmişdir. Buraya qədər, biz doqtor Heyəti birinci tərəfi ilə görürük. Onun (29) dilimizlə eşqi iş və ixtisasına olan əlaqəsindən artıqdır və bu macəranın 40 illik (30) bir keçmişi vardır. Bunun içündir ki indi, məmləkətimiz də ana dilində nəşr edilən biricik **[8]** (1) məcəllənin sahibi və yazarı olmasında işindən fədakarlıqla ömrünü ədəbiyyat və mədəniyyətimizə (2) həsr etməsində heç də təəccüb ediləcək nöqtə yoxdur.

(3) İndi bu yolda çalışanların çoxu onu ağır həsrət illərindən bəri tanıyırlar, (4) kabuslu qaranlıq və qorqulu uzun gecədə bərabərcə gözlərini inqilabidən ulduzuna (5) tikmiş və səhərin açılmasını gözləmişlər. İndi fəcrin ağarantılarında, bu birinci (6) addımlar; əriyən buzların altından uc verən bu ilk yaşıllıqlar hamımıza (7) mübarək olsun!

(8) Doktor Həmid Nitqi

(9) Tehran-Qışın son günləri 1358.

[9] (1) **BAŞLANQIÇ**

(2) Azərbaycan ədəbiyyat tarixinə bir baxış adıyla əlinizə keçən bu kitab bir ildən bu yana (3) Varlıq məcəlləsində nəşr etdiyimiz Azərbaycan ədəbiyyat tarixinə aid məqalələrin məcmuəsidir. (4) Bu məqalələrin birincisi Azəri Türkcəsinin qısa tarixçəsinə aiddir və iki (5) dildə yazılmışdır. Farscası daha müfəssəl olmaqla bərabər yenə də xülasə və qısa yazılmışdır. (6) Ədəbiyyat tariximizi 13-cü əsrdən yəni 700 ildən bu yana yazmağa başladıq. Bu əsr (7) Azəri Türkcəsinin təşəkkül dövrüdür; ondan qabaxkı əsrlərdə rayic olan Oğuz (8) Türkcəsi və əski Türkcə ya Xaqani Türkcəsi bizim dilimizin kökünü təşkil (9) etdiyi halda bugünkü ləhcəmizdən bir az fərqlidir. Bu ləhcələr və ədəbiyyat tarixlərindən (10) gələcəkdə bəhs ediləcəkdir. Dilimizin yarım əsrdən artıq bir müddət faşist Pəhləvi (11) rejiminin yasaqları altında yazılmaqdan məhrum qalıb və unudulmağa məhkum olduğundan, (12) xalqımız gözəl dilimizin bədii, ədəbi əsərlərini oxuyub öyrənmək yerinə varlığının (13) asalətinə və ana dilinin öz dili olduğuna daxı şübhələndiyi! Bir dövrədə əvvəla bugünkü (14) danışdığımız ana dilimizin höviyyətini və qısaca ədəbiyyatını nəşr etmək daha zaruriydi. Bu (15) səbəbdən keçən ilki yazılarımızda yalnız Azəri ləhcəsindən bəhs etdik və əski Türkcənin (16) xüsusiyyətləri və ədəbiyyatına aid yazılarımızı sonrakı fürsatlara buraxdıq. Bu kitabda Azəri (17) Türkcəsinin ədəbiyyat tarixi 19-cu əsrin sonuna qədər yazılmışdır. İyirminci (18) əsrin ədəbiyyatı kitabın ikinci cildində yazılacaqdır, ayrıca bir sıra məqalələr halında da (19) Varlıq məcəlləmizdə nəşr ediləcəkdir. Əsərin mükəmməl və ya kafi olması mövzubəhs (20) bilə deyildir, məqsədimiz xalqımızı dilimizə daha yaqından aşina qılmaq və ədəbiyyatımız (21) barəsində bir fikir verməkdir. Şimali Azərbaycanda dilimiz, xalqın və hökumətin rəsmi dili (22) olub bu dildə minlərcə şeir və bədii əsərlər buraxıldığı halda daxı, mükəmməl və kafi bir (23) ədəbiyyat tarixi yazılmayıbdır. Bu iş böyük bir işdir və ancaq bir neçə güruhun iş (24) birliyi ilə ifa edilə bilir. (25)

Azərbaycan ədəbiyyat tarixi demək, Azəri dilində danışan xalqların ədəbi, ictimai (26) və hətta siyasi tarixi deməkdir və yazılarkən müxtəlif cebhələrdən və çeşitli (müxtəlif) (27) baxımlardan yazılmalıdır. Ancaq belə şəraitdə yazılan kitab kafi və şayəd də mükəmməl **[10]** (1) ola bilir. İndiliqdə dilimizin varlığını və ədəbiyyatımızın utanc (hacalət) yox, iftixar (2) və güvən (itimat) verici olduğunu görüb tanımaq və ona inanmaq

kafidir. İnşallah (3) gələcəkdə aydınlarımız, ədib və şairlərimiz tərəfindən daha gözəl və bədii əsərlər nəşr (4) ediləcəkdir.

(5) Azəri şairlərinin özlərinə məxsus hünər və yaradıcılıqlarından biri də iki və (6) bəzən də üç dildə (Füzuli) və hətta daha çoq dillərdə (Nasrullah Bahar) şeir yazmalarıdır. Bu (7) xüsusiyyət əsrlərdən bəri davam edib, məxsusən İran Azərbaycanında ədəbi ənənə halına (8) gəlmişdir. Mütəəssifanə yazılan kitablar və ədəbiyyat tarixlərində bu məsələ nəzəri diqqətə alınmayıb (9) və əsərlərin yazılmış ölkə və yerinə görə şairlərimizin Türkcə və ya Farsca şeirləri nəşr (10) edilməmişdir. Bu nəqisəni qismən də olsa tamamlamaq içün bu kitabda Farsca şeirlərdən də (11) nümunələr verilmişdir.

(12) Bu əsərin yazılmasında həm əski qaynəqlar (mənabi)dan, mövcud kitab və divanlardan (13) və həm də Şimali Azərbaycanda və Türkiyədə yazılan əsərlərdən istifadə edilmişdir. Bu əsər (14) Azərbaycan ədəbiyyat dəryasından bir damcı və şeir gülüstanından bir dəmet (dəste gül) kimi (15) nəzərə alınıb oxunmalıdır. Yazılarımızda biyografilərlə bərabər şeirlərdən də örnəklər (16) (nümunələr) verməyə və şərhi hal yazarkən objektif (eyni) və realist olmağa çalışdıq; (17) nə qədər müvəffəq olduğumuzu oxucuların istiqbalı və hüsn qəbulü göstərəcəkdir. (18) Yazılarımızda xalq dilinə yaxın qalmaqla yanaşı ədəbi şivə və ləhcəyə sadıq qaldıq və eyni (19) halda bir səri ədəbi lüğətlər və istilahları işlətməkdən də çəkinmədik (ihtiraz). Bu lüğətlər (20)şairlərimizin əskidən bəri söylədikləri şeirlərində də mövcud olduğu içün (21) oxucularımız bizi bu barədə məzur görəcəklər. Tazə sözlərin yanında mənalarını (22) yazdığımız halda yenə də kitabın sonunda yeni sözlərin mənalarını qoyduq. Əsərdə tək tük (23) çapi galatlar və iştibahlar mövcuddur. Onun içün kitabın sonuna bir galatnamə də əlavə (24) edildi. Ümid edirəm əziz oxucular hər cür və qüsurumuza əfv və iğmaz gözüylə baxsınlar (25) və eyni halda öz tənqidi fikir və yazılarıyla əskiklərimizi tamamlamaxda bizə yardım (26) etsinlər. Bu bir başlanqıç və fəthülbabdır və daha doğrusu bir ip ucudur yetər ki qapı (27) açılsın ondan sonra maraqlı və istedadlı sənətkar (hünərmənd)larımız bu ip ucunu (28) ələ alıb yollarına davam edəcəklər.

(29) Mənim kiçik əsərimə müqəddimə yazmaq lütfünü göstərən möhtərəm dostum ustad doktor (30) Həmid Nitqiyə ürəkdən təşəkkür edər və şükran hisslərimi təqdim edirəm.

(31) Bu əsərin hazırlanmasında və çap işində mənə kömək edən əziz qardaşım böyük Aqa (32) Melcai və Aqayı Məhəmmədzadəyə və Kaviyan çap xanasında işləyənlərə ayrıca təşəkkür edirəm.

(33) Tehran 6 İsfənd 1358. Doktor Cavad Heyət.

[15] (1) **Azəri Türkcəsinin Tarixinə Qısa Bir Baxış**

(2) **Yazan: Doktor Cavad Heyət**

(3) Hər sözdən əvvəl, Türk kəlməsinin hardan gəldiyini və nə demək olduğunu (4) anlatmaq lazımdır. Türk kəlməsi törəməkdən, yəni təvlidi məsələdən gəlir və qüvvət mənasını (5) da verməkdədir. Bu ad, bir dövlət adı olaraq ilk dəfə 6-cı əsr miladidə bugünkü (6) Moğolistan ölkəsində qurulan Göktürk hökumətinə verildi. İslamdan əvvəl, (7) Türkcə danışan əqvamın hamısına Türk deyilməzdi. Bu qəbilələrin başqa başqa (8) (Oğuz, Yağuz, Peçeneq, Qıbçaq, Türk) adları var idi. Bu qəbilələr İslamı qəbul edib (9) İrana gəldikdən sonra hamısına Türk deyildi.

(10) Türk kəlməsi, nijadı ifadə edən bir kəlmə deyildir. Orta Asiya Türkləri də ağ (11) nijadın turani qolundan sayılır. Bugün Türk kəlməsi, dil və fərhəngi məfhumda (12) Türkcə danışan və Türk ənənatıyla tanınan xalqlara deyilir.

(13) Və amma Azəri Türkcəsinə gəlincə, Azərbaycanda və İranın bir çox yerlərində və (14) hətta Türkiyənin şərq vilayətlərində (Kars və Ardahan) xalqların ana dili olan Azəri Türkcəsi, (15) yeddi yüz ildən çoxdur ki bu ölkələrin əsas dilini təşkil etməkdədir. Bu dilin (16) tarixi durumunu tədqiq və mütaliə edərkən iki məsələyə təvəccöh etməyimiz lazım gəlir.

(17) Bunlardan birisi bu dilin bu ölkələrdə yayılıp xalq dili olmasıdır. Bu iş (18) Türk ellərinin tarix boyunca mühacərətləri və buralarda oturaq etmələriylə mümkün olmuş. (19) İkincisi dilçilik (filoloji) nöqteyi-nəzərindən bu dilin inkişafı və bugünkü hala (20) gəlməsidir.

(21) Türk ellərinin Orta Asiyadan İrana gəlmələri sasanilərin zamanından başlamışdır. (22) Ənuşirvanın Farscaya tərcümə edilən yaddaştlarında bu mövzu açıxca zikr edilmişdir **(1)** (23) İslamdan sonra üç böyük mühacərət olmuş: Birincisi miladi 11-ci (24) əsrdə Selcuqlarla başlamış və tö Anadolu'ya qədər irəli gətmişlər və burada Selcuqi (25) dövlətini qurmuşlar.

(26) İkinci böyük mühacərət Moğollarla başlamış. Moğollar Türk deyildilər, amma (27) ordularının çoxunu Türklər təşkil vermişdi. Üçüncü böyük mühacərət, Əmir **[16]** (1)

Teymur zamanında olmuş və ondan sonra da davam etmişdir. Əmir Teymur Osmanlı padşahı (2) İldırım Bayəzidə qalib olandan sonra özüylə yüz mindən çox əsir gətirmiş. Bu əsirlər (3) Anadoludakı Türklərdən olmuş Ərdəbil ətrafında yerləşdirilmişlər. Bu əsirlərin nəvələri (4) Safiyəddin Ərdəbilinin övladları başına yığışdılar və Şah İsmayıl Səfəvi səltənətini (5) qurdular. **(2 və 3)**

(6) Səfəvilər dövründə Azərbaycan tamamilə Türkləşmişdi. Türklərdən qabax Azərbaycanda (7) müxtəlif aryəni ləhcələr danışılırdı. Türklər buranın qədim yerli xalqına tat deyirdilər. (8) İndi Xalxal ətrafında və Bakünün şimalında Qonax kəndində tat dili danışırlar. Kəsrəvi (9) və başqaları bu dili tədqiq etmiş və ona "Azəri" dili adı vermişlər.

(10) Azəri Türkcəsi və Türkməncə, Türk dilinin qərb ləhcəsinin şərq şivələridir.

(11) Qərb Türkcəsi qədim Türkcənin oğuz ləhcəsidir və on üçüncü əsrdən sonra (12) Osmanlı Türkcəsi və Azəri Türkcəsinə ayrılmışdır.

(13) Qədim Türkcə ural-altay dil güruhuna bağlı və qədim Türküstanın dilidir.

(14) Türklər qədim zamanda Türküstanın şimalında ural-altay məntəqələrində el halında (15) yaşardılar.

(16) Sonra buradan hər tərəfə köçmüş və dillərini də milli dastanlar və ənənələrilə birlikdə (17) aparmışlar.

(18) Qədim Türkcəyə Xaqani Türkcəsi də deyilir. Bu dildə qədimdən qalan məzar daşları (19) üstündə qazılan yazılar Moğolustanın şimalında orxun nəhri civarında tapıldı və ilk (20) dəfə keçən əsrin sonunda danimarkalı Tomsin tərəfindən oxundu. Bu məzar daşları (21) səkkizinci əsr miladiyə mərbutdur və Göktürk padşahlarınındır. Bu yazılar orxun (22) əlifbasıyla yazılmış. Bu əlifbanın dört səsli və otuz dört səssiz hərfi vardır. **(4)**

(23) Yənisey məzar daşları yazıları daha Şimalda, Yənisey çayının vadisində tapıldı. (24) Bu yazılar iki yüz il orxun yazılarından daha qədimdir və Qırqız Türklərindən (25) qalmışdır.

(26) Türk dili iltisaqi və son yapışıqlı (pəsvəndi) dillərdəndir. Bu güruh dillərdə (27) kəlmələrin kökü (rişəsi) dəyişməz. Kəlmənin sonuna yapışılan və ya artırılan son eklərlə

(28) müxtəlif kəlmələr və məfhumlar xüsulə gəlir. Farsi və ya Farsca Hind və Arvupai dillərdən olub, (29) təhlili dillərə mənsubdur. Təhlili dillərdə sərf əsnasında kəlmənin kökü də dəyişəbilir. (30) Məsəla "güften" fiilini sərf edərkən "begu" və "meyguyəm"də fiilin kökü olan "güft" (31) dəyişmişdir.

(32) 12 və 13-cü əsrlərdə vaqe olan böyük mühacirətlər sırasında İslam dinini (33) qəbul etdikdən və tazə yerlərə gəldikdən sonra, əski Türk ləhcəsi və ya Türk-i qədim (34) iki tazə ləhcəyə yəni qərbi Türk və ya oğuz ləhcəsi və bir də şimali-şərqi ləhcəsinə (35) ayrıldı.

[17] (1) Şimali-şərqi Türk ləhcəsi qədim Türkcənin davamı olduğu halda bir (2) əsrdən sonra iki yeni (tazə) ləhcəyə yəni şimali və ya qıpçaq ləhcəsi və şərqi və ya Çağatay (3) ləhcəsinə ayrıldı.

(4) Çağatay ləhcəsi Əmir Teymur zamanından başlayaraq 15 və 16-ci əsrlərə qədər (5) təkamül edib sonra Özbək ləhcəsini meydana gətirdi. Çağatay ləhcəsində böyük şair (6) Əlişir Nəvainin divanı kimi qiymətli əsərlər yazılmışdır.

(7) Səkkizinci əsrdə Uyğur Türkləri Göktürkləri şikəst vərib onların yerinə (8) hökumət qurdular. Uyğur Türkləri buda və mani məzhəbini qəbul edib mani dini ilə (9) süryani əlifbasını da özlərinə əlifba seçdilər. Doqquzuncu əsrdən qalan və Uyğur əlifbasıyla (10) yazılmış daş yazıları Uyğur xanlarından qalmadır. Buda məzhəbinin müqəddəs kitabı (11) Altun Yaruk (Altun İşıq) da bu dövrədə Sanskritcədən Uyğurcaya tərcümə edilən (12) kitablardandır. **(5)**

(13) Türklərin müsəlman olduqdan sonra yazdıqları ilk əsər Qutadqu-bilikdir (14) mənası səadət vərən bilgi "ya elm" deməkdir. Şeir diliylə yazılmış bu kitab Qara xanlılar (15) zamanında, 1070 ilində Yusif Xas Hacib tərəfindən yazılıb və Qara xanlı hakimi Buğra Xana (16) əhadə edilmişdir. Bu əsər qədim Türkcə ya Xaqani Türkcəsiylə yazılmış və əruz vəznli, (17) mütəkarib bəhrində məsnəvidir. Kitabın mövzuu öğüt (nəsihət) və aqıl və elmin faydalarından (18) bəhs edər. Danışmalar padşah və vəziri arasında cərəyan tapır, aşağıda bir misal (19) zikr edəcəyik:

(20) Bilig birlə bəylər budun başladı

(21) Okuş birlə il kün işin işlədi

(22) Yeni bəylər bilgi ilə elin başı oldular

(23) El və millət aqıl ilə gündəlik işlərini idarə etdilər **(6 və 7)**

(24) İslamiyyət dövranının ikinci böyük əsəri Divanü Lüğat-it-Türk kitabıdır. Bu kitab (25) üç il Qutadqu-bilikdən sonra və Kaşğarlı Mahmud tərəfindən Ərəblərə Türkcə örgətmək (26) içün yazılmış (27) və Bağdad xəlifəsinə təqdim edilmişdir. Bu kitabda Türkcənin grameri və müxtəlif ləhcələri, ellərin adları və yerləri şərh vərilmiş və əski ata sözləri də (28) zikr edilmişdir. **(8 və 9)**

(29) Üçüncü məşhur əsər də Ədib Əhməd tərəfindən 12-ci əsrdə şeir diliylə yazılan (30) Atabetül Haqayıqdır. Bu əsərin mövzuu din və əxlaqdır və əruzun mütəqarib bəhrində məvizə (31) şəklində yazılmışdır.

(32) Ədib Əhməd anadan doğma kör, fakat iman baxımından qüdrətli bir şairdir. (33) Əsəri beş mənzumə və yüz bir rübaidən ibarətdir. **(10)**

(34) Azərbaycan ölkəsində ilk dəfə Türkcə şeir yazan Qatrandır. **(11)**

(35) Nizami Gəncəvi Ləyli və Məcnunun müqəddiməsində Türkcə yazmaq istədiyini bəyan **[18]** (1) edərkən padşahın əmrilə əsərini Farsca yazmışdır.

(2) Mövləvi bütün əsərlərini Farsca yazdığı halda bir nəçe müləmmə və Türkcə şeir (3) yazmışdır. Burada bir müləmmə və bir də Türkcə şeirini gətiririk: **(12)**

(4) Dani ki mən be-aləm yalguz səni sevər mən

(5) Çün der berem neyayı endər gamet ölər mən

(6) Mən yar-ı ba-vefaem ber mən cefa kılır sən

(7) Ger tu mera nehahı mən hod səni tilər mən (dilərəm)

(8) Ruyı çü mah dari mən şad dil ez anem

(9) Zani şiker lebanet bir opkinen tilər mən

(10) Her dəm be-hışm guyı bargıl mənüm qatımdan

(11) Mən ruy-i saht-kerdə nezdık-i tu durur mən

(12) Ruzı nişest hahem yalguz sənin qatında

(13) Hem sən çaxır içer sən hem mən kopuz (saz) çalar mən

(14) Mahı çü Şems-i Təbriz gaybet nemud goftend

(15) Ez dıgerı neporsıd mən söylərəm arar mən

(16) Türkcə şeiri:

(17) Gələsən bunda sənə mən qərəzim yox işidürsən

(18) Qalasan anda yavuzdur (bed est) yalquz qanda (harda) qalırsan

(19) Çələbi (şeyx)dir hamudirlik çalaba (bəxda) gəl nə gəzərsən

(20) Çələbi quların istər çələbini nə sanursan

(21) Nə uğurdur nə uğurdur çalab ağzında qığırmax (çağırmah)

(22) Qulağun ac qulağun ac bula kim (ola ki) anda dolarsən

(23) Azəri Türkcəsiylə yazılmış ən qədim əsərlərdən biri də Dədə Qorqud kitabıdır.

(24) Və kitabda Oğuz ilinin dastanları nəsr və şeir dili ilə yazılmışdır. Dastanların bir (25) qisməti çox qədimdir və hətta islamdan qabaxkı zamanlara mərbutdur. Oğuzlar Azərbaycana (26) gəldikdən sonra tazə yerlərindəki adları dastanlara almışlar. Dədə Qorqud Türk (27) ellərinə məxsus ozanlar yəni sazlı xalq şairlərindəndir və qopuzunu çala-çala il (28) dastanlarını dilə gətirir.

(29) Dədə Qorqud ilin aq saqqallı və baş bilənidir. O qəhrəmanlara ad və ellərə (30) öyüd vərir.

(31) Bu əsər keçən əsrin sonunda Berlin Dresdən kitabxanasında tapıldı. Bir müddət (32) sonra Vatikan kitabxanasında ayrı bir nüsxəsi ələ gəldi. Əsərdə tarix və müəllifin (33) adı

yoxdur. Belə nəzərə gəlir ki əsər 15 və 16-cı əsrdə yazıya alınmışdır. Dədə Qorqud **[19]** (1) kitabı dünya şah əsərlərindən və ölməz əsərlərdən biridir və bir çox dillərə tərcümə (2) edilmişdir. **(13)**

(3) İngilizcə tərcümələrdən Farscaya iki tərcüməsi çıxmış. **(14 və 15)**

(4) Azəri ləhcəsində ən əski şairlərdən biri Həsənoğlu və ya Puri-Həsən Əsfəraindir.

(5) Bu şair 13-cü əsrdə yaşamış və Dövlədşah Səmərqandinin Təzkirətüş-şüərasında (6) arif və müvəhhid bir şair kimi təvsif edilmişdir. Həsənoğlu Türkcə və Farsca şeir (7) yazmışdır.

(8) İmadəddin Nəsimi 14-cü əsrdə yaşamış və Azəri şeirinin ilk böyük (9) ustadıdır. Nəsimi də divanını iki dildə yazmışdır. Hürufi təriqətının başcısı olan (10) Təbrizli Fəzlullah Nəiminin şagirdidir və bu yolda da şəhid olmuşdur. 1407-də Haləbdə (11) dərisi soyularaq öldürülmüşdür.

(12) Azəri şeirinin böyük simalarından biri Şah İsmayıl Xətaidir. Xətai şia (13) lirsiminin qurucusudur ayrıca xalq şairidir. O öldükdən sonra Azərbaycan və Anadolunun (14) şərq kəndlərində adı dastanlara keçmişdir. **(16)**

(15) 16-cı əsrin ən parlax şairi Füzulidir. Üç dildə yəni Türkcə, (16) Farsca və Ərəbcə şeir söyləmiş və başqa Türk ləhcələri şairlərinə də təsir etmişdir.

(17) Burada da onun qəzəllərindən bir nümunə gətiririk:

(18) Məni candan usandırdı cəfadan yar usanmaz mı

(19) Fələklər yandı ahımdan muradım şəmi yanmaz mı

(20) Qamu (hamı) bimarinə canan dəvayi-dərd edər ehsan

(21) Niçün qılmaz mənə dərman məni bimar sanmaz mı

(22) Şəbi-hicran yanar canım dökər qan çeşmi-giryanım

(23) Oyadyur xalqı əfğanım qara bəxtim oyanmaz mı

(24) Güli-rüxsarına qarşı gözümdən qanlı axar su

(25) Həbibim fəsli-güldür bu axar sular bulanmaz mı

(26) Gəmi pünhan edərdim mən didilər yara qıl rövşən

(27) Disəm ol bivəfa bilməm inanur mı inanmaz mı

(28) Deyildim mən sənə mail sən etdin aqlımı zail

(29) Mənə tən eyləyən qafil səni görcək utanmaz mı

(30) Füzuli rindü şeydadır həmişə xalqa rüsvadır

(31) Sorun kim bu nə sevdadır bu sevdadan usanmaz mı **(17)**

(32) Azəri şairlərinin mühüm bir iddəsi xalq dilində şeir qoşmuşlar (şifahi (33) ədəbiyyat) bunlar saz şairləridir. Və xalq dastanlarını şeir diliylə və sazla bəyan etmişlər. **[20]** (1) Bugünün aşıqları bu saz şairlərinin yadigarıdır. 17-ci əsrdə Şah Abbasın (2) farscılıq siyasətindən və İran paytaxtının İsfahana inqilabından sonra Azəri klassik (3) ədəbiyyatı duraxladı fəqət saz şairləri işlərinə davam etdilər və Azəri şeir və (4) dastanlarını yaşatdılar. Bunların ən məşhuru Əsli və Kərəm və Aşıq Qarib və Koroğlu (5) dastanlarıdır.

(6) 18-ci əsrdə şimal Azərbaycanında böyük şairlər çıxmış. Bunların ən (7) məşhurları Molla Pənah Vaqif və Vidadidir. Vaqif Qarabağın baş vəziri olub realist (8) bir şairdir. Şeirləri Aşıq Ələsgər və Aşıq Hüseyn kimi xalq şairlərinə ilham qaynağı (9) və ülgü olmuşdur. **(18)**

(10) 19-cu əsrdə Şimali Azərbaycan ana vətənimizdən tezar Rus imparatorluğu (11) zoruyla ayrılmış və gözlərimizin yaşıyla dolmuş olan Aras çayı iki qardaş arasında (12) sərhəd olmuşdur. Bu əsrdə Avropada gedən fikri hərəkətlər əvvəl şimal sonra da İran (13) Azərbaycanına gəlmişdir. Şimalda Abbasqulu Aqa Bakıxanlı və Qasım bəy Zakir və Mirzə Şəfi (14) Vazeh və Mirzə Fətəli Axundzadə kimi böyük şair və mütəfəkkirlər zühur etmişdir. (15) Bu əsrin böyük şairlərindən biri də Qarabağ xanının kızı Natəvan Xurşid Xanımdır.

(16) Mirzə Fətəli Axundzadə şərqdə ilk teatr əsəri (nümayişnamə) yazan adamdır (17) nümayişnamələri Farscaya və bir çox Arvopa dillərinə tərcümə edilmişdir.

(18) Tiflisdə Cəlil Məmmədquluzadə tərəfindən çıxan Molla Nəsrəddin məcəlləsi orta şərqdə (19) nəziri olmayan fükahi və tanz bir nəşriyə idi. Bu məcəllədə (satirik) tərz və həcv şeirin (20) böyük ustadı Ələkbər Sabir yazı yazırdı. Sabir inqilabi fikirlərinə mizah və həcv (21) şəklində şeir diliylə bəyan etmiş və zamanının xuraqalarilə amansızcasına mücadilə (22) etmişdir. Sabirin divanı Hophopnamə atalarımız zamanında hər Azərbaycanlının (23) evində tapılırdı.

(24) Mərsiyə və noha ədəbiyyatı- bu şəkildə şeir yazmaq Şah İsmayıl zamanından (25) başlamış və bugünə qədər davam etmişdir. Şah İsmayıl Xətai və Füzuli Kərbəla faciəsini (26) şeirlə bəyan etmişlər.

(27) Dəxil Marağayai Kərbəla şəhidlərinin əhvalını yeddi cilddə Türkcə yazmış və bu əsər (28) bir çox mərsiyə və noha qoşan şairlərə müraciət və ilham qaynağı olmuşdur. Bu şairlərin (29) ən məşhurları Seyid Fəttah Marağai və Hacı Xüdavərdi Xoyi və Əbülhəsən (30) Raci və Nəbati və Qəməri və Rəncur xanımdır.

(31) 20-ci əsrdə şimal Azərbaycanda şeir və ədəbiyyat çox qabağa getdiyi halda İran (32) Azərbaycanında Pəhləvi xanədanının istibdadı və Türk düşmanı siyasəti sayəsində Türk dili (33) və fərhəngi duraxlamış və hətta dalıya gətmişdir.

(34) Bu əsrin şimal Azərbaycan şairlərindən bir neçəsini zikr edəcağux:

(35) Səməd Vurğun (1950-də ölmüş milli şair) və Süləyman Rüstəm və məşhur qəzəl **[21]** (1) şairi mərhum və Əhməd və Bəxtiyar Vahabzadə və İran surgünlərindən xanım Medinə (2) Gülgün və Balaş Azəroğlu və Əli Tudə. **(18)**

(3) İranda Türkcənin qadagan olduğu içün Azəri şairlərimiz əsərlərini daha çox (4) Farsca yazmaq məcburiyətində qalmışlar. Azərbaycan dəmokrat firqəsinin bir il sürən hakimiyyəti (5) zamanında Azərbaycanda Türk dili rəsmi olmuş və Türkcə dərs kitabları oxutulmuşdu (6) fəqət hökumət mərkəzinin ordusu Azərbaycana gəldikdən sonra bütün Türkcə kitablar (7) yandırılmış və Türkcə oxuyub yazmaq ginə qadagan olmuşdur.

(8) Bu xafaqan dövründə bəzi şairlərimiz Pəhləvi yasağına baxmayarax öz ana dilində də (9) şeir yazmışlar. Bunlardan Ustad Şəhriyar ən məşhur şairimizdir. Onun Farsca (10) şeirləri bütün İran millətini məftun eyləmiş və onu hər kəse tanıtmışdır. Türkcə yazdıxı (11) Haydar Babası dünyanın ədəbi şah əsərləri arasına girmiş və bir çox dillərə tərcümə (12) edilmişdir.

(13) Marağalı B. Qaraçorlu- Səhənd gərçi öz vətənində garib kimi qalmış (14) amma Şimal Azərbaycanda və hətta Türkiyədə tanınmış şairlərindən biridir. Səhənd Dədə Qorqud (15) dastanlarını bugünün Azəri Türkcəsiylə şeirə çəkmiş milli həmasələrimizi diriltmişdir. (16) Onun Sazımın Sözü adlı divanı ədəbi baxımdan dünyanın ən gözəl həmasələriylə (17) ölçüləbilən və mühtəva nəzərında xalqımızın qəhrəmanlıqlarını və üstün səciyyələrini gözəl (18) dillə bəyan edən millətnamə və ya il naməmizdir.

(19) Sahir qüvvətli bir Azəri şairi olmaxla bərabər Türkiyə ədəbiyyatına da vaqifdir.

(20) Kərimi Marağavi tənz yazan şairlərimizdəndir. İtimad və Əli Təbrizi və daha bir çox (21) hörmətə layıq şairlərimiz vardır. Gələcəkdə onlardan və əsərlərindən bəhs edəcağux.

(22) Azəri ədəbiyyatı folklor baxımından Türkcənin ən zənginidir. Folklorumuzun (23) mühüm bir qolunu ata sözləri və tapmacalar təşkil edər.

(24) Doktor Cavid ata sözləri və tapmacalar haqqında Azərbaycan Folklor Nümunələri (25) adıyla iki cild kitab yazmış. Bu kitabın ikinci cildi Pəhləvi rejimi məmurları tərəfindən (26) təvkif edilmişdir.

(27) Teatr və Musiqi- Azərbaycanın teatrı orta şərqin ən qədim və parlax teatrı (28) olduğu halda Pəhləvi zamanında qadagan edilmiş hətta Azəri musiqisi də bir çox yerlərdə (29) məmnu olmuş. Bu qadagan və yasaxlara hiçbir qanuni maddə və dəlil olmadığı halda (30) keçmişdəki şovənist rejim, Farslardan başqa İranın bütün xalqlarını fıtri hakları (31) olan öz ana dili və fərhəngindən məhrum bıraxmışdır. Ümid edirəm o fasid və faşist rejimin inqılabı (32) islamı ilə ortadan qalxmasıyla onun məfkurəsi və fərhəngi izləri də silinsin və nəce ki əsrimizin (33) böyük filozofu Bertrand Russel dimişdir ki fərhəngi istimar siyasi istimardan (34) daha fəci və təhlükəlidir və onu yox etmək siyasi istimarın məhvindən daha çətindir.

[22] (1) Yuxarıda söylədiyimiz səbəblərdən ötürü bizim bugünkü Azəri Türkcəmiz (2) Şimal Azərbaycan Türkcəsi kimi gözəl və təmiz və zəngin deyildir, bir çox Farsi (3) kəlmə və istilahlarıyla qarışmış və yalqız danışma dili olaraq xalq arasında qalmışdır. (4) Bu dili yazı dili şəklində də işlətmək və onu islah və inkişaf etdirmək və Azəri (5) qardaşlarımıza onun gramer və yazmasını örgətmək bizim milli vəzifə və borcumuzdur.

(6) Azəri Türkcəsinin gramerini örgənmək içün dostum M. A. Ferzanənin (7) yazdığı Mebani Dəsturı Zəbani Azərbaycani kitabını cəvan həmşəhrilərimə israrla (8) tavsiyə edirəm.

(9) Əlifba məsələsinə gəlincə bugün Türk dilləri Latin və Islav və Ərəb hərfləriylə yəni (10) üç müxtəlif əlifba ilə yazılmaxdadır. Ərəb hərfləri min ildən çoxdur müselman Türklər (11) tərəfindən əlifba içün qəbul edilmişdir. Latin əlifbası ilk dəfə Bakuda sonra da Türkiyədə (12) (1928) rəsmi əlifba qəbul edilmiş fəqət Bakuda 1940-dan sonra Islav hərfləri (13) Latin hərfləri yerinə keçmişdir. Ərəp hərfləri doqquz səsli hərfi olan Türkcəyə (14) kafi olmayıb bəzi işarətlərlə bu nöqsanları cübran etmək lazımdır. Bu xüsusda (15) Türkoloji alimi dostum Doktor Həmid Nitqi 125 Qaidələr adında bir kitab yazmışdır. (16) Ərəb hərfləriylə Azəri Türkcəsini doğru və hər kəsin oxuyabiləcağı şəkildə yazmax (17) içün bu qaidələri oxumax və əzbərləmax lazımdır. **(19 və 20 və 21 və 22 və 23 və 24 və 25)**

(18) Tehran. Farvardin 1358 C. H. Təbrizi

(19) Mənabi və Müraciə:

(20) 1- Yaddaşthayı Ənuşirəvan. Tərcüməi Səfəvi.

(21) 2- Tarix İran Təlif Həbibulla Şamaloi

(22) 3- Orta Asiya Türk Tarixi Haqqında Dərslər. Professor. Bartold. İstanbul (23) 1927.

(24) 4- Orxun Abidələri. Professor Məhərrəm Ərgin. İstanbul. 1970.

(25) 5- Böyük Türk Ədəbiyyatı Tarixi. V. Mahir Qocatürk. Ankara. 1970.

(26) 6- Qutadqu-bilig. Fergana nüsxəsi. İstanbul 1943

(27) 7- Qutadqu-bilig İnceləmələri. A. Dilaçar. Türk Dil Qurumu Yayınları. (28) Ankara 1972.

(29) 8- Divanü Lüğat-it-Türk. Mahmud Kaşgari

(30) 9- Divanü Lüğat-it-Türk Dizini. Professor Əhməd Cəfəroğlu. Türk Dil Qurumu (31) Yayınları, Ankara 1972

[23] (1) 10- Rəsmli Türk Ədəbiyyat Tarihi. N. S. Banarlı. Üçüncü Cild. İstanbul

(2) 11- Türk Dünyası Əl Kitabı. Professor Əhməd Cəfəroğlu. Ankara (1976)

(3) 12- Rəsimli Türk Ədəbiyyat Tarihi. N. S. Banarlı, Dördüncü Cild. İstanbul

(4)13- Dədəm Qorqudun Kitabı. Orxan Şaiq Gökyay. İstanbul 1973

(5)14- Həmasəvi Dədə Qorqud. Əsər Enar. Tərcümə İbrahim Darai. Tehran 1355

(6) 15- Kitab Baba Qorqud.

(7)16- Divan Şah İsmayıl Xətai. İstanbul.

(8) 17- Külliyat Divan Füzuli. İstanbul və Təbrizçayı.

(9) 18- Azərbaycan Ədəbiyyatı. Türk Dünyası Əl Kitabı, Professor Əhməd Cəfəroğlu. (10) Ankara (1976)

(11) 19- Türk Dili Tarixi. Professor Əhməd Cəfəroğlu. İstanbul (1970)

(12) 20- Türk Dil Bilgisi. Professor Məhərrəm Ərgin, İstanbul (1972)

(13) 21- Azəri Türkcəsi. Professor Məhərrəm Ərgin. İstanbul (1971)

(14) 22- Qovsi Təbrizi və Mirzə Şefiğ. Tərcümə. H. Sadıq

(15) 23- Asarı Ez Şairay Azərbaycan. H. Sadıq

(16) 24- Principe Də Grammaire Turque Jean. Dəny. Paris 1955

(17) 25- Basic Gaurae İn Azerbayjani. Fred. W. Householdər. Jr. (18) M. Lotfi. İndiana Unjversity Publicatins. 1973.

[24] (1) **Azərbaycan Ədəbiyyat Tarixinə Bir Baxış**

(2) **Yazan: Doktor Cəvad Heyət**

(3) Azərbəycan ədəbiyyatı deyildiyində bu ölkədə əsrlərdən bəri yaşayan xalqın ana dili (4) olan Azəri Türkcəsinin ədəbiyyatı və onun tarixi təkamülü əsnasında verdiyi əsərləri (5) qəsd edirux. Bu dilin Azərbaycandan başqa İranın diyer yerlərində kütlə və dağınıq halda (6) yaşayan xalqların da dili olduğunu bilirik. İrandan başqa Türkiyənin şarq vilayətlərində və (7) İraqda yaşayan Türklərin də bu ləhcə ilə danışdıqları məlumdur. Bu saydığımız səbəblərdən (8) ötürü Azərbaycan ədəbiyyat tarixində bütün bu ölkələrdə yaşamış və əsərlərini Azəri (9) Türkcəsiylə yazmış şair və yazıcılardan bəhs edəcağux.

(10) Məsələn Füzuli kimi İraq Türklərinə mənsub Azəri şairlərindən və ya Sivaslı Qazi (11) Bürhanəddindən Azərbaycan şairləri arasında bəhs və tədqiq edəcağux. Demək ölkədən (12) çox dil məsələsi mövzubəhsdir. Neçə ki Azərbaycanın Nizami və Xaqani kimi böyük (13) şairləri əsərlərini Farsca yazdıqları içün farsi ədəbiyyatı tarixində mütaliə edilirlər.

(14) Azəri Türkcəsinin ədəbiyyat tarixini iki dövrəyə ayırmaq lazım: Birinci dövrə (15) bu ləhcənin zühurundan qabaxkı dövrə yəni əski Türkcə və ya Türki qədim dövrədir. (16) İkincisi də Azəri Türkcəsi zühur və Azərbaycanda xalq dili oldukdan sonrakı (17) dövrə.

(18) Əski Türkcə dövründə yazılan əsərlərdən nəşriyyəmizin birincisi sayısında "Azəri (19) Türkcəsinin Tarixinə Qısa Bir Baxış" adlı məqaləmizdə qısaca bəhs etmişdik. (20) Bu mövzuda daha müfəssəl bəhsi başqa bir vəqtə bıraxacağux.

(21) Bugün Azəri Türkcəsiylə yazılmış əsərlər və yazıcılarımızdan bəhs edəcağux.

[25] (1) İndiyəcən Azərbaycan ədəbiyyat tarixi haqqında kamil bir kitab yazılmaması şayani-təssüfdür. (2) Yoxarı Azərbaycanda bu barədə bir neçə əsər yazılmışa da heç biri kamil deyildir. Bu (3) boşluğu doldurmaq içün Azərbaycan fərhəngini bilən yazıcılarımızdan bir heyətin bu (4) işə əzm etməsi və bir an əvvəl işə başlaması lazımdır.

(5) Həsənoğlu: Azəri Türkcəsiylə ilk dəfə şeir yazan Həsənoğludur. Şeyx İzzəddin (6) Əsfəraini Xorasan Türklərindəndir və Türkcə və Farsca şeir yazmışdır. Farsca adı Pürhəsəndır. (7) Bu şair 13-cü əsrin sonlarında və 14-cü əsrin başlarında yaşamış və (8) şeirləri Xarəzmdən Anadoluya qədər yayılmışdır. Bugün ondan bir Türkcə və bir də Farsca (9) qəzəl qalmışdır. Dövlət Şax Səmərqəndinin Təzkirətüş-şüərasında arif və müvəhhid bir şair kimi (10) təvsif edilmişdir. Aşağıda Həsənoğlunun Türkcə qəzəlini nəql edirik:

(11) Apardı könlümü bir xoş qəmər yüz can fəza dilbər

(12) Nə dilbər dilbərü-şahid, nə şahid şahidi-sərvər

(13) Mən ölsəm sən büti-şəngül sürahi eyləmə qülqül

(14) Nə qülqül, qülqüli-badə nə badə badəyi-əhmər

(15) Başımdan getmədi hərgiz sənin lən içdigim badə

(16) Nə badə badəyi-məsti nə məsti, məstiyi-sağər

(17) Şaha şirin sözün eylər misirdə bir zaman kasid

(18) Nə kasid kasidi-qiymət nə qiymət qiyməti-Şəkər

(19) Tutuşmayınca der atəş bəlirməz xisləti-ənbər

(20) Nə ənbər ənbəri-suziş nə suziş suzişi-məcmər

(21) Əzəldə canım içində yazıldı surəti-məni

(22) Nə məni məniyi-surət nə surət surəti-dəftər

(23) Həsənoğlu sənə gərçi duaçıdır vəli sadiq

(24) Nə sadiq sadiqi-bəndə nə bəndə bəndəyi-çakər

(25) Bu qəzəldə çoxlu zərafət və sənət işlənmişdir məsələn ikinci misralardakı nə (26) yerinə çi qoyarsaq qəzəl Türkcə Farsca bir müləmmə olur.

(27) Şair Əlinin Qissayi-Yusif əsərini (1233) Azərbaycan dilçi və tarixçiləri Azəri (28) Türkcəsinə mənsub bilirlər. Tatarşünaslarda həmin əsəri Bulğar-Tatar dilinə aid oluduğunu (29) qəbul edirlər. Türkmən dilçiləri də bu şeir əsərini özlərininki bilirlər.

[26] (1) Qazi Bürhanəddin: Azəri Türkcəsinin ikinci və ya üçüncü böyük şairi Qazi Bürhanəddindir. (2) (1344-1398) O Salur boyuna mənsub olub Sivas şəhərində babasının yanında (3) təhsil görmüş və iyirmi yaşında ikən babası ölüncə onun yerinə şəhərin qazisi seçildi. (4) Türkcə, Farsca və Ərəbcə şeir yazmış. Türkcə divanı qəzəliyyat və rübai və tuyuqlarından[32] (5) təşkil olmuştur. Bu şairin siyasi və elmi şöhrəti şairliyini gölgədə bıraxmışdır. (6) Sivas qazisi olandan sonra Əmir Gıyaseddinin qızıyla evlənmiş və öz adına bir dövlət (7) qurmuş və 1397-də Aqqoyunlu dövlətinin başçısı tərəfindən öldürülmüşdür.

(8) Qazi Bürhanəddin divanının tekcə əlyazma nüsxəsi Londonda Biritiş Müzəümdədir. (9) Bu divanda 1500 qəzəl 20 rübai və 119 tuyuq vardır.

(10) Qazi Bürhanəddin divanı T.D.K (Türk Dil Kurumu) tərəfindən 1943-də İstanbulda (11) çap olmuş. Aşağıda bir qəzəlini nəql edirik:

(12) Ölmüş tənimə eşqi onun ruh dəgül mi

(13) Qəmzəsi ilə dil dahı məcruh dəgül mi

(14) Eşq ilə qavuşdı könülüm yoluna onun

(15) Eşq ilə taxılan qapu məftuh dəgül mi

(16) Kirpiyinə qılduğunı sən sanma müəmma

(17) Könüldə onun yarəsi məşruh dəgül mi

(18) Min ildə əgər Nuh yaşadıysa min yaş

(19) Ol yaş mənə bir ləhzəyi məmnuh[33] dəgül mi

[32] Tuyuq bir qəzəlin iki beyti kimi qafiyələnən rübaiyə bənzər və daha çox failatün failatün failün vəzniylə yazılır. Rübai kimi hikmətli və təsəvvüfü və fəlsəfi ehsasları anlatır.

[33] Ehsan edilmiş.

(20) Məşuq ilə aşıq bir olur eşq oduyla

(21) Madih dahı pəs həm yəne məmduh dəgül mi

(22) Tuyuq ədəbi növünü ilk dəfə o bizə tanıtmışdır. Qazi Bürhanəddin həqiqi bir (23) mücahid olduğu halda aşiqanə şeirlər də qoşmuşdur. Aşağıda Qazi Bürhanəddindən (24) bir tuyuq nümunəsi nəql edirux:

(25) Həqqə şükür (şükr) qoçların dəvranıdır - Cümlə aləm bu dəmin həyranıdır

(26) Gün batandan gün doğan yirə dəyin - Eşq ərinin bir nəfəs seyranıdır

(27) **Nəsimi:** On dördüncü əsrin ən mümtaz Azəri şairi İmadəddin Nəsimidir. O ilk (28) dəfə Azəri Türkcəsində şeir divanı yaratmış, Farsca və hətta Ərəbcə da divan **[27]** (1) yazmışdır. Fəqət Ərəbcə divanı məfqud olmuş və əlimizə çatmamışdır. Yazdığı məlumatdan (2) Ərəbcədə də ustad olduğu bəllidir. Nəsiminin şeirləri gınai şeirin ən gözəl nümunələri və (3) Azəri şeirinə ədəbi şəkil verən odur.

(4) Nəsiminin doğulduğu yer və il bəlli deyil. Böyük bir ehtimala görə 1369 miladidə (5) Şirvan ətrafında Şamaxıda doğulmuşdur. İraq Türkləri Nəsiminin Bağdat havalisində (6) dünyaya gəldiyini yazırlar və onu İraq Türkmənlərinin ilk şairi sayırlar. Nəsimi ömrünün (7) bir qismətini Bakuda keçirmişdir. Nəsimi hürufiyə firqəsinin qurucusu olan Təbrizli (8) Fəzlullah Nəimi ilə Şirvanda tanış olmuş və onun şagirdliyini qəbul etmişdir. Və (9) sonrada Nəiminin xəlifəsi və ən qüvvətli mübəlliğ olmuşdur.

(10) Nəsimi ustadı Fəzlullah haqqında belə söyləmiş:

(11) Fa vü zadu lama düşdi könlümüz - Kəbə vu ihrama düşdi könlümüz

(12) Eşqı bi encama düşdi könlümüz - Cavidanı nama düşdi könlümüz

(13) Favüzad və lə hərfləri Fəzlullah Nəiminin adındakı fəzl kəlməsini təşkil edən (14) hərflərdir. Cavidannamədə onun məruf əsərinin adıdır.

(15) Hürufiyə firqəsi Quranı batinilər kimi təfsir edib Quranda kainatın k və n (kün) (16) tələffüz olduqdan sonra yaradıldığı içün hər şeydən qabax hürufun xalq olunduğuna və

(17) varlığın (aləmi vücud) hüruftan meydana gəldiyinə inanır və bunun içün əlifba hərflərinə (18) əsrarəngiz bir məna və çox ehtiram qaildir.

(19) Mən otuz iki hərfem ləmyəzil - Yoxdur ortağım nə məsəlim nə yəzel

(20) Çün ıyddır axirim əvvəl əzəl - Əvvəl və axir mənəm azü cəl

(21) Bir çox müvərrix və mühəqqiqlər hürufiyə təriqətinin vəhtədi-vücuda qail olduğunu (22) yazırlar, fəqət hürufilər bütün mövcüdatı zatı əzəli və Allahın özü və hər şeyi nəşrünəma və (23) hərəkət və təkamüldə olduğuna inanırlar.

(24) چون هستی مازکاف و نون پیدا شد

(24) ماهیت کاف و نون عین ماشد.

(25) او را چو بظاهر صفات اسما شد

(25) اشیا همه او و او همه اشیا شد

(26) Nəsimi insanı məzharı cəmal haq bilir və ruh və cism ayrılığına inanmır.

(27) نسیمی در رخ خوبان جمال الله می بیند

(27) بیا بشنو ز گفتارش بیان سرسبحانی

(28) طریق رسم دو بینی رها کن ای احول

(28) که یك حقیقت و ماهیت است روح و مدن

(29) Nəsiminin qardaşı (Şah Xəndan) onun bu şəkildə açıq danışmağından ötürü (30) onun sonundan müztərib olub ona sirr saxlamasını söylər. Nəsimi qardaşına böylə (31) cavab verir:

[28] (1) Dəryayi-mühit cuşə gəldi, - Kövnilə məkan xüruşə gəldi.

(2) Sirri-əzəl oldu Aşıqara, - Aşıq necə eyləsün müdara?

(3) Fəzlullah Nəimi Əmir Teymurun oğlu Miranşah tərəfindən öldürüldüxdən sonra (4) Nəsimi Bakudan Anadoluya getmiş və orada şeir və fəlsəfi qəzəllərivlə Hürufi məktəbini

təbliğ (5) etmişdir. Fəqət bir müddət sonra oradan da Hələbə getməyə məcbur olmuşdur. Bu dövrədə (6) Hələb və Misirda əsllləri Türk olan Memlüklər hökumət edirdilər. Hələb müftisi (7) padşahın əmriylə Nəsiminin qətlinə fətva vermiş və müftinin hüzurunda dərisi soyularaq (8) öldürülmüşdür.

(9) Nəsimi qəzəllərində Nizami, Attar və Mövləvinin nizəm və irfan və vəcdindən bəhrə (10) almışdır. Nəsimi Hafizın əsrini dərk edib və Farsca şeirlərində ondan ad aparmışdır. (11) Nəsimi öz müasir və əxlaqında çox təsir qoymuşdur.

(12) Həbibi, Füzuli, Xətai və Qavsinin şeirlərində onun təsiri aşikardır.

(13) Nəsimi Anadolu və Türkmən ləhcələrində də şeir qoşmuş və şeirlərini xalq dilinə (14) yaxın yazdığı içün xalqın sevgi və rağbətini qazanmışdır.

(15) Nəsiminin təsəvvüf şeirləri Orta Asiyada bugün dahı mərufdur. (Vamberiy) (16) Anadoluda Bektaşi tekkelərində Nəsimi müqəddəs bir şair kimi tanınmışdır.

(17) Nəsimi idəalistik fikirlərini qəzəl, qəsidə, məsnəvi, müstəzat və tərcibəndlərində (18) bəyan etmişdir. Onun fəlsəfi rübailəri Azəri Türkcəsində ilk yazılan rübailərdir:

(19) Gəl ki müştaq olmuşam didarına - Virmişəm can zülfi-ənbər barına

(20) Məhrəm etdin çün məni əsrarına - Ey pəri gəl çək məni bir darına

(21) Saf için hər dəm safa hasıl qılur - Dərt için dərdə dəva hasıl qılur

(22) Kim ki ya rəbbi vəfa hasıl qılur - Canına yüz min bəla hasıl qılur

(23) Aşıqın seyranı ol aləmdədir - Görmiyən şol aləmi matəmdədir

(24) Küntə kenzin gövhəri adəmdədir - Adəm ol meydir ki camı cəmdədir

(25) Nəsiminin Türkcə qəzəllərindən iki nümunə:

(26) Dodağın qəndinə şəkər dedilər - Cani-şirinə gör nələr dedilər

(27) Dedilər kim dəhanı yoxdur onun - Bixəbərlər əcəb xəbər dedilər

(28) Əhli-məni xücəstə surətinə - Məniyi-vahibüssüvər dedilər

(29) Həqdən irağ imişlər anlar kim - Səni ey nuri-həq bəşər dedilər

(30) Fitnə düşdü cahana yüzündən - Bu cəhətdən sənə qamer dədilər

(31) Ənbərəfşan saçınla arizinə - Yasəmin üzrə müşki-tər dedilər.

[29] (1) Bax onun yüzünə ilahını gör - Əhli-mani budur nəzər dedilər

(2) Şama bənzətdilər qara saçını - Arizin nuruna səhər dedilər

(3) Kirpiyin oxuna qaşın yayına - Aşıqın sinəsin sipər dedilər

(4) Can demişlər dodağına hey-hey - Bu sözü gör nə müxtəsər dedilər

(5) Şəbi-yelda durur saçın gecəsi - Surətin bədrinə qəmər dedilər

(6) Ey Nəsimi mühiti-əzəmsən - Gərçi əlfazına göhər dedilər

(7) Çün məni bəzmi-əzəldən eylədi ol yar məst

(8) Ol cəhətdən görülür bu çeşmimə diyar məst

(9) Eşq sübhanı meyindən valeh oldu şöylə bil

(10) Ərş məstü fərş məstü kövkəbi-səyyar məst

(11) Ənbiyavü övliyavü əsfiyavü ətqiya

(12) Oldular həqq məclisində şöyləbi hüşyar məst

(13) Könlümüz nuri-təcəlli cismimizdir kuhi-Tur

(14) Canımız didara qarşı oldu Musavar məst.

(15) Ey Nəsimi sirri-Həqqin məhrəmisən sən bugün

(16) Söylədin qüdrət dili ilə mənayi-əsrar məst

(17) Nəsimi bu qəzəldə mövcudatın ilahi eşq deyilən mey ilə məst olduqlarını söyləyir (18) Nəsimiyə görə tur insan vücududur və nurda insanın könlüdür. İlahi nurun tecəllisi (19) qarşısında Musa kimi özündən keçən də insandakı ilahi ruhdur.

(20) Son olaraq Farsca qəzəllərindən iki nümunə nəql edirik:

(21) ساقیا آمد بجوش از شوق لعلت جان ما

(22) خضر مانی می بیارای چشمه حیوان ما

(23) با لب لعات بجان بستیم در ازل

(24) تا ابد پیمانه لعل تو و پیمان ما

(25) درد بی درمان مارا چاره جز وصل تو نیست

(26) روضه ای کو غیر از این ای روضه ی روضوان ما

(27) چشم یعقوب از غم روی چوماهت شد ضریر)کور

(28) سربرآر از قعر چاه ای یوسف کنعان ما

(29) برگل و ریحان کی اندازند اهل دل نظر

(30) تا که باشد زلف و رخسات گل وریحان ما

(31) عاقبت خواهد زما دودی ز روزن بر شدن

(32) گر چنین سوزان بماند آتش پنهان ما

(33) کشتی چون نوح اگر داری ز طوفان غم مخور

(34) چون بگیرد کوه و صحرا سر بسر طوفانما

(35) جوهری نیکو شناسد قیمت در یتیم

(36) هم تو دانی قیمت خود ای در عمان ما

]30[سوره زلف و رخت نور و دخان آمد زحق (1(

ای ز لطفت گشته منزل آیتی در شان ما (2)

عمر در سودای زلفت رفت و راه آخر نشد (3)

آه از این سودای دور و راه بی پایان ما (4)

مصحف روی تو میخوانیم از حق درازل (5)

چون کلام ناطق اینست آیت قران ما (6)

شد بسرگردان نسیمی در هوایت چون فلك (7)

ای اسیر بند زلفت جان سرگردان ما (8)

من بتوفیق خدا ره بخدا یافته ام (9)

فانی از خود شده و ملك بقا یافته ام (10)

در شفاخانه روح القدس از دست مسی (11)

خورده ام شربت شافی و شفا یافته ام (12)

اگر از کعبه به بتخانه روم عیب مکن (13)

که خدا را بحقیقت همه جا یافته ام (14)

خاطر از محنت اغیار و دل از رنج خلا (15)

رستگار آمده از درد و دوا یافته ام (16)

ذوق و عیشی که بدان دست سلاطین نرس (17)

از وصالت من درویش گدا یافته ام (18)

جز تو کام دگرم در دو جهانم چون نیست (19)

چکنم هر دو جهانرا چو ترا یافته ام (20)

شرح اوراق کتب خانه ی اسرار ازل (21)

از خط و خال ورخ و زلف تو را یافته ا (22)

ناله و سوز دل از آتش عشق است مر (23)

مکن اندیشه که از باد هوا یافته ام (24)

نیستم منتظر جنت و فردوس و لقا (25)

کز رخت جنت و فردوس و لقا یافته ام (26)

در طواف حرم کوی توای کعبه حسن (27)

حر دم از مشعر موی تو صفا یافته ام (28)

ای نسیمی ز خیال رخ آن ماه مپرس (29)

کز خیال رخ آن ماه چه ها یافته ام (30)

(31) Farsca qəzəllərin birincisində Hafızın təsiri gözükür ikincisində də hürufilik (32) məfkurəsi gözəl bir dil və istiarə ilə bəyan edilmişdir.

(33) **Şeyx Qasım Ənvar:** On beşinci əsrin evailində Azəri şairlərinin məruflarından (34) biri Şeyx Qasım Ənvar. On dördüncü əsrin sonunda Serabda doğulmuş və Ərdəbildə (35) təhsil etmiş və Şeyx Sadrəddin Ərdəbilinin şagirdi olmuşdur. Bu şair təriqətçidir,

[31] (1) və Hərat tərəflərində Şahruxa qarşı başlayan üsyana qarışmış və bu hərəkət sonunda sürgün (2) eyləmişdir.

(3) Şeyx Qasım Ənvar, Əlişir Nəvaiyə təsir etmiş və Farsca əsərləri yanında Türkcə qəzəllər (4) və tuyuqlar və müləmmələr yazmışdır.

(5) **Şeyx Əlvan Şirazi:** On beşinci əsrin şairlərindən Şirazi təxəllüsü ilə məşhur Azəri (6) şairi Şəbüstərinin Gülşəni-razını Türkcə şeirə çevirmişdir.

(7) Bu əsrda Qaraqoyunlular (1400-1468) və sonrada Aqqoyunlular Azərbaycanda (8) hakim idilər. Bunların zamanında Azəri Türkcəsi ən işlək bir hala gəldi, Farsca dərbar (9) dili olduğu halda dövlət və yazı dili Azəri Türkcəsiydi.

(10) **Həqiqi:** Qaraqoyunlu əmiri Cahanşah Farsca və Türkcə şeir yazmış və Həqiqi təxəllüsünü (11) seçmişdir. Həqiqi divanını Camiyə göndərmiş və o da cavabında aşağıdakı beytləri (12) yazmışdır.

همایون کتابی چو درجی زدر (13)

رسید از گهرهای تحقیق پر(13)

دروهم غزل درجهم مثنوی(14)

ز اسرار صوری و هم معنوی(14)

شده طالع از مطلع هر غزل(15)

فروغ طباشیر صبح ازل(15)

ز مقطع چه گویم که هر مقطعی (16)

که فیض ابد را بود منبعی(16)

بصورت پرستان کوی مجاز(17)

ز شاه حقیقی نشان داده باز(17)

(18) Bu əmir və padşah 872=1468-də Uzun Həsən ilə savaşda ölmüş və cəsedi Təbrizdə (19) Göyməsciddə dəfn edilmişdir.

(20) **Həbibi:** 15-ci əsrin ən parlaq şairi Həbibidir. Göyçayı havalisində (21) bir qasabada (Bərgüşad) doğulmuş və bir müddət çobanlıqla keçinmiş sonra Sultan Yaqubun (22) himayətini qazanmış və bilaharə Şah İsmayılın məliküş-şüərası olmuşdur. 1514 ilində (23) Osmanlı ordusu Təbrizi işğal etdikdən sonra Türkiyəyə hicrət etmiş və İstanbul (24) (sütlücə)də Cəfərabad təkkəsində (Xanqah) dəfn edilmişdir.

(25) Şia və Hürufi olan Həbibi Nəsimi ilə Şah İsmayıl Xətai və Füzuli arasında (26) bir mərhələ və ya körpü təşkil edər. Nəsiminin təsiri altında Azəri ləhcəsiylə sufiyanə və (27) aşiqanə şeirlər yazmışdır.

(28) Professor Fuad Köprülü bu şair haqqında yazdığı təhqiqi məqalədə onun 43 mənzuməsini (29) nəşr etmişdir. (1932-Ədəbiyat Fakültəsi Məcmuəsi İstanbul).

(30) Aşağıdakı iki beyt Həbibidəndir:

(31) Səndən özgə yarını olsa, ey pərivəş simtən,

(32) Gorum olsun o qaya, əynimdə pirəhən-kəfən

[32] (1) Çıxmaya sevdayi-zülfün başdan, ey məh, gər yüz il

(2) Üstixani-kəlləm içrə tuta əqrəblər vətən.

(3) 16-cı əsrdə Səfəvi xanədanın himayəti altında Azəri şeir və ədəbiyyatı tərəqqi (4) etmiş və Şah İsmayılın şəxsindan ən uca zirvəyə çatmışdır.

(5) **Şah İsmayıl Xətai:** Şah İsmayıl Azərbaycan ədəbiyyatında şia lirizminin qurucusudur. (6) Bu lirizmin təməlini (əsasını) Həzrəti Əli və onun xanədanına eşq və bağlılıq təşkil (7) edər. Xətainin aşiqanə qəzəlləri öz növündə orjinaldir.

(8) Məsnəvi tərzində 1506-da yazdığı Dəhnamə Azəri ədəbiyyatında yazılan qiymətli əsərlərdəndir. (9) Dilində Cağatay ləhcəsinin təsiri görünür. Əsərin qəhrəmanı aşıq, şairin özüdür.

(10) Şah İsmayıl şeirlərində Xətai təxəllüsünü seçmiş və divanından başqa bir də 165 beytli (11) nəsihətnaməsi vardır.

(12) Şah İsmayıl şia təbliğatı içün Aşıq (saz şairi) tərzində qoşmalar yazmış və (13) bir qoşma şəkli və bir də ahəng vücuda gətirmişdir. Ayrıca aruz vəznində yazdığı qəzəlləri (14) sazla məclislərdə oxunurdu. Şah İsmayıl 1524 (930 hicri)də 38 yaşında sel marazından (15) ölmüş və Ərdəbildə babalarının yanında dəfn edilmişdir.

(16) Şah İsmayıl Səfəvidən başqa Xətai təxəllüsünü alan iki şair daha vardır.

(17) Bunların biri 15-ci əsrdə yaşayan bir Azəri şairidir və Yusif u Züləyxa adıyla (18) Türkcə bir məsnəvi yazmış və Sultan Yaquba ithaf etmişdir.

(19) İkinci şair Cağatay ləhcəsiylə yazan şimal Türklərindəndir.

(20) Xətainin şeirlərini ruh və məna nöqtəyi nəzərindən dört qismətə ayırmax mümkündür:

(21) 1-Təsəvvüf əqidələri ehtiva edənlər

(22) 2-Təşəyyüi tərənnüm edənlər

(23) 3-Hürufilik rəmzlərini ehtiva edənlər

(24) 4-Aşiqanə şeirlər

(25) Xətai hər şeydən əvvəl mütəsəvvüf bir şairdir və mənzumələrinin mühüm qismətində təsəvvüf (26) fikirlərini bəyan etmişdir. Mənzumələrin birində qaləndər bir dərviş olduğunu bəyan edir.

(27) Tərk, təcrid və eşq yoluyla haqqa vasıl olmax istəyən şair vəhtədi-vücud əqidələrini kamilən mənimsəmişdir. Ona görə bu müzahirdə haqdan başqa vücud yoxdur. (28) Kəmal mərhələlərini (29) sirr etmək içün həqiqi bir mürşidə intisab etmək və əxlaqi təsfiyə eyləmək lazımdır.

(30) Xətai şia isneyyi aşeiri əqidələrinə inanmış və Həzrəti Əli haqqında bir çox mədhiyyələr (31) demiş və əhli bəyt və on iki imamdanda müxtəlif mənzumələrində hörmətlə bəhs etmişdir.

[33] (1) Xətainin bəzi şeirlərində Hürufilik əqidələrinə təsadüf edilir. **Məxsusən** (2) **Nəsihətnamə** adındakı əsərində Hürufi təriqətinə və Fəzlullah Nəimiyə hörmət beslədiyi (3) görükür. Fəqət Xətaini vəhtədi-vücud prinsiblərini bütün afaqa tətbiq edən Hürufilərdən (4) deyil enfüse tətbiq edən mütəsəvviflərdən saymaq daha doğrudur.

(5) Xətainin aşiqanə əsərləri də vardır. Bunlarından bir qisməti ilahi eşqi tərənnüm edən (6) şeirlərdir. Başqaları da tamamən məcazi mahiyyətdədir. Bu padşah şair ədəbiyyatın hər vadisində (7) mənzumələr yazmaqa meyil göstərmişdir.

(8) Xətai Azərbaycan və Anadolu xalq ədəbiyyatında dərin təsir bıraxmış və məxsusən qızılbaş (9) şairləri onu bir örnək (nümunə) və özlərinə ustad tanımışlar.

(10) Bektaşi ədəbiyyatında da onun təsiri açıq bir şəkildə görülür.

(11) İştə (eynək) Xətainin müxtəlif şeirlərindən nümunələr:

(12) 1-On bir hecəli qoşmalardan

(13) Əvvəl Allahın adı söylənir - Cümlə ibadətin başıdır tövhid

(14) Pirim Şeyx Safidən bizə qalmışdır Sufi qardəşların qanıdır tövhid

(15) Hər kim Şeyx Safinin əmrini tutmaz Yorulur bu yolda mənzilə çatmaz

(16) Qeyri millət ona etibar etməz Cümlə ibadətin başıdır tövhid

(17) Tövhid ilə bitməz işlər bitmişdir Tövhid ilə dünya qarar tutmuşdur

(18) Tövhid ilə talib Haqqa yetmişdir Dərmansız dərdlərin dərmanı tövhid

(19) Mürəbbisiz musahibsiz damənsiz İqrarından dönən yanar imansız

(20) Yaqin ixlas ilə çağır gümansız Şeyx Safinin armağanıdır tövhid

(21) Canı Xətaiyəm tövhid dərya dənizdir Tövhid etməyənlər bizim nəmizdir

(22) Pirim Şeyx Safidən sermayəmizdir On İki İmamın erkənı tövhid

(23) 2-Səkkiz hecalılardan

(24) Həqiqət bir gizli sirrdir Açа bilirsən gəl bəri

(25) Küfr içində iman vardır Seçə bilirsən gəl bəri

(26) Açıldı cənnət qapusı Lalü gövhərdir yapusı (saxtman o)

(27) Qıldan incədir körpüsü Geçə bilirsən gəl bəri

(28) Canımız mələk canıdır Tənimiz Selmən tenidir

[34] (1) İçtiyim arslan qanıdır İçə bilirsən gəl bəri

(2) Pirimdən öğüt (pənd) almışam Ustadımdan dərs almışam

(3) Mən qanadım bağlamışam Uça bilirsən gəl bəri

(4) Mən bağçaların gülüyəm Eyni cəmin bülbülüyəm

(5) Qırx qapunun kilidiyəm Açа bilirsən gəl bəri

(6) Şah Xətaiyəm eydür həman Dağları bürüdü duman

(7) İştə İncil İştə Quran Seçə bilirsən gəl bəri

(8) İştə aruz vəzni ilə deyilmiş iki qəzəl

(9) Əzəldən eşq ilə divanə gəldim Yerim meyxanədir məstanə gəldim

(10) Hezeran dona girdim mən dolandım Bugün xasm ilə mən meydana gəldim

(11) İmamındır mənim ol şahı merdan Bugün nəsli Əli divanə gəldim

(12) İmam eşqinə çalaram qılıncı Münafıq qırmağa merdanə gəldim

(13) Mənim bunda Xətai Haydar oğlu Çu İsmayıl tək qurbana gəldim

(14) Bugün dilbəri canana yetdim Zi hicran olmuş iki can yetdim

(15) Qəmindən gözlərim kövkəb kimi idi Şəkər kim bir mahı tabana yetdim

(16) Saçın küfr ilə olmuşdum giriftar Yüzünü görceğin iməna yetdim

(17) Misali zərrəydim qatre qıldım Bi hamdillah ginə ummәna yetdim

(18) Könül qalmışdı hicran zülmetində Ləbindən çeşməyi hayvanə yetdim

(19) Xətai xəstədir vəslin gedasi Qapunda vayəh ü ehsanə yetdim

(20) Son olaraq Farsca bir şeirini nəql edəcağux:

(21) دل کشته آن موی که برروی توافتد

(21) جان کشته آن چین که برابروی توافتد

(22) بی خوابم از آن خواب که در چشم تو بینم

(22) بی تابم از آن تاب که بر موی تو افتد

(23). ناتمام

(24) **Mənabi və Müraciə:**

(25) 1- Danışməndani-Azərbaycan. Təlif Məhammməd Əli Tərbiyət. 1312. Tehran.

(26) 2- İslam Ansiklopedisi. Cild Əvvəl Azərbaycan Ədəbiyyatı. Professor Fuad Köprülü. İstanbul.

(27) 3- Türk Dünyası Əl Kitabı. Azərbaycan Ədəbiyyatı Əhməd Cəfəroğlu Ankara-1976

(28) 4- Divanı Farsi Nəsimi- Nəşriyyat Dövləti Azərbaycan Bamüqəddimə Həmid Mahmudzadə. (29) 1972- Baku.

(30) 5- İmadəddin Nəsimi, Əsərləri, 1973 (600-ci il münasibətiylə) Baku.

[35] (1) 6- İmadəddin Nəsimi. Rübailər. 1973- Baku.

(2) 7- Divan Farsi Füzuli ilə Nəimi və İmadəddin Nəsimi (Ədəbiyyatı Hürufiyə 10) Bahtemam (3) Rüstəm Əli ef. İntişatı Dünya- Tehran.

(4) 8- Xətai Divanı (Şah İsmayıl Səfəvi) Həyatı və Nəfəsləri. Sadəddin Nüzhet və (5) Naci Qasım. İstanbul Maarif Kitabxanası.

(6) 9- Şah İsmayıl Xətai. Əsərləri. 1966- Baku.

(7) 10- Azərbaycan Ədəbiyyatı Tarixi Məhəmməd Arif və Hıdır Hüseyinof Baku 1944

(8) 11- İraq Türkmənləri, İbrahim Dakuki. İstanbul. 1970

(9) 12- Rəsmli Türk Ədəbiyyatı N. S. Banarlı. İstanbul

[36] (1) **Azərbaycan Ədəbiyyat Tarixinə Bir Baxış**

(2) **Yazan: Doktor Cavad Heyət**

2

(3) **Füzuli-** 16-ci əsrin ən böyük və görkəmli Azəri şairi Füzulidir. (4) Napoli danişgahinin Türk, Fars və Ərəb dilləri ustadı Professor Aləssio Bombaci (5) (Prof. Aləssio. Bombaci) Füzulinin şahəsəri sayılan Ləyli və Məcnunun İngilizcə (6) tərcüməsinin müqəddiməsində belə yazır: Füzuli əgər Türk şairlərinin ən böyüyü (7) olmasa da ən böyüklərindən biridir.

(8) Füzulinin adı Məhəmməd və Hillə müftisi Süləymanın oğludur. Füzuli İraq Türklərindəndir (9) Bayat boyuna (Bayat boyu Oğuz Türklərindən olub Selcukilərlə Orta Asiyadan İrana, (10) İraqa və Anadoluya gəlmişlər.) Mənsub olub Hillə də dünyaya gəlməsi muhtəməldir. Şöhrəti (11) Füzuli Bağdadidir. Farsca divaninin müqəddiməsində Füzulidən şeir qoşmağı istəyən (12) dostuna belə deyir: از من سودازده توقع این فن عجب است که مولد و مقامم عراق عرب است..)13(Füzuli şairliyə məşhur olmaqdan qabax o əsrdə böyük alim mənasını verən (14) Molla məqamına yüksəlmiş (terfi) və bu adla məşhur olmuşdur.

(15) Seçtiyi Füzuli təxəllüsü içün Farsi divanının müqəddiməsində belə yazar:

در ابتدای شروع نظم هر چند روزی دل بر تخلصی می نهادم و بعداز مدتی بواسطه ظهور (17) شریکي (16) بتخلص دیگر تغییر میدادم. بنابر رفع ملابست التباس)فضولی(تخلص (18) کردم و از تشویش ستم شریکان پناه بجانب تخلص

[37] بردم و دانستم که این لقب مقبول طبع کسی نخواهد افتاد که بیم شرکت او بمن تشویشی بتواند درد. (1)

کرد بدنامی مرا از اختلاط خلق دور عزلتم شد موجب مشغولی کسب هنر (2)

منت ایز در اکه شد نیك آنچه بد پنداشتم خار من گل خاك من زر گشت سنگ من گوهر (3)

(4) Füzuli şərq və islam aləminin üç əsasi dili yəni Ərəbi, Farsi və Türki (5) dillərində şeir yazmış və duyğularını, fikir və əqidələrini gözəl və yetkin bir (6) dillə bəyan etmişdir. Türkcə divaninin müqəddiməsində deyir ki: Elmsiz şeir qalıbı- (7) bi-ruh və ya əsası yoq divar kimi olur və əsassız divar gayətdə bi-etibar olur. (8) Füzuli şair və alim olduğu qədər

də zarif və xoş söhbət bir rinddir. Füzuli (9) tamam ömründə nə layiq olduğu hüzur və rifahı əldə edə bilmiş nə də kafi dərəcədə (10) bir şöhrət qazanmışdır. Şia olub, Şah İsmayılı teyid və onun adına (11) **Bəngü-badə** əsərini yazdığı halda Səfəvilərdən də hörmət və iltifat görməmişdir. Əsasən (12) Füzuli padşahlara qulluxçu və məddah olan şairlərdən deyildir.

(13) Farsca yazdığı Ənisül-qəlb qəsidəsində belə deyir:

(14) چرا باید نهادن سر بتعظیم کی و کسری چرا باید کشیدن منت از فغفور و خاقانش

(15) بحکمت خالی از غیر خداکن خانه دل را امین کعبه ات کردند بتخانه مگردانش

(16) Füzuli Türki və Farsi divanlarının müqəddimələrində verdiyi məlumata görə (17) bütün ömrünü Hillə və Kərbəla və Bağdadda keçirmiş və İraqı Ərəbdan qırağa çıxmamışdır. (18) Doğum tarixi qatii bilinmədiği halda (1489-1494). Əhdi Bağdadi təzkirəsinin (19) yazdığına görə 1556=963-da taun xəstəliyindən ölmüş və Kərbəla da (20) Həzrəti Seyyid-Əşşühədanın harəmi civarında dəfn edilmişdir. (Keçdi Füzuli) cümləsi (21) Füzulinin vəfat tarixini göstərir.

(22) Füzulinin **Fəzli** adında şair oğlu olub Türkcə və Farsca və Ərəbcə şeir (23) yazmışdır, fəqət şeir qüdrəti babası qədər deyildir. O zamanın modası olan şeir (24) ilə müəmmacılık və tarix yazmışdır. Füzuli farsi divanının müqəddiməsində oğlu (25) barəsində belə demiş:

(26) در حله دو شاعرند اکنون فضلی پسر و پدر فضولی

(27) عکس اند جمیع کار عالم فضلی پدر و پسر فضولی

(28) Füzulinin məzhəbi Şia İsnə-aşəriyyəddir. Yazdığı qəsidə və mərsiyələrdə (Aliaba (29) mərsiyəsi) və **Hədiqətüs-süəda** da bu məsələ aydınca özünü göstərir. Fəqət Füzuli (30) şeir və fikir cəhətindən Nəsimi və Həbibin təsiri altında qalmış və nəhayət vəhdəti (31) vücud fəlsəfəsinə inanmışdır.

[38] (1) **Ədəbi şəxsiyyəti və əsərləri:** Füzulinin ədəbi şəxsiyyəti romantik bir dövrədə (2) və ictimai romantizm içində təşəkkül etmişdir. Bağdad mühitinin əsrlər boyu (3) məruz qaldığı tarixi və ictimai böhranlardan başqa İmam Hüseyin (a) nin şəhid (4)

edildiyi yerlərdə doğulub böyün Füzuli bu məntəqədə yaşayan tarixi iztirab (5) mirasını sanki (elə bil) tənəffüs etmişdir. Şair böylə bir mühitdə ən çətin həyat şərtlari (6) içində yetişmiş və elm və ədəbiyyat və təfəkkürdə dərin bilgi (məlumat) və yüksək (uca) (7) irfan və insanlıq səviyyəsinə çatmışdır.

(8) Füzulinin ədəbi şəxsiyyəti barəsində əsərlərinin tədqiqi göstərir ki: öz (9) dəyişi ilə ana dili Türki olan Füzuli İraqda böyüdüyü içün uşaxlıqdan (10) Ərəbcə və Farscayı və bu dillərin ədəbiyyatını örğənmiş və eyni zamanda elmi kəlam və məqul və (11) mənqulvə hətta fəlsəfə və tibb dahi təhsil etmiş və bu vadilərdə söz sahibi (12) olmuşdur.

(13) Fikir və hünər səhəsində Attar, Mövləvi, Cami, Nəsimi, Həbibidən ilham (14) almışdır. Məsnəvilərində Nizami, Cami və Hatifi və qəzəllərində və qəsidələrində (15) Salman Savəcı və Caminin təsirini görmək mümkündür. Fəqət böyük şair müxtəlif (16) ilham mənbələrindən aldığı müxtəlif unsurları öz şəxsiyyəti ilə birləşdirib tamamən (17) xüsusi və şəxsi hünər əsərləri yaratmışdır.

(18) Füzulidə vəhtədi-vücuda dayanan tələqqilər, ilhamının mənbəini təşkil edər (19) lahuti qəzəllərində və şah əsəri olan Ləyli və Məcnunda təqdis və tərənnüm etdiyi eşqi (20) ilahi və ya eflatüni eşqdir. Şairin ehsasatı ilə fəlsəfi-sofiyanə mahiyyəttə (21) fikri tərbiyəti birbiriylə çox həm ahəng bir tərzdə imtizac etmişdir.

(22) Ələmlə müttəsif olan bu ilahi eşq Füzulinin ruhunda yaşamış və əsərlərini (23) yaratmış və yaşatmışdır. İştə[34] bundan ötürüdür ki ihsasatını bəyan (24) edərkən ehtişam və səmimiliyini mühafizə edən şair qəsidələrində kəlmə oyunlarına (25) (bəzi-i elfaz) baş vurur və ilahi hünərmənd yerinə çox mahir bir mütəfəkkir və hünərmənd (26) kisvətində zahir olur.

(27) Füzuli lirizm (təğəzzül) şeirin ustadı olduğu halda qəzəl koşmaxla iktifa (28) etməyip məsnəvi və istiarəyi əsərlərdə yazmışdır. Ayrıca Azəri Türkcəsində bədii (29) nəsrin nümunələrini vermişdir.

[39] (1) Füzulinin əqidəsinə şair ilahi bir mühəbbətə məzhər olmasa bi-ayıb şeir (2) qoşamaz fəqət bu ilahi mühəbbəti elm ilə bəzəmək və kamilləşdirmək lazımdır, zira

[34] İşte: Əyink. Füzulinin işlətdiyi kəlmədir.

elmsiz (3) şeir ruhsuz cismə bənzər. Həqiqi şeir eşq duyğularını (ehsas) tərənnüm edən (4) şeirdir. Belə bir şeirin ən uyğun (müvəffəq və mütabiq) şəkli qəzəldir.

(5) Füzulinin öz dəyişinə görə Türki divaninin müqəddiməsində Füzulidən Türki (6) qəzəl istəyən bir Türk gözəlinin dilindən belə dəyir.

(7) Qəzəldir səfabəxşi-əhli-nəzər - Qəzəldir güli-busitani-hünər

(8) Qəzəli-Qəzəl saydı asan deyil - Qəzəl münkiri əhli-ürfan deyil

(9) Qəzəl bildirir şairin qüdrətin - Qəzəl artırır nazimin şöhrətin

(10) Könül gərçi əşara çox rəsm var - Qəzəl rəsmin et cümlədən ixtiyar

(11) Ki hər məhfilin ziynətidir qəzəl - Xirədməndlər sənətidir qəzəl

(12) Qəzəl də ki məşhuri-dövran ola - Oxumaq da yazmaq da asan ola

(13) Füzuli şairin səs verən bir saz bir musiqi aləti olduğuna inanır. Şair bir saz olunca, (14) bir sazın məhsulü bir neva, bir xoş səda olacakdır. Şeir bu (15) sazdan çıxan gözəl səsdir.

(16) Füzuli şeirlərində öz vücudunu (ney)yə və çenge bənzətir:

(17) Neyi-bəzmi-qəməm ey mah nə bulsan yələ ver Oda yanmış quru cismimdə həvadən qeyri

(18) Bəzmi-eşq içrə Füzuli necə ah eyləməyəm Nə təməttü bulunur neydə sədadən qeyri.

(19) Ney kimi cismim oldu oxundan dəlik-dəlik Dəm urduğumca yerli-yerindən səda verər.

(20) Bu deməkdir ki Füzuliyə görə şeir kəlmələrlə söylənən bir musiqidir. Daha qabaxcan (21) dediklərimizi də hesaba qatsaq böyük şair şeirin ehsas və fikri və musiqidən (22) ibarət olduğuna inanır.

(23) Füzulinin şeirində diqqəti cəlb edən temlər (mövzu) eşq, iztirab, rindlik, (24) vəfa, dini və fəlsəfi fikirlərdir.

(25) Füzulidəki eşq, ilahi eşqdir və insanı əbədiyyətə qavuşturur. (vasıl edər)

(26) Füzuli eşq dərdləriylə xoşdur. Bu dərdə dəva istəməz, bunu Məcnunun dilindən bilə (27) söylər: Ya Rəb bəlayi-eşq ilə qıl aşina məni - Bir dəm bəlayi-eşqdən etmə cüda məni

(28) Eşq vadisində hattı Məcnuni dahi özündən irəli görəbilməz:

(29) Məndə Məcnundan füzun aşiqlik istedadı var - Aşiqi sadiq mənəm Məcnunun yalnız adı var

(30) Böyük alim aşık barəsində belə deyir:

(31) Eşq imiş hər nə var aləmdə - Elm bir qiylü qal imiş ancaq.

[40] (1) Füzulidəki eşq hüzün və ələm və iztirab ilə əcin olmuş və şairin ruhunun (2) gızası halına gəlmişdir:

(3) Cəfavü cövr ilə mötadəm anlarsız nə olur halım - Cəfasinə hədü cövrinə payan olmasın ya Rəb.

(4) Bu ehsas Bağdad mühitinin tarixi və ictimai romantizmiylə asılıdır.

(5) Giriftari-qəmi-eşq olalı avare-dəhrəm - Gəmi-eşqə məni bundan bətər ya Rəb giriftar et

(6) Füzuli rindliyini və arifliyini və dünya varlıqları qarşısında (müqabilində) (7) durumunu bəyan etmək içün Ləyli və Məcnun nədir qafiyəli qəzəli çün münasibdir:

(8) Öylə sərməstəm ki idrak etməzəm dünya nədür

(9) Mən kiməm saqi olan kimdür meyü səhba nədür

(10) Gərçi canandan dili-şeyda içün kam istərəm

(11) Sorsa canan bilməzəm kami-dili-şeyda nədür

(12) Hikməti-dünyavü mafiha bilən arif dəgül

(13) Arif oldur bilməyə dünyavü mafiha nədür

(14) Ahü fəryadın Füzuli incidibdir aləmi

(15) Gər bəlayi-eşq ilə xoşnud isən govğa nədür

(16) Füzulinin insanlarda aradığı (axdardığı) birinci fəzilət vəfadır fəqət (17) bunu tapmadığından çoq mütəəssirdir. İnsan vəfasızlığının dünyanın vəfasızlığına (18) uyğun bir təbiət olduğunu bilir və bu fikrini belə bəyan edir:

(19) Vəfa hər kimsədən kim istədim andan cəfa gördüm

(20) Kimi kim bivəfa dünyada gördüm bivəfa gördüm.

(21) Füzuli əsərlərində dönə dönə paxılardan, na-nəcib və yaramazlardan çekdiyi (22) azabları xatırladırsa da ədalətin və insaniyyətin son qələbəsinə məhkum inanıb və (23) həmişə bu inamla yaşayaraq deyir:

(24) Həsud surəti-əhvalimə nəzər qılmaz - Cəfa qılır məni biçarəyə, həzər qılmaz

(25) Sanır ki naləvü zarım ona əsər qılmaz - Onu mürur ilə aləmdə dərbədər qılmaz

(26) Zəmanə içrə mücərrəbdür intiqami-zəman - Həmişə yaxşıya yaxşı verər yəmanə yəman

(27) Füzuli şeirlərinin bir çoğunda insanda təcəlli edən ilahi gözəlliyi sanəm, (28) büt kimi məfhumlarla ifadə edir və bu ilahi gözəllik qarşısında belə tərənnüm (29) etmişdir:

[41] (1) Səcdədir hər qanda[35] bir büt görsəm ayinim mənim

(2) Xah kafər xah mömin dut budur dinim mənim

(3) Ol büt əbrusin qoyup mehrabə döndürməm özüm

(4) Qoy məni, zahid, mənə çox vermə Tanriçün əzab

(5) **Əsərləri:** Daha əvvəldə söylədiyimiz kimi Füzuli üç dildə mənzum və mənsur (6) əsərlər yazmışdır, bunlardan Türkcə və Farsca divanlarıyla bəzi kiçik məsnəvi (7) əsərlər

[35] Kanda: Yanda

və Ləyli və Məcnun ilə Hədiqətüs-süəda əsrlərdən bəri müxtəlif Türk xalqları (8) arasında yayılmış və böyük şöhrət qazanmışdır.

(9) **Türkcə Divanı:** Bu divanın başında Türkcə və Farsca və Ərəbcə bəyit və mənzumələrlə (10) təzyin edilmiş mənsur bir müqəddimə vardır. Müqəddimədə şairin şeir barəsində (11) görüş və düşüncə və xatirələrini bəyan etməsi şayani-təvəccöhdür. Müqəddimədən sonra (12) alimanə bir bahar təvsifi ilə başlayan bir tövhid qəsidəsi və ondan sonra (13) Həzrəti Muhammed s. in mədhində söylədiyi qəsidələr vardır.

(14) Həzrəti Muhammed s barəsində yazdığı ən gözəl su qəsidəsidir

(15) Saçma ey göz əşkdən gönlümdəki odlarə su

(16) Kim bu dənlü (bu şekildə) dutuşan odlara qılmaz çarə su

(17) Abıgundur günbədi-dəvvar rəngi bilməzəm

(18) Ya mühit olmuş gözümdən günbədi-dəvvarə su

(19) Zövqi-tiğindən əcəb yoq olsa gönlüm çak-çak

(20) Kim mürur ilə buraqur rəxnələr divarə su

(21) Seyidi-növi-bəşər dəryayi-dürri-istifa

(22) Kim səpibdir möcüzatı atəşi-əşrarə su

(23) Sonra Həzrəti Əli a. içün dədiyi (قصیده در مدح شاه ولایت) gəlir.

(24) Digər qəsidələri 12 imam mədhindən və Bağdada və Sultan Süləyman Qanuninin (25) mədhində və sonra Bağdad Valisi Ayas Paşa və o dövrün bir neçə mühüm adamları içün (26) yazmışdır. Bağdadın 1534=941 h-də Sultan Süləyman Qanuni tərəfindən fəthindən (27) sonra yazılan bu qəsidədə Füzuli Bağdadı bürci əvliyaya bənzətir:

(28) Əvliya bürci demiş zira ki haki əşrəfi - Baka baka əvliyaullaha olmuşdur məzar

[42] (1) Füzulinin şeir qüdrəti daha çox qəzəllər və müsammatlarında[36] özünü göstərir.

(2) Türkcə divanında tərkibbənd[37] şəklində deyilmiş mənzumələrdə içində mərsiyəyi al-i aba deyilən Kərbəla (3) mərsiyəsi su qəsidəsi ayarındadır və şairin pənç tən (4) al-i abaya beslədiyi dərin məhəbbəti göstərir.

(5) Mahi-Məhərrəm oldu məsərrət həramdır Matəm bu gün şəriətə bir ehtiramdır

(6) Təcdidi-matəmi-şühəda nəfsiz deyil - Qəflətsərayi-dəhrdə tənbihi-ammdır

(7) Qovğayi-Kərbəla xəbərin səhl sanma kim - Nəqsi-vəfayi-dəhrə dəlili-tammdır

(8) Hər zərrə-əşk kim dökülür zikri-al ilə - Səyyareyi-sipehri-ülüvvi-məqamdır

(9) Hər məddi-ah kim çəkilür Əhli-Beyt içün - Miftahi-ravzadır-darüssəlamdır

(10) Şad olmasın bu vaqiədən şad olan könül - Bir dəm məlalü qüssədən azad olan könül

(11) Füzuli divanında qəzəllərdən, tərkib və tərcibəndlərdən, müsəddəs, müxəmməs (12) və mürəbbələrdən sonra gələn şeirlər, qitələr və rübailərdir.

(13) Füzulinin külliyatında yuxarıda saydıqlarımızdan başqa Bəngü-Badə, (14) Şikayətnamə, Saqinamə və Ləyli və Məcnun vardır.

(15) Füzulinin ən əski (qədim) və kamil külliyati 1589=997 ilində Bağdadda əl ilə (16) yazılıp və bugün Leningrad Asiya muzesi əlyazmaları arasındadır.

(17) Türkiyə və Avropa kitabxanalarında müxtəlif əlyazması nüsxələri vardır. Füzulinin (18) divanı ibtida Bulaqda (Qahirə) 1256-da və Təbrizdə (1247) və İstanbulda (1268) (19) çap olmuşdur. Sonra dəfələrlə yoxarıdakı şəhərlərdə və habelə Bakuda basılmışdır.

(20) **Bəngü-Badə**: Həşiş ilə şərab arasında bir münazirədən ibarət olan bu (21) məsnəvi Türkcə yazılmış və Şah İsmayıla ithaf edilmişdir. Bu əsər 500 bəyitdir (22) və şairin cavanlıq əsərlərindəndir. Əsərdə Badə cavan və coşğun ruhlu bir (23) padşah olan Şah

[36] Müsəmmət: beş misrai bir qafiyəli və altıncı misra ayrı qafiyəsi olan şeir.
[37] Tərkibbənd: şair bir niçe bəyti müvafiq bəhrdə və müxtəlif qafiyələrdə söylədikdən sonra (bir bənd) qeyri-mükərrər taza bəyti söylər.

İsmayılı və Bəng (Həşiş) də, ağır başlı və hərəkətsiz və mütəvəkkil (24) sultan sanılan ikinci Bəyazidi təmsil edir. Bu münazirə və savaşda Bəng məğlub (25) və əsir edilmişdir.

[43] (1) **Saqinamə Ya Heft Cam:** Yeddi kadəhin nəşəsini tərənnüm edən bu Farsca məsnəvi (2) 318 bəytdir. 31 bəytində mənə şəriət nizam verən şerabı ver, şəriət haram olan (3) şerabı yox deyir. Saqinamə belə başlayır:

(4) سر از خواب غفلت چو برداشتم لوای فراست برافراشتم

(5) فکندم به آثار حکمت نظر به معمورة صنع کردم گذر

(6) ندیدم به از میکده منزلی چو پیر مغان مرشد کاملی

(7) باو دوش نالیدم از جور دور که بر من چرا میکند دورجور

(8) خردمند پیری پسندیده رایز کارم چنین گشت مشکل گشای

(9) که در رشته آرزویت گره ز عقل است بر دور تهمت منه

(10) خرد را خیالات بیهوده هست خلاف قضا هر خیالی که هست

(11) بدار الشفای مغان آرزوی مدارای آن علت از باده جوی

(12) Şair 35 bəyitlik bir müqəddimədən sonra məsnəvisini yeddi qismətdə söylər və ney (13) dəf, tar və çəng, ud, tənbur və qanun kimi sazlarla və mizrabla münazirə edir. (14) Əsər kamilən sufiyanədir və şairin musiqi və mitoloji (üsturəşünası) məlumatını (15) da göstərir.

(16) **Qəzəliyyat:** Füzulinin qəzəliyyatı və Ləyli və Məcnunu onun şahkarları sayılır. (17) Daha əvvəl də bu barədə bəhs etdiyimiz içün fəqət bir neçə qəzəl nəql edirik:

(18) Ya Rəb həmişə lütfüni et rəhnüma mənə

(19) Göstərmə ol təriq ki yetməz sənə mənə

(20) Qət eylə aşinalığım andan ki geyridir

(21) Ancaq öz aşinalərin et aşina mənə

(22) Bir yerdə sabit et qədəmi-etibarimi

(23) Kim rəhbəri-şəriət ola müqtəda mənə

(24) Yoq məndə bir əməl sənə şayistə ah əgər

(25) Əmalimə görə virə ədlin cəza mənə

(26) Xövfi-xətadə müztəribəm var ümid kim

(27) Lütfün virə bəşarəti-əfvü əta mənə

(28) Mən bilməzəm mənə gərəkən (lazım olan) sən həkimsən

(29) Mən eylə vermə hər nə gərəkməz sənə, mənə

(30) Oldur mənə murad ki oldur sənə murad

(31) Haşa ki səndən özgə ola müddəa mənə

[44] (1) Həbsi-həvadə qoyma Füzuli sifətı əsir

(2) Ya Rəb hidayət eylə təriqi-fəna mənə

(3) Könlüm açılur zülfi-pərişanını görgəc (göricek)

(4) Nitqum tutulur qönçeyi-xəndanını görgəc

(5) Baqdıqca sana qan saçılur didələrimdən

(6) Bağrım dəlinür navəki-müjganını görgəc

(7) Rənalıq ilə qaməti-şimşadı qılan yad

(8) Olmaz mı xəcil sərvi-xuramanını görgəc

(9) Çox eşqə həvəs edəni gördüm ki həvasın

(10) Tərk etdi sənin aşiqi-nalanını görgəc

(11) Kafər ki dəgil mötərifi-nari-cəhənnəm

(12) Imanə gələr atəşi-hicranını görgəc

(13) Nazlilik ilə qönçeyi-xəndanı edən yad

(14) Etməz mi həya ləli Bədəhşanını görgəc

(15) Sən hali-dilin söyləməsən nola Füzuli

(16) El fəhm qılur çaki-giribanını görgəc

(17) Rəməzan oldu çəkub şahidi-mey pərdəyə ru

(18) Mey içün çəng dutub təziyə açdı geysu

(19) Bildi mütrib ki nədir hal götürdü qopuzun[38]

(20) Bəzmdən çəkdi əyağini sürahiyyü səbu

(21) Bəzm qanuni pozuldu ney içün çənglə dəf

(22) Yığılıb[39] etməyələr hakim eşigində ğülu

(23) Rəməzən ayı gərək açıla cənnət qapusu

(24) Nə rəva kim ola meyxanə qapusı bağılu (bağlı)

(25) Fəthi-meyxanə içün oquyalım (oxuyaq) fatihələr

(26) Ola kim yüzümüzə açıla bir bağılı qapu (qapu)

(27) Afitabi-qədəh etməz rəməzən ayı tülu

(28) Nə bəladır bizə ya Rəb nə qara gündür bu

[45] (1) İntizari-meyi-gülgun ilə bayram ayına

(2) Baqa-baqa (baxa-baxa) enəcəkdir gözümüzə qara su

[38] Sazını.
[39] Yığılub.

(3) Rəməzan oldu budur vəhmi Füzulinin kim

(4) Neçə gün içməyə mey zöhd ilə nagəh tuta xu

(5) Aşağıdakı məşhur qəzəli Bakuda böyük bəstəkar (ahəngsaz) Üzeyir (6) Hacıbəyof tərəfindən bəstələnmişdir (nota alınmışdır)

(7) Məni candan usandırdı cəfadən yar usanmaz mı

(8) Fələklər yandı ahımdən muradım şəmi yanmaz mı

(9) Qamu (hamı) bimarinə canan dəvayi-dərd edər ehsan

(10) Niçün qılmaz mənə dərman məni bimar sanmazmı

(11) Şəbi-hicran yanar canım dökər qan çeşmi-giryanım

(12) Oyadar xəlqi əfqanım qara bəxtim oyanmaz mı

(13) Güli-rüxsarinə qarşu gözümdən qanlı aqar su

(14) Həbibim vəqti-güldür bu axar sular bulanmaz mı

(15) Qəmim pünhan duturdım mən dədilər yarə qıl rövşən

(16) Dəsəm ol bivəfa bilmən inanur mı inanmaz mı

(17) Dəgildim mən sənə mail sən etdin əqlimi zail

(18) Mənə tən eyləyən qafil səni görgəc utanmaz mı

(19) Füzuli rindü şeydadır həmişə xəlqə rüsvadır

(20) Sorun kim bu nə sevdadır bu sevdadən usanmaz mı

(21) **Ləyli və Məcnun-** Məsnəvi tərzində yazılan bu eşq və iztirab əsəri Füzulinin (22) şah əsəri sayılır. Əski Ərəb əfsanəsi olan Ləyli və Məcnun Füzulidən qabaq (23) Nizami, Cami və Məlali və Hatəfi kimi İranın böyük şairləri tərəfindən nəzmə (24) alınmışdı. Türkcə ilk dəfə 15-ci əsrdə Cağatay şairi Əlişir Nəvai (25) tərəfindən yazıldı fəqət Füzuli

bu Türkcə məsnəvidən xəbəri olmadan bu işə (26) başladı. Özünün dediyinə görə iki rum (Türk) zarifi onu bu işə təşviq (27) etdilər. Bu iki Türk zərifi Sultan Süləyman Qanuni ilə Bağdada gələn Türk şairləri (28) Xəyali və Yahya Bəy olması çok möhtəməldir:

(29) Ləyli-Məcnun əcəmdə çoqdur - Ətrakdə ol fəsanə yoqdur

(30) Təqrirə gətir bu dastanı - Qıl tazə bu əski bustanı

(31) Bu məsnəvi fəulün məfailün fəulün vəznində yazılmış və aralarında müxtəlif **[46]** (1) vəzinlərlə yazılmış qəzəllər və aşıq və məşuq arasında yazılan, mürəbbə, iki məktub (2) vardır. Əsərin başında mənzum və mənsur kiçik bir müqəddimə vardır.

(3) Füzuli bu əsərdə Nizamidən çok Hatafinin Ləyli və Məcnununu örnək qarar vermiş (4) fəqət əsərin tərtib və təhrirində mühüm ibtikarlar işlənmiş və əsərə milli və orijinal (5) bir rəng vermişdir. Əsər 1535-də tamamlanıp Sadrazam Veyis Paşaya ithaf (6) edilmişdir. Bu əsər ilk dəfə 1844-də Təbrizdə sonrada İstanbulda və başqa yerlərdə (7) çap olmuş və İngilizcə və Almanca və Rusçaya tərcümə edilmişdir.

(8) **Farsi divanı:** Türkcə divanında olduğu kimi kiçik şeirlərlə bərabər mənsur bir (9) müqəddimə vardır ki Füzuli barəsində mühüm məlumatı ehtiva edir. Bu müqəddimədə Farsi (10) qəzəlləri içün belə yazmış: مدتی بسرودن اشعار ترکی و عربی و قصائد و معمای فارسی گذرانیدم تا آنکه روزی گذارم بمکتبی افتاد پری چهره ای فارسی نژاد چون توجه (12) من دید از گفتهای (11) من چند بیتی .طلبید من نیز چند بیتی از عربی و ترکی بات ادا (13) نمودم و لطایف چند نیز از قصیده و معما بر او .فزودم گفت که اینها زبان من نیست (14) و بکار من نمیآید، مرا غزلهای جگر سوز عاشقانه فارسی میباید

(15) ابهام در معانی و اغلاق در کلا کار اکابر و علمای زمانه است

(16)تاب عذاب فکر ندارند دلبران مرغوب دلبران سخن عاشقانه است.

(17) بی تکلف از این سخن مرا خجالتی دست داد و آتشی در دل افتاد که خرمر اندوخته (18) مرا همه بسوخت و در شبستان خیالم شمع شوق غزل فارسی برافروخت

(19) Belə nəzərə gəlir ki bu divan hənüz İranda çap olmamış. Əlyazma nüsxələri (20) Azərbaycan, Türkiyə və Avropa kitabxana və muzelərində mövcuddur. Ləningrad külliyatında da (21) Farsca divanı vardır. 1962-də Ankarada Professör Hasibe Mazıoğlu

tərəfindən bir (22) intikadi Edition Critique çap və nəşr edilmişdir. Bu divanda 49 qəsidə və (23) 410 qəzəl, bir tərkibbənd, bir mürəbbə, bir müsəddəs, 46 qitə və 105 rübai vardır.

(24) **Ərəbcə Divanı:** Füzulinin Ərəbcə divanı olduğu təkcə Sadiqi təzkirəsində (25) yazılmışdı. Son zamanlarda Leningrad külliyatında Ərəbcə divan tapıldı. Bu (26) külliyat haqqında ilk məlumatı rus alim E. Perthels Pertləs (1930) (27) vermişdir. 465 bəyitdən mürəkkəb olan bu divanda on bir qəsidə və bir xatimə (28) vardır.

(29) Qəsidələrin yeddisi Hazrəti Muhammed və üçüdə Hazrəti Əlinin mədhində (30) yazılmışdır. Füzulinin Farsca və Ərəbcə şeirləri Türkcə şeirləri ayarında (31) deyildir. Helə Ərəbcə olanların qəlitəsi daha aşağıdır.

[47] (1) **Hədiqətüs-Süəda:** Kərbəla faciəsini şərh verən mənzum parçalarla təzyin edilmiş (2) Türkcə mənsur bir əsərdir. Şair bu əsər içün Hüseyin Vaizin Ravzatüş-Şühədasını (3) örnək seçmiş fəqət əsər örnəkdən də üstün (bərtər) olmuşdur.

(4) **Hüsn Eşq və ya Ruhnamə:** Farsca yazılmış və tibb barəsində məlumat verir.

(5) **Şikayətnamə:** Türkcə mənsur bir məktubdur. Nişancı Cəlalzadə Mustafa Çələbiyə (6) yazıldığı içün Nişancı Paşa məktubu adıyla məşhurdur.

(7) Bu məktubu əvqaf təxsisatından müqərrisinin verilmədiyi içün yazılmışdır. (8) 16-cı əsrdə Türk nəsrinin Şah əsəri sayılan bu məktub yer-yer kiçik (9) mənzum parçalarla söslənmişdir (təzyin edilmişdir). Bu məktubun ən çok bəyənilən (10) parçaları bunlardır:

(11) Hüzurlarına getdim, bir cəm gördüm, hekayətləri pərişan nə səfadan (12) anda əsər və nə siddiqdən anda nişan var. Selam verdüm rüşvəd deyüldür deyü almadılar. (13) Hükm göstərdim, faidəsizdir dəyü mültəfit olmadılar. Əgərçi zahirdə surəti (14) itəət göstərdilər amma zəbani hal ilə cəm sualimə cavab verdilər.

(15) **Mətləül-etiqad:** Elmi kəlam barəsində bir risalədir və Füzulinin məzhəbi (16) etiqatını anlatır.

(17) **Ənisül-qalb:** 134 bəyitli Farsi bir qəsidədir. Bu qəsidəni İran tərəfindən (18) Sultan Süləymana göndərmişdir.

(19) **Türkcə-Farsca Mənzum Lüğət:** Lahurda Pancab Dağışgah kitabxanasında bir (20) məcəllədə Füzuliyə mənsub Türkcə Farsca lüğət çap olmuş fəqət üzərində hənüz (21) elmi təhqiq edilməmişdir. (Professor Fahir İz. Ankara).

(22) **Təsirləri:** Ömrünün çoğunu Azərbaycan ədəbiyyatına vəqf edən böyük Türk alim və (23) ədibi Proffessör Fuad Köprülü islam ansiklopedisində Füzuli haqqında belə yazar: (24) Türk ədəbiyyatının müxtəlif sahələrində əsrlərdən bəri Füzuli qədər təsir burakmış (25) şair çox azdır. Nəsimi və Nəvaidən sonra fəqət Füzuli deyir ki Türk dünyasının (26) hər tərəfinə əsərləri yayılmış, oxunmuş, söylənmiş, təqdir edilmiş və nəzirələr (27) yazılmışdır.

(28) Yalnız Füzuliyi yetiştirən Azəri sahəsi deyil, Osmanlı və Cağatay ədəbiyyatları da (29) əsrlərdən bəri onun qüvvətli nüfuzu altında qalmışdır.

(30) Füzuli təsiri təkcə yoxarı ədəbi mühitlərdə və klassik şairlər üzərində (31) qalmayıp saz və təkiyyə şairləri vasitəsiylə geniş xalq kütlələrinə yayılmışdır.

[48] (1) Füzulinin ən çok işlətdiyi vəzinlər və nazım şəkilləri aşıq ədəbiyyatına girib, (2) onun təfəkkür və ehsas xüsusiyyətləri saz şairlərinə intiqal etmişdir. Cavan aşıqlar (3) Füzulinin qəzəllərini oxur və öz təxəllüslərini onun divanından seçmişlər.

(4) Füzulinin barəsində keçən əsrin Azərbaycanın büyürək şairi və qabaxçıl (5) mütəfəkkiri Seyid Əzim Şirvaninin yazdığı təzkirədən alınan məqaləyi aşağıda aynən nəql (6) edəcəyik.

(7) Füzuli barəsində sözlərimi aşağıdakı iki sual ilə bitirmək istəyirəm:

(8) 1- Bütün dünya şairlərini və əskidən bəri yaraddıkları əsərləri tədqiq edərsək (9) neçə şairin Füzuli kimi üç dildə şahəsərlər yaratdığını görərik.

(10) 2- Bizim gözəl dilimizə hor baxanlar və zəngin ədəbiyyatımızı dananlar Füzulinin (11) dilimizdə yazdığı mənzum və mənsur əsərləri oxuyub anlaya bilsələr özlərindən (12) utanarlar mı.

(13) Natemam

(14) **Mənabi və Müraciə:**

(15) 1- Külliyat Divan Füzuli. İstanbul 1308 H. Q.

(16) 2- Külliyat Divan Füzuli. Təbriz 1286

(17) 3- Füzuli: İslam Ansiklopedisi. Cild 4 Professor Fuad Köprülü. İstanbul

(18) 4- Məhəmməd Füzuli: Elmi Tədqiqi Məqalələr. Vəfatının Dört Yüz İlliyi Münasibətiylə (19) Azərbaycan Ədəbiyyat Nəşriyatı 1958. Baku

(20) 5-Rəsmli Türk Ədəbiyyatı Tarixi. N. Sami. Banarlı. Cild 7 Dəvlət (21) Kitabevi. İstanbul

(22) 6- Divanı Farsi Füzuli- Professor Hasibe Mazıoğlu, 1962 Ankara.

(23) 7- 16-cı Əsr Azəri Ləhcəsi Ədəbiyyatının Başlıca Məsələlərindən Füzulinin (24) Həyatı və Əsərləri. İslami Türk Ədəbiyyatı. Doktor Necla Pak Olcay. İstanbul 1968.

(25) 8- Füzuliyə Dair. Ölümünün 400-cü İl Dönümü Münasibətiylə Yunesko (26) Türkiyə Milli Komisyonu Tərəfindən Yayılmışdır. (27) İstanbul Maarif Basımevi, 1959 (Ədəbiyyat Üzərinə Məqalələr. Əhməd Həmdi Tanpınar)

(28) 9- Qəm Kərvanı. Fuad Qasımzadə. Füzulinin Dünya Görüşü. Baku 1958

(29) 10- Ləyla And Majnun Fuzulı.

(30) Translated By Sofı Hurı.

(31) İntroduction And Notes By Alləsslo Bombacı. London.

(32) 1970. C. Unesco.

[49] (1) **Azərbaycan Ədəbiyyat Tarixinə Bir Baxış**

(2) **Yazan: Doktor Cavad Heyət**

3

(3) 16-cı əsrdə Xətai, Füzulidən başqa bir çün Azəri şairləri yetişmiş və (4) əsərlərini Azəri Türkcəsiylə yazmışlar. Lakin bunların heç biri bu iki böyük şairlə (5) qabil müqayisə deyildir. 16-cı əsrin başlamasıyla başlayan və 250 il davam edən (6) Səfəvilər dövründə İranda Türk dili və ədəbiyyatının mühüm bir mövqeyəti vardı. Padşah xanedanı və (7) Nizamilərin ana dili olan Azəri Türkcəsi rəsmi dil və ədəbiyyat dili olaraq dərbarda və (8) divanda Farscadan sonra gəlirdi. Türk şəhər və kəndlərində və Türk illərində danışıq dili (9) Türkcə idi. Gərçi Şah Abbas İsfəhani payitaxt seçib, mərkəziyətçilik siyasəti (10) aparıb, münəvvər, alim və hünərməndləri Təbrizdən İsfahana köçürdü və böyük işləri şəhərli və (11) Farslara verdi və Farscılıq siyasətinin və Fars hakimiyyətinin təməl daşını qoydu, bununla belə (12) bir çoq şairlər əsərlərini Türkcə vəya Türkcə və Farsca yazdılar.

(13) Tarix-i aləm aray-i Abbasi və bir çoq təzkirələrdə və habelə xarici səfirləri səyahətnamələrində (14) bu baredə calib məlumat vardır. Bu dövrdə dəvlətin daxili işlərində rəsmi dili (15) Farsca olmaqla yanaşı başqa dövlətlərlə müxabərə və münasibətlərdə Farsca ilə Türkcə də işlənirdi. (16) Azəri şairləri öz ləhcələrindən suvay Cağatay və Osmanlı ləhcələriylə də tanış idilər. (17) Şah Təhmasib Farsca şeir yazdığı kimi Türkcə də şeir qoşmuş və Sultan Süləyman Qanuniylə (18) müşaərə edirdi.

(19) 16-cı əsrin şairləri barəsində əsaslı məlumat Töhfeyi-Sami və

[50] (1) **Xavas və Əhdi** təzkirələrində mövcuddur.

(2) Töhfeyi-Sami Şah İsmayılın kiçik oğlu Sam Mirzə tərəfindən yazılıp və bu əsrin ilk (3) yarısına mərbut şairlərdən bəhs edir. Sam Mirzə özü də şair olub lakin böyük bir (4) şöhrət tapmamışdır.

(5) Töhfeyi-Samidə Türkcə yazdıqları tasrih edilən Azəri şairləri bunlardır:

(6) **Ayqut Sultan** (vəfat 1549)

(7) Sam Mirzənın çoq təqdir etdiyi **Yusif Bəy**

(8) **Xəyali** (vəfat 1544). Bu şair Türkcə divanı vardır və guyı-çevgana bir nəzirə (9) yazmışdır.

(10) **Tafili**. Xorasan Türklərindən olub şeirlərində Əlilullahi və Hürufi əqidələrini (11) açıq yazmışdır.

(12) **Cədidi** (1532) və **İmani. Kəlimi Təbrizi** və **Susəni** və daha başqaları.

(13) Bu şairlərin bəzilərinin əsərlərində Anadolu, bəzilərininkində də Cağatay (14) ləhcələrinin təsiri gözə çarpar. Vəfat illəri qeyd olmayan şairlər təzkirənin yazılış tarixində (15) (1550) həyatdaymışlar.

(16) **Məcmüəl Xəvas** təzkirəsi Şah Abbasın kitabcısı Azəri şairi **Sadıqi** tərəfindən (17) yazılıb 16-cı əsrin ikinci yarısına aid şairlərdən bəhs edər:

(18) Sadıqi təzkirəsi Cağatay ləhcəsiylə yazılıb və məşhur Cağatay və Osmanlı şairlərindən də (19) bəhs edər. Bu təzkirədə adı olan Azəri şairləri bunlardır.

(20) **Əmani** maxlası olan Baybur Qulu Məhəmmed Bey (1016-945h). Bu şairin bəzi (21) Türkcə şeirləri Biritiş müzeumdadır.

(22) **Sadıq** maxlası olan Əlixan Mirzə və **oğlu Məhəmməd Salih Mirzə**

(23) **Şahqulu Bəy** rumlu və **Faqiri.**

(24) **Piri bəy** və **Kerami** və Xoylu **Mirzə Məhəmməd** və Bağdadlı **Qılıc bəy** və **Şemsi** (25) təxəllüslu Məhəmməd bəy. Təbrizli **Hakim Bədii** və Təbrizli **Şərif**.

(26) Həcvləri və nüktələriylə məşhur Mövlana **Huşi** və Merağalı Qazı aracı (çolaq (27) olduğu içün)

(28) **Sadıq Efşar:** Sadıqi Təbrizdə Vərci məhəlləsində 1532-940-da anadan (29) olmuş babası Sadıq bəy Xudabəndəlü elindən olub iliylə Şah İsmayıl zamanında Şamdan (30) Azərbaycana gəlib yerləşmişdir. Sadıqi külliyatında Türkcə əsərləri **Məcmuəl Xavas**,

(31) **Divan və Münşəat**dır. Ayrıca Şah Abbas dövrünə aid Abbasnamə adlı Farsca bir məsnəvisi

[51] (1) və Farsca şeirləri vardır. Sadıqi məşhur nəqqaş Müzəffər Əlinin şagirdlərindən olub (2) zamanının istisnai bir şəxsiyyətidir.

(3) Məcmüəl xəvası yazmaq içün Nəvainin Məcalisün-Nəfaisini örnək (nümunə) seçmişdir. (4) Sadıqi bu kitabda Türk dil və ədəbiyyatını bir bütün (kül) olaraq ələ almış və mövcud (5) üç ədəbi şivə (ləhcə)sinin şairlərini tanıtmış və əsərlərindən örnəklər vermişdir. (6) Sadıqi üç ləhçəni çoq yaxşı bilir və hər üç ləhcədə şeirlər yazmışdır. İndi (7) şairin qərb Türkcəsində söylədiyi iki qəzəli nəql edirik:

(8) Göz yaşım vermə nəmi-ahi-səhərgahlara

(9) Yanar əflak könüldən çəkilən ahlara

(10) Qoyma xali gözümü şəmi-rüxün əksindən

(11) Qoysalar eyb dəgil şəm nəzərgahlara

(12) Qeyri dutdu ətəgin saidini öpmək içün

(13) Dövlət əl verməsə yəg (yaxşı) himməti kütahlara

(14) Dərdi-dil xublərə hacəti-izhar dəgi

(15) Ərzi-hal eyləmə sən səngi-dil agahlara

(16) Sadiqi söyləmə zöhhadə qədəh keyfini sən

(17) Rəhi-meyxanəni göstərmə bu gümrahlara

(18) Doldu gözüm qubari-səri-kuyi-yardan

(19) Gör gör nələr yetişdi mənə ruzigardan

(20) Eşq atəşinə yanma yaxılma demək nədür

(21) Od macərasın istəmədi kimsə xardan

(22) Canandan ayrı təneyi-düşmən nədür bana

(23) Yoq ictinabı kalbüdün səngsardan

(24) Düşdüm mühiti-eşqəvü qurtarmağa məni

(25) Mövci-bəla araya çəkər bir kənardan

(26) Əğyarı mötəbər eləmək güc gəlür nolur (nə olur)

(27) Gər tüşsə Sadiqi nəzəri-etibardan

(28) **Əhdi Bağdadi** təzkirəsində Bağdad şairləri arasında böyük Füzulidən suvay **[52]** (1) bir neçə Azəri şairindən də bəhs edilmişdir.

(2) Azəri şairlərinin bəziləri Anadoluya getdikləri içün Osmanlı təzkirələrində (3) adlarına raslanır bunların mühümləri **Bidadi, Sehabi, Məsihi, Pənahi, Məşrəbi**, (4**) Anqa** və **Şahidir**.

(5) Yuxarıda adları aparılan şairlərdən suvay tarixi və ədəbi mənabiyin qeyd etdiyi (6) şairlərimiz bunlardır:

(7) Şah Təhmasabin qardaşı şair Bəhram Mirzənin oğlu İbrahim Mirzə. Bu şahzadə (8) müxtəlif hünər şöbələrində mahir olub və hünərməndləri himayət etmiş və zəngin bir kitabxana (9) qurmuşdur. Türkcə və Farsca gözəl şeir yazmış və 1575-də ikinci İsmayıl tərəfindən (10) öldürülmüşdür.

(11) **Qazi Abdulla Xoyi** Farsca və Türkcə şeirləriylə məşhur və eyni halda divan münşisidir. (12) Sofu divanında Türkcə müxabirə və məkatibələri o inşa edirdi. Babası Sədullah da (13) Xoy və Salmas qazisiydi. Bu rübai ondandır.

(14) Qazı nə yaman şikəst hal olmuş sən - Bir bedər firaqdan helak olmuş sən

(15) Sən bülbül idin gülündən ayrı düşdün - Dilin dudulub göründə lal olmuş sən

(16) Qazi Abdullah 991-də Səbzəvarda vəfat etmişdir.

(17) **Təbrizli Kəlbəli** (1594 vəfat) təxəllüsu Rağıb olub Farsca Türkcə şeirləriylə (18) məşhur olub, Osmanlı ordusunun Təbrizi işğali sırasında (mövqeyində) gələn əmri (19) şair Əhməd xanın yanına getmiş lakin umduğu (ümid etdiyi) hörmət və ikramı görməyincə (20) Gilanlıları həcv etmiş.

(21) Karkiya xanədanında Əmir Əhməd Xan Səfəvilərlə mübarizatında məğlub olduğu içün (22) Osmanlı imparatorluğuna iltica edib bir müddət İranla Osmanlıların münasibətlərinin (23) pozulmasına səbəb olmuşdur. Əhməd Xan Farsca və Türkcə şeirlər yazmışdır o yaxşı (24) bir musiqi şünas olub, ud çalarmış.

(25) **Yaqub Ərdəbili** bir necə dildə şeir yazmışdır.

(26) 17-18-ci əsrlərdə İranda Türkcənin inkişafı davam etmişdir. Fars şeir (27) və ədəbiyyatının dalilama (daliyə getmək) və ilhitat dövrəsi olan bu əsrlər Azəri Türkləri (28) içün daha verimli (Sermerbaxş) olmuşdur.

(29) Bu dövrin ən mühüm şairlərindən sırasıyla (Bənubat) qısaca bəhs edəcəyik.

(30) **Məsihi:** Məsihi İrandakı müxtəlif dil və ləhcələri (Gilani, Mazandarani, Gürci, (31) Qumuq, Çərkəs və Türkmən) bilən və musiqişünas bir şairdir. Birinci şah Abbasın son **[53]** (1) zamanlarında məşhur olub və **Dam və Dane, Zənbur və Əsəl və Vərqa**[40] **və Gülşah** adlı üç (2) məsnəvi yazmış və birinci Şah Safiyə ithaf etmişdir.

(3) Bu əsərin bir nüsxəsi Biritiş muzeumdadır.

(4) Burada Məsihidən bir mürəbba şəklində müsammat[41] nəql edirik:

(5) Dinlə bülbül qissəsin kim gəldi əyyamı bahar

(6) Qıldı hər bir bağda həngamə həngamı bahar

[40] Vərqa və Gülşah dastanı Ləyli və Mecnun kimi eşqi Ərəb dastanıdır və Həzrət Məhəmməd s zamanında vaqı olduğu söylənir. Vərqa və Gülşah Beni Şeyban qəbiləsinin böyüklərinin uşaqlarıdır. Bahem böyüyüb evlənmeyə qarar vermişlər lakin müxtəlif macəralar bu işe mane olmuş Vərqa bir çoq qəhrəmanlıqlardan sonra sevgilisinə çatmadığı içün çöldə Allahdan ölüm istəyir və ölür. Gülşah da bunu eşidəndə onun qəbri üstündə özünü öldürür və orda dəfn edilir, Həzrət Məhəmməd s. Şaha gəldikdən sonra onun duasıyla bu sevgililər dirilir və 40 il birlikdə yaşayırlar.

[41] 4-5-6-7 və daha çoq misralı bəndlərdən təşkil tapan nazım şəkillərinə müsəmmət deyilir. Müsəmmətin mühüm şəkillər və ya növləri mürabba və müxəmməsdir.

(7) Oldu sim əfşan ona əzharı bagdamı bahar

(8) Ayşu nuş it kim geçər qalmaz bu əyyamı bahar

(9) Yenə ənvarı şükufəylə bezəndi bağ u rağ

(10) Iyş içün qurdu gülüstanda qızıl güllərə taq

(11) Kim bilir ol bir bahara kim ölə kim qala sağ

(12) Iyşu nuş et kim geçər qalmaz bu əyyamı bahar

(13) Ruxları rəngin gözəllərdür gül ilə lalələr

(14) Kim qulaqlarına dürlü[42] cövhər asmış jalələr

(15) Aldanıb sanma ki bunlar böylə[43] baqi qalalar

(16) Iyşu nuş et kim geçər qalmaz bu əyyamı bahar

(17) Umarım[44] bulub Məsihi bu mürabba iştihar

(18) Ola əhlinə çu-çar əbru gözəllər yadigar

[54] (1) Bülbül-i hoş-guysın gül yüzlülərlə yüri var

(2) Ayşu nuş et kim geçər qalmaz bu əyyamı bahar

(3) (Bu mürəbbain əsli 9 bənddir.)

(4) Varaqa və Gülşah dastanı 770 hicridə Yusif Meddah adında bir Türk şairi tərəfindən
(5) Türkcə nəzmə çəkilmiş. Bu şair ömrünün çoq qisməti Anadoluda keçdiyi halda Azəri
(6) olması çoq mühtəhəmildir. Farsca yazdığı Xamuşnamədə cavanlıq və uşaqlıq çağının
(7) Azərbaycanda keçdiyini yazır.

[42] Envai müxtəlif
[43] Belə
[44] Ümid edirəm

(8) **Saib Təbrizi:** Mirzə Məhəmməd Saib Təbrizi 1590-da Təbrizdə doğulub uşaqlıq (9) yaşında babası Mirzə Əbdürrəhim şirin qaləm ilə İsfahana köçmüş və orada (Abbasabad) (10) yerləşmişdir. Sabirin qəzəllərinin məqtələrini təşqil edən aşağıdakı bəyitlər onun Təbrizli (11) olduğunu göstərir:

صائب از خاک پاک تبریز است هست سعدی گر از گل شیراز(12)

در بهار سرخروئی همچو جنت غوطه داد فکر رنگین تو صائب خطه تبریز را(13)

زحسن طبع تو صائب که در ترقی باد بلند نام شد از جمله شهرها تبریز(14)

(15) Saib cavanlığında Hicaza getmiş və qaydanda Osmanlı İmparatorluğu daxilində bir neçə yeri (16) gəzib bir çoq alim və şairlərlə görüşmüşdür.

(17) Saib uzun bir səyahəddan sonra İsfahana qayıdıb orada Dərbara yaxın bir şair kimi (18) yaşamaq istəmişdir, lakin onun üstün istedad və şöhrətini təhəmmül ilə müəyyən paxılar (19) onu Şah Abbasın nəzərindən salmışdılar. Saib şahın itinasızlığından sıxılıb 1625-də (20) Hindistana dərfi səfər edib və bu narazılığı şeir ilə bəyan etmişdir.

طلائی شدچمن ،ساقی بگردان جام زرین را(21)

بکش برروی اوراق خزان دست نگارین را(22)

دلم هر لحظه از داغی بداغی دیگر آویزد(23)

چو بیماری که گرداند ز تاب درد بالین را(24)

بجای لعل و گوهر از زمین اصفهان صائب(25)

بملك هند خواهد برد این اشعار رنگین را(26)

(27) Saib İsfahandan Hərata, oradanda Kabilə getmişdir. Bu zaman Kabildə **Zəfər xan** ləqəbi (28) ilə məşhur olan Nəvvab Mirzə Əhsənullah hakim idi. Saib bir zaman onun yanında qaldı. (29) Şah Cahan 1630-da Dəkkənə hərəkət etdiyi zaman Zəfər xan ilə birlikdə Saib də onun (30) yanında gedir və Hanpurda olanda Saib atasının Əkbərabada gəldiyini öğrənir. O, Zəfər xana

[55] (1) aşağıdakı şeirlə İsfahana müraciət içün icazət istəyir.

شش سال بیش رفت که از اصفهان بهند افتاده است توسن عزم مرا گذار(2)

هفتاد سال والد پیری است بنده را کز تربیت بود بمنش حق بی شمار (3)

آورده است جذبه گستاخ شوق من از اصفهان به آگره ولاهورش اشکبار(4)

زان پیش تر کز آگره بمعموره دکن آید عنان گسسته تر از سیل کوهسار(5)

این راه دور از سرشوق طی کند با قامت خمیده و با پیکر نزار(6)

دارم امید رخصتی از آستان تو ای آستانت کعبه امید روزگار(7)

مقصود چون زآمدنش بردن من است لب را بحرف رخصت من کن گهر نثار(8)

با جبهه گشاده تر از آفتاب صبح دست دعا ببدرقه راه من برآر(9)

(10) Lakin Saib icaze ala bilmir. Fəqət bir il sonra Kəşmirdə Zəfər xandan rüxsət ala bilir (11) və atasıyla və xanın verdiyi dəyərli hədiyyələrlə İsfahana qayıdır.

(12) Bu zaman Şah Sufi taxtda idi və Sabir bir müddət dərbardan kənarda kalıp, bu əsnada (13) Məşhəd, Qum, Qazvin, Ərdəbil və Yəzdi gezir və Təbrizdə yaşayır. 1640=1050-də Təbrizdə (14) olan məşhur Osmanlı səyyahı Evliya Çələbi Təbrizdə gördiyi sahibi divan şairlər (15) arasında Saibi də qeyd edir.

(16) Şah Abbas Sani (1642-1666) taxta keçdiktən sonra Saibi dərbara davət edir (17) və ona məliküş-şüəra ünvanını verir.

(18) Saib İranda səbki-hindinin müməssilidir. Şeirlərində zəngin xəyallar, məcaz və istiarələr (19) və yəni təşbehlər işlədən bu səbkin ən böyük nümayəndələri Saib və Bidildir.

(20) Saib üslub və fikirlərin və məzmunların tazəliyi baxımından da İranın son böyük (21) qəzəl ustadı sayılır. Şeirlərində əsrinin ictimai vəziyyətini ayna kimi mənaks etmişdir. (22) Şöhrəti Hind, İran və Anadolu ölkələrini tutan bu şairə öz zamanında belə Hind, Azəri və (23) Osmanlı şairləri tərəfindən nəzirələr yazılmışdır.

(24) Türkiyə təzkirəçilərindən Müəllim Naci Əsami adlı əsərində Saibdən bəhs edərkən (25) (divanı rumda ən ziyadə şöhrət bulan divanındandır hətta əvvəlləri tədris olunurdu)

(24) deyir. Hikmət ifadə edən şeirləri əsrin böyük Osmanlı şairi Nabi üzərində təsirli (27) olmuşdur. Farsi şeirlərinin mühüm bir qisməti əsrdaşları və daha əvvəlki İran şairlərinə (28) dediyi nəzirələrdən ibarətdir. Bundan başqa məzmun yaradıcılığı və tək bəyitləri (29) onun bariz xüsusiyyətlərindəndir, tək bəyitləri onun fikirləri və ictimai və əxlaqi mülahizələrini (30) bəyan edir. Bu tək bəyitlərin bir çoqları zərbil-məsəl halına gəlmişdir.

(31) Saib 120 min bəyitdən çoq şeir yazıb 17 Türkcə qəzəl və müləmmatı vardır. **[56]** (1) Şah Abbas Saninin Şah Cahan ilə savaşı və Qandahar fəthini (1059=1648) məsnəvi (2) şəklində nəzmə çəkmişdir. Şah Abbas Sanidən sonra taxta keçən Şah Süləymanın culüs münasibətiylə (3) söylədiyi qəsidədən ötürü şahın gözündən düşdü, bu hal şairin ölümünə qədər (4) idamə tapdı Saib (1081=1671) tarixində və bir rəvayətə görə 1676-da İsfahanda (5) vəfat etdi və Saib tekkəsində dəfn edildi. Sərxoş təzkirəsində Saibin ölüm (6) tarixini (Saib vəfat yaft) = 1071 h cümləsiylə qeyd etmişdir. Saib uca boylu, (7) artıq və hər kəsə sevgi və saygı (ehtiram) duyan (ehsas edən) bir insan idi şərab yerinə (8) tənbəkiyə əlaqəmənd olduğu şeirlərindən anlaşılır.

(9) شستم لب پیاله ز آب شراب تلخ کردم بدود تلخ قناعت زآب تلخ

(10) Nə əhtiyac ki saqi verə şərab sənə - Ki öz piyaləsini verdi afitab sənə

(11) Şərab ləli içün tökmə abiru zinhar - Ki dəmbədəm ləbi-lələin verir şərab sənə

(12) Əgər urum (vuram) daşa peymanəni keçür saqi

(13) Şərabdan neçə göz tiksə hər hübab sənə

(14) Qurutma tərli üzarın içində badəyi-nab

(15) Ki gül kimi yaraşur çöhreyi-pürab sənə

(16) Şərabdən nə əcəb olmasun əgər sərxoş

(17) Bu duzlu ləblər ilən neyləsün şərab sənə

(18) Bu atəşin yüz ilən kim dutar sənin ətəkin,

(19) Həlal elər qanını ta yetər kəbab sənə

(20) Dədim çığarə səni xət hicabıdən qafil

(21) Ki ol ğübar olur pərdəyi-hicab sənə

(22) Sənin səhifei-hüsnün kəlam Saibdir

(23) Ki dağı-eyb olur xali-intixab sənə

(24) **Əsərləri:** Şairin əsərləri mənzum və mənsur olub iki qismətə ayrılır. Mənzum (25) əsərləri 120 min bəyitdən artıqdır və bunlardan ibarətdir: Farsca və Türkcə qəzəllər və qəsidələrindən (26) ibarət olan divanı, Qandəharnamə, Mahmud və Ayaz məsnəvisi və Bəyaz adında müntəxəbatı. (27) Farsca qəzəllərin bəyit adəti 4-23 arasında olub bəzən qafiyələr təkrar edilir, və bəyitlər (28) arasındakı fikir ayrılığı hər bəytdə müstəqil bir məna verir şair mötədil təbiətli olduğu halda (29) şeirlərində mübaliə vardır.

(30) Qəzəllərdə eşq, təsəvvüf, nəsihət və hikmət, mövzüları təşqil edir və bunlar arasında **[57]** (1) əlliyə yaqın şairə nəzirə vardır. Nəzirələrin çoğu Sənai, Attar, Qasım Ənvar, Uhdi, (2) Sadi və Hafızın qəzəllərinə yazılmışdır. Saibin şeirlərinə özü yaşarkən də nəzirələr deyilib (3) və divanı ümməraya hədiyyə göndərilirdi.

(4) Mahmud və Ayaz məsnəvisi Sultan Mahmud Gəznəvinin saqi və nədimi olan Ayaz ilə (5) münasibətlərindən bəhs edir.

(6) Bəyaz adındakı müntəxəbatı öz şeirlərindən və əski (qədim) və müasir şairlərin şeirlərindən (7) mürəkkəb 25 min bəytə yaqındır.

(8) Saibin bir də tütün və qalyanı mədh edən nəzm və nəsr qarışığı risaləsi vardır. (9) Saibin kamil divanı daha müntəşir olmayıpdır. Aşağı yoxarı 40 min bəyti ehtiva edən (10) müntəxəbatı bir neçə dəfə Hindüstanda və İranda (Əmir Firuz Kuhi) çap olmuş. Daha kiçik (11) müntəxəbatı İstanbulda Xulusi tərəfindən Mücevheratı Saib Təbrizi adıyla Türkcəyə (12) tərcümə edilmişdir. (h 1331)

(13) Saibin tamam şeirləri bir dərəcədə deyildir lakin onun ən az on min bəyti onun böyük (14) və tırazəvvəl bir şair sayılmasına kafidir.

(15) Saib şeirlərinin mühüm qisməti təlim və tərbiyyətə mərbutdur. Bəyitlərinin bəziləri (16) atalar sözü kimi yadda qala biləcək və hikmətamizdir. O hakimanə sözləriylə oxucuya (17) əxlaqi fikirlər təlim etməyə çalışır. Şahlara tərifnamə yazmaqdan çoq nəsihət vermək (18) məqsədini izləmişdir. Şah Abbas saniyə işrətdən uzaqlaşdırmaq içün yazdığı (19) aşağıdakı şeirləri şayani-diqqətdir.

(20) شیشه را بر طاق نسیان نه قدحرا خرد کن

(21) بشکن از خون سیه مستان خمار روزگار

(22) توبه عهد جوانی را قبول دیگر است

(23) بگذر از میدر جوانی ای بهار روزگا

(24) Aşağıda farsi şeirlərində nümunə olaraq bir neçə tək bəyit və bir qəzəl Saibdən nəql (25) edirik:

(26) زبسکه تلخی دوران چشیده ام صائب

(27) دهان مار شود تلخ از گزیدن من

(28) چند پرسی صائب احوال پریشان مرا

(29) مدت بیداری ام در خواب ظلمانی گذشت

(30) مدتی چون غنچه در خون جگر پیچیده ام

(31) تا در این گلزار چون كل يك دهن خندیده ام

]58[(1) در کدامین چمن ای سرو بیار آمده ای

(2) که ربایندہ تر از خواب بهار آمده ای

(3) اظهار عجز در بر ظالم روا مدار

(4) اشك کباب مایه طغیان آتش است.

(5) برق عالم سوز در ابر سیاه نوبهار

از نگاه چشم فتان تو یادم میدهد (6)

در این ایام شد ختم سخن برخامه صائب (7)

مسلم بود اگر زین پیش بر سعدی شکر خائی (8)

کثرت موج ترا در غلط انداخته است (9)

ورنه در سینه دریا گهر راز یکی است (10)

موج از حقیقت گهر بحر غافل است (11)

حادث چگونه درک نماید قدیم را (12)

از حقیقت روی صائب در مجاز آورده ایم (13)

عشق عالم سوز را با کفر و ایمان کار نیست (14)

گردن ما در کمند سبحه و زنار نیست (15)

کاسه منصور خالی بود پر آوازه شد (16)

ورنه در میخانه وحدت کسی هوشیار نیست (17)

هر که پیراهن ببد نامی درید آسوده شد (18)

بر زلیخا طعن ارباب ملامت عار نیست (19)

بررك جانها نپیچد تا پریشان نیست زلف (20)

نبض دلها را نگیرد چشم تا بیمار نیست (21)

طوطی از آئینه میگویند میآید بحرف (22)

چون مرا در پیش رویش زهره گفتار نیست (23)

(25) Saibin Türkcə qəzəllərini Ləningrad danişgəndəsində olan bir əlyazmasına əsasən
(26) Professor Həmid Araslı dünyaya tanıtmışdır. Həmid Araslıya görə bu rübai şairin eşq
(27) tələqqisində məhəbbət, azadəliq, izzəti nəfs, vəfa və sədaqət, hikmət və ədalət kimi
(28) insanlığın ən bariz və parlaq xüsusiyyətləri ifadə edilmişdir.

(28) Saibin Türkcə şeirlərində nəzəri ilk cəlb edən onun Füzuli təsirində yazan **[59]** (1) bir şair olmasıdır. Türkcə qəzəllərinin mühüm qisməti vəzin, ifadə və hətta şəkil baxımından (2) da Füzuliyə nəzirə olaraq yazılmışdır:

(3) Eldən çıxaram zülfi-pərişanını görgəc

(4) İşdən gedərəm sərvi-xiramanını görgəc

(5) Saib

(6) Könlüm açılır zülfi-pərişanını görgəc

(7) Nitqim tutulur qönçeyi-xəndanını görgəc

(8) Füzuli

(9) Aşiq qanını vəsməli qaşin nihan içər

(10) Cövhərli tığ qın ara peyvəstə qan içər

(11) Saib

(12) Tökdükcə qanımı oxun, ol asitan içər

(13) Bir yerdəyəm əsir ki toprağ qan içər

(14) Füzuli

(15) Son olaraq üc Türkcə qəzəlini və digər qəzəllərindən bir neçə tək bəyit nəql edirik.

(16) Meydən ol çöhreyi-ziba ərəq əfşan olmuş

(17) Ya sərasər göz olub üzünə heyran olmuş

(18) Bu görən dairəni halə xəyal etmə ki çərx

(19) Ağzın açıb məhi-şəbgərdimə heyran olmuş

(20) Gözdən iraq ki soltani-cünun şövkətdən

(21) Hər dügün başıma bir çətri-Süləyman olmuş

(22) Ləbi-ləlin qəmindən bəski udubdur qanlar

(23) Xubların ürəgi kani-bədəxşan olmuş

(24) Ta görübdür nəzərin var onilan, qaşı yay

(25) Gül üzün cəm qılıb qünçeyi-peykan olmuş

(26) Saf edən də ləbi-canbəxşini dövran işidir

(27) Bir-iki qətrə damıb çeşmei-heyran olmuş

(28) Rəhm qıl Saibə, saqi, mey ilən dut əlini

(29) Necə içsin qanını bu ürəgi qan olmuş

[60] (1) Biz nə imdi zərrətək cövlana gəlmişlərdənüz

(2) Afitabi-eşq ilən dövrana gəlmişlərdənüz.

(3) Gün keçirməkdir hesabi-şahid əgriliğ üçün

(4) Doğruluğdan biz bu gün divanə gəlmişlərdənüz

(5) Sanədür barani-rəhmət gər qılıc gögdən yağar

(6) Qoç kimi qurban üçün meydanə gəlmişlərdənüz

(7) Tutma ol gül damənin məhşər günündə can üçün

(8) Qılma yüzsüzlüq[45] nigar ilən bir ovuc qan üçün

(9) Açmagil ağzın görəndə xali meşqin danəsin

(10) Eymə baş peygar tək hər nöqtəyə dövran üçün

[45] Özlülüq semacet.

(11) Yoldaş oldur kim qara günlərdə yoldan çıxmasın

(12) Keçmə yoldaşdan Xızırtak çeşmeyi-heyvan üçün

(13) Yəni ay başın əgər xurşidə ta olsun tamam

(14) Sadədil bilməz ki bəslər özünü nöqsan üçün

(15) Məşrəb üçün qoymagil əldən ənani-ixtiyar

(16) Xamiliqdan atını öldürməgil meydan üçün

(17) Hüsn-cölanından əl kəsməkdir arvadlar işi

(18) Keç özündən mərdlərtek Yusifi-Kənan üçün

(19) Minnət ilə dirilik Saib, ölümdəndir bətər

(20) Can verirlər əhli-qeyrət dərdi-bidərman üçün

(21) Eylə kim Saib qəmi-dövran tutubdur çevrəmi[46]

(22) Seyri-gül mümkün dəgül açsun tutulmuş könlümü

(23) Cam urmaq[47] rəsmidir saqi tutulmuş ay üçün

(24) Seyqeli-cam ilə pervaz et tutulmuş könlümü

(25) Aşiqin göz yaşına rəhm eyləməz ol afitab

(26) Yığlımaq[48] ilə aparmaz od əlindən can kəbab

(27) Tutulmuş könlümü cam ilə şadan eyləmək olmaz

(28) Əl ilə püstənin ağzını xəndan eyləmək olmaz

[46] Ətraf
[47] Vurmaq
[48] Ağlamaq

[61] (1) Yoxarıda nəql eylədiyimiz qəzəllərin bəyitlərini tədqiq edərsək hər bəytin təkcə, (2) müstəqil mənası olup, bəzilərinin atalar sözü kimi olduğunu və ya atalar sözün (3) şeirdə işləndiyini görürüz. Bu da bizə Saibin son xüsusiyyətini göstərir.

(4) **Şah Abbas Sani:** 1642-1674 illəri arasında səltənət edən ikinci Şah (5) Abbas Türkcə və Farsca şeirlər yazmış və **Sani** maxlası ilə tanınmışdır. Bu şair padşah (6) İsfahanda bir çoq tarixi binalar tikdirmiş və alim və şairlərdən himayət etmişdir.

(7) **Muci** və ya şeyxülislam Təbrizi 26 qəzəli vardır.

(8) **Tərzi Əfşar:** Urmiyə əfşarlarındandır. Kiçik divanı, divanı Tərzi Əfşar (9) adıyla (nəşriyat temdən rızayə) tərəfindən çap olmuş. Farsca və Türkcə mənzumələrdən (10) suvay tarzik adıyla əski ədəbiyyatda məruf olan tərzdə şeirlər yazmışdır. Bu tərz şeirdə (11) bir çoq Türkcə kəlmələr Fars gramerinə görə işlənmişdir. Şah Abbas Sani və Şah Safi (12) dərbarında bu tərz şeirlər çoq bəyənilmiş və Şah Safi tərəfindən təşviq edilmişdir. Bu tərz (13) şeir bəzi müasir şairlər məsəla **Molla Fuqi** tərəfindən də təqlit edilmiş lakin klassik Fars (14) şeiri qabağında çoq rəğbət görməmişdir bu tərz şeir daha çoq təfrih və müsəxxərə (15) içün söylənmiş və çoğu məlumat şəklindədir.

(16) Tərzi həcv ü həzəl və bir şairdir və Azəri Türkcəsiylə yazdığı şeirləri (17) bu ədəbiyyatın gözəl nümunələri arasındadır. (İranşəhr şemare (29) 12 və məcəllə armağan XIII)

(18) **Dəruni:** Azərbaycanın tanınmış şairlərindən olub əsli Təbrizlidir. Xanvadəsi (19) Şah Abbas zamanında İsfahana yerləşmişlər Saib Dəruniyi təqdir edib şeirlərindən bəyaz (20) da nəql etmişdir.

(21) **Təsir:** Mirzə Möhsün Tanber əslən Təbrizli olub ana babası Şah Abbas ol zamanında (22) İsfahana köçmüşlər və Mirzə Möhsün İsfahanda doğulubdur. Təxəllüsü Təsirdir (23) və Şah Süləyman və Şah Sultan Həsən zamanında böyük dövlət ricalindən olub bir müddət Yəzd vəziri (24) olmuşdur. Təsir Saibin avn zamanlarını dərk etmiş və qəzəllərinin bir bəndə belə (25) söyləmiş:

(26) حاذق نبض سخن در همه عالم نیست

(27) بجز از صائب و تأثیر که از تبریزند

(28) Saib vəfat edəndən sonra təsir onun yerini tutdu. Bu şair barəsində Məhəmməd (29) **Tahir Nasrabadi**, Təzkirətül-müasirin (Məhəmməd Əli Hazin) və Səfinəyi-Xoşgu və çırağı hidayət (30) Siracəddin Əli Xan arzu müfəssəl məlumat vermişlər.

(31) Təsirin külliyatı, qəsidələri, qəzəlləri, müqəddat, rübailər və yeddi məsnəvisini havidir. **[62]** (1) Qəsidələrinin zübdəsi 14 məsumun naat və mənqibətinə məxsusdur. Qəzəlləri səlis və rəvan (2) və cana yaqındır və tazə məzmunlar və istilahlardan doludur. Divanının mətləyi belə (3) başlar,

(4) ای در کف مهر تو سررشته عنوانها

(5) دارند سرافرازی از نام تو دیوانها

(6) Təsirin bəzi qəzəllər və qəsidələrində zamanının vaqeləri zikr edilmişdir məsəla (7) Türkcə yazdığı bir qəzəldə Sultan Əkbərin babası Əvrəngzibdən küsüb 1078 hicridə (8) Sultan Süləymana Pənah gətirməsi nəql edilmişdir.

(9) Qitələrində Şah Süləymanın ölümü (1105 h) və Əllamə məclisinin vəfatı (1111 h) (10) və Yəzd üsyanından (1116 h) və çihil sutunu ayinə xanəsinin yanmasından söz etmişdir (11) (1118 h). Təsirin külliyatından bir nüsxə kitapxana Məclisdə və bir nüsxə də danışgəndə məqul (12) və mənqul kitapxanasında mövcuddur. Təsirin Farsca və Türkcə əşarı onaltı min (13) bəyit olub, Türkcə şeirləri 447 bəyitdir. Aşağıda nümunə içün iki şeirini nəql (14) edirik:

(15) Ruhsarun olan yerdə dahı gül nə içündür

(16) Baş vurdu hatün səbzə vü sünbül nə içündür

(17) Ol hüsn-i hüdada də dəgül zinetə-möhtac

(18) . . . . . cemalilə tecemmül nə içündür

(19) Didüm ki səni öldürərəm tiğ-i sitəmdən

(20) Ey şuh-ı cefa-pişe teemmül nə içündür

(21) Cürm ü günehimdən ki səni istəməyimdir

(22) Iğınaz ilədün naz-ü tegafül nə içündür

(23) Bir halka-ı zülfilə cahan oldu əsirün

(24) Başka dahi min halka-i kakül nə içündür

(25) Yumdun gözünü gizlin ırahdan məni görgeç

(26) Uşşakı görən yerdə tecahül nə içündür

(27) Ol lal-i ləb ilə ki sənə qismət olubdur

(28) Artuqi dahı nəql u gül ü mal nə içündür

[63] (1) Qış getdi bahar oldu vü başdan açılıb gül

(2) Məlum deyil naləi bülbül nə içündür

(3) Allah ilə düz gəlsə eyər mənzilət u qurb

(4) Hər nakse təsir təvəssül nə içündür

(5) Məna biineva diyəllər Sitəmi aşina diyəllər

(6) Qəmə mübtəla diyəllər Sənə bivəfa diyəllər

(7) Büte ger vəfa girandur Bu qədər sitəm ziyandur

(8) Ələmə ki çok yamandur Sənə bivəfa diyəllər

(9) Dahı kalmadı kararım Çıkıb əldən ixtiyarım

(10) Qara itmə ruzigarım Sənə bivəfa diyəllər.

(11) Nə gül istərəm nə su sən Nə nişat-ı bağ ü gülşən

(12) Mənə şadi oldu düşmən Sənə bivəfa diyəllər

(13) Məni eşqdən sovutma Gözü yaş ikən qurutma

(14) Qulunam məni unutma Sənə bivəfa diyəllər

(15) Sənə meh verüb səbahət Güli qamətin qiyamət

(16) Sitəm etmə· binəhayət Sənə bivəfa diyəllər

(17) Dahı işime girişmə Üregimlə çok erişmə

(18) Kuşu serçeyə kemişmə Sənə bivəfa diyəllər

(19) Səni hak yaratdı Mehvəş Yüzün ay lalin atəş

(20) Mənə vermə çok keşakeş Sənə bivəfa diyəllər

(21) Sitəmin müdam oldu Dirilik haram oldu

(22) Üregin tamam oldu Sənə bivəfa diyəllər

(23**) Məlik Bəy Ovcı:** Bu şair ovcı əlinə mənsub olub Şah Səfi düvüm yəni (24) Şah Süləyman Səfəvi dövründə yaşayıb və 63 qəzəldən mürəkkəb küçek bir divanı Berlin (25) kitapxanası fars yazmaları arasında Gəncinə adlı məcmuəda mövcuddur. Bu kiçik (26) divan Professör Əhməd Cəfəroğlu tərəfindən İstanbulda çap olmuş (Azərbaycan yurd (27) bilgisi 1933) bu dəyərli şair də Füzuli və Saibin təsiri görülməktədir.

(28) **Vahid Təbrizi:** Şah Abbas Saninin müvərrixi və İkinci Şah Səfinin vəziri (29) olub dövrün məşhur ədib və ricalindəndir. Yazdığı tarixdən suvay Farsca-Türkcə (30) divanı və bir də münaşatı vardır ki Kəlkətə və Lenkonof (34) da çap olmuşdur.

(31) **Qövsi Təbrizi:** Əli Can Qövsi Təbrizdə anadan olub, müqəddimatı təhsil **[64]** (1) gördükdən sonra cavanlıqda İsfahana köçmüşdür Türkcə şeirləri çoq qiymətlidir. (2) Divanı Süləyman Mümtaz tərəfindən 1925-də Bakuda çap edilmiş, qəsidə, qəzəl və rübailərində (3) Füzuli və Saibin təsiri aşiqardır. Mirzə Tahir Vahid Təbrizinin bağcesi və safında bir (4) tərcibənd yazmış ki zamanının vəziyyətini açıqca anlatır.

(5) Qövsidə müasirləri olan Saib kimi azadəliq axdarır, tapmadığı içün fələkdən və (6) zəmanə adamlarından şikayət eyləyir.

(7) Gər nalə çəkməsin dili bimar nəyləsin

(8) Aşiq gözüm gər ağlamasın zar nəyləsin

(9) Qövsi səninmi halına bir əhli dil dəmiş

(10) Qoymaz məni fələk göz açım yar nəyləsin

(11) Saibin təsirində əsərlər yazan Qövsi azadlıq hissi ilə yanub yaxılan, qürbətdə (12) olduğu aylarda Təbrizi tərənnüm edir və İsfahana qarşı gəlir:

(13) Haray kim nə dilim var nə bir dil anlayanım

(14) Əgərçi nəy kimi cismim fəğan ilən doludur

(15) Bu gün mən bizəbanəm bəndi-bəndim yansa eyb olmaz

(16) Sənə mümkündür, ey nəy ahü əfğan, sən nə sızlarsan

(17) Sinəsində çirpinan qəlbinə belə xitab edir

(18) Ey biqarar sinə də nəşter mi sən nə sən

(19) Peykan mı sən könül mi sən axger mi sən nə sən

(20) Və öz özünə belə cavab verir.

(21) Hərçənd yandın odlara Qövsi, usanmadın

(22) Axır sən ey od evli Səməndər mi sən nə sən

(23) Özünə od evli diməklə eyni halda Azərbaycanlı olduğunu göstərir və Təbriz (24) içün belə deyir.

(25) Qövsi gərəkdi Kəbə diyüb iqtida qıla

(26) Təbriz qalasına safahan dədikləri

(27) Təbriz açar könlümü Qövsi ger açılsa

(28) Hər çənd ki firdövs safahanə yetişməz

(29) Qövsi yalnızlıqdan və qürbətdən şikayətini belə bəyan edir:

[65] (1) Dilim fəğanilәvü didə qan ilə doludur

(2) Könül səhifəsi şərhü bəyan ilə doludur

(3) Vurubdur ağzıma min qifli-ahənin qeyrət

(4) Hənuz səqfi-fələk əl-əman ilə doludur

(5) Haray kim nə dilim var nə bir dil anlayanım

(6) Əgərçi nəy kimi cismim fəğan ilə doludur

(7) Əgərçi könlümə zahirdə dəymək asandır

(8) Bu çöl kamingəhi şirin-ciyan ilən doludur

(9) Yuvada qönçələnir əndəlib bəs ki çəmən

(10) Nəvayi-Qövsiyi-atəşzəban ilən doludur

(11) Qövsi vəhdəti-vücud mütəqqidir və bütün varlıqların sonunda Allaha qavuşacağına (12) (vasıl olmaq) inanır.

(13) Hesabı dərdü dağ istərsə canan, vay canım çün

(14) Ki mən ol səngdildən hər nə aldım cana tapşırdım

(15) Əgər sərgəştə çox gəzdimsə vadilərdə mən Qövsi

(16) Apardım Qatrəni dəryayı bipayanə tapşırdım

(17) Qövsi romantik qəzəlsəralarındandır və ustadı Füzuli kimi, şairin hikmət və (18) fəlsəfə bilməsini lazım görür qəzəl gərək məzmun ilə oxucunun ruhunu sirab və (19) ehsasını tesxir etsin. Eşqdə vəfa və sədaqət və yüksək manəviyyat axdadır. Qövsinin (20) şeir dili sadə və ahəngli və məzmunla doludur. Şeirləri xalq danışıq dilinə yaxındır (21) və eyni halda Nəsimi, Füzuli və Xətai kimi təzadlardan faydalanmışdır:

(22) Sipehere onun özünü ağ edir günün qara

(23) Biri ki bildi bu məktəbdə ağ u qara nədir

(24) Rüzigarım qara ol xorşiddəndir kim mənim

(25) Şəmi bəzmim nuru çeşmim sayəyi divardır

(26) Tığı müjgan ilə doğrar bağrımı düşmən kimi

(27) Yandırar ol şüləi ruxsar hicrandan betər

(28) Ta visalin məni dildən sala hicran nə rəva

(29) Ta meyi nab ol ey bağrı bütün qan nə rəva

[66] (1) Gəlməmiş subhı qiyamət yetməmiş şamı əcəl

(2) Bilmərəm saqi nədən sanmış ki huşyar olmuşam

(3) Qövsi xalqın tükənməz (tamam olmaz) hünər qaynaq (mənbə)lərindən ilham alıb, (4) şeirlərində folklorik dastan və mənzumə və atalar sözlərindən faydalanmışdır. Məsəla (5) aşağıdakı misralar və bəyitdə atalar sözündən bəhrə almış və bəzən aynən işlətmişdir:

(6) Ağızı şirin eyləməz helva demək helva kimi

(7) Bir arxa gələ su var ümid birdə gələ

(8) Boyun bolasın alim, qanı qan ilə yumaq olmaz

(9)Oxşar ona ki özgə əliylə ilan tutar

(10) Sinədə könlüm serayın ruşən eylər şemi dağ

(11) Öz ayağı altına hər çənd işıq verməz çerağ

(12) **Mənabi və Müraciə:**

(13) 1-İslam Ansiklopedisi. Cild 2. Azəri Ədəbiyyatının Təkamülü. Professor Fuad Köprülü (14) İstanbul

(15) 2-İslam Ansiklopedisi. Cild 10. Saib Təbrizi.

(16) 3- Rəsmli Türk Ədəbiyyatı Tarixi. N. S. Banarlı Cild 9 İstanbul

(17) 4- Saib Təbrizi: Azərbaycanın İranla Mədəni Əlaqə Cəmiyyətinin Nəşriyyatı. Bakü 1946

(18) 5- Saib Təbrizinin Türkcə Divanı Haqqında Bir Qaç Söz. Professor Həsən Biçari (19) (Türkoloji) Kongrəsi. İstrazburg-1970

(20) 6- Nigahi Bisəbəb Təbrizi: Əli Dəşti. Təhran 1355

(21) 7- Danışməndani-Azərbaycan: Məhəmmədəli Tərbiyət. Təbriz

(22) 8- Qövsi Təbrizi və Mirzə Şəfi Şirazi. Tərcümə H. Sadıq. Tehran 1356

(23) 9- Təbrizli Təsirin Türkcə Şeirləri: Turxan Gəncəvi. Türk Dili Ədəbiyyat Dərnəyi (24) İstanbul- 1948

(25) 10- Sâdıkî Afşarın Türkcə Şeirləri: Turxan Gəncəvi. Türkiyat Məcmuəsi (26) Cild 16- 1971- İstanbul

(27) 11- Azərbaycan Ədəbiyyatı Firidun bəy Köçərli. Bakü 1978.

[67] (1) Azərbaycan Ədəbiyyat Tarixinə Bir Baxış

(4)

(2) Yazan: Doktor Cavad Heyət

(3) 18-ci əsrdə Azəri ədəbiyyatının inkişafı yavaşladı. Lakin Türk dilinə aid (4) tədqiqlər idamə tapdı. Nadir Şahın mənişi və vəqayi Nigari Mirzə Məhəmməd Məhdi Xan Astrabadinin (5) yazdığı Səngilax adlı böyük Türk-Fars lüğəti bu dövrədə Türkcənin əhəmiyyətini (6) göstərən bir əsərdir. Bu əsərin مبانی اللغه adlı ilk qismini müxtəlif ədəbi Türk ləhcələri (7) (Cağatay, Azəri və Osmanlı) barəsində müqayisəli məlumatı ehtiva edən bir gramerdir. (8) (Dənison Ross tərəfindən 1910-da Bibliootheca indica külliyatı arasında çap (9) edilmişdir.)

(10) Bu əsərdə müxtəlif Türkmən və Özbek ləhcələrinin, fərqli olmaxla yanaşı, bir kökdən (11) (rişə) gəldikləri, Osmanlı və Cağatay ləhcələri arasındakı bəzi şəbahətlərin (12) səbəbləri, və bilaxirə Osmanlı və Azəri Türkcəsinin müştərək gramer xüsusiyyətləri bəyan (13) edilmişdir.

(14) Mirzə Əhmədixan böyük bir müvərrix olduğu qədər mühəqqiq bir dilçi (Türkolog) olduğu (15) son illərdə Samoyloviç A. N. Samoylovic tərəfindən göstərilmişdir. (Mirzə Əhmədixan, (16) 18-ci əsr Turkologu. Baku-1927).

(17) Səfəvilərin son illərindən 18-ci əsrin sonunacan keçən müddət İran ədəbiyyatı (18) içün olduğu kimi Azəri ədəbiyyatı içün də rükud və durqunluq dövrüdür. Bu dövrdə Fars (19) edəbiyatında Hatıf İsfahanidən suvay tırazı-əvvəl şairə raslanmadığı kimi Azəri şairləri (20) arasında da bir neçə növhə və mərsiyə şairindən başqa mühüm bir şəxsiyyət zühur etməmişdir (21) yalnız Şimal Azərbaycan və daha doğrusu Şimali Qafkaz bu qaidədən müstəsnadır.

(22) 18-ci əsrdə Molla Pənah Vaqif və Vidadi kimi böyük şairlər Şimali Qafqazda Azəri (23) ədəbiyyatını istiqamət vermişlər ki bunlardan irəlidə bəhs edəcəyik. Bu əsrdə Azəri (24) Türkcəsilə şeir yazan şairlərimiz bunlardır:

(25) **Nizaməlddin Tufarqanlı:** Əhli-beytə aid müxəmməs şəklində mərsiyələrlə məşhur olub və (26) 1170 h də vəfat etmişdir.

(27) **Seyid Fəttah Marağavi:** Farsca və Türkcə şeir yazmış təxəllüsü İşraqdır Farsca (28) məsnəvisi Riyazül-fütuhdan suvay Türkcə şeirləri, məsnəvi və mərsiyələrlə məruf olmuş (29) və 1170 hicridə Marağa şeyhülislami ikən vəfat etmişdir.

(30) **Hacı Xudaverdi:** Xoylu olub, təxəllüsü Taibdir və Türkcə, Farsca **[68]** (1) şeirlər və Türkcə mərsiyələr yazmış və 1201 hicridə ölmüşdür.

(2) **Topçi:** Nadirşah ordusunda topçuluq etdiyi içün bu təxəllüsü almışdır.

(3) **Nəşei Təbrizi:** Sufilərin son dövründə yetişmiş və Nadir Şah dövrinin ən məşhur (4) şairidir 1153-1155 illərində Nadir Şah Nəcəfdə Hazrət Əli hərəminin günbədisi tamir və (5) teziyin etdiyi vaqit Nəşei Təbrizi bu natur gecə tarix söyləmişdir.

(6) Bu şair Nəcəfdə Hazrət Əlinin hərəminin böyük qapısının üstündə yazılmışdır.

(7) İgirmi Səkkiz bəyitdən ibarət olan bu qəsidədə burada beş bəyti nəql edilir:[49]

(8) Şəhi cəm hişməti dara dərayət nadiri dövran

(9) Ki təxti dövləti Cəmşidə varisdir cahan üzrə

(10) Bədxşan ləli ümman incisin vermiş xəracında

(11) Günəş tək hökmü nafiz müttəsil dəryavü kan üzrə

(12) Çəkilməz kəhkəşanın yayı tək nəqqaş əgər çəksin

(13) Misali qüvvəti bazu yıqbalın kəman üzrə

(14) Büləniqbal olan ədaların da sərbüləndistər

(15) Mükərrər eyləmiş düşmənlərin başın sinan üzrə

(16) Cavabın nəşə oldu misra tarixi-itmama

(17) Ədəd bil mehr sakin dur mutafi insu can üzrə

[49] Bu şeir Aqay Teymur Pirhaşimidən alınmışdır. Əziz oxucularımızdan xahiş edirik bu qəsidənin hamısını elə gətirsələr bir nüsxə bizə göndərsinlər.

(18) **Azər:** Lütfəli Bəy Bəydili ilinə mənsub olub Atəşkədə adlı şairlər təzkirəsi (19) və Farsca şeirləriylə İran ədəbiyyatında mühüm bir mövqiyyət qazanmışdır. 1123=1711-də (20) İsfahanda doğulub və 1781-də vəfat etmişdir. Seyid Nəfisinin kitabxahansındakı bir (21) məcmuədə Türkcə şeirləri görülmüşdür (Fuad Köprülü).

(22) **Elçi Nami:** Murtəza Qalıxan İran tərəfindən İstanbula səfir getmiş (1721) və (23) orada şeirləriylə məşhur olmuşdur. Osmanlı şairi Nədim ona nəzirə yazmışdır. (24) Şeirlərində Saib Təbrizinin böyük təsiri görülməktədir Rəşid tarixində Nami haqqında (25) geniş məlumat vardır.

(26) 18-ci əsrdə İran-Osmanlı savaşlarından sonra mərkəzi hökumətin zəfi (27) və iqtisadi durumun (vəziyyət) xərablığı nəticəsində Şimali Azərbaycanda məhəlli istiqlal (28) istəyən xanlıqlar zühur edib, məxsusən Nadir Şahın ölümündən sonra bu hərəkətlər (29) genişləyib Qarabağ, Gəncə, Şaki, Qoba, Tiflis, Bakü, Naxçivan, Şirvan, Maku və Salmas (30) Xanlıqları vücuda gəldi. Bu xanlıqların məhəlli ədəbiyyat və fərhəng inkişafında qüvvətli təsiri (31) oldu və Azəri Türkcəsi geniş bir himayətə mazhar oldu. Şah İsmayıl Səfəvi ilə başlayan (32) sadə Türki dilində yazmaq Vaqif və Vidadi kimi qabaxcıl şairlər tərəfindən mənimsəndi və **[69]** (1) Azərbaycan milli ədəbiyyat məktəbi quruldu. Xanlıqlar dövründə Azəri ədəbiyyatının tərəqqisinə (2) siyasi-ictimai şəraitdən suvay bu xanların şeir və ədəbiyyatdan himayəsi və bir çox xan (3) və dövlət adamlarının bizzat şair və ədib olmasıdır. Bunların ən mühümləri bunlardır:

(4) Quba və Salyan hakimi və **Məştəri** təxəllüslü Fətəli Xan, **Tuti** təxəllüslü Əbüfəth (5) Xan, **Qüdsi** təxəllüslü Abbasqulu Aqa Bakıxanlı, **Neva** təxəllüslü Cəfərqulu Xan, Kərim Aqa (6) **Fatih** və **Müştaq**.

(7) **Modərn Azərbaycan Ədəbiyyatı-** Yəni Azərbaycan ədəbiyyatı Molla Pənah Vaqiflə başlar bu (8) yəni dövrün əsas xüsusiyyətləri milli və məhəlliləşmə, dilin sadələşməsi, xalqçılıq və (9) realismdir.

(10) **Molla Pənah Vaqif:** Vaqif 18-ci əsr Azərbaycan ədəbiyatının ən başda gələn şairi (11) olub Qarabağ xanlığı siyasi həyatında müəssir rolu olmuş, Azərbaycan fərhənginə xidmət (12) etmiş və şeir və ədəbiyyatını bir istiqamət vermişdir. Adı Pənahdır və məktəbdarlıqla məşğul (13) olduğundan Molla Pənah adıyla məşhur olmuşdur. 1717-də

Qazax məhəllinin Salahlı (14) kəndində anadan olmuşdur. Babası Məhdi adında bir kəndlidir.

(15) Vaqif mədrəsə təhsilindən sonra dövrünün elmlərini örgənmiş və eyni zamanda məktəbdarlıqla (16) məşğul olmuşdur. Aslında kəndli və xalq içində çıqmış olan Vaqif xalq (17) yaşayışına, adət və ənənələrinə yaxşı bələd olup, aşıqların dastan və şeirlərini dinləmiş (18) (qulaq asmış) və hətta saz çalmaq örgənmiş və aşıqlar tərzində şeir yazmışdır.

(19) 1709-da Gürcistan sərhədində çıqan qarışıqlıqlar nəticəsində Vaqif ailəsiylə (20) Qarabağa gedir və bir müddət Cavanşir məhəlində (Tartarbasara) qaldıqdan sonra Şuşaya (21) (Pənahabad) köçür və orada məktəbdarlıqla məşğul olur. Bir müddət sonra şairin ədəbi (22) və elmi şöhrəti Qarabağqanı Qenah Xan oğlu İbrahim Xana çatır. Xan Vaqifi dərbarında dəvət (23) edir, Vaqif İbrahim Xanının baş vəzirliyinə qədər yüksəlir.

(24) Vaqifin ədəbi yaradıcılığı Azəri şeir tarixinə yəni bir dövr açıb, onun gayə və (25) hədəfi şeirlərində xalqın adət və ənənələrini qurmaq (hıfz etmək) xalqın yaşayışını (26) olduğu kimi idəalize etmək və realizmə sadıq qalmaq idi.

(23) Onun içün şeirlərində öz xalqının xüsusiyyətləri olduğu kimi əks etmişdir. (28) Vaqif şəkil baxımından qəzəl müxəmməs, müstəzad kimi əski klassik şeir qalıblarında (29) şeir yazmaqla yanaşı tam, ifadə və kəlmə xəzinəsi nöqtəyi-nəzərindən tamamən xalq ruhuna bağlı (30) səmimi bir Azəri vətəndaş şairidir, o xalq dilinə dayanan sadə və açıq ədəbi üslubi **[70]** (1) məktəbinin qurucusudur.

(2) Eşq, insan gözəlliyi, təbiət təsvirləri dünyayı parlaq və gözəl görmək və qadına (3) çoq qiymət vermək onun bariz xüsusiyyətlərindəndir. Dostu Vidadi ilə birliktə xalq (4) ədəbiyyatına çoq əlaqə və bağlılıq duymuşlar (ehsas).

(5) Vaqifin şeirləri hələ qoşmaları Azərbaycan aşıq və xanəndələri tərəfindən müxtəlif (6) məclislərdə tərənnüm edilmişdir. 19 və 20-ci əsr aşıqlarının bir çoğu Vaqifın (7) mövzu və təmləri ələ alıb onu təqlit edərək qoşmalar demişlər. Onun qafiyə, rədif və (8) bədii ifadələri saz şairlərinə örnək (nümunə) olmuş, işlənmiş və daha gözəl bir hala (9) gətirilmişdir. Bu aşıqların başında Aşıq Ələsgər, Bozalqanlı Aşıq Hüseyn gəlir, (10) Aşıq Hüseyinin qoşmaları arasında Vaqifin misralarına çox təsadüf edilir.

(11) Vaqif lirik şair olduğu içün şeirlərində məhəbbət mövzuu mühüm yer tutar. Fəqət (12) Vaqifdəki məhəbbət romantik deyil real (vaqii) həyat və məişətlə dərindən bağlıdır.

(13) Vaqifın lirizmi məzmunca rəngin və şəkilcə rəngarəngdir. O xalq şeirinin qoşma (14) növünü daha çoq bəyənmiş və yazdığı qoşmalarında Azəri qadınının həqiqi təsvirini (15) vermiş, safa və təmiz məhəbəti tərənnüm etmişdir.

(16) Vaqif mütədəyyin bir şair və alim olduğu halda dövrünün xürafatına qarşı gəlmiş və (17) şeirlərində qadınların azadlığından müdafiə etmişdir.

(18) Həyata xoş bəyan olan Vaqif dostu Vidadının şeirlərindəki kədəri görüb onu (19) tənqid edir və onu keçmişdəki dərtləri unutmağa (yaddan çıqarmağa), həyatı şən (xoş) (20) keçirmeyə və zəhmət və məşəqqət qarşısında dayanmağa dəvət edir.

(21) 1795-də Aqa Məhəmməd Xan Qaçar Pənahabad (Şuşa) şəhrinə mühasirə etdiyi zaman (22) İbrahim Xalil Xana bir təhdidamiz məktub göndərir və o məktubda bu beyti yazır:

(23) ز منجنیق فلك سنگ فتنه میبارد تو ابلهانه گرفتی میان شیشه قرار

(24) Vaqif fəvəran məktubun cavabında bu şeiri yazıb Şaha göndərir:

(25) گر نگهدار من آنستکه من میدانم شیشه را در بغل سنگ نگه میدارد

(26) 1797-də Aqa Məhəmməd Xan Qacar Şuşanı aldığı zaman İbrahim Xan ailə və adamlarilə (27) şəhəri tərk edir, lakin Vaqif şəhərdə qalır və Aqa Məhəmməd Xan tərəfindən idam içün həbs (28) edilir. Aqa Məhəmməd Xan həmin gecə yatağında öldürülür və Vaqif da səhərisində həbsdən (29) azad olur və dostu Molla Vəli Vidadiyə bu şeiri yazır:

(30) Ey Vidadi gərdişi-dövrani-kəcrəftarə bax

(31) Ruzigarə qıl tamaşa karə bax kirdarə bax

[71] (1) Əhli-zülmü nəcə bərbad eylədi bir ləhzədə

(2) Hökmü adil padşahi-qadirü qəhharə bax

(3) Sübh söndü şəb ki xəlqə qiblə idi bir çırağ

(4) Gecəki iqbalı gör gündüzdəki idbarə bax

(5) Taci-zərdən ta ki ayrıldı dimağı-pürqürur

(6) Payimal oldu təpiklərdə səri-sərdarə bax

(7) Mən fəqirə əmr qılmışdı siyasət etməyə

(8) Saxladı məzlumu zalimdən o dəm Qəffarə bax

(9) Qurtaran əndişədən ahəngəri-biçarəni

(10) Şah üçün ol midbəri[50] təbdil olan mismarə bax

(11) İbrət et Ağa Məhəmməd xandan ey kəmtər gəda

(12) Ta həyatın var ikən nə şahə xunxarə bax

(13) Baş götür bu əhli-dünyadan ayaq tutduqca qaç

(14) Nə qıza nə oğula nə dust nə yarə bax

(15) Vaqifa göz yum cahanın baxma xubü ziştinə

(16) Üz çevir Əli-əbayə Əhmədi-Muxtarə bax

(17) Şair özünün Aqa Məhəmməd Xan əlindən kurtarıldığını dəmirçinin Zalim Şah əlindən (18) istixlasına bənzədir.[51]

(19) Ağa Məhəmməd Xanın ölüm xəbərini eşidən sərbazlar şəhəri qarət edib şəhərdən (20) çıxırlar bu zaman İbrahim Xanın qardaşı oğlu Məhəmməd Bəy Cavanşir hakimiyyəti əlinə alıb (21) Ammusinin yaxın adamlarını öldürmək istəyir. Bunu hiss edən Vaqif ölüm iztirabıyla (22) "görmədim" rədifli məruf müxəmməsini yazar ayrıca Məhəmməd Bəyin

[50] neşter və maqləb dimək

[51] Bu rəvayətə görə dəmircini öldürmək istəyən şah ona bir gecədə qırq mız at mıhı hazırlamağı əmr edir. Dəmirçi səhərə qədər yuxusuz ölüm saatini bəklər (gözləyir) Səhər çağı şahın adamları gəlir lakin at mıxı birinə gecə ölən şahın tabutu içün dört mismar hazırlamağı istəyirlər.

könlünü almaq içün (23) də bir şeir yazar lakin Məhəmməd Bəy Vaqifi oğlu Əli Aqa ilə birlikdə idam etdirir (24) (1797). Şair öldürüldüğü zaman evi də talan edilir və əsərləri də aradan gedir.

(25) 19-cu əsrin başında onun şeirləri toplanmağa başlanır bu işdə ilkin (26) Mirzə Yusif Nərsif sonra Mirzə Fətəli Axundof və Gaibof çoq zəhmət çəkib və **[72]** (1) onun əsərlərini çapa hazırlayırlar. Vaqifin əsərləri ilk dəfə Taza Həyat qazətəsinin müdürü (2) Haşim Bəy tərəfindən 1908-də çap edilmiş. Sonra 1945-də Azərbaycan Elmlər Akademisi (3) Nizami Adına Dil və Ədəbiyyat İnstitusu tərəfindən nəşr olunmuşdur.

(4) Görmədim rədifli müxəmməs

(5) Mən cahan mülkündə mütləq doğru halət görmədim

(6) Hər nə gördüm əyri gördüm özgə babət görmədim

(7) Aşinalar ixtilatında sədaqət görmədim

(8) Biətü iqrarü imanü dəyanət görmədim

(9) Bivəfadan lacərəm təhsili-hacət görmədim

(10) Xah sultan xah dərvişü gəda bilittifaq

(11) Özlərin qılmış giriftari-qəmü dərdü fəraq

(12) Cifeyi-dünyayədir hər ehtiyacü iştiyaq

(13) Munca kim etdim tamaşa sözlərə asdım qulaq

(14) Kizbü böhtandan səvayi bir hekayət görmədim

(15) Hər sədavü səs ki dünyaya dolub əksər əqəl

(16) Cümlə məkrü al[52]ü fənnü fitnədir cəngü cədəl

[52] Hiylə

(17) Dirhəmü dinar üçündür hər şeyə yapışsa əl

(18) Müqtədilərdə itaət müqtədalərdə əməl

(19) Bəndələrdə simu bəylərdə ədalət görmədim

(20) Xəlqi-aləm bir əcəb düstur tutmuş hər zaman

(21) Hansı qəmli könlü kim sən edər olsan şadiman

(22) O sənə əlbəttə ki bədguluq eylər bigüman

(23) Hər kəsə hər kəs ki etsə yaxşılıq olur yaman

(24) Bulmadım bir dost ki, ondan bir ədavət görmədim

(25) Alimü cahil, müridü mürşidü şagirdü pir

(26) Nəfsi-əmmarə əlində sərbəsər olmuş əsir

(27) Həqqi batil eyləmişlər işlənir curmi-kəbir

(28) Şeyxlər şəyyad, abidlər abusən qəmtərir

(29) Hic kəsdə həqqə layiq bir ibadət görmədim

[73] (1) Hər kişi hər şey ki sevdi onu behtər istədi

(2) Kimi təxtü kimi tacü kimi əfsər istədi

(3) Padşahlar dəmbədəm təsxiri-kişvər istədi,

(4) Eşqə həm çox kimsə düşdü vəsli – dilbər istədi

(5) Heç birində aqibət bir zövqü rahət görmədim

(6) Mən özüm çox kuzəkarı kimyagər eylədim

(7) Sikkələndirdim qubari-tiräni zər eylədim

(8) Qara daşı döndərib yaquti-əhmər eylədim

(9) Daneyi xərmöhrəni dürrə bərabər eylədim

(10) Qədrü qiymət istəyib qeyr əz xəsarət görmədim

(11) Eyləyən viranə Cəmşidi-Cəmin eyvanını

(12) Yola salmış bil ki bəzmi-işrətin çəndanını

(13) Kim qalıbdır ki onun qəm tökməyibdir qanını

(14) Dönə-dönə imtahan etdim fələk dövranını

(15) Onda mən bərəkslikdən özgə adət görmədim

(16) Gün kimi bir şəxsə gündə xeyr versən səd həzar

(17) Zərrəcə etməz ədayi-şükri-nemət aşikar

(18) Qalmayıbdır qiyməti şərmü həya, namusu ar

(19) Dedilər ki etibarü etiqad aləmdə var

(20) Ondan ötrü mən də çox gəzdim nəhayət görmədim.

(21) Müxtəsər kim böylə dünyadən gərək etmək həzər

(22) Ondan ötrü kim deyildir öz yerində xeyrü şər

(23) Əlilər xaki-məzəllətdə dənilər mötəbər

(24) Sahibi-zərdə kərəm yoxdur kərəm əhlində zər

(25) İşlənən işlərdə ehkamu ləyaqət görmədim

(26) Dövlətü iqbalü malın axırın gördüm tamam

(27) Həşmətü cahu cəlalın axırın gördüm tamam

(28) Zülfü ruyu xəttü xalın axırın gördüm tamam

(29) Həmdəmi-sahibcəmalın axırın gördüm tamam

(30) Başədək bir hüsnü-surət, qəddü qamət görmədim

[74] (1) Ya imam-əl-insü vəlcinnü şahənşahi-umur

(2) Getdi din əldən, bu gündən böylə sən eylə zühur

(3) Qoyma ki şeytani-məlun eyləyə imanə zur

(4) Şöleyi-hüsnünlə bəxş et tazədən dünyayə nur

(5) Kim şəriət məşəlində istiqamət görmədim

(6) Baş ağardı ruzigarım oldu gün-gündən siyah

(7) Etmədim səd heyf kim bir mahi ruxsarə nigah

(8) Qədr bilməz həmdəm ilə eylədim ömrü təbah

(9) Vaqifə ya rəbbəna oz lütfünü eylə pənah

(10) Səndən özgə kimsədə lütfü inayət görmədim

(11) Vaqifin şeirlərinin mühüm bir qismi onun həyatı ilə əlaqədardır.

(12) **Vaqifin Bayram Oldu** əsərində kənddə yoxsullarla yaşayan bir müəllimin hisslərini (13) görürük. Kür Qırağı şeirində Xan atlıları ilə getdiyi kəndlərdə xalqın mədəniyyətcə (14) dalıda qaldığını görməkdən mütəəssir olan həssas şairin iztirablarını hiss edirik. (15) **Tiflis Səfirinə** həsr ettiyi əsərlərdə iki qardaş xalqın tarixi qonşuluq və dostluq (16) münasibətləri ifadə olunur.

(17) Lakin Vaqif şeirinin əsas mövzuları məhəbbət və gözəlikdir Füzuli qazəllərində (18) (həyat müztərib və qəmli olmaqdır) fikri təqip edərkən Vaqif (həyat sevməkdir) nəzəriyyəsini (19) izlər.

(20) Vaqif həyatda təsadüf etdiyi gözəlliklərin təsvirini yaradır və bu yaradıcılıqda (21) gözəlin cəmalini kəmalindən ayırmır. Vaqifin ən çox sevdiyi və xalq dilində yazdığı (22) şeir şəkli qoşmadır o xalq şeirlərinin ruhunu qədim ədəbiyyatın yaxşı cəhətləri ilə birləşdiren (23) bir sənətkardır. Qoşmalarındakı dili sadədir və bədii ifadə vasitələri xalq

(24) danışıq dilindən alınmışdır. Qoşmaların vəzni heca vəznidir və bəzən daxlı qafiyələri ilə (25) **qoşayarpaq** növündədir.

(26) Siyah zülfün qəddin ilən bərabər - Nazik ağ əndamın bəyaz qar, gəlin

(27) Sallanışın tamam cahana dəyər - Sənin tək gözəl harda var gəlin

(28) Mələyiklər gəlir səni salama - Qəmzən məni çapdı, gəl bax yarama

(29) Şəkər qübbəsidir yoxsa şamama - Qoynun içindəki qoşa nar gəlin

(30) Səni sevən əqli, kamalı neylər - Dəxi görmüş özgə cəmalı neylər

[75] (1) Bu dünyada mülkü o malı neylər - Hər kim olsa sənin ilən yar gəlin

(2) Geyibsən əyninə gül pirəhəni - Cəmalın şöləsi tutmuş dövrəni

(3) Nagəhdən gözlərim görəndə səni - Qalmadı canımda ixtiyar, gəlin

(4) Həsrətindən Vaqif düşdü dərdə gəl - Heç əylənmə irəlidə gerdə[53] gəl

(5) Bir gəlibsən kərəm eylə bir də gəl - Könlüm çəkir sənə intizar gəlin

(6) Vaqif bu xüsusiyyəti müxəmməslərə də tətbiq edib, hər misraın içərisində həm qafiyə (7) sözlər (kəlmələr) işlətməyə çalışmışdır:

(8) گل نفس بی خار و خس محبوب نورس عیش باز

(9) خوش لقا ، برقع گشا ، ابرونما ، خاطر نواز

(10) آشنا دیل دوستا مایل ناز استغناسی آز.....

(11) Vaqif bəzən bütün bir şeiri bir cümlə kimi yaradır: (Əyibdir qəddimi, dəlib (12) bağrımı) misraıyla başlanan qoşmanı nəzərdən keçirsək dört bəndin bir cümlə olduğunu (13) görürürük. Şeiri nəsrə çevirsək belə çıxar: Bir kirpiyin oxlu, qaşı kəmanlı, gözləri (14) can alan cəmalı sərməst, yaxşı hirami, qəmzəsi qanlı, nazik kəmalli, nazik işli, (15) şirin gələcili, şəkər gülüşlü, mərcan dodaqlı, dərdanə dişli, cövhər sözlü sedəf (16)

[53] Geri, dalı

dəhanlı, sərxoş gəzişli, gizli imalı Kəbə ziyarətli, qiblə Nəmalı, mələk şəkilli, huri (17) simalı, cənnət eşikli, əli məkanlı, durna avazlı, bülbül nəvalı, isa nəfəsli, loqman (18) dəvalı, benəfşə iyli ənbər havalı, tazə çeməmli, ter gülüstanlı, qəddimi əyip bağrımı (19) dəlipdir.

(20) Burada biz otuz mübtəda və iki xəbər görürürük. Bu mübtədaların hər birisi Vaqif (21) sevgilisinin bir xüsusiyyətini canlandırır, xabərdə isə Vaqifə təsirini deyir.

(22) Əyibdir qəddimi dəlib bağrımı - Bir kirpiyi oxlu qaşı kamanlı

(23) Gözləri can alan cəlladi-sərməst, - Baxışı hərami qəmzəsi qanlı

(24) Bir nazik kamallı bir nazik işli - Şirin gələcili şəkər gülüşlü

(25) Bir mərcan baxışlı dürdanə dişli - Bir cəvahir sözlü sədəf dəhanlı

(26) Bir sərxoş gəzişli gizli imalı - Bir Kəbə ziyarət qiblə nümalı

(27) Bir mələk şəkilli huri simalı - Bir cənnət eşikli, əla məkanlı

[76] (1) Bir durna avazlı bülbül nəvalı - Bir İsa nəfəsli Loqman dəvalı

(2) Bir bənəfşə iyli ənbər həvalı - Bir tazə çəmənli tər gülüstanlı

(3) Vaqifəm sevmişəm bir şux dilbəri - Gözəllər sərdarı xublar sərvəri

(4) Ağızlar tərifi dillər əzbəri - Vilayət içində həm adlı-sanlı

(5) Vaqif şeirində təkrir, xüsusi yer tutur, bəzən bir kəlməni bir bənddə bir neçə (6) dəfə təkrar edir, lakin bu təkrar olunan söz (kəlmə) elə yerində və məharətlə söylənir ki (7) ifadə daha da qüvvətlənir və xoşa gəlim olur:

(8) Oturuşun gözəl, duruşun gözəl,

(9) Sallanışın gözəl yerişin gözəl

(10) Xülqün, xoyun gözəl hər işin gözəl

(11) Bəxş olub bu xubluq xudadan sənə.

(12) Vaqif qədim şeirin bütün şəkillərində xüsusən qazəl envaında, müxəmməs, müəşşər və (13) müstəzad, əsərlər yaratmış əlbəttə aruz vəzninin icabına görə daha çox Ərəbcə və Farsca (14) kəlmə və tərkiblər işlətməyə məcbur olmuşdur. Belə əsərlərində şair şəkildən çoq mənaya (15) təvəccöh etmişdir.

(16) Vaqifin xüsusiyyətlərindən birisi ondakı nikbinlikdir, bütün biyolojik, binəvi (17) mahiyyətindən başqa üç səbəbi daha vardır: Birisi gözəlliyə olan eşqi sonra eşq (18) şeir ilə məşğul və əlaqədər oluşu və bilaxirə öz dövrünə həyata və mübarizəyə olan ümidli (19) münasibətidir.

(20) Vaqif Qarabağ xanlığının apardığı istiqlal siyasətinə rəhbərlik etmiş və Aqa Məhəmməd (21) Xanın 1975-də Şuşanı mühasirə etdiyi zaman şəhərin müdafiəsini ahdədar olmuşdur (22) Vaqif şeirinin əsas ilham və təğziyə mənbəi xalq olduğu içün əsərləri də şifahi xalq (23) ədəbiyyatına dərin təsir etmişdir. Onun aşıq qoşmaları tərzində qoşduğu şeirlər əsrimizdə (24) belə ustad aşıq qoşmaları sırasında (rədifində) aşıqlar tərəfindən oxunmaqdadır. (25) Bir çoq ustad aşıqlar onun təsiri altında qoşmalar söyləmişdir. Şairin yüksək (26) istedad və qabiliyyəti, fədakar həyatı və faciası onun adını çoq məşhur etmişdir. Şimali (27) Azərbaycan xalqı şairin adını hələ sağ ikən hər oxuyan Molla Pənah olmaz zərbi-məsəli (28) ilə əbədiləşdirmiş idi.

(29) Vaqifın müasirin Qaracadağlı Aşıq Əlinin şairə yazdığı aşağıdakı qoşma onun (30) 18-ci əsirdə nə qədər geniş bir sahədə məşhur olduğunu göstərir:

[77] (1) Bu gövhər sözlərin ey Əlicənab Tamam aşıqların səminə gəlmiş

(2) Fəsahətdə bəlağətdə sənin tək İnanma ki ruyi-zəminə gəlmiş

(3) Bu əsrdə şairlərin xanısan, Müdərrisə bərabərsən yəni sən

(4) Elmin mədənisən gövhərin kanısan Eşidənlər sözün dəminə gəlmiş

(5) Vaqifin qoşmalarından:

(6) Bir xəlvət yer ola, əğyar olmaya Onda söhbət edək ikimiz belə

(7) Əl-ələ tutuşub deyək gülüşək Tutaq bir xoş ülfət ikimiz belə

(8) Qol-boyun oturaq sürtək üz-üzə Baxaq bir-birimizə göz süzə-süzə

(9) Gah-gah qucaqlaşıb köyüs-köyüsə Görək ləbdən ləzzət ikimiz belə

(10) Sürmələnsin ala gözlər şux olsun Siyah kirpiklər ucu elmas ox olsun

(11) Səg rəqiblər aralıqdan yox olsun Gəzək bir fərağət ikimiz belə

(12) Doyunca zövq alaq nazü qəmzədən Əndişə çəkməyək heç bir kimsədən

(13) Hər gecələr şirin-şirin söhbətdən Eyləyək hekayət ikimiz belə

(14) Vaqif yardan eşit gələn cavabı Açaq üzdən gözdən tamam niqabı

(15) Gəh-gəh içib sərxoş olaq şərabı Gündə sürək vəhdət ikimiz belə

(16) Vaqifın bir qəzəli:

(17) Mehribanlıq görməyib bir məhliqadən küsmüşəm

(18) Gündə yüz al eyləyən qəlbi qəradən küsmüşəm

(19) Şəninə dedim şirin söz bir şey ondan dadmadım

(20) Bu səbəbdən ağzı şəkər dilrübadən küsmüşəm

(21) Bir qədəh mey istədim sındırdı könlüm şişəsin

(22) Daş bağırlı saqiyi-sahib-cəfadan küsmüşəm

(23) Çün (uman yerdən küsərlər) bir məsəldir xalq ara

(24) Küsmüşəm bica deyildir aşinadan küsmüşəm

(25) Gördüm əvvəl ki, binasın yarlıq etmək deyil

(26) Vaqifa əsli budur mən bu binadan küsmüşəm

(27) Fars dilində məsnəvi:

(28) شنیدستم که مجنون دل آزار چو شد از مردن لیلی خبردار

گریبان چاک زد با آه و افغان بسوی تربت لیلی شتابان **[78]**(1)

در آنجا کودکی دید ایستاده بهر سو دیده ی حسرت گشاده (2)

نشان قبر لیلی را از او جست چو آن کودك بخندید و بدو گفت (3)

که ای مجنون تر اگر عقل بودی ز من که این تمنا مینمودی (4)

میان قبرها را جستجو کن ز هر مرقد کفی از خاك بو کن (5)

زهر خاکی که بوی عشق برخواست یقین کن تربت لیلی همانجاست (6)

توهم واقف در این دیر جگرسوز رموز عشق از آن کودك بیاموز (7)

(8) **Mənibi və Müraciə:**

(9) 1- Azəri Ədəbiyyatının Təkamülü (18 və 19-cu əsrlər). İslam Ansiklopedisi. (10) Cild 2. Professor Fuad Köprülü.

(11) 2- Azərbaycan Ədəbiyyatı: Əhməd Cəfəroğlu. Türk Dünyası Əl Kitabı. Ankara (1979).

(12) 3- Ədəbiyyatdan İş Kitabı: H. Zeynallı. Abdullah Şaiq. A. Musaxanlı. C. Əfəndizadə (13) Azərnəşr. Baku 1928.

(14) 4- Danışməndani-Azərbaycan: M. A. Tərbiyət.

(15) 5- Vaqif-Əsərləri. Redaktör: H. Araslı. Azərbaycan Elmlər Akadəmisi, Nizami (16) Adına Dil və Ədəbiyyat İnstitusu. Bakü-1945.

[79] (1) **Azərbaycan Ədəbiyyat Tarixinə Bir Baxış**

(5)

(2) **Yazan: Doktor Cavad Heyət**

(3) **Vidadi-** On Səkkizinci əsrin ikinci böyük şairi Vidadidir. Molla Vəli (4) Vidadi 1707-də Şəmkirdə dünyaya gəlmiş lakin həyatının çoxunu Şıxlıda keçirmişdir. (5) Bir zaman Vaqifin dəvəti üzərinə Qarabağa göçüb, Cavanşirdə Gülüstan Xanı müqərrəblərindən (6) olmuş hətta qısa bir müddət Gürcistan şahı İraqlının sarayında xidmət etmişdir. Vaqifin (7) Vidadiyə yazdığı mənzum məktubunda onun Gülüstan Xanı yanında olduğu anlaşılır:

(8) Əy Vidadi yenə xan qulluğunda Qaim olub nə qiyamət eylərsən

(9) Yaman gözdən Allah özü saxlasın Kişi ixlas ilə xidmət eylərsən

(10) Cavanşir xəlqilə ol qohum-qardaş Qazaxın sözünü heç eyləmə faş

(11) Dəmənəm dinini eylə qızılbaş Aqlın olsa özün əlbət eylərsən

(12) Bu şeirdən Vidadinin sünni və Vaqifin şiə məzhəbli olduqları da açıqlanır. Vidadi də (13) Vaqif kimi xalqdan yetişmiş, xalq içində böyümüş və xalq dilində şeir yazmışdır. Vidadi (14) həm aruz həm də həca vəznində şeir demiş, əski divan şeir tərzinə bağlı qaldığı (15) halda qoşma və gəraylı tərzində şeirlər yazıb, bu növ şeirlərin Azərbaycan ədəbiyyatında (16) kökləşməsinə (rişə salmasına) çalışmışdır.

(17) Vidadi tamam ömründə dostu Vaqif və Şəki Xanı Hüseyn Xan Müştaqla yazışmış, (18) müşaərə etmiş və yaqın dostluq münasibətlərini idamə vermişdir lakin Vaqifin əksinə Vidadi (19) həyata bədbin və kədərlə yaşayan bir şairdir. Yaşadığı dövrün fəlakətli və qarışıq günləri, **[80]** (1) oğlunun, əlində təsadüfən açılan tüfənglə ölməsi, Müştaq və Vaqifin qətli onu həyata (2) küskün və mühitinə qarşı bədbin etmişdir. Şair həyatının son illərində həp[54] kədərli (3) mərsiyə tərzində şeir yazmışdır. Elindən, yuvasından ayrı düşməsi, şeirlərində vətən (4) həsrəti motiflərinin tərənümünə səbəb olmuşdur.

[54] Hamısı

(5) Vidadi Vaqifdən daha alim və lisana daha hakimdir. Onun şeirlərində Ərəb və Fars (6) kəlmələri Türk dili ahəng və qanunlarına təbiidir, seçdiyi sözlər saf, təmiz və parlaqdır. (7) Burada Vidadinin yaradıcılığı, şəkli, üslub, təm və ifadə tərzinə aid bir fikir vermək (8) içün nümunə olaraq bir neçə şeirini nəql edirik:

(9) Gəl çəkmə cahan qeydini sən can belə qalmaz

(10) Çox ağlama qan didəyi-giryan belə qalmaz

(11) Gül vaxtı keçər seyri-gülüstan belə qalmaz

(12) Hər ləhzə könül xürrəmü xəndan belə qalmaz

(13) Bir cam yetir saqi ki dövran belə qalmaz

(14) Tən bir gün olur xak ilə yəksan belə qalmaz

(15) Əzbəs bu camal içrə ki canan ola fani

(16) Bu işvə ilə qəddi-xuraman ola fani

(17) Bu gərdəni-xoş zülfi-pərişan ola fani

(18) Bu əhsəni-surətdə ki insan ola fani

(19) Bir cam yetir saqi ki dövran belə qalmaz

(20) Tən bir gün olur xak ilə yəksan belə qalmaz

(21) Yüz mövsümi-xoş xürrəm olub illər açılsa

(22) Yüz lalə bitib susənü sünbüllər açılsa

(23) Yüz bağı-cahan tazələnib güllər açılsa

(24) Könlüm ki açılmaz neçə müşküllər açılsa

(25) Bir cam yetir saqi bu dövran belə qalmaz

(26) Tən bir gün olur xak ilə yəksan belə qalmaz

(27) Sultani-cahan olsa gedər canə inanma

(28) Bir gün pozulur şövkəti-divanə inanma

[81] (1) Çün baqi deyil mülki-Süləymanə inanma

(2) Gər aqil isən gərdişi-dövranə inanma

(3) Bir cam yetir saqi bu dövran belə qalmaz

(4) Tən bir gün olur xak ilə yəksan belə qalmaz

(5) Ah aldı məni dərdi-fəraqü qəmi-həsrət

(6) Sərməst xərab etdi yenə badəyi-heyrət

(7) Bir mehrü vəfa etməli yox kim ola rəğbət

(8) Fövt eyləmə gəl var ikən əldə dəmi-fürsət

(9) Bir cam yetir saqi bu dövran belə qalmaz

(10) Tən bir gün olur xak ilə yəksan belə qalmaz

(11) Fikr etsək əgər dəhrin işi bəhri-bəladır

(12) Bir dürri-giranmayəsi min canə bəhadır

(13) Hər nəqşi bir ayinəyi-isbati-xudadır

(14) Məqsudi-dü aləm yenə təhsili-rizadır

(15) Bir cam yetir saqi bu dövran belə qalmaz

(16) Tən bir gün olur xak yəksan belə qalmaz

(17) Fəhm eylə Vidadi ki cahan bir quru səsdir

(18) Bir dəmdə keçir, öylə ki fəryadi-cərəsdir

(19) Bu bəzmi-fənadə bu nə hənkami-həvəsdir

(20) Gəl durma ki ömrün keçir əncami-nəfəsdir

(21) Bir cam yetir saqi bu dövran belə qalmaz

(22) Tən bir gün olur xak ilə yəksan belə qalmaz

(23) Ey həmdəmim səni qanə qərq elər Gəl tərpətmə, yaralanmış könlümü

(24) Ayrı düşmüş vətənindən əlindən Həmdərdindən aralanmış könlümü

(25) Könül verdik hər bivəfa yadlara

(26) Hayıf oldu ki ömür getdi badlara

[82] (1) Fələk saldı dürlü-dürlü[55] odlara

(2) Şan-şan olmuş paralanmış könlümü

(3) Qanlı yaşım gündən-günə bollandı Axdı axdı sinəm üstə kölləndi

(4) Yenə qəm sinəmi mindi yollandı Heç bilməzəm yaralanmış könlümü

(5) Vidadiyəm xəstə, gözüm mərdümi İtirmişəm qoşunumu ordumu

(6) Çox təbibə şərh eylədim dərdimi Heç görmədim çaralanmış könlümü

(7) Vidadi 1808-də yüz bir yaşında vəfat etmişdir, onun (müsibətnamə) adlı əsəri (8) 18-ci əsir Azərbaycandakı ictimai zülm və ədalətsizliqlər feodal dəyişmələrə və (9) əxlaqsızlıqlara qarşı bir etiraznamə kimidir:

(10) Belədir dövran işi hər gündə bir al eyləmiş

(11) Aqili nadan ilə pəjmürdə əhval eyləmiş

(12) Üz verib namərdə, hərdəm mərdi pamal eyləmiş

(13) Ey Vidadi gəl ki bu heyrət məni lal eyləmiş

[55] Ənvaı-əqsam

(14) Gör nələr qıldı fələk Müştaq tək insanə, bax.

(15) **Müştaq-** Vaqifin məftunu, Vidadinin hörmət etdiyi Şəki Xanı Məhəmməd Hüseyn Xan (16) Vaqif məktəbinə mənsub idi. Təxəllüsü Müştaq olub, xalq sevən bir xan olduğu içün, (17) ətrafına şairləri cəlb etmişdir. Özü də qabiliyyətli şair və maarifpərvər idi. 22 (18) illik xanlıqdan sonra (1750)-da qətl ədilmişdir.

(19) Ətrafında yığışanlar Şəkili Nəbi, Şəkili Raci, Ağca Yazılı Zari, Rafi (21) və bir neçə özgəsi idi.

(21) Ağa Məsih Şirvani- Füzuli məktəbinə mənsubdur, hökumətə yaqın rical arasında (22) hörmət sahibi və nüfuzlu bir şəxsiyyət idi. Həmşəhərilərindən Nəşat və Zəlali ilə məşaərələr (23) etmiştir. Dövrünün siyasi, fəlakətli hadisələrinə təsvirlərlə ədəbiyyatdan çoq tarixə hidmət (24)edən şairlərdəndir. 1748 ilində Əhməd Xan Şahsunun Şamaxıya hücumunu mənzumə (25) şəklində təsvir etmişdir. Bu tarixdən sonra Aqa Məsih yalnız kiçik tarixi mənzumələr (26) yazmış və şahnamə tərzində nisbətən böyük bir əsər vücuda gətirmiş və əsəri Fətəli Xana (27) ithaf etmişdir. Aqa Məsih Şirvani hicri on üçüncü əsrin ibtidasında İranda vəfat (28) etmişdir.

[83] (1) Məsihin şeirləri Möhsün, Sələmi, Valə, Şahid, Qərib, Zakir, Nəvab və başqa şairlər (2) tərəfindən tənzir edilmişdir.

(3) Burada Ağaməsih Şirvanidən bir məşaər və bir müxəmməs (hər birindən bir parça) zikr olunur:

(4) Ey türfə nigari-mahruxsar Ey huriliqa firiştəkirdar

(5) Bu hüsn ilə olmamışkən izhar Oldun məni-dilşikəstəyə yar

(6) Bilmən nəcə hiylə qıldı əğyar Sonra səni məndən etdi bizar

(7) Bəs indi sözüm budur ki təkrar Bir ad ilə et məni günəhkar

(8) Al dəstinə tiğ durma zinhar Öldür məni olsun əllərin var

(9) Bu müxəmməsdə Ağaməsih əhli zamandan şikayət edib deyir:

(10) Dila etmə təvəqqe rastguluq qanda[56] qalmışdır

(11) Qərinə özgədir bunlar keçən dövranda qalmışdır

(12) Nəməkdə qədrü qiymət, nə kəramət nanda qalmışdır

(13) Bəla çəkməkliyə nə tabü taqət canda qalmışdır

(14) Nə asari-şəfa bimar üçün dərmanda qalmışdır

(15) Olubdur qəlb xain həq bilir bir paktinət yox

(16) Düşəndə satmayan dünyada dinin hiç millət yox

(17) Zükur əqsamının təbində əsla doğru bəyət yox

(18) Ünas əhlində bir zərrə hicabü şərmü ismət yox

(19) Təriqi-adəmiyyət yolda, nə ərkanda qalmışdır

(20) Məsiha! kəs təəllüq bu cahandan kim, xəsarət var

(21) Nə təsiri-dua zahir, ərənlərdə nə himmət var

(22) Nə alimlərdə şəriyyət nə bəylərdə ədalət var

(23) Nə bir doğru sözü xəlqin nə bir kəsdə dəyanət var

(24) Həqiqət aşinadə, nə vəfa yaranda qalmışdır

(25) **Nişat Şirvani**- Nişat Şirvaninin təsir sahəsi Məsih kimi vəsi olmuş. (26) O da əski klassik şeir məktəbinə mənsubdur. Ağaməsih ilə həm əsr olub və onun kimi (27) ömrünün çoğunu başqa diyarda İranda səyahətlə keçirmiş və İran şüəra və irfasından təhsil (28) kəmalət eyləmişdir.

(29) Nəşat bu səfərlərində çoq məşəqqət görmüş necə ki bu xüsusda bir qəzəlində yazır:

[56] Ha yanda, harada

[84] (1) Qürbətdə rəhi-səbdə əsbabi-səfər tək

(2) Asudəliyim olmadı hər mənzilə düşdüm

(3) Gər misli-hübab özgə həva başıma düşdü

(4) Bir dəmdə evim tikdimü yıxdım yola düşdüm

(5) Üz görmədim əzbəs ki Nişat əhli-vətəndən

(6) Bu vəch ilədir kim baş alıb hər ələ düşdüm

(7) Nəşatın bir çoq qəzəl, müxəmməs və mürəbbeatı vardır aşağıda bir qəzəlini zikr edirik.

(8) Sənin fərşin ki zahid, bu riyadır Həqiqət mənzilində bu riyadır

(9) Riyadır zahidin gərçi namazı Və lakin xəlq içində xoş ədadır

(10) Nigahından ol ahuçeşmin ey dil Özün saxla kim ol eyni-xətadır

(11) Düşər güzgüyə daim əksi-canan Könül saf olsa hər mətləb rəvadır

(12) Əcəb yox türrəsindən olmuşam şad Mənim bəxtim ki var başdan qaradır

(13) Nişatın könlünü incitmə ey şux Sənə nifrin edər əhli-duadır.

(14) **Şakir Şirvani-** Nadir Şah ordusunun 1735 ilində ki Şirvan talanını təsvir (15) edən Ehval Şirvan adlı bir mənzumə yazmışdır.

(16) **Müştəri-** Fətəli Xan və Vaqif Müştaqın müasiri olub, 1731-də babası Hüseynəli (17) Xanın yerinə keçmiş və Dərbənd, Quba və Saliyan şüəra və aydınlarını himayəsi altına almış və (18) ədəbiyyatın təvsiə və inkişafına yardım (kömək) etmişdir əlimizə çoq az şeirləri keçmişdir.

(19) Bu qəzəl Asarı Dağıstan kitabından alınmış Fətəli Xan Müştərinindir.

(20) Oldu gözəl ömr sərf heyf ki nadanlığa

(21) Hər nə qalır sərf olur indi pəşimanlığa

(22) Zülfi-siyəh zövqünə uyma xətadır könül

(23) Fariq ikən sən səni salma pərişanlığa

(24) Feyzi-əzəl kafili-tərbiyəti-hal ola

(25) Muri-mühəqqər urar laf süləymanlığa

(26) Manəi-ərzi-qəmim heyrəti-didar olur

(27) Mən nə dəyim bilməzəm ah bu heyranlığa

(28) Nəfxeyi-badi-səba ruhə təravət vərir

(29) Çün güzər etmiş səhər sünbülü reyhanlığa

(30) Müştəriyi-dürri-nəzm kimsə deyil haliya

(31) Dürci-dəhən açma kim köhərfşanlığa

[85] (1) **Arif-** adı Hüseyn və əsli Təbrizli olub Qarabağda sakin olmuş və Ağaməsih (2) və Nişatın həməsrdir. Zərif qəzəlləri vardır, dövrün əlamli və vəziyyəni tərənnüm etmişdir.

(3) Bu şair çox arif və danışmanda imiş 1220 hicri qəməridə Şuşada vəfat etmişdir.

(4) Aşağıda bir qəzəli nəql edilir:

(5) Mümkün olmaz yarı görmək bir zaman əğyarsız

(6) Gülşənin dövründə kim görmüş gül olsun xarsız

(7) Dövri dönmüş dövri-dövran bulmadı kamımca seyr

(8) Çərxi-kəcrəftarı bir dəm görmədim azarsız

(9) Qədrü qiymətlər tapıb kuyində yarın qeyrlər

(10) Ləyk mən qaldım qəmi-hicran ara qəmxarsız

(11) Qəm məni pamal qıldı ey müsəlmənan haray

(12) Olmasın kafir də ya rəb mən kimi qəmxarsız

(13) Qəbrimin daşına yaz ey əhli-dil bu misrəi

(14) Vərdi Arif canını min həsrət ilə yarsız

(15) **Aciz-** Narsof tərəfindən mütaliə edilmiş (1856-da Təbrizdə divanı basılmışdır) (16) bu dövrün sayılı şairlərindəndir. Fətəli Şah və Abbas Mirzə zamanında yaşamış və onları (17) mədh etmişdir.

(18) Aciz Fətəli Şah barəsində belə demiş:

(19) Qıldı bünyadımı bu seyli-sirişkim bərbad

(20) Ah əgər olmasa ol şahi-cahandan imdad

(21) Hansı dərgahə qoyum mən üzümü həsrət ilən

(22) Edəm ol qapıda mən naləvü əfğan bünyad

(23) Böylə fəryad çəkim bu fələki-süstnihad

(24) Xanimani-dili-zarım kimi olsun bərbad

(25) Göstərin siz mənə bu şahdən özgə bir şah

(26) Dərgəhində edəm ol dadgərin naləvü dad

(27) Aciz Abbas Mirzənin ruslarla müharibəsini və rusların hiyləgər siyasətini şeirə (28) çəkmiş və Abbas Mirzə vəliahdın rumlarla (Türkiyə) barış və ittihadını şeir ilə təbrik (29) etmişdir.

(30) Aciz Tehranın mədhində belə demiş:

(31) Ey tikən cənnətə göz meyl eləyən rizvanə

(32) Bircə təşrif gətir seyr ələ sən Tehranə

[86] (1) Görgələn cənnət dünyanı əgər adəm sən

(2) Qoyma ol yerdən ayaq dışra bir özgə yanə

(3) Hanı cənnətdə belə bağ behiştdə belə hur

(4) Zahidin vəsfini bihudə qılan əfsanə

(5) O diyar içrə qədəm bircə qoya vaizi-şəhr

(6) Dəyəm ey oğlu ölən, huriyə bax, qılmanə

(7) Bir təmaşa üzə qıl zülfə baxıb kakili gör

(8) Gülü gül üstə qoyub sünbül urar reyhanə

(9) Adəmin nəslini bu hüsndə gər bulsaydı

(10) Səcdə iblis necə etməz idi insanə

(11) Bu yeri görsə pəri getsə behiştə dəyəcək

(12) Necə gör təngə salıbdır məni bu viranə

(13) Nə zəban ilə edim vəsf bu abad olmuş

(14) Bənzəməz Xəlləxa Nuşadəvü Gürcüstanə

(15) Bilmeyir böylə gözəllər belə pakizə məkan

(16) Gəlməyib tarı bilir daireyi əmkanə

(17) Belə cənnət belə rizvan belə hürü qılman

(18) Vərib Allah bu gün padşəhi İrana

(19) Bu duanı ələ Aciz onu sübhani qədim

(20) Bilmüzaəf ələsin düşməsin heç nöqsanə

(21) **Əbdürrəhman Dilbaz oğlu-** 18-ci əsrin sonu və 19-cu əsrin (22) başlarında fəaliyyətdə bulunmuş və dövrü içün mühüm olan Azəri şairlərindəndir. Vətənpervər (23) və ölkə (kişvər)sinin fərhəngi tərəqqisində xidmət etmiş. Gözləri Gürcü Şahı (24) İraqlının əmriylə oyulmuşdur. Gəncə Xanı Cavad Xanın 1804-də vətəni müdafiə (25) edərkən şəhid olmasını təsvir edən mənzuməsi ən ehsaslı şeiridir.

(26) Şeirdə vətən eşqi içün, canını fəda edən bu mücahid xanın ələmli halı ürəkləri (27) yandırıb, sızlatacaq qədər gözəl təsvir edilmiş və Azərbaycan ədəbiyyatında istiqlal mücadələsi (28) izlərini[57] soqmuşdur.

[87] (1) Burada Cavad Xan Ziyadəoğlunun ruslarla müharibəsinə dair yazdığı müxəmməsdən bir (2) qismini nəql edirik:

(3) Bir rəvayət söylə ey dil çərxi-kəcrəftardən

(4) Ta əbəd ruzi-əzəl bəd-mehrü bəd-kirdardən

(5) Çərxi-zalim, dəhri-dun sahib-xəta biardən

(6) Kim Yəzidin izzətin gör şahi-diləfkardən

(7) Gör Cavad xan macərasın möhnəti-məkkardan

(8) Böylədir dövran əzəl insənə al[58] eylər cəhan,

(9) Bir zəman xürrəm qılır bir dəm məlal eylər cəhan

(10) Şah ola, istər gəda aşüftəhal eylər cəhan

(11) Aqibət bir gün gedər himmət-həlal eylər cəhan

(12) Naxudanı qərq edən ol kəştiyi-pürbardən.

(13) Hər zəman dövran salubdır canı canandan cüda

(14) Adəmi Həvvadən ayrı bağı-rizvandan cüda

[57] Nişanə
[58] Hiylə

(15) Xatəmi saldı fələk cahi-Süləymandan cüda

(16) Ah kim düşdi bu gün dövran Cavad xandan cüda

(17) Əskik olmaz zari-bülbül, söhbəti-gülxardən

(18) Şahi-namə vəsf edən yox ol Cavad xan vəsfini

(19) Mədəni-cudü səxavət, ədli-divan vəsfini

(20) Bilmiş Əflətun səharın əhli-meydan vəsfini

(30) Hikməti-Loğmandan artuq dərdə dərman vəsfini

(31) Bir müxəmməs nəzmilə inşa qılım əşardən

(32) Gəncə şəhərində Cavad xan kim, nə əyyam var idi

(33) Sahibi-lütfü ədalət sadiqül-iqrar idi

(34) Hər işin felində mahir aqilü hüşyar idi

(35) Müxtəsər aləm ara imtəhan sərdar idi

(36) Gör nələr çəkdi qəzadanü dövrü-bəd ətvardən.

(37) Düşdi dəvası əzəl ol Şəki, Şirvan ilə

(38) İbrahim xan ittifaq oldu ol Ümməxan ilə

(39) Gəldi ləşgər üstünə ol cümlə Dağıstan ilə

[88] (1) Onlar ilə qıldı dəva sərbəsər meydan ilə

(2) Çəkmədi hərgiz zərər bir fitnəvi-əğyardən

(3) Bir də ondan sonra gəldi valiyi-Bagdatiyan[59]

[59] Gürcistan Şahı İkinci İraqlı.

(4) Yığdı Gürcistan tamamən ləşgəri-Tavadiyan

(5) Neçə illər qıldı dəva çəkmədi ondan ziyan

(6) Vali keçdi çün fenadan, terk edüb ahır cihan

(7) Gör nə sadir oldu Gurgin[60] xan kimi əğyardən

(8) Ol Cavad xan vəsfini necə qələm şərh eyləsin

(9) Şərhə sığmaz vəsfi-halın necə dillər söyləsin

(10) Bir belə sərdarü qazi kim görüpdür böyləsin

(11) Düşdü dəvası onun kari-qəzadən nəyləsin

(12) Padşahi-Rusü sahib-tacilən tumardan

(13) Çəkdi bir il ol Cavad xan eylədi cəngü cidal

(14) Gah sülh etdi arada gah qıldı rəngi-al

(15) Gördi kim olmadı axır artdı fitnə qiylü qal

(16) Gəlmədi imdada hərçənd eylədi yüz ərzi-hal

(17) Fəthəli şah, sahibi-İran olan xunkardan

(18) Ol Hüseynqulu aqa gəldi xanın yanına

(19) Layiqiydi hər hünərlər şövkətinə şanına

(20) İstədi qanın qata ol dəmdə xanın qanına

(21) Qoymadı xan göndərüb bir ğeyr bürc meydanına

(22) Yəni onun vəhşətin mən görməyim didardan

[60] Gürgin Xan İraqlının oğlu və Canşinidir ki 1801-də Rus təbiətini qəbul etdi.

(23) Qələsin sandı Cavad xan ol zəman viranədən

(24) Çox çalışdı ta olunca dərdinə dərmanədən

(25) Feyzi-Həqqdən ta yətincə rəhməti-ğəfranədən

(26) Çıxdı ruhi ol bədəndən rövzeyi-rizvanədən

(27) Ey xoşa buldu şəhadət vahidül-qəhhardən

[89] (1) Həm Hüseynqulu aqa[61] buldu şəhadət novcavan

(2) Xəlqara bür cümlə möhnətdən yaman oldu yaman

(3) Anası ahlar çəkib şəxsey dəyib eylər fəğan

(4) Üz tutub ol barigahə əlvida eylər əman

(5) Binəva düşdüm cüda fərzəndi-gülrüxsardən

(6) Gəncəlü xəlqi şəhadət buldu Həqqə can fəda

(7) Kimi məzlum kimi azadə qalıb əndər-bəla

(8) Hər biri bir növ ilə yüz dərdə oldu mübtəla

(9) Yadına gəlməz məgər məzlumi-dəşti-Kərbəla

(10) Ey utanmaz çərxi-zalim Əhmədi-Muxtardən

(11) Min iki yüz daxı on səkkizdə tarixi-zəman

(12) Kim şəhid oldu Cavad xan çıxdı əz dari-cahan

(13) Çox pərişan oldu hali Gəncənin həddən yaman,

(14) Gəl yetiş imdadə ya Həqq, Məhdiyi-Sahibzəman

[61] Hüseynqulu Aqa Cavad Xanın oğludur.

(15) İnciməzmi xatirin bu dərdü ahi-zardən

(16) Bu müxəmməsdə daha həssas parçalar siyasi məsləhətdən ötürü Firidun Bəy Köçərlinin (17) kitabında həzf edilmişdir, onun içün biz də o qismi ələ gətirəmədik.

(18) **Arif Mustafa Aqa-** Dilbaz oğlu kimi vətənin siyasi qayğılarına qatılmış və (19) nəticədə Rusiya içərlərinə sürgün edilmişdir. 1188 hicridə Qazax məhəlinin Şıxlı (20) qəryəsində anadan olmuş, Türk, Fars və Rus dillərini yaxşı bilmirmiş və qeyrətli, (21) dindar, arif və dana bir kişi imiş. Arif Mustafanın qürbətdə (Gazan, Xarkaf) (22) öz halını bəyan edən şeirindən bir parçasını dərc edirik:

(23) Fikr ələrəm bir-bir düşər yadıma Yarü həmdəm, dost, yaranlar ağlaram

(24) Dolar gözlərim eşqi-al ilə Gözlərimdən axar qanlar ağlaram

(25) Saldı məni fələk işə bisəbəb Sən eylə bir əlac ya qadir çələb

(26) Anıb[62] yarü həmdəmləri ruzü şəb Gah aşikar gah nihanlar ağlaram

(27) Namə yazdım yarə badi-səbadən Dərdi-dilim izhar etdim həvadən

(28) Düşmüşəm avarə əldən-obadən İtirmişəm xanimanlar ağlaram

(29) Vədə keçdi günlərimi sanaram Aylar illər hesabına qanaram

(30) Hər zaman yadıma düşər yanaram O dövranlar, o zamanlar ağlaram

(31) Dad eyləram yətən yoxdu fəryada Dərdim olur gündən-günə ziyada

[90] (1) Ağlaram hər zaman düşəndə yada Bizim Qazax, Qaramanlar[63], ağlaram.

(2) Bülbülümü qaçırmışam əlimdən Ayrılmışam gülşənimdən gülümdən

(3) Cüda düşüb ulusumdan[64] əlimdən İtirmişəm dudmanlar ağlaram

---

62 Yada salıb.

63 Bazı rəvayətə görə Qazax məhalində əvvəlcə yurd və bina salan iki qardaş olublar. Onlardan birinin adı Qazax o birisinin adı Qaraman yaxud Qəhrəman imiş, o cəhətə bu məhalə Qazax-Qaraman demişlər.

64 Millət

(4) Qərq olub kəştilər eşqim selində Yaşılbaşlar oynar çeşmim gölündə

(5) Əsir oldum bəni əsfər əlində Ağlaram ey müsəlmanlar, ağlaram

(6) Hər kimdə ki namus olur ar olur Əhdü iqrarında bərqərar olur

(7) Yaxşı yoldaş yaman gündə var olur Yaman yoldaş ötər yanlar ağlaram

(8) Bu dəmlərdə getmək əgər olmasa Vətən sarı əzmi-səfər olmasa

(9) Arifə bir yaxşı xəbər olmasa Gör eylərəm nə tufanlar ağlaram

(10) Könlüm qalıb əhli-tufan içində Dolanır sərgərdən heyran içində

(11) Qorxuram ki ölüm küfran içində Bada gedə din imanlar ağlaram

(12) Arif, qardaşı Salikin göndərdiyi naməsinə Rusiyadan yazdığı cavabda belə deyir.

(13) Can zarü tənim nizar sənsiz Ömrüm başa yətdi yar sənsiz

(14) Fəryad ki dövrü namüvafiq Qoydu məni ey nigar sənsiz

(15) Dil qönçəsi qan olub, açılmaz Yüz min gər ola bahar sənsiz

(16) Rəngim güli-zəfəranə dönmüş Dil qəmdən olub fikar sənsiz

(17) Yox məndə qərarü tabü taqət Tab etmək olurmu yar sənsiz

(18) Ey gül gecə gündüz Arif ağlar Bülbül kimi zar, zar sənsiz.

(19) Arif Mustafa aqa oğlu Əliyə yazdığı namədə belə deyir:

(20) Olma tarik dərsdən ey nuri-cananım Əli

(21) Pəndimi eylə qəbul ey xanü xaqanım Əli

(22) Var ümidim etməyə zayə əfəndi səyini

(23) Qoymaya dərsində bir kəmsər Osmanım[65] Əli

(24) Mən sənincün eylərəm xeyir-dualər ruzü şəb

(25) Saxlasın hifzü himayətində sübhanım Əli

(26) Payimal etsin ədüvvü hasidin lütfi-ilah

(27) Hər zaman qəmxarın olsun şiri-yəzdanım Əli

(28) Gərçi ey dil mən Əbubəkrü Ömər Osmaniyəm

(29) Haq İmamimdir mənim ol şiri-mərdanım Əli

[91] (1) Könlümün şəhərin fəraqü həsrətin qılmış xərab

(2) Bir üzün görsəm olur abad viranım Əli

(3) Olsun Arif, həşrdə əvvəl şəfiin Mustafa

(4) Sonra Əbubəkrü Ömər Osmanü aslanım Əli

(5) **Salik-** Molla Pənah Vaqifdən sonra Kazım Aqa Salik Şimali Qafqazın müqtədir şairlərindən (6) birisi sayılır 1781=1195-da Şıxlı qəryəsində təvəllüd edibdir, Arif Mustafa (7) Aqanın qardaşıdır Türkcədən suvay fars dilində də gözəl şeir və qəzəllər yazmışdır və (8) 1842-də vəfat etmişdir. Rus şairlərindən Puşkin və Lərmantof müəsiri imiş. (9) Qarabağ şairlərindən Mirzəcan Bəy Mədədof ilə mürasəlat eyləmiş bir naməsində ona belə (10) yazmış:

(11) Sənsən cahanda fikr bekeriylə məsəl merim - Nola çıxarsa şeirin isa tək asmana

(12) Salikin orijinal şeirləri mürəbbe növindədir. Öz əsrinin şair və ədiblərini (13) Qazax məhəlinin hakiminə yazdığı bir şeirində təvsif etmişdir.

(14) Salik Qazax hakimi Xiyaz Palandofun tədbir və aqilanə siyasətindən mədh edir və belə yazır:

[65] Osman efendi Molla vəli vidadinin oğlu və müdərrisdir.

ببرید پای دزدی در وادی شرارت خون می چکد دمادم از خنجر عدالت (15)

(16) Gözəl vəsfində söylədiyi şeirləri Vaqif və Vidadinin əşarlarından (17) aşağı dəyildir burada bir nümunəsini nəql edirik:

(18) Ey şahin cilvəlim şunqar şivəlim Durna tək tellərin cığalanıbdır

(19) Xəstə könlüm onu görəndən bəri Çıxıb asimәna havalanıbdır

(20) Ey ləbləri nabat dəhanı püstə Çəkər həsrətini bu dili xəstə

(21) Xal deyil görünən ağ sinən üstə Bir Quran hərfidir qaralanıbdır

(22) Dəmə ki sevdiyim səni nihandır Sənə aşiqliyim xəlqə əyandır

(23) Dəyibsən busəmin qiyməti candır Almaq üçün bir az bahalanıbdır.

(24) Çox da məndən kənar gəzmə ay pəri Sənsən könlüm zövqi dilim əzbəri

(25) Guşeyi-kuyini bulandan bəri Dərdi-bidərmanım dəvalanıbdır

(26) Məclislər zivəri gördüyün Salik Xaqani Ənvəri gördüyün Salik

(27) Şairlər sərvəri gördüyün Salik Gəl gör sənsiz necə gədalanıbdır.

(28) 1830-da İranda vəba salqını[66] zühur olub minlərce adamların fəvtinə səbəb (29) olmuş Salik şeirində bu salqını bəla asmanı diyə təvsif edib İranlıların Haqq (30) yolundan ayrılıb dalalətə düşdüyü içün gazabı ilahiyə düçar olduqlarını yazır:

[92] (1) Min iki yüz çehlü şeşdə düşdü İranə vəba

(2) Eylədi viranə hər bir şəhri bahökmivqəza

(3) Etdilər cümlə ətibbalər əlacında dəva

(4) Bulmadı bimarı bu dərdin dəvalardan şəfa

[66] Epidemi

(5) Sən özün saxla bizi böylə bəladən ya xuda

(6) Bu zəmanə bəyləri çün zülmə mail oldular

(7) Həm qənilər qapısında məni-sail oldular

(8) Oldular əşrarə bais xeyrə hail oldular

(9) Yıxdılar iman evin həm əqli zail oldular

(10) Aldılar vərdikləri əşyalar üstündən vəba

(11) İçdilər andü qəsəm hər ləhzədə məhz düruğ

(12) Vərdilər hər bəzmdə şəmi-düruğə min füruq

(13) Satdılar qatıq yerinə dik içində abi-duğ

(14) Etdilər gərdənkeşanlıq misli-övc ibni Ənuq, (ənuq)

(15) Padşahlıq iddia etdi dəxi hər bir gəda

(16) Nəfsi-əmmara üləma qəlbini etmiş xərab

(17) Mədrəsə içrə müdərris eyləmiş tərki-kitab

(18) Az qalıbdır parsalar eyləyə meyli-şərab

(19) Şahidü şeyxin duası hərgiz olmaz müstəcab

(20) Müxtəsər bu ki, düşüb yümni-icabətdən dua

(21) Bitəharət gəzdilər həm tutmayıb sövmü[67] səlat

(22) Tariki-qurbanü fitrə oldular, həccü zəkat

(23) İçdilər daim şərabi sandılar abi-həyat

[67] Oruç

(24) Bilməmiş kim təlx eylər kamını zəhri-məmat

(25) Hifz qıl möminləri ol təlxdən ya rəbbəna

(26) Yar-yoldaş bir-birinə kəşfi-əsrar oldular

(27) Hər nə kim əvvəl dədilər sonra inkar oldular

(28) İxtiyar sahibləri həm mərdümazar oldular

(29) Xabi-qəflətdən sanasan şimdi bidar oldular

(30) Yıxdılar rəiyyət evin almaq ilə irtişa

[93] (1) Salik çoq yaqın dostu Sedəfoğlu Süləyman Koxaya yazdığı müstəzatları onun (2) ən qiymətli şeirlərindəndir, Salik dostunu vaqitlərini xoş keçirməyə və zövq u sefa sürmeyə (3) dəvət edir:

(4) Gəl ey Sədəfoğlu Süləyman koxa Meyxanə qapısın edək güşadə

(5) İçək ziyadə

(6) Sərməst olub sərxoş gəzək sübhü şam Dursun yanımızda saqiyi-sadə

(7) Əlində badə

(8) Əlində badə kim dursun həmişə Tövbə nədir bizdə səng ilə şişə

(9) Gəl çox da düşməyək fikrü təşvişə Dərdü qəmi gətirməyək heç yadə

(10) Bu puç dünyadə

(11) Bu puç dünyanın ki çoxdu möhnəti Unutmayaq hərgiz sazü söhbəti

(12) Sənin ölmüşünə, bunun ləzzəti Əgər yüz il getsən olmaz üqbadə

(13) Ey Sədəfzadə

(14) Ey Sədəfzadə sənsən cəvahir Qədir-qiymətindir aləmdə zahir

(15) İkimiz də olaq bu işdə mahir Söylənsin adımız əldə obada

(16) Yətək murada

(17) Yətək murada biz tapaq tubunu Tapmarıq cənnətdə ondan xubunu

(18) Bu dünyanın ha belə məhbubunu O dünyada biz tapmayaq məbada

(19) Qalaq cəfada

(20) Qalaq cəfadavü olaq peşiman Qaçaq düşə bizdən huriyü qılman

(21) Nə biz kafir olaq nə də müsəlman Məlul-müşkül qalaq miskin fətada

(22) Kim yətə dadə

(23) Kim yətə dadə pəs həqdən səvayi Ya rəb, özün saxlasın binəvayi

(24) Salikəm söylərəm hərzə-hərcayi Kimsə bilməz nədir məndə iradə

(25) Edə ifadə

(26) Salik başqa bir müstəzatında dostu Sedəfoğluna deyir ki dünyanın zövq u sefası, (27) mey və saqi vəlalərxi hamısı fənaya mahkumdur gəl bunlardan vaz keçək və xalq biçünə (28) səmim qəlb eylə xidmət və itaət eyləyək.

(29) Salik Cağatay ləhcəsində də şeir yazmışdır.

(30) **Fedai-** Mirzə Məhəmməd Gaibzadə Salikin həm əsri olub Salahlı qəryəsində (31) anadan olub indiki Gaibofların babalarındandır. Saliklə aralarında dostluq **[94]** (1) olduğu əşarından görünür.

(2) **Mənabi və Müraciə:**

(3) 1- Azəri Ədəbiyyatının Təkamülü (18 və 19-cu əsrlər). İslam Ansiklopedisi. (4) Cild 2. Professor Fuad Köprülü.

(5) 2- Azərbaycan Ədəbiyyatı: Əhməd Cəfəroğlu Türk Dünyası Əl Kitabı. Ankara-1979.

(6) 3- Ədəbiyyattan İş Kitabı: H. Zeynallı. Abdulla Şaiq. A. Musaxanlı. H. Əfəndizadə. (7) Bakı-Azernəşri 1928.

(8) 4- Danışməndani-Azərbaycan: M. A. Tərbiyət

(9) 5- Azərbaycan Ədəbiyyatı: Firidun Köçərli. Birinci cild. Elm nəşriyyatı. Baku 1978.

(10) 6- Riyazül-Aşiqin. (Qarabağ şairləri) Təlif Məhəmmədin Mirzə Sadrayı Qarabağı (11) 1325 H çap İstanbul.

[95] (1) Azərbaycan Ədəbiyyat Tarixinə Bir Baxış

(6)

(2) Yazan: Doktor Cavad Heyət

(3) 19-cu əsrdə Qaçar Xanədanı İranda səltənət edirdi əsilləri Türk olan (4) Qaçar hökümdarları İran ədəbiyyatını himayə etməklə yanaşı Türkcə əsərlər yazılmasını da (5) təşviq etdilər. Bundan qabaxkı məqaləmizdə İran münəvvərlərinin Cağatay ədəbiyyatına və (6) Əlişir Nəvainin əsərlərinə olan əlaqələrindən bəhs etmişdik. Bu əlaqə bu əsirdə də idamə tapdı. (7) Fəqət bu ədəbiyyatı yaxşı anlamaq içün bu ədəbi dilin grameri və lüğətini örgənməyə (8) möhtac edilir.

(9) Bu məqsəd içün 18-ci əsrdə başlamış olan filolojik çalışmalar bu əsrdə (10) da idamə tapdı və aşağıda adları zikr edilən əsərlər yazıldı.

(11) **1-Behçetül Lüğət ya Lüğət Türkiyə:** Bu əsər Qazvinli Fəthəli Qaçar tərəfindən (12) yazılıb və Nəsirüddin Şaha ithaf edilmişdir böyük Cağatayca Farsca lüğət kitabıdır.

(13) **2-Xülasəyi Abbasi:** Məhəmməd Xoyi tərəfindən yazılıb vəliahd Abbas Mirzəya təqdim edilmişdir.

(14) **3-Et-Tamga-yı Nəsrı:** Muhammed Salih İsfahani tərəfindən təlif və Nasirəddin Şaha (15) ithaf edilmişdir bu kimi əsərlər Türkcə bilən İran şairlərinin hətta Cağatay ləhcəsinə (16) nə qədər əlaqəmənd olduqlarını göstərir. Hətta bəzi şairlərin bu ləhcədə şeir dədikləri (17) məlumdur bunların arasında Hüccet və Nəşat ən mühümlərindəndir.

(18) Nəşat Gəncinəy Nəşat adındakı məcmuəsində bu ləhcə ilə mənzum və mənsur qitələr **[96]** (1) yazmışdır.

(2) **Bəndəyi Təbrizi-** Mirza Məhəmməd Razi üç dildə şeir və nəsr yazmış və Fətəli (3) Şahın Napoleona göndərdiyi məşhur məktubu bu zat yazmışdır. Şikəstə xəttdə məxsus (4) şivəsi vardır.

(5) Nəstalik də Mir İmad Mirza Salih ayarında xoş xəttdır. **Ziynətül təvarix** onun (6) əsəridir.

(7) Bu əsrdə zühur edən şairlərimizin çoxu mərsiyə şəklində şeir yazmış və bu vəziyyət (8) Şimali Azərbaycanda dahı 19-cu əsrin ortasınacaq idamə taqmışdır.

(9) Bu məqalədə ibtida bu tip şairlərimizdən xülasə olaraq bəhs edəcəyik sonra (10) İran Azərbaycanının keçən əsrdəki mühüm şairlərindən bəhsədib Şimali Azərbaycanda keçən (11) ədəbi cərəyanları qısaca şərh verəcəyik.

(12) **Mərsiyə Ədəbiyyatı:**

(13) Mərsiyə vəfat edənlərə qarşı bəyan təsir və məhəbbət içün yazılan əsərlərdir bu kimi (14) əsərlərin çoxunu qəsidələr təşkil edər. Mərsiyə əski (qədim) Türk ədəbiyyatının növlərindən (15) biridir.

(16) Əski Türk qəbilələrində, ölən bir adama matəm **(yuğ)** tutulan zaman el özü (17) musiqi ilə bərabər ölən xanı, qəhrəmanı, yigiti tərif etməyi adət etmişdi. Matəmdə (18) oxunan parçalara **ağı** dəyilirdi bu ağılar mani[68] şəklində və hər biri müəyyən hala münasibət (19) deyilmişdir:

(20) Şirvanın yastı yolu Sokuldu bastı yolu

(21) Qaçdım başım qurtaram Azrayıl kesdi yolu

(22) Ağılar mərsiyələrin bir şəklidir. Əskidən Türk xalqları içində məşhur olan (23) **Sağur** (mərsiyə)lər qopuzlar ilə birlikdə ümumi yığıncaqlarda və yaxud matəm ayinlərində (24) oxunan şeirlərdi. Yeddi və ya səkkiz heceli dört misradan mürəkkəb olan bu qitələrlə (25) ölənin fəzilətləri, cənglərininin müxtəlif səfhələri, ölən qəhrəman içün bütün elin (26) hətta bütün təbiətin nə qədər mütəəssir olduğu təsvir edilirdi.[69]

---

[68] Mani heman bayatıdır və xalq şeirinin sadə və zengin bir növidir: Rübaiyə bənzər, hece vəzniylə (yeddi heceli) söylənir və ilk iki və ya üç mısra muqaddime yerində və esas nokta və fikir dördüncü mısrala söylənir.

[69] Bu xüsusda merhum Fuad Köprülü Türk ədəbiyyatında ilk mutəsəvvüflar əsərində daha geniş məlumat verir.

[97] (1) Bugün Azərbaycanda məmul olan mərsiyəçilik şiəliklə əlaqədardır və bütün (2) şiə xalqları arasında mərsumdur. Bu növ mərsiyəçilik Şax İsmayıl ilə tərviç edilməyə (3) başlamışdır. Şah İsmayıl və Füzuli kimi böyük şairlər tərəfindən təməl (bünövrə) (4) daşı qoyulan bu növ mənzum və mənsur əsərlər Azəri ədəbiyyatında müstəqil bir riştənin inkişafına (5) imkan verdi. Kərbəla faciəsindən ilham alan şairlər ürək yandıran mərsiyələr yazıb (6) Kərbəla şəhidlərini şeirlərində təqdis etmişlər. Bu tip şairlərimizdən ən çox rəğbət (7) görənləri bunlardır:

(8) **1-Nizameləddin Məhəmməd Tufarqanlı.** Müxəmməs şəklində mərsiyələriylə xalq (9) arasında çoxlu rəğbet görmüşdür. Və 1170 qəməridə vəfat etmişdir. Mərsiyələrini əhli bəytə (10) aid söyləmişdir.

(11) **2- Seyid Fəttah Merağayi.** Müxtəlif mənzum və mənsur əsərlər və mərsiyələr yazmışdır. (12) **Təxəllüsü İşraqdır.** Farsca məsnəvisi Riyazül-Fütuhdan suvay Türkcə şeirləri məsnəvi (13) mərsiyələriylə məruf olmuş və 1175-də Marağa şeyxülislamı ikən vəfat etmişdir.

(14) **3- Hacı Xudavərdi.** Əsli Xoylu olub müəssir mərsiyələr yazmışdır. Təxəllüsü (15) **Taibdir**. Türkcədən suvay Farsca da şeir yazmışdır və 1201 qəməridə vəfat etmişdir.

(16) **4-Daxıl Marağavı.** Marağalı Axund Molla Hüseyn bu növ ədəbiyyatın ustadı olub (17) Kərbəla vaqeini 7 cilddə Türkcə yazıb müntəşir etmişdir. Divanı Təbrizdə mütəəddid dəfələr (18) basılmışdır (çap olmuşdur).

(19) Daxilin əsərləri bütün mərsiyə xanlarının az biridir və hamısı Kərbəla müsibətlərinə (20) məxsusdır. Dili və üslubu sadədir, Kərbəla meydanını təsvir edərkən belə yazır:

(21) Bir gülzardır ki xiyabanın gülləri sinəyi-əhli-matəm tək çak-çak, çeşmə kənarın (22) səbzələri çeşmi-həsrət kimi qəmnak və sahəti-zəmini daməni-gülçin sərasər laləyi-xun və nəsimi- (23) həvası manəndi-ahi-dilnişin və reyhanları yətim zülfü kimi qubaralud və sərvləri əsirlər ahı tək (24) siyahəndud və qönçələri aşiqi-məhzun tək xunbar və sünbülləri zülfi-ərusani-matəmdidə (25) misal tarumar və rayiheyi-nəsimi eşqi-əsıran ilə həmabü həva və həzarələri ətfali-qəriblərə (26) həmnəva və cuybarı məcrayi-eşqi-laləgun və çeşməsarı beeynih didəyi-pürxun, bülbülləri xamuş və (27) bağbanı mədhuş……

(28) İmdi nəzmlərindən bir nümunə nəql edirik:

(29) Vəh nə gülşən çeşməsarı cuyi-xun Novcavanlar nəşi, sərvi-vajəgun

(30) Qanə batmış türrələrdir sünbülü Pənbəyi-dağı-cərahətdir gülü

(31) Bir tərəf güllər tamam olmuş xəzan Bir tərəf məbhut durmuş bağban

[98] (1) Bir tərəf bihəm əsər badi-səmum Bir tərəf zağü zəğən eylər hücum

(2) Qüdsiyan ol gülşənə heyran həmə Vadiyi-heyrətdə sərgərdan həmə

(3) Bir belə gülşəndə ağlar bülbülü Qan içində tərbiyət tapmış gülü

(4) Etdilər diqqətlə çün hər yan nəzər Gördülər açmış zəban susən dəyər:

(5) Bu çəməndir bustani-Kərbəla Məqtəli-pirü cəvani-Kərbəla

(6) Bir tərəf qan içrə yatmış bir cavan Hülqi-pakından olur al qan rəvan

(7) Aşiyani-mürği-peykan peykəri Pay ta sər zəxm, cismi-ənvəri

(8) Bəs ki dəymiş tirü xəncər abdar Hər səri-muyi açıb bir çeşməsar

(9) Yusifi-Misri kimi gülgun kəfən Seyd tək xəncəri-gürgani-cəfa

(10) Kimdi ya rəb ol cəvani-mahru Kimdi yaran ol gəzali-mişkbu

(11) Ümmi-Ləylanın Əliyyi-Əkbəri Kərbəla sərdarının gülpeykəri

(12) Gördülər bir yanda düşmüş xarüzar Bir uca qamətli qolsuz şəhriyar

(13) Bəs ki cismindən olub al hər yan rəvan Kuhü səhranı edib dəryayi-qan

(14) Kimdi yaran ol qəribi-naümid Təşnələr səqqası Abbasi-şəhid.

(15) Və bu da düşmən qarşısında duran Həzrət Əli Əkbərin rəcəzlərindən bir qitə (16) bəhr tavil:

(17) Bilin, ey ləşkəri-kafər bədtinətü bədheybətü biqeyrətü biar cəfacuy cəfakar, xətadidə (18) xətakar, mənəm şibhi-peyəmbər, mənəm nayibi-heydər, mənəm misli-Qəzənfər, mənəm sahibi-xəncər. Bir cavanəm (19) ki, vəcahətdə, səlabətdə, səbahətdə məlahətdə, təravətdə, tələqətdə, lətafətdə, nəcabətdə, mənə (20) yoxdu bərabər nə nəbiyyü nə vəliyyü nə nəqibü və nə nəcib, nə fələkdə mələkü mihru məncam.

(21) Ənvarə və siyarə mənəm, mənəm xəlqdə, həm xülqdə həm nitqdə mirati-rəsuli-mədəniyyü Qüreyşi məzhəri-övsaf (22) Əli şiri-xuda şirsəda mehtərü həm kəhtərü həm xaceyi-Qənbərü həm saqiyi-kövsərü həm qatili-Əntərü həm qaləi-Xeybər (23) ənə Əli ibnəl-Hüseyn, exl…

(24) Və özün quşun cəmaətinə dutub buyurdu:

(25) Sizdə əgər Yəzidi-bədəxtər nişanı var

(26) Gündən işıqdı bizdə peyəmbər nişanı var

(27) Mən nayibi-Hüseyn, Hüseyn varisi Əli

(28) Məndə Hüseynü Heydərü Səfdər nişanı var

(29) Vardır atam Hüseyndə çün surəti Əli,

(30) Etsə qəbul məndə də Qənbər nişanı var

[99] (1) Olmaz hərif kimsə mənə, məndə bixilaf

(2) Abbasi-namdarü dilavər nişanı var.

(3) **6-Raci**. Mirza Ebülhəsən Raci 1247 hicridə Təbrizdə anadan olmuş və (4) Kərbəla şəhidlərinə yazdığı növhələr və Türkcə və Farsca qəzəllər ilə məşhur olmuşdur. (5) Divanı Təbrizdə çap olmuş. Bu şair Məkkədən müraciət edəndə 1292-də dəryayı-qəlzəmdə (6) qərq olmuş və ya qəffar kəlməsi bu hadisəni maddə tarixi olmuşdur. Racinin Farsca (7) və Türkcə qəzəllərindən birər nümunə nəql edirik:

(8) تا ترا لغل لب ایدوست ز می رنگین است

(9) همه عمر مرا موسم فروردین است

لب نوشین تو گر تلخ بعاشق گوید (10)

جز فراق هرچه بگوئی سخنت شیرین است (11)

غم چه داری اگر از هجر تو نابود شوند (12)

هر چه عاشق بکشی باز دوصد چندین است (13)

زاهدا جنت و کوثر بتو ارزان که مرا (14)

دیدن دوست به از جنت و حورالعین است (15)

شب در این شهر همه خلق براحت مشغول (16)

قرعه خواب نرفتن بمن و پروین است (17)

گفتم ای چشم مرو در عقب مه رویا (18)

گفت پندم مده و رو که مرا این دین است (19)

عشق دردیست که راجی زغمش جان نبرد (20)

چون کبوتر که مقید بکف شاهین است (21).

(22) Nə qədər sən kimi bir qönçədəhanım yoxdu

(23) Ey pərivəş bu qədər ahü fəğanım yoxdu

(24) Tutiyayi-xəti can nəqdinə alsəydim əgər

(25) Ey könül bil ki bu sevdadə ziyanım yoxdu

(26) Yarə rəmz ilə hamı dərdimi bildirdüm mən

(27) Kəşfi-raz etməgə hərçənd zəbanım yoxdu

(28) Səri-kuyin mənə dünyadə əta eylədi Həqq

(29) Çünki üqbadə mənim meyli-cinanım yoxdu

[100] (1) Gördi pürsuzlə yandı bu gecə halimə şəm

(2) Çünki bir şəm kimi canı yananım yoxdu

(3) Nəməti-vəslüvə səd şükr yetişdim birənc

(4) Mənim öz taləyimə hiç gümanım yoxdu

(5) Raci yazdum qala məndən bu qəzəl namü nişan

(6) Çünki aləmdə mənim namü nişanım yoxdu

(7) Raci təcnis yaratmaqda çoq hünərlidir aşağıda bir nümunə nəql edirik:

(8) Dəmə zahida sərgüzəşti-behişt Yoxumdur mənim sərdə-gəşti-behişt

(9) Büküb qəddimi eşq ilə bari-qəm Qəmindən iki aləmin fariqəm

(10) Dilü din verib müşkbu kakilə Mənim tək ol aşüftə bu kakilə

(11) Gəl ey aşiqin atəşə yanduran Məni yana-yana qoyub yan duran

(12) Nədir ey səhiqəd günahım mənim Keçər ərşdən hər gün ahım mənim

(13) Sən oyna gecə rudü şətrənc ilə Töküm mən yüzə rud şətrənc ilə

(14) **7-Dilsuz**: Məhəmməd Emin Dilsuz əsli Təbrizlidir.

(15) Bütün ömrünü füqərayla keçirib, şeirlərindən anlaşıldığı üzərə, (16) gah tütün satub gah baqqallıq edib və nəhayət bir müddət zindanda qalmış və ondan sonra da nökərçilik (17) etmişdir Dilsuz şeyxülislamın mədhində yazdığı şeirində fəqirliyindən və bu qidanın (18) az tapıldığından şikayət edir:

(19) Qibləgaha fələyin qəsdi dili zardədir

(20) Aləmin qüssəsi bu xatiri əfkardədir

(21) Günü gündən mənim ənduhü qəmim artıq olur

(22) Bilmirəm bəxtdə ya çərxi cəfakardədir

(23) Aləmin dadrəsi sənsən əya dadrəsim

(24) Bunu iqrar eləyir hamı kim inkardədir

(25) Mən fəqirin də yetiş dadına ey dadə yətən

(26) Dərdimin çarəsi budur ki sərkardədir

(27) Mən ilə buğdanın aləmdə sən et divanın

(28) Görgilə məndədi təqsir o xunxardədir

(29) Neçə müddətdi əlimdən qaçıb ol zalimi dun

(30) Dudmuşam indi sorağın sizin anbardədir

[101] (1) İltimasım budu səndən tutub ol səngdili

(2) Verəsən bəndəyə çün qəsdi dili zardədir

(3) Dilsuzun divanındaki parçalar (başdan 25 səfhə) Farsca olan Həzrət Əli (4) mədhində qəsidələr ilə növhə və sinəzənlərdən sonra Türkcə qəsidə, növhə, sinəzənlər gəlir (5) və nəhayət qəzəliyat, müxəmməs, saqinamə, mədhnamə, rübaiyat, bahariyat və sairəsi vardır. (6) Bu əsərlərdən Dilsuzun mərsiyəsiçilikdən başqa məddahlığı həcv külliyi və qəzəlxanlığı da (7) meydana çıqır.

(8) Bu yazımızda Dilsuzun iki qəzəlini nəql etdikdən sonra bir də həcvlərindən bir nümunə (9) nəql edə cəyik:

(10) Zülfün düşəndə yadə pərişan olur könül

(11) Ləli ləbin xəyali ilə qan olur könül

(12) Seyli sirişkim aləmi qərqi bəla edib

(13) Əzbəs ki dudi ah ilə tufan olur könül

(14) Gülzari hüsn içində əgər qönçə ləblərin

(15) Bir nim xəndə eyləsə xəndan olur könül

(16) Görsəm səni rəqib ilə cami mey içmisən

(17) Rəşk atəşində quş kimi büryan olur könül

(18) Qəmzən oxun atanda kəman qaşdan keçər

(19) Zənbur xanəsi kimi şan şan olur könül

(20) Hər dəm görəndə bağdə ol sərv qəddini

(21) Bixud sənin dalınca xuraman olur könül

(22) Ruyin xəyalı ilə yatıb xab eyləsəm

(23) Xəlvətgəhi vüsaldə mehman olur könül

(24) Dilsuzə lütf üzilə əgər eyləsən nəzər

(25) Müri həqir olsa Süləyman olur könül

(26) Qoydu məni bu dəhrdə avarə gözlərin

(27) Saldı məni bu qəmlərə ol qarə gözlərin

(28) Ey gül işim olub gecə-gündüz fəqan mənim

(29) Bülbülsifət gətirdi məni zarə gözlərin

(30) Yusif kimi bu dəhrdə ey şuxi-dilrüba

[102] (1) Çəkdi məni nə şövqilə bazara gözlərin

(2) İmdi bir həcv şeirindən bir parça:

(3) Qazisin gördün ki qurmuş dam xəlqin malına

(4) Mollasın gör hiyləvü təzvirə bax külli halına

(5) Hacısı tüksüzpərəstdir baxma yoğun şalına

(6) Rövzoxanlar tüpürürlər birbirinin yalına

(7) Bir birilə bəhs edirlər mən də sahibmənbərəm

(8) Ol həkimlər bilmirəm mən bilmir axır kur ilən

(9) Öldürürlər dəhr ara çox naxoşi dəstur ilən

(10) Aləmi sərraf soyar ağlar həmişə şur ilən

(11) Cümlə növkər babi xəlqin malın alur zur ilən

(12) Dinməsəm söylər filan xan tövləsində mehtərəm

(13) İlx.

(14) **Qumri:** Mirza Məhəmməd Taqi Qumri Dərbəndlidir və 1235-də anadan olmuşdur Qumridə (15) Daxil kimi Kərbəla vaqesini başdan ayağa bir dastan halına salmaq istəmişdir. (16) Dindarlıq və mərsiyəçilik cərəyanının mərkəzi olan dərbənd haqqında mərhum Firidun Köçərli (17) belə deyir: Bu şəhərin əhalisi qədimdən islam dinində olduğuna görə həmişə şairə islami (18) məraat edib, dindarlıqda və dinpərvərlikdə şöhrət bulublar. Ramazan mübarək və məhərrəm (19) haram aylarını kəmal sədaqət və ehtiram ilə zühd və ibadətdə və taziyə darlıqda keçirməyi (20) müqəddəs vəzifələrindən hisab edirlər, xüsusən şühədayı-Kərbəla içün ila mərtəbədə taziyə (21) dutub rövzəxavanlığa və şəbihgərdanlığa artıq meyil və rəğbət göstərirlər. Şəbih binası (22) yüz ildən ziyadədir ki Dərbənd şəhərində qoyulubdu.

(23) Qumri haqqında da Köçərli belə yazır: Müəsiri bəynində iştihar bulmuş ziyadə cürətli (24) və himmətli və sahib mənsub və hikam hüzurunda məruf və ictimai nasda Dərbənd əhlinin (25) ihtiyacını bildirən və arzu hal dərdi dilini arsayı zühura gətirən dilavər... bir vücud idi. (26) Ziyadə dindar və çakar əhli-beyt rəsul olduğuna binai qədiman Dərbənddə şəbih əsas mütədavil (27) ikən ol cənab dahı şəbih bisatına rağib və mayil olub hər sənə məbaliğ pullar sərf edib (28) şəbihə dair mükalimat cədidə tərtib edirmiş…

(29) Firidun Köçərli Qumrinin şərh halını yazarkən onun yalnız mərsiyə şeirləri yazmasını (30) belə izah edir: Heyfa ki Qumri qüvvəyi şəriyyəsini ancaq bu yolda yəni müsibət yazmaqda sərf (31) edib özgə qismi asar qoymayıbdır ki şayani-diqqət ola.

Əlbəttə buna səbəb onun **[103]** (1) pişrovları və müasirinin xüsusən Dərbənd əhlinin müsibətnaməni hər qisim əşar və kəlama (2) tərcih dutmaqları və ya şairin özünün əyyami tüfuliyyətindən şəbihkərdanlar və mərsiyəxanlar (3) və növhəsazlar arasında nəşvü nüma tapınası və ev tərbiyəsi olubdur.

(4) Qumrinin külliyatı kitabı Kənzül Mesaib Qumri adına çap olmuş, bu kitab 14 məsumun (5) mənaqib və mesaibində yazılmış şeir kitabıdır. Kitab bir kiçik mənsur müqəddimədən sonra tövhid (6) qəsidəsiylə başlar sonra şeir mədhində və eşq ilə aqlın münazarası gəlir sonra Sultan (7) Nasreddin Şahın mədhində bir qəsidə və 8 saqinamə və Həzrət Məhəmməd S-in mədhində dört (8) qəsidə və Həzrəti Əlinin mədhində 12 qəsidə vardır sonra Peyğəmbərin vəfatı və ondan (9) sonrakı vaqeyi barəsində şeirlər və bilaxarə vaqeyi Kərbəlaya aid müfəssəl mənzum parçalar (10) yazılmışdır.

(11) İmdi Qumrinin şeirlərindən nümunə içün iki parçasını nəql edirik:

(12) Nə növ daxil olum məclisi-Süləymanə

(13) Deyil gədalərə layiq rəvaqi-şahanə

(14) Hanı o rütbə ki bəzmi-Vüsalə qabil olum

(15) **Fəna**[70]vü **Bidil** ilən **Müqbilə** müqabil olum

(16) Nə qabiliyyət ilən həmzəban olum **Mirə**

(17) Nə qism ilən gətirim dürri-nəzmi təsvirə

(18) Nəcə bərabər olum dilşikəstə **Məhzunə**

(19) Kəlamı göz yaşını döndəribdi Ceyhunə

(20) Olum nə növ ilə həmdastan **Bağır** ilən

(21) Əza məcalisini doldurub cəvahir ilən

(22) Nəcə əkim bu gülüstanda nəzm güllərini

[70] Hurufu-siyəh ilə yazılmış adlar mərsiyəci şair və yazıcılardır.

(23) Çəkibdi **Cövhər**iyi-xoşkəlam cövhərini.

(24) Hanı o feyz meyi-eşqdən olum məxmur

(25) İçim **Dəxil** ilə bir camdən şərabi-təhur

(26) Nəcə müqabili-**Xaki** olum bu dəm məni-zar

(27) Cəvahirati-qəzəl eyləyib bu qəmdə nisar

(28) Nə qüdrətim var olam həmtəranə **Sərbazə**

(30) O qədr tutiyi-təbimdə yoxdur əndazə.

[104] (1) Mahi-məhərrəm oldu yenə göylər ağladı

(2) Düşdü cahanə qülqülə aləmlər ağladı

(3) Gəldi mehi-müsibetü eyyami-təziyə

(4) Bu matəmezayə görün kimlər ağladı

(5) Şahi-rüsül əmiri-ərəb xətmi-ənbiya

(6) Əmmaməsin alıb ələ peyğəmbər ağladı

(7) Döndü xəzanə gülşəni Zəhrayi-zəhərdən

(8) Dəşti-Nəcəfdə sərvəri-din Heydər ağladı

(9) Başın alıb diz üstə kəfənsiz vəribdi can

(10) Xeyrənnisə başında qara möcər ağladı

(11) …….

(12) ……..

(13) Övladi Heydərin çəkən ahu fəqaninə

(14) Kərbübəladə möminü həm kafir ağladı

(15) Şama tərəf olanda rəvan karivani qəm

(16) Yer ağladı göy ağladı nə kişvər ağladı

(17) Qumri bu qıssəyi ələməfzanı qıl tamam

(18) Əldə qələm şərarə dutub dəftər ağladı

(19) **Sərraf:** Hacı Rza Sərraf Təbrizli Hacı Məhəmmədin oğludur və 1271 qəməridə (20) Təbrizdə anadan olmuşdur. Cavanlığının ilk çağında təhsil və ticarətlə məşğul olmuş və (21) həyatının çoxunu elm və ədəb və xeyir işlərinə həsr etmişdi. Sərraf 1325 qəməridə (22) 54 yaşında vəfat etmişdir. Sərraf mərsiyə şairlərinin ən görkəmlisi və ya ən görkəmlilərdən (23) biridir. Sərrafın növhə və sinəzanlar və qəzəllərini ehtiva edən Türkcə divanı Təbriz (24) və Tehranda çap olmuş, divanının sonunda bir tək Farsca qəzəli vardır:

(25) Divanı Həzrət Əlinin mədhində deyilmiş bir qəsidəylə başlar növhələr Kərbəla (26) şəhidləri və yaqın akrabalarının dilindən söylənmişdir.

(27) Sərrafın şeir dili sadə, rəvan və xalq dilinə yaqındır. Növhələrini oxuyanda mütəəssir (28) olmamaq mümkün deyil. Uşaqlıq zamanımızdan eşitdiyimiz və yadımızda qalan növhələrin (29) çoxu Sərrafındır. Sərrafın özündən sonrakı şairlərə bu cümlədən müasir qəzəl ustadı (30) Şəhriyara da təsiri olmuşdur. Ustad Şəhriyarın bəzi Türkcə qəzəllərində Sərrafın qəzəllərindəki (31) sözlər təşbihat və ifadə tərzinə oqşayışlar görmək olur imdi nümunə içün Sərrafdan (32) bir necə növhə və qəzəl nəql edəcəyik:

[105] (1) İmam Hüseyn dilindən Həzrət Zeynəbə Kərbəlaya gələndə söylənmiş növhə:

(2) Bu çöldə bacı möhnəti-hicran sənin olsun

(3) Ağlar göz ilə zülfi-pərişan sənin olsun

(4) Əhd eyləmişəm burda gərək təşnə vərəm can

(5) Başsız bədənim isti qum üstə qala üryan

(6) Mənlə yata, bu çöldə gərək yətmiş iki can

(7) Şam içrə bacı mənzili-viran sənin olsun

(8) Bu dəşti-bəla olmuş əcəb bəzmi-mürəttəb

(9) Qəm camın ediblər meyi-möhnətlə ləbaləb

(10) Təqsim olunur Əli-peyğəmbər, bacı Zeynəb

(11) Abbas mənim, abidi-nalan sənin olsun

(12) Tərk eylər ədu hörmətü Quranü kitabı

(13) Yağmaya gedər Fatimənin taqətü tabı

(14) Mən Əsğəri ağuşə alım sən də Rübabı

(15) Bu şərtlə peykan mənim, əfqan sənin olsun

(16) Bu çöldə batar kakili-Əkbər bacı qanə

(17) Tiri-qəmə Ləylanın olur cismi nişanə

(18) Mən ölməmişəm gəlməgilən ahü fəqanə

(19) Məndən sonra bu naləvü efqan sənin olsun

(20) Görsən başımı Əkbər ilə nizədə həmsər

(21) Vur başına gəl naləyə salma yərə məcər

(22) Olmuş bacı can ruzi-əzəl boylə müqərrər

(23) Bu dəşt mənim kuhi biyaban sənin olsun

(24) Hər zülmü sitəm gəlsə bacı olma pərişan

(25) Peymanəyi-qəm nuş əylə ta sınmaya peyman

(26) Cəm et başıva silsiləyi-Əli Rəsuli

(27) Sərsilsilə qıl Abidi-bimarü məluli

(28) Kül üstə qoy bacı kəsik başımı xuli

(29) Tənnur mənim sinəyi-suzan sənin olsun

(30) Sərrafə riza lazımədir gövhəri məna

(31) Nə qişr nə tərkib nə surət nə həyulə

[106] (1) Təhsili kəmalət edib qabili-inşa

(2) Ta ruzi-cəza rövzeyi-rizvan sənin olsun.

(3) Əli Əkbərin anasından vəda növhəsi:

(4) Gəl halal eylə məni azimi meydanəm ana

(5) Bir dəqiqə sənə bu xəymədə mehmanəm ana

(6) Çün verib sərvəri-ləbtəşnə mənə izin-cihad

(7) Eyləyüb xətiri-naşadımı bir hərf ilə şad

(8) Qalmayıb həsrətim aləmdə budur eyni-murad

(9) Xaki-payündə fədayi-rəhi cananəm ana

(10) Biədəb sanma məni bəs ki varımdır ətəşim

(11) Quruyub qönçə dodaqım odu xəndanəm ana

(12) İçmərəm su gedərəm məclisi-cananə susuz

(13) Ciddü cəhdim budur imdi boyanam qanə susuz

(14) Bağlanıb su yolu səd şükür açıqdır rəhi-eşq

(15) Kərbəla dəşti olub məzhəri şahənşahi-eşq

(16) Gəştiyi-eşq ilə memlüvdü qurbangəhi-eşq

(17) Qoy gedim mən də verim can sənə qurbanəm ana

(18) Yaz dübarə bu sözü dəftəri-Sarrəfə Rza

(19) Gəl halal eylə məni azami-meydanəm ana

(20) Həzrət Ümmü Ləyla Dilindən Əli Əkbəre:

(21) Düşməmiş yer üzünə sərvi-xuramanın oğul

(22) Qoy edim şanə səri-zülfi-pərişanın oğul

(23) Həlqə-həlqə tökülüb dəsteyi-kakil üzüvə

(24) Diyəsən sünbüli-tərdir dağılıb gül üzüvə

(25) Oldu könlüm quşu bülbül kimi mayil üzüvə

(26) Gördü türfə gül açıb tərfi-gülüstanın oğul

(27) İmdi ki izn veribdir sənə şahi-şühəda

(28) Yeri get durma Əli, qafilədən olma cüda

(29) Sən də Qasim kimi qıl canuvi cananə fəda

(30) Götür imdi ələ mənzurini Ləylanın, oğul

[107] (1) Gərçi Ləylayı-vüsalundan ötür Məcnunəm

(2) Demərəm getmə bu getmə yoh çox məmnunəm

(3) Sən əgər batmayasan qanuva mən məğbunəm

(4) Göz yaşım tək axa bu çöldə gərək qanun oğul

(5) Bürci-tövhiddə bir bədri-münəvvərsən Əli

(6) Sərbəsər ayineyi-hüsni peyəmbərsən Əli

(7) Mən nə vəch ilə deyim Yusifə bənzərsən Əli

(8) Vardı çox fərqi sən ilən məhi-Kənanın oğul

(9) Onu Misr içrə alıb satdıla cüzi-səmənə

(10) Səni can nəqdinə allam yenə vərməzlə mənə

(11) Kuyi-qurban gəhi-eşq içrə nə bənzer o sənə

(12) Ola qurbani anan sən kimi qurbanın oğul

(13) Gərçi bu şəhərdə olmuş hamı əsnafi-süxən

(14) Səni təyidi-Hüseyn eylədi Sərrafi-süxən

(15) Oxu bu misraı çox vurma daxı lafı süxən

(16) Düşməmişdir yer üzünə sərvi-xuramanın oğul.

(17) Kərbəladan Şama Gedəndə Həzrəti Zeynəb dilindən söylənmiş növhə:

(18) Bu diyari-Kərbəla bu sən xudahafiz Hüseyn

(19) Karivan yolandı Şamə mən xudahafiz Hüseyn

(20) Dəstgirəm, acizəm zənciri-zülmə bağlıyam

(21) Yeddi qardaşım ölüb qardaş ürəkdən dağlıyam

(22) Mümkün olmur səs çəkəm, bircə doyunca ağlıyam

(23) Dövrəmi axır alıb düşmən, xüdahafız Hüseyn

(24) Gülşəni-cismində xəncər yarəsi gül-gül açıb

(25) Oh o gül gül yarələr üstündə xoş sümbül açıb,

(26) Şərhi-hal etməkliyə hər yarə yüz min dil açıb

(27) Olmusan sər ta bepa gülşən, xüdahafız Hüseyn

(28) Zeynəbin ölsün Hüseyn gər bircə sənsiz Zeynəbə

(29) Pasibandır Şümri-zilcövşən xudahafiz Hüseyn

(30) Bax bu Sərrafın Rza gözdən axan göz yaşinə

(31) İbrət eylə sən də göz yaşın burax özbaşinə

[108] (1) Dəmbədəm Zeynəb dilincə ərz qıl qardaşına,

(2) Bu diyari-Kərbəla, bu sən, xudahafız, Hüseyn.

(3) **Həzrət Fatma Dilindən Tənurə Xulidəki İmam Hüseynin Başına:**

(4) Ey nuri-eynim mənzil mübarək Bikəs Hüseynim mənzil mübarək

(5) Dur bir anava xoşgəldin eylə Ey nuri-eynim mənzil mübarək

(6) Lazımdı yatsun bülbül gül üstə Ta sayə salsun gül bülbül üstə

(7) Kəsmişdim indi qan içrə yanun Xüşk eyləyirdim zülfümlə qanun

(8) Nagəh yetişdi öz saribanun Ey nuri-eynim mənzil mübarək

(9) **Aşura Gecəsi Növhəsi:**

(10) Güli-gülzari-rəsalət bu gecə Şümrdən istədi möhlət bu gecə

(11) Bir doyunca baxa Əkbər üzünə Eyləyə ayə təlavət bu gecə

(12) Zeynəbin qəlbini aram eləyib Ola məşğuli ibadət bu gecə

(13) Yatmayıb Əli-Əli sübhə kimi Şiə yatsın Nəcə rahət bu gecə

(14) Bağlanıb su öylə, ləb təşnə qalıb İtrəti-şahi-vilayət bu gec

(15) **İmdi qəzəllərdən nümunə vəreceyik:**

(16) Pərivəşlər həmişə rəsmdir üşşaqa naz eylər

(17) Mənim yarımda insafü mürüvvət çoxdur az eylər

(18) Xəyali-kakuli-mişkinə könlüm oldu piçidə

(19) Bu ömri-kutəhilən söhbəti-zülfi-diraz eylər

(20) Dəhanun sirrini bilməzdi əqlim eşqin örgətdi

(21) Əcəb divanədir biganəyə ifşayı-raz eylər

(22) Müxalif zəminə bəzmi-tərəbdə mütribi-məclis

(23) Bir özgə şur ilən başlar nəva tərki-hicaz eylər

(24) Könül çini-səri-zülfündə etməz nalə bihudə

(25) Qaranluq gecədə məhbubilən razu-niyaz eylər

(26) Hadisi-eşqi Məhbudi soruşma hər tərəşrudən

(27) Onu şirin hekayət eyləsə hüsni-Əyaz eylər

(28) Ümidim var yetə Sərraf əli axirdə bir yanə

(29) Məhəbbət butəsində bəs ki can nəqdin güdaz eylər

[109] (1) Nolurdu məclisimiz bir dəqiqə xəlvət olaydı

(2) Dəyib danışmağa cananilən fərağət olaydı

(3) Bərabərimdə nigarım yanaydı şəm kimi

(4) Mən ahi-sərd çəkəydim o gərmi-söhbət olaydı

(5) Gəhi duraydı qabağımda sərv qamətilən

(6) Gözüm görə-görə bu nəşədə qiyamət olaydı

(7) Dəyüb gülüb oturaydıq kəməli işrətilən

(8) Bəsani-ayinə dil xali əz küdurət olaydı

(9) …….

(10) Yətibdü təngə dəxı təngnayi-aləmdən

(11) Əcəl gələydi bu Sərraf öləydi rahət olaydı

(12) **Son olaraq Farsca şeirini nəql edirik:**

(13) کاش از غم زمانه بیا سود می دمی

(14) دامن ز چنگ حادثه بربود می دمی

(15) صیاد اگر ز بند بلایم رها کند

(16) آسوده با خیال تو بسرود می دمی

(17) کو خضر پی خجسته بیابان عشق را

(18) من هم بپای لنگ بپیمودمی دمی

(19) هرگز خیال سوسن و سنبل نکردمی

(20) گردیده بر جمال تو بگشودمی دمی

(21) با این تن بلاکش و این آه آتشین

(22) در بزم عشق لاله رخان بودمی دمی

(23) اندر طریق عشق تو سودوزیان یکی است

(24) نه در پی زیانم و نه سودمی دمی

(25) بر من مخوان حکایت عشق ایاز را

(26) من عاشق بلاکش محمود می دمی

(27) بر فرق فرقدان بنهم پشت پای را

(28) گر باستان درت سودمی دمی سر

(29) از نقد جان براه غمت هر چه کاستم

(30) اندر سر محبتت افزودمی دمی

(31) از خوب وزشت خلق جهان دم غنیمت است

(32) اکنون بدرد هجر تو خشنودمی دمی

]110 [ )1) رسوای خاص عالم دور از تو کاشکی

(2) دامن بخون دیده بیالودمی دمی

(3) از دیده سیم اشك ببارم بروی زرد

(4) صراف این در اهم معدودمی دمی

(5) Bu şairlərdən suvay Cənub Azərbaycanda **Pürqəm** və **Şükuhi** və Dərbənd də **Şüai** (6) və **Sepəhri** və Bakıda **Mirzə Həsib Qüdsi** kimi görkəmli mərsiyə şairlərini və daha (7) başqalarını da qeyd etmək lazımdır.

(8) **Mənabi və Müraciə:**

(9) 1- Azəri Ədəbiyyatının Təkamülü (18 və 19-cu Əsrlər). İslam Ansiklopedisi. (10) Cild 2 Professor Fuad Köprülü.

(11) 2- Azərbaycan Ədəbiyyatı: Əhməd Cəfəroğlu. Türk Dünyası Əl Kitabı. Ankara (1977).

(12) 3- Ədəbiyyatdan İş Kitabı: H. Zeynallı. Abdulla Şaiq. A. Musaxanlı. C. Efəndizadə. (13) Azernəşr. Baku (1928).

(14) 4- Azərbaycan Ədəbiyyatı. Birinci Cild. Firidun Bəy Köçərli. Elm Nəşriyyatı. Baku. (15) (1978).

(16) 5- Divanı Raci. Çap Təbriz

(17) 6- Külliyatı-Kitab Kənzül-Məsaib Qumri Der Mənaqib və Məsaib Çəhardə Məsum Aləyhümüsselam. (18) Muse Çap və İntişarat Əbdürrəhim Elmi. Tehran

(19) 7- Divanı Sərraf. Növhə Türki və Sinəzənləri. Kitabferiş Bu Zercemheri (Mustafi) (20) Tehran. (55)

(21) 8- Danışməndan Azərbaycan. M. A. Tərbiyət.

[111] (1) Azərbaycan Ədəbiyyat Tarixinə Bir Baxış

(7)

(2) Yazan: Doktor Cavad Heyət

(3) **Nəbati**: Seyid Əbülqasım Nəbati 19-cu əsrin ən görkəmli Azəri şairlərindən (4) olub bəlkə də o əsrdə İran Azərbaycanının ən görkəmli şairidir. Onun Nəbati (5) Xançobanı və Məcnunşah taxalluslarıyla yazdığı əsərlə helə öz sağlığında eldən elə gəzər və eldən (6) elə dolaşırdı. Nəbatinin bir çox şeirləri İran və Azərbaycandan suvay Türkiyə və Orta (7) Asiyada məşhur olmuşdu. Özü bu baredə belə deyir:

(8) Meydan aşqda seyr tadım atı - Məşxur eylədim rumi heratı

(9) از شعر دلفریب نباتی نه این جهان نه گنبد سپهر برین زیب و شان گرفت

(10) Nəbati mütəsəvvif bir şairdir və Farsca-Türkcə divan yazmışdır. Divanı ilk dəfə (11) Təbrizdə sonrada Tehran və Bakuda çap olmuşdur. Nəbati həm klassik ədəbi səbkdə həm də (12) xalq şeiri tərzində şeirlər yazmış və məhəlli ahənglərlə oxunan keremi, gereyli qoşmaları (13) aşıqların əzbəri olmuşdur.

(14) Nəbati haqqında ilk təhqiqi məlumatı Azərbaycanın məşhur ədəbiyyatşünası mərhum Firidun (15) Köçərli vermişdir.

(16) Köçərli onun barəsində belə deyir: Seyid Əbülqasım **Nəbati Azərbaycan Türklərinin** (17) **Xoca Hafızı, Şemsi Təbrizisi** və hətta bəzi əşar və kəlamında **[112]** (1) **Cəlaləddin Rumi** mənziləsidir. O dərviş məslək bir insan olub, dünyanın şövkət (2) və malına itina etməzdi Nəbatinin təvəllüd tarixi qəti bilinmir 1800-də anadan olduğu (3) təxmin edilir. Nəbati barəsində ikinci yazılı mənbə mərhum Məhəmmədəli Tərbiyətin yazdığı (4) "Danışməndani-Azərbaycan"dır. Tərbiyətin yazdığına görə Nəbati Seyid Möhtərəm Üştibinin oğludur (5) bir müddət Üştibində yaşamış sonra Əhərə mühacirət edib, Şeyh Şihabəddinin məqbərəsində (6) riyazət və say məşğul olmuşdur. Ömrünün sonlarında Üştibinə qayıtmış və (7) (1860-1862) də vəfat etmişdir. Məzarı oradadır.

(8) Şairin Nəbati və Xan Çobanı təxəllüslərini seçməsi Nəbat adında bir qıza əlaqəsi və (9) bir müddət çobanlıq etməsiylə əlaqədardır. Gözlər gözlərim rədifli şeirində ana dilinin Türkcə (10) olduğu və çobanlıqla irtibatı aydınlanır.

(11) Şəhrbəndi-dildə bir sultanı gözlər gözlərim

(12) Bir şəhi-zərrin kəmər xaqanı gözlər gözlərim

(13) Bəççeyi-Türkəm, dilim Türki, kəlamım həcv-məcv

(14) Xançobani can alan, cancanı gözlər gözlərim

(15) Qoyunu yüz eylədim bu çöldə qışlaq etmənəm

(16) Zinəti-mülki-Muğan Ultanı gözlər gözlərim

(17) Farsca şeirində də belə deyir:

(18)از خامه ی خان چوبانی من عاجز شده کلك ماني من

(19) خواهی که شوی تو نیز موسی یك چند بکن چوبانی من

(20) Məcnun deyirlər adıma amma Nəbatiyəm Dayim işimdi kam alıram mən nəbatdan

(21) Aləm bilir ki, mən yəyirəm müttəssil nəbat Əl çəkmişəm usanmayan abü nəbatdən

(22) Nəbati başqa şeirlərində sevgilisinin adı Gəzgəz olduğunu bəyan edir:

(23) Nisbəti yox pəriyə Gəzgəzin, Allah bilir

(24) Mələkin həddi nədi huri o, hura, hura

(25) Biri səhbadan olub məst biri minadən

(26) Məni divanə qılıb bir gözü şəhla, şəhla

[113] (1) Qorxuram inciyə Məcnun, küsə məndən, yoxsa

(2) Deyərəm Gəzgəzə həmta ola Ləyli nəçidir

(3) Getdi Şirinü Züləyxa, ələ gəlməz Ləyli

(4) İndi bu əsrdə kim, afəti dövran gəz-gəz

(5) Tapmasan dəxi Nəbati kimi əfsanə deyən

(6) Əlinə şəm götür, gün kimi yan-yan, gəz-gəz

(7) Ərəb, Fars və Türk dillərin incəliklərinə dək bilən şair klassikləri oxuyub (8) mənimsəmiş və təlimi ustadlarından alaraq mövzuları isə öz mühit və zamanında (9) almışdır. Onun qəzəl dili sadə, təşbeh, istiarələri yenidir.

(10) Nəbatidə Hafızın böyük təsiri olmuşdur. Onun Farsca şeirlərində Hafız qəzəllərinin (11) təxmisi xüsusi yer tutar. Türkcə şeirlərində də Hafız yolu, təfəkkür tərzi və dünya baxışı (12) öz təsirini göstərməkdədir.

(13) Dürdnuşi-Hafizəm rindanə məna söylərəm

(14) Üştibində badəyi-Xulları gözlər gözlərim

(15) Nəbatidə Nəsiminin də güçlü təsiri vardır, işlətdiyi bir çox fikr, mövzu (16) və hətta kəlmə və ifadələr Nəsimi əsərlərində olduğu kimidir: Nəsiminin "Məndə sığar iki (17) cahan, mən bu cahanə sığmazam" fikr və ifadə Nəbatidə:

(18) شد جلوه گر جمال تو چون در مثال من

(19) در حیرتم چگونه مرا این جهان گرفت

(20) Kimi bəyan edilmişdir.

(21) Nəbatidə Əlişir Nəvainin də təsiri olmuş fəqət Füzulinin təsiri daha güçlüdür (22) bəzi şeirlərində sanki Füzuli ilə danışır.

(23) Füzuli:

(24) Ey əsiri-dami-qəm bir guşeyi-meyxanə tut

(25) Tutma zühhadın müxalif pəndini, peymanə tut

(26) Nəbati:

(27) Tutdum genə xoş həngilə meyxanəni meyxanəni

(28) Saqi amandır durma, ver peymanəni, peymanəni

(29) Füzulinin məşhur:

[114] (1) Dust bipərva fələk birəhm dövran bisükun

(2) Dərd çox həmdərd yox düşmən qəvi talə zəbun

(3) Bəyti Nəbatinin Farsca yazdığı bir şeirində təzmin edilmişdir.

(4) شاعری را که در این عصر نیرزد به جوی

(5) در حقیقت بجز از بیهده گوئی کاری

(6) یار بی رحم و فلک در سرکین من بی کس

(7) چاره آنستکه صر داد در این ره باری

(8) Nəbatidə Saibin də təsiri olmuş Nəbati onu məhrəmi-xəlvət və munisi hesab edir.

(9) Məhrəmi-xalveti-ünsüm hani Saib Saib

(10) Ləhnə bax nəğməyə bax bülbülü-şeydan nəçidir

(11) Sehl sandım eşqi əvvəl bəs dedim baziçədir

(12) İndi gəl gör mövceyi-tufanı gözləri gözlərim

(13) گرفتم سهل سوز عشق را اول ندانستم

(14) که صد دریای آتش از شراری میشود پیدا)صائب

(15) Yoxarıda adını çəkdiyimiz klassik şairlərdən suvay Şah Nəmətulla Vəli, İbn Sina, (16) Xəyyam, Mövləvi, Cami və başqalarının da Nəbatidə təsirləri olmuşdur. Helə Mövləvinin (17) təsiri Farsca şeirlərində daha çoqdur:

دیوانه شو دیوانه شو از جمله کس بیگانه شو (18)

عاشق مشو گفتم ترا چونکه شدی مردانه شو (19)

بر باده ده سجاده را آتش بزن این خرقه را (20)

بر شمع روی مهوشی پروانه شو پروانه شو (21)

با زاهدان الفت مکن با عابدان صحبت مکن (22)

در حلقه دردی کشان پیمانه شو پیمانه شو (23)

با خرقه پوشان کم نشین از صوفیان دوری گزین (24)

چون عاشقان شنگ و مست مستانه شو مستانه شو (25)

این بند من در گوش کن جام تجرد نوش کن (26)

در گوشه میخانه ای رهبانه شو رهبانه شو (27)

در خانه منشین چون زنان بیرون خرام از خانمان (1(**]115[**

مانند مجنون در زبان افسانه شو افسانه شو (2)

باید نمودن ترك سر از دین و دل گشتن بدر (3)

گر طالب یاری ز خود بیگانه شو بیگانه شو (4)

بر هر گلی مایل مشو یکدم ز خود غافل مشو (5)

در مسند فقر و فنا سنگانه شو سنگانه شو (6)

از مسجد و از صومعه حاصل نگردد مطلبی (7)

همچون نباتی ساکن میخانه شو میخانه شو (8)

(9) Nəbatinin bu qəzəlini Mövləvinin aşağıdakı qəzəlləriylə müqayisə edərsək Mövləvinin (10) onda nə dərəcə təsir buraqdığı açıqlanır:

حیلت رها کن عاشقا دیوانه شو دیوانه شو (11)

(12) واندر دل آتش درآ پروانه شو پروانه شو

(13) گر عاشقی در عشق او دیوانه شو دیوانه شو

(14) ور هوش داری زودتر مستانه شو مستانه شو

(15) گر عاشقی رو غم مخور در آتش عشقش گذر

(16) پس پیش شمع روی او پروانه شو پروانه شو

(17) گر مرد عشقی مردسان از خانه بیرون نه قدم

(18) ور مرد عشقش نیستی باخانه شو باخانه شو

(19) Nəbati Həzrət Əliyə hayranlıqla bağlıdır və onun mədhində qəsidə və qəzəllər söyləmişdir.

(20) Misal içün aşağıdakı tərcibəndi nəql edirik:

(21) Saqiya dur badə ver açıldı gül gəldi bəhar

(22) Əbri-rəhmət eylədi səhravu-bağu-laləzar

(23) Nalə çək bülbül kimi dur rəqsə gəl divanəvar

(24) Məstü-məstanə bu ismi söylə hər dəm aşikar

(25) Şahi-mərdan Şiri-yəzdan Heydəri-Düldülsəvar

(26) La fəta illa Əli la seyfə illa Zülfüqar

(27) Balığın qarnında Yunis oldu çün zaru-həzin

(28) Taqəti taq oldu getdi səbri oldu çox qəmin

[116] (1) Hazır oldu ol zaman yanında Cibrili-Əmin

(2) Söylədi qəmdən xilas ol eylə bu zikri həmin

(3) Şiri-mərdan Şiri-yəzdan Heydəri-Düldülsəvar

(4) La fəta illa Əli la seyfə illa Zülfüqar

(5) Mahi-Kənanı çün etdi rənci-zindan biqərar

(6) Oldu zənciri-cəfadən cismi-pakı parə-par

(7) Həddən ötdü çünki möhnət tapmadı bir qəmküsar

(8) Yüz dutub dərgahi-Həqqə söylədi biixtiyar

(9) Şahi-mərdan Şiri-yəzdan Heydəri-Düldülsəvar

(10) La fəta illa Əli la seyfə illa Zülfüqar

(11) Ey Nəbati mədhi-Şahı daim eylə aşikar

(12) Ta ki olsunlar xəvaricləر həsəddən kuri-kar

(13) Hasil oldu ta muradın qafil olma zinhar

(14) Söylə bu ismi-əzimi dəmbədəm biixtiyar,

(15) Şahi-mərdan Şiri-yəzdan Heydəri-Düldülsəvar

(16) La fəta illa Əli la seyfə illa Zülfüqar.

(17) Nəbatinin bir Farsca bir də Türkcə bəhri-təvili vardır nümunə içün hər ikisindən (18) birər parça nəql edirik: **Bismillahirrahmanirrahim:**

(19) منبع چشمه هر کلمه که جاری شود از نطق و بیان کام و زبان اسم خداوند عظیم است که

از لطف و کرم داده بهر نوع بشر عقل و هنر قوت و ادراك دوابرو و دو گوش و دوبصر (20)عارض مانند قمر سرو قد (21)موی کمر کاسه سرمد نظر هوش و برودوش و بناگوش و لب

(22) نوش و ... İştə Türkcə bəhri-təvilindən bir parça:

(23) Səni mən ey məh ənvər nəcə tərif qılum yoxdu şəbihin bu lətafət bu şərafət bu cahan (24) üzrə pəri hurilər olmaz nə deyəm qalmışam aciz bu vəcahət bu məlahətdə Züləyha nədi Ləyla nədi Azra nədi Selma (25) nədi.

(26) Billah ki üzün tək ola bilməz gül hamra habelə yoxdu qadun tək çəmən dəhrdə bir sərvi- (27) dilara və nə şimşad ü nə arar nə sanəvber hanı zülfün kimi sünbül..

(28) İmdi təcnislərindən də bir nümunə nəql edirik:

(29) Səba, bu ərzımı ələ salma, ya Yetir bu ərzımı mənim salmaya

(30) Nəçün gərək məni yada salmaya Onun Nəbati tək ayağı gərək

[117] (1) Nəbati zamanında İran-rus müharibələri faqir və cəhalətdə qalmış xalqı daha fəci və (2) dözümsüz bir hala gətirmişdi. Nəbati bütün bu hərc ü mərcliq və faqir və fəlakətlərə şahid (3) olmuşdu. Bu cərəyanlar onun həssas ruhunu sızlatıb şeirlərində öz təsirini (4) göstərmişdir. Aşağıdakı rübai bunun bir misalidir:

(5)در در که خلق بندگی ما را کشت

(6)از بهر دو نان دوندگی ما را کشت

(7)که منت روزگار که منت خلق

(8)ای مرگ بیا که زندگی ما را کشت

(9) Bu çöl olmuşda mənim başıma çox iş gəldi

(10) Çatmamış yayə xəbər gətdilə ki, qış gəldi!

(11) Nəbati bu canı yaxan hadisələrdən ümidini kəsmir və bir inamla bu dərdlərə çarə edəcək (12) bir qəhrəmanın yolunu gözləyir:

(13) Qarət eylər ömrü hər bidərdə dərdi söyləmək

(14) Qəm yükün açmağə bir qəmxarı gözlər gözlərim

(15) Bikəsü bimar düşmənlər kəsib ətrafımı

(16) Bir şəhi-xunxar, bir səyyafı (şimşirzen) gözlər gözlərim.

(17) ایدل غمدیده برکش آه و افغانی تو نیز

(18) سر ببالین نه شبی در فکر جانانی تو نیز

(19) چون نگین سلطنت در دست دیو افتاده است

(20) پس بدست آور در این کشور سلیمانی تو نیز

(21) Bununla belə bəzən şair ümitsizliyə düşür gözlədiyinin həsrətiylə fəryada gəlib (22) fələkləri də itham edir:

(23) Nə müddətdir məni-biçarə yarəb yarsız qaldım

(24) Pozuldu rövnəqim dağıldı ev pərkarsız qaldım

(25) Kimə izhar edim dərdim hanı bir məhrəmi-əsrar

(26) Qəmim çox qəmküsarım yox əcəb qəmxarsız qaldım

(27) Qəmi-hicranə yandırdın məni ey çərxi-dun bəsdir

(28) Rəhim isminə Allahın dəyim, iqrarsız qaldım

(29) Nəbatinin əsərlərində zülm və zalimlər aləyhinə çoxlu kəskin (qəti) fikr və ifadələr **[118]** (1) vardır.

(2) Bu sufi məslək şair uzun müddət təşəyyü və vəhtədi-vücuda inanıb bu inamla qəsidələr (3) yazdığı halda bəzən hayrət və şək və tərditə düşmüş və bu zəmində qəzəllər söyləmişdir. (4) (هله لنگ لنگ لنگم) şeiri onun bu son halını gözəl bəyan etməkdədir:

(5) نه مکدرم نه شادم نه نهان نه آشکارم

(6) نه ز خاکم و نه بادم هله لنگ لنگ لنگم

(7) نه چو غنچه در شگفتم نه نعم نه لا شنفتم

(8) نه غمش بدل نهفتم هله لنگ لنگ لنگم

(9) نه شرایم نه بنگی نه خیالیم نه رنگی

(10) نه مغنی ام نه چنگی هله لنگ لنگ لنگم

نه رفیق بوستانم نه قرین گلستانم (11)

سگ کوی د لستانم هله لنگ لنگ لنگم (12)

نه ستاره ام نه ماهم نه گدا نه پادشاهم(13)

نه میان این دو راهم هله لنگ لنگ لنگم (14)

نه زمین و آسمانم نه از این و نه از آنم (15)

نه دیار لامکانم هله لنگ لنگ لنگم (16)

نه پری نه جن و انسان نه ملك نه حور غلمان (17)

نه فلانم و نه بهمان هله لنگ لنگ لنگم (18)

نه ز کان و معدنم من نه ز گنج (19)

مخزنم من نه منم نه من منم (20)

من هله لنگ لنگ لنگم (21)

نه جوانم و نه پیرم نه کمانم و نه تیرم (22)

نه صغیر و نه کبیرم هله لنگ لنگ لنگم (23)

نه ز لعل بی بهایم نه ز در بی صفایم (24)

نه نوا نه بینوایم هله لنگ لنگ لنگم (25)

نه حلولی ام نه دهری نه کناری ام نه بحری(26)

نه ریاضیام نه جفری هله لنگ لنگ لنگم (27)

نه منجمم نه کاهن و نه ساحر و مداحن (28)

نه بزارمان گواهن هله لنگ لنگ لنگم (29)

نه نباتی نه بنگی نه مصالحم نه چنگی (30)

[119] (1) Nəbati axtardığı həqiqəti təriqətlərdə da tapılmadığı içün təriqətlər arasındakı (2) mübahisələrdən bezigir və belə deyir:

(3) Canə od vurdum özüm pərvanələrdən küsmüşəm

(4) Ta ki Məcnun olmuşam divanələrdən küsmüşəm

(5) Bir qələt sözdür ki dərlər gənc olur viranədə

(6) Gənc yox virandə viranələrdən küsmüşəm

(7) Hasilim oldu təhəzzübdən nədamət tuşəsi

(8) İndi ol baş ağrıdan əfsanələrdən küsmüşəm

(9) Mən eşitdim ol gülün meyxanələrdir mənzili

(10) Əsli gördüm yox gəlib meyxanələrdən küsmüşəm

(11) Xanimanımdan məni saldı Nəbati dərbədər

(12) Əqlə bax Məcnun kimi biganələrdən küsmüşəm

(13) Nəbatinin xalq şeiri və nəğmələrinə uyğun yazdığı şeirləri lirik hisslə birlikdə (14) yüksək ictimai fikirlərdə ehtiva etməkdədir. Bu yolda Vaqifdən də istifadə edib onun (15) yolunda davam etmişdir. Xalq dilində yazdığı şeirlərində Nəbatinin musiqişünas olduğu (16) da açıqlanır. Çünki şeirlərində bir çoq ahənglərin Adını (Nəvaz Minxarə, Şur Şəhnaz, (17) Hüseyni, Nişaburi ve sairə) zikr edir.

(18) Müasir dövrədə hirfəyi-ahəngsazların bəslədiyi nəğmələrə şairlərin sonradan (19) söz yazması halları məlumdur. Bu hal şübhəsiz keçmişdə də olmuş bəzi nümunələri (20) gəlib bizə çatmışdır. Nəbati də xalq nəğmələrinə söz yazmışdır.

(21) Onun “gəlmə gəlmə get, yaxşı yaxşı sən”, “get dolangınam, xam sən henüz” (22) və “böylə bivefa olma, əy pəri” misralarıyla başlanan şeirləri və bir neçə başqa əsəri (23) “zəminxarə təsnifi” ahənginə çox uyğundur.

(24) Nəbatinin xalq şeiri ruhunda yazdığı əsərlər uzun müddət aşıqların dilinin əzbəri (25) olmuş hətta keçən əsrdə yaranan bəzi Azərbaycan dastanlarına keçmişdir. Şimali Azərbaycan (26) və muğanın mühüm qismətinin İrandan ayrılmasıyla əlaqəli olan və bu unudulmaz qəmli (27) hadisəni tərənnüm edən aşağıdakı el mahnıyı Nəbatinin öz xalqıyla olan sıxı (bərk) (28) münasibət və bağlılığını göstərir:

(29) Gedin dəyin Xançobana, Gəlməsin bu il Muğana,

(30) Muğan batıb nahaq qana! ……..

[120] (1) Son olaraq Nəbatidən iki qəzəl nəql edirik:

(2) Səhər meyxanə ətrafın gəzirdim məstü bipərva

(3) Ki gördüm onda nagəh bir əcayib surəti-ziba

(4) Müsəlsəl zülf çiynində mürəssə tövq boynunda

(5) Firəngi ətləs əynində, başında məcəri-həmra

(6) Mələkmənzər pəripeykər süxəngüstər vəfapərvər

(7) Büti-məhrü güli-xoşbu sözü-şəkər gözü şəhla

(8) Səmənrüxsar müşkinmu şəlayin qaməti-dilcü

(9) Sərasər fitnəvü cadu sərapa şurişü qovğa

(10) Görən saətdə zövqümdən yıxıldım məstü layəqil

(11) Dağıldı əql başımdan alışdı atəşi sevda

(12) Pərişan oldu əhvalım tükəndi səbri aramım

(13) Giriban çak edib durdum yerimdən valəhü şeyda

(14) Məni görcək bu halətdə o sərvi-bağı-dilbəndi

(15) Gəlib yanımda əyləşdi əlində sağəri-mina

(16) Kərəm qıldı mənə bir cam, alıb mərdanə nuş etdim

(17) Durub opdüm ayağından dədim ey saniyi-Ləyla

(18) Əgər görmək dilərsən surəti-Məcnuni-şeydanı

(19) Uzaq gəzmə tamaşa qıl budur ol aşiqi-rüsva

(20) Şikəstə-xatirü məhzun sözü aşüftə, digərgun

(21) Tutub nəqşi-rəhi-Məcnun gəzər vəhşi kimi səhra

(22) Nəbati, həmd qıl Allahə, min şükrü səna eylə

(23) Ki, Məcnunun məqamatın sənə ruzi edib mövla

(24) Nisbət sənə ey şux, Züləyxa ola bilməz

(25) Bu işvədə bu qəmzədə Ləyla ola bilməz.

(26) Ahuyi-Xütən səndən alıb tərzi-nigahı

(27) Gülbərgi-ləbin tək güli-həmra ola bilməz

(28) Etmən (etmərəm) gözünü nərgisi-şəhlayə bərabər,

(29) Zülfi-siyəhin tək şəbi-yəlda ola bilməz.

[121] (1) Can nəqdinə bir busə, kərəm qıl səni tari

(2) Dəxi dəmə "əl çək" ki, bu sevda ola bilməz

(3) Məndən sənə icz eyləmək olsun gecə-gündüz

(4) Səndən mənə hey naz ki haşa ola bilməz

(5) Bəs ki məni görcək mənə vəhşi kimi baxdın

(6) İndi dəxi Məcnun mənə həmta ola bilməz

(7) Çox eşqə düşən aşiqi-biçarəni gördüm

(8) Heç biri Nəbati kimi şeyda ola bilməz

(9) **Tuti:** Qarabağ hakimi İbrahim Xalil Xanın oğludur adı Əbülfət Xandır. (10) Babasının səlahiyyədiylə İrana gəlib Abbas Mirzanın yanında təqərrüb tapıb və 1255 hicri (11) qəməridə vəfat etmişdir. Türkcə və Farsca gözəl qəzəlləri və tək bəyitləri vardır:

(12) O gün kim həsrət ilə ol büti-zibadən ayrıldım

(13) Qalıb bir surəti-bihiss kimi mənadən ayrıldım

(14) Çəkib əl xəlqdən Məcnunsifət səhrayə üz qoydum

(15) Kəsilmiş səbrü tabım vəsləti-Ləyladən ayrıldım

(16) Mənə şimşadü sərvi bağban ərz etmə kim hərgiz

(17) Yoxumdur meyli-gülşən qaməti tubadən ayrıldım

(18) Nolur şamü səhər nəy tək sızıldar sinəyi-zarım

(19) Mərizi-bəstəri-hicrəm, dəmi-İsadən ayrıldım

(20) Fəraqın şiddətindən lal olur bu Tutiyi-təbim

(21) Məzaqim təlxdir kim, ləli-şəkkərxadən ayrıldım.

(22) شبی بخواب که عکس جمال روی تو دیدم

(23) ز کاینات تعلق بهر که بود بریدم

(24) قسم بروی تو کردم که جز تو یار نجویم

(25) بحوریان بهشتی اگر دهند نویدم

(26) هنوز از می وصلت پیاله ای نکشیده

(27) ز دست ساقی هجران چه زهرها که چشیدم

(28)امید زندگی ام بود آب تیغ تو خوردم

هوای وصل توام بود فرقت تو گزیدم (29)

بجرم م آنکه مرا دل بغیر دوست نبستم (30)

[122] رتیب از منش آزرده است و من ز رقیبش (1)

دریغ کو بمرادش رسید و من نرسیدم (2)

کشند بیگنهی را ندیدم و نشنیدم (3)

حقوق عشق نگر پای مردییش زانکو (4)

ز جور هر چه مرا سر شکست پا نکشیدم (5)

بسی ز وصف لبت گفته اند لیك کسی را (6)

درین رموز چوطوطی حریف حرف ندیدم (7)

روزگاری پیش یاری اعتباری داشتم (8)

اعتباری داشتم خوش روزگاری داشتم (9)

دیدن ترا و دل بتو دادن گناه من (10)

دل را بحرف غیر شکستن گناه کیست (11)

(12) Bu şairin bacısı Ağabəyim Fətəli Şahın xanı olub, təbii şeiri var imiş.

(13) **Mirzə Əli Ləli:** Ləli 1252 qəməridə İrevanda anadan olmuş və 20 yaşında (14) atasıyla Təbrizə hicrət etmiş və Təbrizdə ticarətlə məşğul olmuşdu. Ləli ticarət işi (15) ilə bərabər təhsilinə idamə verib, atası öldükdən sonra ticarəti buraxdı və tamam vəqtini (16) tibb təhsilinə və sonra da təbabətə həsr etdi. Sonra İstanbula gedib orda tibb (17) fakültəsini bitirdi və doktor ünvanını alıb Təbrizə qayıtdı və Təbrizdə vəliəhd (Müzəffərəddin (18) Mirzə)in təbibi-məxsusi oldu.

(19) Ləli bir müddətdən sonra Tehrana getdi və orada Nəsrəddin Şaha yaxınlaşıp onunla (20) bərabər Arvopaya müsafirət etdi, Arvopa səfirinin məhsulu olaraq müfəssəl bir məsnəvi yazmış, (21) bu məsnəvinin mətləyi bu bəyitdir: Nəsrəddin Şah Kerdün bargah Şah Dara təxt Keyxosrov külah (22) bundan sonra Ləli bir neçə dəfə daha Arvopa,

İstanbul və Misira getmiş və Müzəffərəddin Şah (23) zamanında Şəmsü-hükəma ünvanını almışdır.

(24) Ləli son dəfə İstanbula gedəndə bir müddət orada qalmış İranının İstanbul böyük (25) elçisi Prens Arfa ilə mahşür və mənüs imiş, müzmin bronşitə mübtəla olduğu içün (26) İstanbulun havası ona yaramayıb, doktorların təcviziylə Tiflisə getmiş və (27) orada yerləşmişdir.

(28) Tiflistə iqaməti əsnasında bir dəfə 1322 qəməridə (qafqaz erməni müselman davası (29) başlayanda) bir dəfədə 1324-də Təbrizə gəlmiş və məşrutə cərəyanında fikri yardım (kömək) **[123]** (1) etmişdir. 1325-də Tiflistə vəfat və orada dəfn edilmişdir.

(2) Ləli lətif təbiili, bezləgu və hazır cavab bir ədib idi. Onun işlətdiyi (3) bədii məzmunlar və sözlər müasirləri arasında mərufdu. Seçdiyi səci mihr "vanə lali (4) hekim" onun ədəbi zövq və zəkasına gözəl bir nişanədir. Bu barədə özü belə söyləmişdir.

(5) تو این پیام متین را ز قول من برسان

(6) صبا بگو بحسودان که مست پیمانند

(7) بطبع شعر مرا خود نه افتخار بود

(8) که جمله صاحب طبع سلیم میدانند

(9) مرا بقول خداوند در کلام مجید

(10) (و انه لعلی حکیم(میخوانند)

(11) Türkcə Farsca divanı bir neçə dəfə Təbrizdə çap olmuş.

(12) Ləlinin külliyati iki cilddir: Birinci cildin 185 safhası Farsca və 30 safhası (13) Türkcədir ikinci cildi hamısı Türkcədir və mərsiyə və növhələrdən ibarətdir.

(14) Farsca qismi, bir qəsidə bahariyə ilə başlar və şeir envaindan məsnəviyat, qıtaat, (15) qəzəliyat, rübaiyat və müfrədat (tək bəyitlər) ilə bitər. Şeirlərinin mühüm qismi lətifə və həzl, (16) həcv və bəzən mədh tərzində söyləmişdir. Ayrıca qitələrdən təşkil tapmış mutabəyat və (17) həzliyyat qismi vardır. Afyona aid gözəl qitələr vardır nümunə içün

Hafızın məşhur (18) bir qəzəlinə nəzirə təməsxuranə şəklində söylədiyi bir qitəyi nəql edirik:

(19) بیا تا دوده افیون ز گردون برتر اندازیم

(20) فلک را سقف بشکافیم و طرح دیگر اندازیم

(21) بیارای ساقی گلچهره افیون را ببزم ما

(22) به پیمانه زنم سنگی لگد بر ساغر اندازیم

(23) چو روزه لشگر انگیزد که خون عاشقان ریزد

(24) من و خلوت بهم سازیم و بنیادش براندازیم

(25) ز کنج روزه خواران احتیاطاً روزنی باید

(26) که گر شخصی کمین آرد نظر بر منظر اندازیم

(27) Farsca qəzəllərindən nümunə olaraq iki parça nəql edirik:

(28) از کعبه جمال تو آن طره دو تا

(29) برگشته همچو کافر برگشته از خدا

[**124 [**] (1ای بخت ما چوطره برگشتهات سیه

(2) وی تیره تر ز طره تو روزگار ما

(3) سودای ما کجا آسودگی کجا

(4) دیوانه وار از همه الفت بریده ایم

(5) تا گشته ایم بطره زنجیرت ت آشنا

(6) ای شهسوار قافله آهسته ران که من

(7) افتاده ام چو زلف پریشانت از قفا

(8) لعلی مرا ز شوق لب چون عقیق او

پیکر چو کاه گشته و رخ همچو کهربا(9)

ز من پنهان چرا دارد لبت اسرار عیسی را(10)

مسیحی زاده منهم دوست میدارم مسیحا را(11)

خم ابروی تو با این دل سوزان اگر سازد(12)

زوجه نذر قندیلی برم طاق کلیسا را(13)

ز تحریك صبا هر صبح آنزلف صلیب آسا(14)

بفریاد آورد در سینه ناقوس دل ما را(15)

توساعت سازی ومن بی تو یکساعت نمی سازم(16)

که در هجر تو هر یك ثانیه سالی بود ما را(17)

دو ابروی تو در مابین دارد نقطه خالی(18)

که این یك نقطه برهم زد اساس دین و دنیا را(19)

بجز دین تو در دنیا ندارم مذهب دیگر(20)

که از بهرت خداوند آفرید این دین و دنیا را(21)

دل و دین باختن در عشق او نبود عجب لعلی(22)

که صنعان با همه زهدش گرفت آئین ترسا را(23)

(24)Rübaiyatında da bir nümunə nəql edirik:

گفتم چشمم گفت که حیران منست(25)

گفتم جانم گفت که قربان منست(26)

گفتم که دلم گفت که آن بیچاره(27)

در سلسله زلف پریشان منست(28)

[125] (1) Türkcə şeirləri də mütənəvvidir, qəzəliyatından suvay muqattaat, rübai və tək bəyitləri (2) vardır. O zaman Bakuda çıqan mütəraqqi və milliyətçi Şərqi-rus ruznaməsi mədhində bir (3) qəzəli vardır:

(4) Hayretdə qoydu aləm i islamı Şərqi-rus

(5) Yüzdən niqabi açdı bu Türki zəbani arus

(6) Afaqı dutdu şaşası bu ceridənin

(7) Ya rab bu Şərqi-rusdu ya mətlə şemus

(8) Güftarı sıdq niyəti xalis lisanı pak

(9) Nə axazə tama nə müzəvvir nə çaplus

(10) Yol göstərir azanlara çöllərdə çün ceres

(11) Bidar eylər yatanları evlərdə çün xurus

(12) Ta eyləsun bu millət islamı mütəffik

(13) Her yana yazdı namə təbliğ alilrus

(14) Kətli (kəndli) haqqında bir həcvi bir də mədhi vardır, həcvi daha məşhurdur:

(15) Nə şirin sən səni qurban olum ey ləbişəkər kətdi

(16) Səni hər kimsə görsə din ü dünyadan keçir kətdi

(17) Böyük xabt etmişəm kətdilərün həcv ində el-haqq mən

(18) Mənim baxtım yanıb bu barədə ey baxtvər kətdi

(19) Çıxagər bir sənin tək şux şəhər aşub hər kətdən

(20) Yeri var iftixar etsə tamam şəhrə hər kətdi

(21) Bu nə həngamədir gör doldurub o safı Təbrizi

(22) Salub hüsniylə min aşub şəhrə bir nəfer kətdi

(23) Əgərçə məndə yoxdur şahımız sağ olsun İranda!

(24) Mən ordan sim u zer alam sənəyi sim bir kətdi

(25) O şahın sayəsində yərimi milyon nəfs rahatdır!

(26) Ona farq eyləməz bir şair ilən bir nəfer kətdi

(27) Cəmalin ger də sən düşməz ələ bir eylə intiqa

(28) Fərəngilər onu göydə qaparayı bixəbər kətdi

[126] (1) Nə qansun mey nədir məşuqə kimdir dərbədən kətdi

(2) ... Məşuqə və mey madyanın nərə … kətdi

(3) Nə gər madən yetər əzasınə afət nə sərmadən

(4) Həva hər qism gərmü sərd ola üryan göz kətdi

(5) Qoyun saxlar həmişə bir suri ömründə ət dadmaz

(6) Yeyər bir bəsdiliq cüz biz gələndə şəhrə hər kətdi

(7) Yatar yayda daş üstə gün qabağında çəkər xurna

(8) Əgər min qeylüqal olsa oyanmaz bir nəfər kətdi

(9) Yeyər səkkiz fətir ayran içər bir mətrət üstündən

(10) Pilov dünyanı tutsa təndir aşın çox sevər kətdi

(11) Dəmirdən bərk olur söz yox məazallah nəuzundan

(12) Bəni adəm götürməz taqətin çox pis .... kətdi

(13) Firəngistanə getsə filməsəl qırx il yatub gəlsə

(14) Davardan söhbət eylər özgə söz bilməz deyə kətdi

(15) Yemiş qismindən aləmdən soğandan başqa zad bilməz

(16) Axır çərşənbə olsa bir ovuc kişmiş yeyər kətdi.

(17) Özü məkruh aləmdir sözü bir səmmi qatildir,

(18) Yaman göz görməsin yaran nə kətdi bir betər kətdi

(19) Boynuma kakilin ey şux kəmənd eyləmisən

(20) Bir uzun fikrə mənim başımı bənd eyləmisən

(21) Sayəyi-mərhəmətin başıma düşməz nə səmər

(22) Ucalub qaddi bir servibüləND eyləmisən

(23) Bir nəfəs ləli-ləbin zikri dilimdən düşməz

(24) Məni tuti kimi tiryakiyi-qənd eyləmisən

(25) Göyə də çıxa müqabil dura bilməz qaşına

(26) Bir hilalinə onu nəli-səmənd eyləmisən

(27) Afət-çeşmdən ey müğbəçə təşviş etmə

(28) Könlümü məcməri-hüsnündə sipənd eyləmisən

(29) Bu göz qaşına qurban olum ey məhparə

(30) Məni bu qaşü gözündən giləmənd eyləmisən

[127] (1) Hamı heyran dolanır daireyi-zülfündə

(2) Neçə divanə bu zənciridə bənd eyləmisən

(3) Özünə nəzr dəyibsən məni qurban edəsən

(4) Mənə zibəndədi sən hər nə pəsənd eyləmisən

(5) Cümlə aşiqlərin azad gəzər aləmdə

(6) Bircə Lələini giriftari-kəməndeyləmisən

(7) Türkcə tək bəyitlərindən də iki nümunə nəql edirik:

(8) Aç naqab uzdan uzun dursun müqabil mahilən

(9) Yoxsa yandırıram Nəqab arzun bir ah ilən

(10) ----------

(11) Salma burqa qoy görülsün afitab aruzun

(12) Yoxsa bir ahilə yandırıram Nəqab aruzun

(13) İkinci cild Türkcə mərsiyə və növhələrdən ibarətdir. Lələnin mərsiyə və növhə dili (14) Sərraf qədər sadə və müəssir dəyildir onun içün növhələri Sərrafın ki qədər xalq arasında (15) yayılmamışdır. Nümunə içün bir sinəzən növhəsini nəql edirik:

(16) آلدی اله تیر و کمان حرمله

(17) سالدی حریم حرمه و لوله

(18) گوردی که میداندا اوشوم و لعین

(19) اصغری آغوشه آلوب شاه دین

(20) تشنه دور از بسکه او طفل حزین

(21) عالمه آهیله ووروب مشعله

(22) سوز عطش دن دیلی خاموش اولوب

(23) حالتی افسرده و مغشوش اولوب

(24) بوینی دوشوب چیینینه بیهوش اولوب

(25) بئله نشانه ده دی دوشمز اله

(26) آلدی اودم شستینه تیر و و کمان

ائیله دی بیریاندا کمین ناگهان (27)

چکدی اودم و جدیله بیر هلهله (28)

(29) …….

صویرینه حرمله پیکان وئریر (30)

گؤر ننجه بی رحم دی بو حرمله (31)

(32) **Heyran Xanım:** On səkkizinci əsrin sonlarında və 19-cu əsrin birinci (33) yarısında yaşayıb babası tərəfindən Naxcivanlı və anası tərəfindən Dünbuli tayifəsindəndir (34) özü Təbrizlidir və Təbriz ilə Xoyda yaşamışdır.

(35) Türkcə və Farsca 4500 bəyitdən ibarət divan yazmış lakin ölümündən sonra **[128]** (1) əsəri yayılmadığı içün unudulmuşdu. Xoşbəxtanə divanının bir nüsxəsi mərhum (2) Hacı Məhəmməd Naxcivaninin əlinə çatmış və bu nüsxə əsasına mərhum Məhəmmədəli Tərbiyət (3) (Danişməndani Azərbaycan) kitabında Heyran Xanımın şərh halını yazmışdır. Yenə bu nüsxəyə (4) dayanaraq divanı 1324 şəmsidə Təbrizdə çap olmuşdur. Heyran Xanımın şəxsiyyəti (5) və həyatı haqqında əsərlərindən qeyri heç birisində yoqdur. Lakin şeirlərini diqqətlə mütaliə edincə (6) onun barəsində məlumat əldə etmək mümkündür. Məsəla Farsca bir qəzəlində belə deyir:

پرسی اگر ز نسبت حیران دلفکار (7)

از خادمان شیر خدا شاه دین علی است (8)

باشد و را حسب ز عزیزان نخجوان (9)

او را ولی نسب از کریمان دنبلی است (10)

(11) Hayran Xanım Abbas Mirzə dövründə yaşamış və Nəsrəddin Şahın da əvvəl illərini (12) görmüşdür. Farsca yazdığı bir şeirdə Abbas Mirzənın xanımından divanı içün (13) haşiyəli və əlvan kağız istəyir. (Mərhum Naxcivani nüsxəsinin kağızı haşiyəli və (14) əlvan kağızdır.) 1244=1827-də baş verən vəba marazı epidimisi içün belə yazmış:

ای خدا شیعیان هلاک شدند نوجوانان بزیر خاك شدند(15)

مادران دلشکسته و نالان مرده شورند بهر فرزندان(16)

(17) Hayran Xanımın şeirlərindən belə anlaşılır ki, cavanlıqda vətəndən və çoq sevdiyi
(18) bir adamından ayrı düşmüşdür. Aşağıdakı qəzəldə bu məsələ aydınca ortaya çıxır:

(19) Çarə yoq dərdimə ol ləli dütadən qeyri

(20) Kimse dutmaz əlimi zülfi rəsadən qeyri

(21) Yoxdu bir yar, edə halimi dildarimə ərz

(22) Səri kuyində məgər badi sebadən qeyri

(23) Bəxtimiz şeşdəri həyrətdə idi çünki bizə

(24) Görmədi yar rəva cövrü cefadan qeyri

(25) Gərçi dildar mənə eylədi çox zülmü sitəm

(26) Mən ona eyləmənəm mehrü vefadən qeyri

(27) İstərik dilbərimin xidmətinə əzm qılaq

(28) Töhfəmiz yox dəxi bir xeyr duadən qeyri

(29) Olmadı bunca giriftar qəmü dərdü ələm

(30) Seri kuyində məni baxti qəradan qeyri

[129] (1) Düşmənin tənəsi, hicran odu, qürbət ələmi

(2) Yoxdu qəmxar bizə kimsə xudadən qeyri

(3) Ger qəza saldı səni yardən ayrı Heyran

(4) Daha təqdirə nədir çarə rizadən qeyri[71]

[71] Belə nəzərə gəlir ki, bu qəzeli Fuzülinin "yar qılmazsa mənə cevrü cəfadan qeyri" qəzəlinə nəzirə demişdir.

(5) Heyran Xanım daima visal həsrətində olduğunu dəfələrlə şeirlərində bəyan edir. (6) Lakin hicran oduna yanan şairə ümidsizliyə düşmür və dünyadan əlini üzmür.

(7) Heyran Xanım rübai şairlərdəndir, Türkcə və Farsca qəzəllərinden suvay, tərcibənd, (8) müxəmməs və müləmmələri və Farsça məsnəviləri vardır. Burada nümunə içün bir neçə Türkçə və (9) Farsca qəzəl və müxəmməs və müləmmə və məsnəvilərindən bir parça nəql edəceğik:

(10) Könlüm quşu ol zülfi pərişan arasında

(11) Biçarə qalıb cənnətü viran arasında

(12) Gör kim nəcə sərgüzəştə qalıb valəhü tenha

(13) Ol xali xəta ilə Bədəxşan arasında

(14) Tüğyan eyləyüb dərdü qəmim bu dili zarım

(15) Bir gəştiyə bənzər qala tufan arasında

(16) Dil zülfilə rüxsarinə çün qıldı təmaşa

(17) Avarə qalıb küfr ilə iman arasında

(18) Ay gör nə əcəb möcüzədir kim nəcə bitmiş

(19) Bir sünbülü tər atəşi suzan arasında

(20) Ey dil eyləmə qəm ki onun yoxdu təfavüt

(21) Kuyində çü dərviş ilə sultan arasında

(22) Çün yar qılıb lütfini kəm hanı o həmdəm

(23) Ta sülh qıla yar ilə Heyran arasında

(24) Ey çərx mənim ahi şərər barimə rəhm et

(25) Hicranə yanan sinəyi əfkarimə rəhm et

(26) Sübhə kimi əncüm sayaram fikri rüxində

(27) Hicran gecəsi didəyi bidarıma rəhm et

[130] (1) Qürbət aləmi, yar fəraqi məni aldı

(2) Qürbətdə qalan cani giriftarıma rəhm et

(3) Tənha qalıban, bikəs olub, yardən ayrı

(4) Bikesliyimə, həsrəti besyarıma rəhm et

(5) Əşk ilə edib hər tərəfə seyl rəvanə

(6) Çün ebr sifət çeşmi gövhərbarimə rəhm et

(7) Hicranı ruxi yar məni saldı ayaqdan

(8) Yetir məni ol munisi qəmxarimə rəhm et

(9) Yüz zəhmət ilə xamuş olub bu dili viran

(10) Heyran! feğan etmə! dili zarimə rəhm et

(11) Eşqin ey şux sənin bu dili pürqəm dəmidir

(12) Bilmirəm mənzilini candamı ya təndə midir

(13) İtirib mürği dili tapmıram ey mayəyi naz

(14) Cüstücu eylə gör ol sünbüli pürxəmdə midir

(15) Qamətin bükdü belim arizin öldürdü məni

(16) Sərvü gül, o qədü o arizə manəndə midir

(17) Dədi ver canüvü al xaki dərim zərrəsini

(18) Cani naqabilimiz bu bəyə ərzəndəmidir

(19) Bülbülün, qumrilərin şuri düşüb afaqə

(20) Gül rüxüm, sərv qəddim bu gecə gülşəndəmidir

(21) Veslüvə şad vəli firqətüvə naşadəm

(22) Bilmirəm sənsiz işim naləmidir, xəndəmidir

(23) Əklimi başdan alıb əra rüsva eylədin

(24) Bu günəh dilbəri mən səndəmidir, məndəmidir

(25) Aşiqi öldürəsən, vəslilə şad etmiyəsən

(26) Səndən ey şux belə zülm xoş ayəndəmidir

(27) İstiri sidqilə qurban ola ol şahə bu gün

(28) Gər feda olmağa Heyran bərazəndəmidir

(29) Ey sitəmgər məni rüsvayi cahan eyləmisən

(30) Gözümün yaşını çün Dəclə rəvan eyləmisən

[131] (1) Həmnişin eyləmisən düşməni ey mayəyi naz

(2) Rəşkdən canım alıb bağrımı qan eyləmisən

(3) Gün kimi arizinə zülfi çəlipanı salıb

(4) Günü gör əbri siyəh altda nəhan eyləmisən

(5) Naz ilə işvə ilə seyr eləyüb gülzari

(6) Göstərib möcüzə sən sərvi rəvan eyləmisən

(7) Bir canım var idi ey şux ki aldın o zaman

(8) Özgə can dəxi bu bikəsdə güman eyləmisən

(9) Qaşların tiği sitəm, almış ələ kirpiyin ox

(10) Öldürürsən məni nahaq yəre qan eyləmisən

(11) Nəçin ey şux niqabın götürübsən üzdən

(12) Ruyi xurşidvəşin xəlqə əyan eyləmisən

(13) Almısan aqlımı başdan mənim ey afətican

(14) Qəddimi möhnəti hicrində kəman eyləmisən

(15) Həsrəti vəslüvə ey məhi mən Heyrani

(16) Başı yerdə, gözü yolda nigaran eyləmisən

(17) Aşağıdakı tərcibənddən bir parça nəql edilir:

(18) Sübh açub mahi rüxindən niqab

(19) Etdi tilu kövkəbəyi afitab

(20) Hər yana nəzzarə qılıb görmədim

(21) Ol məhi, çün könlüm edib iztirab

(22) Hicr qəmi canımı etdi fikar

(23) Firqət odu canımı etdi kabab

(24) Gördüm o dəm gün üzünü eylədi

(25) Xəlqə nihan ləkkəyi mişkin səhab

(26) Çıxdı başımdan o zaman əqlü huş

(27) Getdi ürəkdən o zaman səbrü tab

(28) Ahü feğanlar çəkibən eylədim

(29) Acz ilə hürşidə bu növ hitab.

(30) Aytdı:[72] ki aşiqi şuridə hal

(31) Səbr eylə fəryadə yətər zülcelal

[132] (1) İmdi də müxəmməsdən bir bənd:

(2) Səhər seyri çəmən qıldım gülü minayə bənzətdim

(3) Fəzayi busitani bilmədim səhrayə bənzətdim

(4) Camalın görcək ol yari mələk simayə bənzətdim

(5) Nəzər qıldım qaşın taqin çəkilmiş aya bənzətdim

(6) Xumarlanmış gözünü nərgisi şəhlayə bənzətdim

(7) Farsca qəzəllərindən iki nümunə nəql edirik:

(8) حال ما را که کند عرض بجانانه ی ما

(9) شود آگاه ز حال دل دیوانه ی ما

(10) جرعه نوشیم ز خمخانه ی وصل رخ او

(11) سر بر افلاک کشد ناله ی مستانه ی ما

(12)هرگز از بزم وصالش دل ما شاد نشد

(13) گوئی از باده غم پر شده پیمانه ی ما

(14) گاه بر سینه زنان گاه خاك کنان

(15) شده از روز ازل پنجه ی غم شانه ما بسر

(16) حال عالم به غم و محنت ما می سوزد

(17) رحم بر ما نکند آن بت فرزانه ی ما

[72] Söylədi

شده مشهور جهان حال دل اما چکنم (18)

ندهد دلبر ما گوش بر افسانه ی ما (19)

مهر تو ذره منم چون شود از راه کرم (20)

گر بیانی مه من لحظه بر خانه ی ما (21)

این شرف گر به من زار میسر گردد (22)

بر نه افلاك رسد پایه ی کاشانه ی ما (23)

لال شد از ستمش بلبل طبع حیران (24)

سوخت در آتش شوقش هر پروانه ما (25)

لیت را مایه ی جان آفریدند(26)

به درد عشق درمان آفریدند(27)

نصیب جان من کردند گویا(28)

در آن ساعت که هجران آفریدند(29)

ز عشقت چشم من کردند گریان(30)

لب لعل تو خندان آفریدند(31)

]133[همه خپیل بتان همچون ستاره (1)

تو را چون ماه تابان آفریدند (2)

ز نور روی تو ذره گرفته (3)

از آن خورشید رخشان آفریدند(4)

گدای حسن تو کردند ما را (5)

تو را سرخیل خوبان آفریدند)6(

(7) Son olarak məsnəvilərindən bir parça nəql edirik:

باز از تأثیر عشق پر فنون ر سر افتاده مرا شور جنون (8)

باز از تأثیر عشق حیله ساز بردل افتاده مرا سوز و گداز (9)

باز از تأثیر عشق خانه سوز کرده از دل آتش هجران بروز (10)

باز از تأثیر عشق پرفتن در دلم شوری عجب کرده وطن (11)

بار دیگر یار بر یاد آمده از دلم صد آه و فریاد آمده (12)

بار دیگر عشق گشته رهبرم سوخته از شعله ی او پیکرم (13)

بار دیگر دلبرم آمد بیاد آتشی بر شهر بند دل فتاد (14)

دوستان برحال زارم بنگرید بر دل بی اختیارم بنگرید (15)

هجر دلبر جسم و جانم را بسوخت آه گرمم آشیانم را بسوخت (16)

(17) .....

سوخت مغز استخوانم یا ودود وصل جانان را نصیبم ساز زود (18)

ساز ما را از وصالش شادکام ختم شد اینجا حکایت والسلام (19)

(20) **Bağır Xalxali-** Mirzə Bağır Xalxali Xalxalda anadan olub və ulumuddini təhsil (21) etdikdən sonra müctəhid olub, Xalxalda tədris və qəzavətlə məşğul olmuşdur bu həkim (22) şair Nəsrəddin Şah zamanında yaşamış və Müzəffərələddin Şahın zamanında 70 yaşında vəfat (23) etmişdir. Bağır Xalxalinin ən mühüm əsəri Talibiyyə kitabıdır. Sələbiyyə şeiri ilə yazılmış bir (24) tülkünün dastanıdır. Tülkünün başından keçən hadisələri anlatırkən hikmətamiz (25) sözlər və xalqı oyandırmaq və aydınlatmaq içün calib və müfid hekayətləri sadə bir dillə (26) bəyan edir.

(27) Sələbiyyədən suvay bu şairdən mərsiyələr və Türkcə və Farsca qəzəllər və müəmmalar, rübailər (28) tək bəyitlər və məsnəvilər qalmışdır. Divanı Ağay Tülkü Xalxali tərəfindən 1319-da Təbrizdə (5) çap olmuşdur. Burada müxtəlif şeirlərindən bir neçə nümunə nəql edirik:

]134[ای غایب از نظر ز کدات جستجو کنم (1)

در جستجوی تو بچه اقلیم رو کنم (2)

از تیر عمزه ات دل من گشته چاك چاك (3)

تاری ز زلف خویش بده تا رفو کنم (4)

گر زلف خویشتاب دهی همچو صولجان[73] (5)

من هم بخاکپای تو سر همچو کو کنم (6)

از هر گلی رسد بدماغم شمیم دوست (7)

در حیرتم کدام گل باغ بو کنم (8)

دل از برم رمیده شد از عشق کاکلت (9)

اذنی بده تفحص او مو بمو کنم (10)

آب سبو اگر چه بسرچشمه منتهی است (11)

هیهات اگر علاج عطش از سبو کنم (12)

از قیل و قال مدرسه کامم روا نشد (13)

باید که صرف خاطر از این گفتگو کنیم (14)

ساقی بیار باده از آن جاودانه می (15)

تا عاشقانه سر کنم کشم و های و هو کنم (16)

وقتی نماز من به حقیقت شود قبول (17)

کز اشک چشم و خون دل خود وضو کنم (18)

نبود میسرم بجنابت هوای بار (19)

تا خویش را بمیکده ها شست و شو کنم (20)

[73] Çevgan

جز سیئات نیست ز طاعات ما ثمر (21)

روی امید خویش به لاتقنطو کنم کنم[74] (22)

باقر بخیز و دامن خود بر کمر بزن (23)

شاید بعزم درکه دلدار پو کنم (24)

در مصر وجود خود عزیزی نشدیم (25)

در علم و عمل اهل تمیزی نشدیم (26)

افسوس که این عمر گرانمایه ی ما (27)

بیهوده تمام گشت و چیزی نشدیم (28)

]135[افتاده بها زلف سمن سای تو از چیست (1)

دیوانه منم سلسله در پای تو از چیست (2)

نمیتوان که ره اشک را به مژگان بست (3)

بخار و خس نتوان بست راه جیحون را (4)

(5) Türkcə şeirlərindən nümunələr:

(6) Yəni firaqun əlindən yetişmişəm cana

(7) Dönübdür ayrılığından gözüm yaşı qana

(8) Həzər qıl ey gözümün nuru eşq didəmdən

(9) Yaqın ilə ki çekər axırında tufana

(10) Qararü səbirimi kəsdin qararımı aldın

(11) Meta ömrüm apardın yamanca talana

[74] Na-ümid Neşevid.

(12) Yolunda çəkmişəm el cümlə ki əlaqədan

(13) Bu baş və can sənə qurbandı mərdü mərdanə

(14) Dönər təzəllül zülfün kimi ürək titrə

(15) Viranda zülf və məşşatə naz ilə şana

(16) Firaqun atəşinə yanmasan xalas olmam

(17) Nəce qarar tutar yanmayınca pərvanə

(18) Kəmənd zülfün əgər olmasaydı məcnun tək

(19) Yaqın ki qoymuş idim indi baş bəyabana

(20) Ağırlanıb ürəyim çoxlara güman edirəm

(21) Gərək ki and verəm türrəyə pərişana

(22) Düşübdü sinə vəh zünnar tək türrələrin

(23) Kənar elə ki bu caiz deyil müsəlmana

(24) Kəmənd zülfünlə əl ayaqımı bağla

(25) Çəkəllə silsiləyə hər kim olsa divanə

(26) Görəndə gəl yüzuvu ayb dutma bu baqır

(27) Çekə figan ilə ger şur andlibanə

(28) Saqiyə vermə cam məst oldum Məst xamxanəyi eləst oldum

[136] (1) Yar apardı məni əziz etdi Gərçi ağyar içində pest oldum

(2) İndi mən mani yəd Allahım Çün yəd Allaha zirdəst oldum

(3) Öz özümdən gözüm yumub keçdim Nistəliq aləmində həst oldum

(4) Riştəyi zülfün etdi dam mənə Məndən əl çek ki payı pəst oldum

(5) Məni sindirdi etdi tazə dərəst Belə bilmə ki mən şikəst oldum

(6) Yitmədim haqqa olmadım kamil Ta həqiqətdə bitpərəst oldum

(7) Bağır Xalxalidən Türkcə bir məsnəvi:

(8) Yenə canımdan od düşüb tazədən Keçibdür qəmim həddü-əndazədən

(9) Basın könlümü gussa tuğyan edir Deyərsən ki kafir müsəlman edir

(10) Düşüb qəlbimə fert qəmdən şərər Soruşsan verir dad ahım xəbər

(11) Olan vəqti söz və gudazım ayan Düşüb çarxa oynar sirişki rəvan

(12) Salıb çünkü gözdən nigarım məni Edib tərk bilmərrə yarım məni

(13) Əgər səbr qılsam ürək nimcan Diyə təŋge salma məni çek figan

(14) Əgər ağlıyam raz pinhan kədər Elimdən həqiqət də canan kədər

(15) Bəli rah aşiqin qərarı budur Vəla əhlinin karu bari budur

(16) Şərab bəla aşiqin nuşdur Əgər qalıma odda mağşuşdur

(17) Gəlib Bağıra mətləbi xətm qıl Sükutu bu həngamədə hətim qıl

(18) Ki olmaz bu mətləb ölüncə tamam Sükut ixtiyar etgilən vəssalam

(19) Son olaraq Sələbiyyədən də bir şeir nümunəsi nəql edirik:

(20) Bəli, can əzizim olmamda hoş Ölüm həngaməsin etmə fəramuş

(21) Sağışmaz bir məqalə zülmət vənur Qoca qalaşmazlar hərgiz rivan ilə hor

(22) Ürək bir yar birdir olma gümrah Ki bir taxt üstə eyləşməz iki şah

(23) Bu şu hər kəş acuzun gör işini Sənün tək min nəzər aşıq kişini

(24) Salıb narı firaqa nədir u bedür Özün çəkmiş kənara yandurubdur

(25) Əcəl çəngindən olmaz kimsə azad Nə yalvarmaq bilir nə dad u bidad

(26) Özün fikr ilə əvzai lahəddən Sənə imdad olmaz bir əhaddan

(27) Demə məndən sonra əhil ü ayalım Mənə ehsan edər xoşdur xəyalım

(28) Səni yaddan çıxardar qom u qardaş Nə oğlun yad edər nə yaru yoldaş

(29) Çırağun, himmət et göndər qabaqdan İşin keçməz dalıdakı çırağıdan

(30) **Əsrar Təbrizi-** Məhəmməd Kazım Əsrar Əli Şah ləqəbi və Əsrar təxəllüsü 1265 qəməridə (31) Təbrizdə anadan olmuşdur Nimətullahi dərvişlərindəndir. Öz şeir divanından suvay

[137] (1**) Bəhcətül-şüəra və Hadiqatüş-şüəra** adında iki kitab yazmışdır. Bəhcətül-şüəra 19-cu (2) əsr cənub Azərbaycan şairlərinə aiddir. Daha çoq mizah və tənz yazan şairlərdən bəhs (3) etmişdir, Hadiqatüş-şüəra Bəhcətül-şüəradan seçilmiş bir müntəxabatdır və 1298-də yazılmış (4) lakin heç biri çap olmamışdır. Bəhcətül-şüəranın bir əlyazması Aqay Cəfər (5) Sultan əl Qarainin xüsusi kitabxanasında mövcuddur. Hadiqatüş-şüərada Təbrizdə mərhum (6) Naxcuvaninin kitabxanasındadır. Bəhcətül-şüərada 86 şairdən bəhs edilmişdir.

(7) **Şekuhi Marağayi-**

(8) Mirzə Məhdi Şekuhi Marağayi bu əsrin böyük ədəbi simalarındandır. (9) Şeirlərində xalqın ictimai həyatda və məişətdəki məsələlərindən bəhs etmiş, cəhaləti (10) və geriliyi (akab-mandegı) tənqid etmişdir. Bu şair haqqında ilk təhqiqi əsəri Bakıda (11) doktor Məhəmməd Taqi yazmışdır.

(12) Şekuhi eyni halda satirik yazan şairlərdəndir gözəl lətifələrlə bədii məzmunları ifadə (13) etmişdir. Şekuhi 1263-də Təbrizdə anadan doğulmuş və 1314-də Marağada vəfat (14) etmişdir. Təbrizdə aynasazlıqla məşğulkən Marağada qumaş satmaqla imrar maaş etmişdir.

(15) **Mənabi və Müraciə**

(16) 1- Azəri Ədəbiyyatının Təkamülü (18 və 19-cu Əsrlər). İslam Ansiklopedisi Cild 2.
(17) Professor Fuad Köprülü; İstanbul.

(18) 2- Azərbaycan Ədəbiyyatı, Əhməd Cəfəroğlu. Türk Dünyası Əl Kitabı 1977- Ankara.

(19) 3- Ədəbiyyatdan İş Kitabı. H. Zeynallı. Abdullah Şaiq. A. Musaxanlı. H. Əfəndizadə.
(20) Bakı. Azernəşr 1928

(21) 4- Danişməndani Azərbaycan. M. A. Tərbiyət.

(22) 5- Azərbaycan Ədəbiyyatı. Firidun Bəy Köçərli. Birinci Cild. Elm Nəşriyyatı 1978.
(23) Bakü.

(24) 6- Seyid Ebülqasım Nəbati. Əsərləri. Azərbaycan SSR Elmlər Akadəmiyyası Nəşriyyatı (25) 1968 Bakü. Ebulfazl Hüseyni.

(26) 7- Divan Seyid Əbülqasım Nəbati Məşhur BiMəcnun Şah Ya Xan Çoban Qaracadağı.
(27) Kitabfruşi Ədəbiyə Nəsr Xosrov Tehran.

(28) 8- Riyazul Aşiqin (Şüərayı Qarabağ) 1325 Qəməri Çap İstanbul.

(29) 9- Külliyat Divan Mirzə Əli Xan Ləli (Şəmsülhükəma) Təbriz Çapxana Elmiyyə (30) Şəmsi.

[138] (1) 10- Heyran Xanım. Seçilmiş Əsərləri. Sovyət İttifaqıyla Mədəni Rabitə Saxlayan (2) İran Cəmiyyətinin Nəşriyyatı. Təbriz Şöbəsi- 1324 Şəmsi.

(3) 11- Divan Ədəbiyyat Mərhum Aqa Mirzə Məhəmməd Bağır Xalxali Kitabfirüşi Elmiyyə 1319.

(4) 12- Sələbiyyə. Kitabfiruşi və Çapxana Əbdurrahim Elmi.

[139] (1) Azərbaycan Ədəbiyyat Tarixinə Bir Baxış

135/02 (8)

(2) Yazan: Doktor Cavad Heyət

(3) **Azəri ədəbiyyatında təcəddüd dövrü: 1-Maarifçi Realist Ədəbiyyat:**

(4) Nadir Şahın qətlindən (1737) sonra Şimali Azərbaycanda kiçik və yarı müstəqil (5) xanlıqlar təşkil tapdı gərçi Aqa Məhəmməd Xan zamanında İran hakimiyyəti qısa bir müddət bu (6) məntəqələrdə yenidən bir qərar oldu lakin onun ölümündən sonra buralarda daxlı kəşməkəşlərlə (7) bərabər rus nüfuzu da artmağa başladı və nəhayət 1812-də Gülüstan və bilaxarə 1828-də (8) Türkmən çay qərardadlarıyla Şimali Azərbaycan ana vətəndən ayrılaraq Rusiyaya mülhəq (9) oldu və Aras nəhri Azərbaycanı ikiyə böldü!

(10) Tezarı rus rejimi Azərbaycanda kiçik xanlıqları inqiyad altına aldıqdan sonra (11) onları ortadan qaldırmağa başladı və daxlı hərblərə son verdi, eyni zamanda ölkənin (12) xam maddələrini alaraq müqabilində rus mallarını oraya səvq edib, feodal həyata və onun (13) bağlı olduğu iqtisadi sistemə və İranın mədəni təsirlərinə qüvvətli zərbələr vurdu. (14) Tezarı rus rejiminin iqtisadi və siyasi istismar və fəşarlarla yanaşı rus dili və fərhəngi də (15) Azərbaycanda yayılmaya başladı və Azəri cavanları Arvopadakı mədəniyyət və azadlıq (16) cərəyanlarını oxuyub örgənmək və hətta mənimsəməyə başladılar.

(17) Bir tərəfdən yəni mədəniyyətin təsiri, o bir tərəfdən tezar hökuməti və ya çarizm istismarının (18) əksül-əməlləri ictimai fikirdə, şuurlarda oyanma və yeniliq yaradırdı. Bu şəraitdə **[140]** (1) zühur edən maarifçi realist münəvvərlər dəmokratik və mütərəqqi fikirləri, yeni ədəbi şəkil və (2) növlərini Azərbaycan ədəbiyyatına keçirməyə çalışırdılar.

(3) Bu cərəyana mənsub yazıçılar, müasir həyatı, ictimai toquşmaları, xalq məişətini (4) təsvir edir, köhnə məişəti tənqid edirdilər. Xalqa, vətənə hədsiz məhəbbət və sədaqət, (5) insanpərvərlik və azadixahlıq, fəşara qarşı mübarizə, feodalizm quruluşundakı məayibi (6) ifşa və tənqid etmək bu ədəbi cərəyanın əsas idəolojik istiqamətini təşqil edirdi.

(7) Satira (həzl və həcv) maarifçi realist yazıçıların əsas yaradıcılıq (hünəri) (8) üsulu idi. Bu yazıçılar sadə və reailst bir dillə xalq kütlələrinin xeyrini müdafiə (9) edir və xalqa dayanırdılar. Bu yazıçılar eyni zamanda şarq mədəniyyətinə, islam fəlsəfəsinə (10)

dərindən tanış olduqları içün əsərlərində hər iki dünya görüşünün təsirini görmək (11) mümkündür. Bu əsrdə yaradılan realizm, Vaqif dövrü realizminin fərqli olaraq həyatın və (12) dövrün geniş təsvirini verirdi. Bu dövrün realist yazıçıları köhnə cəmiyyətin mənfi (13) tərəflərini ümumiləştirərək zəmanənin tipik surətlərini yaradırdılar. A. Bakıxanof, (14) İsmayıl Qutqaşınlı, Mirzə Şəfi Vazeh və Qasım Bəy Zakir ilə başlayan tənqidi realizm (15) Mirzə Fətəli Axundzadə ilə vaqeyi inkişaf yolunu tapmışdır.

(16) **1-Abbasqulu Aqa Bakıxanof Qüdsi-** Bakı xanlarının nəslindən olub, (17) 19-cu əsrin məşhur şair, mühərrir və tarixçilərindəndir. Babası ikinci Mirzə (18) Məhəmməd 18-ci əsrin axırlarında və 19-cu əsrin əvvəllərində Bakı əyalətində (19) və Qubada xanlıq etmişdir. Abbasqulu Aqa 1794-də Əmir Hacıyan kəndində anadan (20) olmuş və yeddi yaşında babasıyla Bakı əyalətini tərk edərək Qubaya köçmüş və (21) 1820-yə qədər burada yaşamışdı. Qubada Farsca, Ərəbcə, dillərini ilahiyyatı öyrənmiş və (22) mütaliə yoluyla məlumatını dərinləşdirmişdi. 1819-da Qafqaz baş hakimi Jenəral Amerolf (23) tərəfindən Tiflisdə şarq dilləri mütərcimi vəzifəsinə təyin olundu. Tiflisdə rus (24) dilini mükəmməl öyrənib bu dilin vasitəsiylə rus və Avropa fərhəng və mədəniyyətinə bələd (25) oldu. Ayrıca vəzifəsi münasibətiylə bir çoq şəhər və ölkələri səyahət etmiş və bu yerlərin (26) şair, alim və dövlət adamlarıyla tanış olmuşdur. Tiflis mühiti Bakıxanofda dərin (27) təsir buraxdığı kimi bu səyahətlərdə onun bilgi və görgüsünü çoq artırmışdır.

(28) Tiflisdə Mirzə Şəfi Vazehin təşkil etdiyi Divani-hikmət adlı ədəbi məclisin (29) görkəmli uzuvlarından olmuşdur. A. Bakıxanof 1834-də dövlət işindən istifa (30) verdikdən sonra təkrar Qubaya köçüb və bir müddət atasının malikanəsində yaşamış və (31) ən ciddi elmi əsərlərini də burada yazmışdır. Bakıxanof həyatının son illərində tamamıyla (32) işdən çekilmiş və 1846-da Məkkəyə getmişdir. Məkkədən Mədinəyə getdiyi zaman yolda

[141] (1) **Vadiyi-Fatma** da vəba (koləra)dan vəfat etmiş və orada dəfn edilmişdir.

(2) **Əsərləri:** Bakıxanof Tiflisə gəlmədən qabaq Qubada **Gülüstan** adlı ədəbi dərnək (3) (məhfil və əncümən) təşkil edib, görkəmli ədib və şairləri bu məhfilə cəlb etmişdi. (4) Onun Farsca məsnəviyanə şeirlərinin və Füzuliyanə qəzəl və müxəmməslərinin çoxu bu dövrünə (5) aiddir. Şeirlərində Qüdsi təxəllüsünü seçmişdir. Onun şeirlərində vəhtədi-vücud və müəsir (6) qabaqçıl fikirlərin birbiriylə birləşdiyini görə bilərik. Cəlaləddin

Rumi təsiri altında (7) Farsca yazdığı fəlsəfi bir şeirində eşq ilahını tərifləyərək özünə belə xitab edir: (8) mən hara, eşq hara, eşq mənim kimi üftadələrin şanına gəlməz; şahının hünəri milçəkdən uzaq olduğu kimi, aşıqın hünəri də bizim kimi gədalardan (9) uzaqdır, aşıqlıq məhzi- (10) Kərbəla şəhidi İmam Hüseynin işidir ki ona eşq yolunda, din və həqqəniyyət uğrunda nə qədər (11) xənçər, ox və nizə vurdularsa yenə də o suz-i cigərilə: "vurun sizin yaranızdan canım dəyri (12) olur, kaş yüz canım olaydı ki, canan yolunda onları fəda edəydim" (13) dəyir və şeirini:

(14) تن زجان و جان ز تن مستور نیست

(15) ليك كس را دید جان دستور نیست

(16) Bəytiylə qurtarır. Farsca yazdığı bu şeirində Bakıxanof eşq və müsəllək yolunda (17) canından keçən fədakar bir ruhun bədii ifadəsini vermişdir.

(18) **1- Gülüstani-İrəm-** Şirvan və Dağıstan tarixidir, 1841-də Farsca yazılmışdır. (19) Bir müqaddimə, bir xatimə və baş fəsldən mürəkkəb olan bu kitab Dağıstan və Şirvan barəsində (20) coğrafi və etnoqrafi baxımından məlumat verir, ordakı qövmləri, dilləri din və (21) məzhəbləri qısaca anlatır sonraki bablar bu şəkildə təqsim edilmişdir:

(22) 1- En qədim dövürlərdən islam dinin zühuruna qədər.

(23) 2- İslamın zühurundan Moğol istilasına qədər (1258).

(24) 3- Moğol istilasından Səfəvilərin hakimiyyət başına keçməsinə qədər.

(25) 4- Səfəvilərdən Azərbaycan xanlıqların təşəkkülünə qədər.

(26) 5- Yarı müstəqil xanlıqların hakimiyyət dövrü Nadir Şahın ölümündən (1747)

(27) Gülüstan müahədənaməsinə qədər (1813) əsərin müqəddiməsində öz şərh halını yazmış və xatiməsində də (28) Azərbaycan alim və şairləri haqqında məlumat vermişdir. Müəllif əsərini yazarkən Heredot, (29) İstirabon, Palutark, Mirxand, Xavandəmir, Katib Çələbi, Nasturi, Karamazın kimi qədim yunan, (30) rus və şarq tarixçilərindən istifadə etmişdir. Bu kitabı Bakıxanof özü Rusçaya (31) tərcümə etmiş lakin çar hökuməti kitabın nəşrinə icazə verməmişdir.

[142] (1) **2- Riyazül-Qüds-** Kərbəla faciəsi ətrafında yazılmış və Füzulinin Hədiqətüs-süədasına (2) Türkcə nəzirədir. Bu əsəri 1821-də yəni yalnız islam fərhəngi təsiri altındaykən (3) yazmışdır.

(4) **3- Qanuni-Qüdsi-** Fars dilinin gramerinə aid olan bu əsər müəllif tərəfindən (5) Ruscaya tərcümə edilmiş və imparator birinci Nikolaya təqdim edilərək onun əmriylə (6) hər iki dildə Tiflisdə çap olmuşdur.

(7) **4- Kəşfül-Qəraib-** Amerikanın kəşfinə və əhvalına aid bir risalədir.

(8) **5- Təhzibül-Əxlaq-** Yunan, islam və Avropa müəlliflərindən istifadə edilərək (9) yazılmış əxlaq risaləsidir. Bu risalədə bəhs edilən məsələlərdən biri də elm ilə amilin (10) və ya nəzəriyyə ilə təcrübənin münasibəti məsələsidir. Əsərdə göstərilir ki, "dünyada olan şeylərin (11) hamısı əmələ, əməl isə bütün fəzilətlərin dövləti olan əmələ bağlıdır." Bu fikri təsdiq (12) içün həkim sənayidən aşağıdakı bəyti gətirir.

(13) کار بی علم تخم در شور است علم بیکار زنده در گوراست

(14) Bakıxanof aləmi, gəminin yəlkəninə[75] oxşadır.. Yəlkənsiz gəmi dəryada əsir gerdan (15) qaldığı kimi aləmsiz də aməl mənasız və avara qalar, deyir.

(16) Bakıxanof kainat və varlıq haqqında deyir ki, "Vücudda yox olmaqlıq yoxdur, biz (17) də kişmişə, haldan hala keçməyə adəm adı qoymuşuq. Bütün şeylər həlak olar, bir şəkildən (18) digər şəklə düşər lakin yox olmaz, bu, varlığın özüdür."

(19) Cəbrü ixtiyar məsələsində لا جبر ولا تفویض بل هی بین الامرینه inanmışdı aşağıda (20) dərc elədiyimiz Farsca şeirində bu fikri fəlsəfi bir lisan ilə ifadə edir:

(21) بدر کس عمل ز خویش نبیند نه مؤمن است

(22) و انهم که نسبتش نه بحق داد کافر است

(23) بی قوه فعل را به جهان چون وجود نیست

(24) در اختیار ماست عمل هم مقدر است

[75] Badban

(25) قدسی نکوست هر چه رسد از جناب دوست

(26) در ضمن هر فساد صلاحی مقدر است

(27) **6-Eynül-mizan-** Ərəbcə məntiq risaləsidir.

(28) **7-Əsrarül-məlәküt-** Həyat aləminə mərbut olan bu əsəri Farsca yazmış və (29) Ərəbcəyə tərcümə etmiş və əlavə etdiyi bir müqəddimə eyləməyə Məkkə səfərində İstanbulda Sultan (30) Abdülmecidə təqdim etmişdir. Türkcə tərcüməsi 1265 hicridə İstanbulda çap (31) olmuşdur.

[143] (1) **8- Mişkatül-ənvar-** Bəzi əxlaqi hekayələrdən mürəkkəb Farsca mənzum bir (2) əsərdir.

(3) **9- Nəsihətnamə-** 1827-də uşaqlar içün yazılmışdır. Dili sadə və (4) Türkcədir.

(5) **10- Miratül-cəmal-** Farsca şeirlərinin məcmuəsidir.

(6) **11- Kitabi-Əsgəriyyə-** Quba əhalisindən dəmirçi oğlu Əsgər adlı bir gəncin (7) hekayəsidir mənzum və mənsur yazılan bu əsərin Azəri nəşrinin inkişafında əhəmiyyətli bir yeri (8) vardır.

(9) Hekayənin müqəddiməsində həyatın acı və şirin təcrübələrindən çıxmış nikbin bir şairlə (10) tanış oluruq. Şair oxucuları dünya ələmlərinə qarşı mətanətli və səbirli olmağa, (11) dünyada beş gün yaşamağı qənimət bilərək ondan istifadə etməyə eşq və məhəbbətdə pakbaz (12) olmağa çağıraraq yazır: “bu rəsmi dilavizlə firqeyi-ülul-əlbabə-bəyani-mafilbal etmiş (13) kim, riyazi-vücudu-bəşəriyyədə qisim qisim möhnət və ənduh nihali yeddi qüdrətlə ekilipdir və insanın (14) sinəsi beş gün məsrur olsa da, on gün qəm qüssə ilə malamal olur. Ba-inhəmə labüddan (15) aləmi surətdə iqtizayi-təbiəti-bəşəri oldur ki, hər kimsə gərəkdir bir növ mənzur ilə cilabəxşi- (16) didəyi-dil olup, ovqati-şərifini zaye və ömrü əzizini bihudə keçirməsin və bəzi (17) həvadistə cami- qəflətdən təbi-talibi huşyarə badeyi-cəhl içirməsin.”

(19) Müqəddimədən sonra şair hekayənin əsas hissəsinə keçərək Əsgər ilə Mərsiyəxan (20) qızının sevgi və eşq macəralarını nəql edir. Əsgər hür və əzad bir şəkildə sevdiyi (21) qızla anlaşıb evlənmək istəyir və muradına yetişmək içün fanatik məhəllə adamlarıyla

mübarizə (22) aparır və sonu xoşbəxt bir nəticə ilə tamamlanır. Əsərdə əsgər sevgilisinə belə xitab (23) edir.

(24) Nəcə tab etsin dili şuridə canandan cüda

(25) Bi-sər ü-saman qalır hər mülk sultandan cüda

(26) Aşiqi bi-çarənin cismində can canan idi

(27) Nəcə şivən kılmasın kim cism olur candan cüda

(28) Bakıxanof bu əsərdə Əsgərin sevgilisi simasında hər bir qadının nümunəsini təsvir (29) etmişdir.

(30) Bu əsərdə yazılan şeirlərin bəziləri Füzuli üslubunu xatırlatır məsələn

[144] (1) Söylə ey həmdəm kərəm qıl halı yarımdan mənə

(2) Həqq rizası bir xəbər ver gülüzarımdan mənə

(3) Bəyti Füzulinin aşağıdakı bəytini hatırlatır:

(4) Bir xəbər verir ey saba ol mahitəbandan mənə

(5) Kim qəm eşqində yüz qəm etdi dəvrandən mənə

(6) Füzuli səbkində yazdığı başqa qəzəllər və müxəmməslərində dövrandan şikayət əsası (7) yer tutur, burada bismillah rədifli müxəmməsini dərc edirik.

(8) Dila əzm eylə sən bülbül sifət gülzarə bismillah

(9) Müradın olsa meyl etmək fəğanü zarə bismillah

(10) Gər istərsən müdəm olmaq cigər sadparə bismillah

(11) Gərəz fikrin tamaşadır əgər dildarə bismillah

(12) Nəzər ləliləb canbəxşi-rüxi-gülnarə bismillah

(13) Təmənnasında gün-gündən məni-dilxuni şeyda qıl

(14) Gərəkməz namü namusum qəmi aşqilə-rüsva qıl

(15) Verib dünyavü din nəqdin mətai vəslə sevda qıl

(16) Əgər yox dəstrəs sevdayə bari get tamaşa qıl

(17) Gəlibdir Yusifi-gülpirəhən bazarə bismillah

(18) Çəkərdin arzu daim deyirdin şövqi-yar ilə

(19) Ki düşsün ittifaqi-vüslət ol siminqəddar ilə

(20) Edim canım ona təslim zövqü etibar ilə,

(21) Durubdur ol büti-sərməst tiği-abidar ilə

(22) Sözün gər doğrudur ey aşiqi-biçarə bismillah

(23) Demişdin ey büti-tərsanigəh bərhəmzəni-aləm

(24) Ki etməm aşiqimdən mən yaman gün iltifatim kəm

(25) Alıbdır səbrimi dərdü bəla can qəsdin eylər həm

(26) Əgər iqrarı sabitsən vəfa həngamidir bu dəm

(27) Tərəhhüm qıl qədəm bas dideyi-xunbarə bismillah

(28) Olubdur qərqi-xunabi-cigər çəşmi-tərin Qüdsi

(29) Yanıbdır dağı-möhnətdən dili-qəmpərvərin Qüdsi

(30) Gətir təqrirə bir-bir yarə ərz et qəmlərin Qüdsi

(31) Əgər bu şivədən dilgir olarsa dilbərin Qüdsi

[145] (1) Şüru eylə bir özgə vəchlə izharə bismillah

(2) Bakıxanof istedadlı şair olmaqla bərabər böyük bir alim və mütəfəkkirdir.

(3) Rus-İran müharibəsi illərində (1826-28) Bakıxanof hərbi xidməti münasibətiylə (4) Təbrizə gəlmiş və orada gördüyü cəhalət və fanatizmin zülm və fəşarın hüdud söz ağırlığı (5) onu narahat etmiş və bu təsir altında Təbriz Əhlinə Xitab şeirini söyləmişdi (6) bu şeir dərin ictimai məzmunlu kəskin bir satiradır.

(7) Təbrizdə olduğu zaman vəliəhdin tutduğu təziyə məclisinə gidərək orada (8) duvardan asılmış bu satırları oxuyor:

(9) Bu serbazu-əsasu-şahzadə

(10) Olaydı kaş bu dəmdə Kərbəlada.

(11) Şair bədahətən bu cavabı söyləyir:

(12) Bisat cəng olan saat qaçardı

(13) Qoyardı sərvər dini arada.

(14) Bakıxanof rus ədəbiyyatını öyrəndikdən sonra **Kirilof**dan məşhur Eşşek (15) və Bülbül hekayəsi kimi bəzi əsərləri Türkcəyə tərcümə etmişdir.

(16) Bakıxanof yaşadığı dövrdə də böyük şöhrətə nail oldu. Müasirlərindən görkəmli (17) şair Kazım Aqa Salık bir mənzuməsində onu şeir aləminin padşahı diyə tərif (18) etmişdir.

(19) Biri Qüdsi ləqəb Abbasquli bəy Diyar nəzm şeirə padşahdır

(20) **2- İsmayıl Bəy Qudqaşınlı-** İsmayıl bəy Qutqaşınlı son hakimi (21) Sultan Nəsrullahın oğludur. 1822-də hərbiyə xidmətinə girmiş və bu vəzifədə jenəral- (22) mayor rütbəsinə qədər yüksəlmiş və 1841-də mütəqaid olmuşdur. 1852-də xanımı Banu Bikəm (23) ilə bərabər Məkkəyə getmiş lakin Məkkədən nə zaman qayıtması və nə zaman ölməsi məlum deyildir. (24) Bu şairin Zakir ilə müasir və yaxın dost olduğu Zakirin bir şeirindən məlumdur.

(25) İsmayıl bəy Qudqaşınlı məmuriyəti münasibətiylə Petersburg, Moskova, Varşova və Tiflis (26) kimi mədəniyyət mərkəzlərində dolaşaraq Rus və Fransa dillərini mükəmməl ögrənmiş və bu (27) dillər vasitəsiylə Rus və Arvopa mədəniyyətinin qabaqçıl fikirləriylə tanış olmuşdu. Yenə (28) Rus və Fransa santimantalist yazıçıları təsiriylə ədəbiyyata

həvəslənmiş və Şarq Hekayəsi (29) və yaxud Rəşid Bəy və Səadət Xanım əsərini Fransızca yazarak 1835-də Varşovada (30) nəşr etdirmişdi. Əsərdə yalnız təbiət mənzərələri deyil qəhrəmanların əhvali-ruhiyyəsi, (31) ayrı ayrı hadisələrin hekayəsi çoq şirin və təsirli bir şəkildə ifadə edilmişdir. Əsərin **[146]** (1) qəhrəmanı Rəşid bəy 19-cu əsrin əvvəllərində Arvopa mədəniyyətinin qabaqçıl fikirləriylə (2) tərbiyələnmiş gənc nəslin tipik bir nümayəndəsidir. O, qoçaq, igid, aqıllı və tədbirli (3) bir qəhrəmandır eyni halda maarifpərvər və dəmokratik bir gəncdir. Səadət xanımla qarşılıqlı (4) sevgi əsasında evlənir. Nökəri Əzizə yaxın bir dost kimi baxır və hər bir məsələdə (5) onunla məsləhətləşir. O yalnız nökəri Əzizə deyil bütün rəiyyətə böyük bir qayğı bəsləyir (6) bir gecə Əzizə ilə birlikdə gecə vəqti at belində gedərkən rast gəldiyi bir dosta quldurla (7) qəhrəmancasına döyüşür, onları qovar və evləndirməyə apardıqları gənc kəndli mədanı (8) onların əlindən xülasə edib ailəsinə qaytarır. Zorla Əsgər Aqaya ərə verilən sevgilisi (9) Səadət xanımı böyük bir hünərlə qaçırır və üzərinə ordusuyla hücuma kəçən Kazım Xanla (10) vuruşduğu zaman, nahaq yerə qan tökülməsin diyə Əsgər Aqanı məharətlə qaçırır və bununla (11) da Kazım Xanı müharibəni dayandırmağa məcbur edir.

(12) Əsərin ikinci əsas siması Səadət xanım, xəyalpərvər, həyatın mənası yalnız məhəbbətdə (13) arayan (axtaran) təmiz və vicdanlı saf ürəkli vəfalı və nəcib bir qızdır bu romanda (14) Səadət xanım Azəri qadınının idəal bir nümunəsini göstərməkdədir.

(15) Səadət xanım sevmədiyi Məğrur xan oğlu Əsgər Aqaya deyiklidir, o zorla Əsgər (16) Aqaya ərə veriləcəyini xatırına gətirdikçə kədərlənir və öz talesizliyini düşünür: “Mən (17) onu düşünürəm ki bu yaxın zamanda, mən öz nəcabət və sərvətlə məğrur olan Əsgər Aqanın (18) arvadı olmayam. Mən onun xasiyyətinə və əhvali-ruhiyyəsinə bələd deyiləm və ola bilsin ki (19) o heç məni sevməyəcək. Ah, elə bir uşağa ərə gitməkdənsə mən həmişəlik anamın və sənin (20) yanında yaşamağa nə qədər xoş bir səadət hesab edirəm. Elə süd əməl uşaq məndən nə (21) məhəbbət və nə də həssas könül uma bilir.” Yalnız iki sevgili arasında olan muhkəm (22) qarşılıqlı məhəbbət və Rəşid bəyin rəşadəti səadəti bu talesizlikdən qurtarabilir.

(23) Bu əsər Fransız dilində yazıldığı içün Azərbaycan xalqına məlum deyildi, lakin (24) Sovyət inqilabından sonra Azəri Türkcəyə tərcümə olunaraq geniş xalq kütləsinə (25) çatdırılmışdır.

(26) İsmayıl bəy Qutqaşınlı Azərbaycan ədəbiyyatına santimantalist bir nəsrçi kimi daxil (27) olmuşdur.

(28) **3- Mirzə Şəfi Vazeh-** Lirik şeiriylə Arvopada məşhur olan Mirzə Şəfi (29) 19-cu əsrin birinci yarısında yaşamışdır 18-ci əsrin sonlarında Gəncədə (30) anadan olmuş atası Kərbəlayi Sadıq Gəncənin son hakimi Cavad xanın mimarı idi.

[147] (1) Mirzə Şəfi atasının istəyinə görə Gəncə mədrəsəsində təhsil alaraq ruhani olmağa (2) hazırlanmışdı lakin atasının ölümündən sonra sofi Hacı Abdullahın təsiriylə bu (3) fikrindən vaz keçmişdir. Mədrəsədə tədris edən mollaların onun fikir deyiştirməsindən agah (4) olduqdan sonra onunla məşğul olmaqdan imtinai edirlər Mirzə Şəfidə məcbur mədrəsəni (5) tərk edir. Onun ruhanilərə qarşı nifrətinin səbəbi də bu hadisə olmuşdur. Mirzə bir (6) müddət Cavad xanın qızı Pistə xanımın məliklərini idarə etməyə məmur olmuş lakin Rus- (7) İran müharibəsi başladıqdan sonra bu vəzifədən ayrılmış və hətta təliq və müəllimliklə məşğul (8) olmuşdur. 1832-də Mirzə Fətəli Axundofa nəstəliq yazısını təlim vermiş və eyni (9) zamanda ona mətalib irfaniyəni də təlqin etmişdir. 1840-da Tiflisə köçmüş və orada Fars (10) dili müəllimi olmuşdu.

(11) Tiflisdə vəqtini daha çoq irfan yığıncaqlarında keçirən şair, Bakıxanof və sair (12) ədiblərlə tanış olur və böyük hörmət qazanır. Sonra **Divani-hikmət** adlı ədəbi məclis (13) təşkil edərək şagirdlərini və hətta Bakıxanofu oraya cəlb etdi. Bu mahfildə ümumiyyətlə (14) şarq klassiklərindən seçilmiş parçalarla Mirzənin və Bakıxanofun şeirləri oxunur və (15) ədəbi mübəhisələr olurdu, şərabı, gözəli tərənüm edən Xəyyamvari şeirləri, zülmə və fanatizmə (16) qarşı satiraları bu dövrədə yaradılmışdır. Bu zaman Tiflisdə çar hökuməti xidmətində olan (17) hünərli **Feridrix Bodenştedt** şairdən Farsca və Türkcəni öyrənirkən onun ən gözəl (18) şeirlərini dəfterinə yazmış və almana döndükdən sonra onları Almancaya tərcümə edərək (19) 1850-də **Şarqda Min Bir Gün** adlı əsərində çap etmişdi, 1851-də də Berlində (20) **Mirzə Şəfiin Şarqıları** adıyla bir kitabça nəşr etdirmişdi. Bu şeirlər Mirzə Şəfii (21) Avropada böyük bir şöhrət qazandırdı, bu hadisədən sonra Bodenstendt sonrakı nəşirlərdə (22) özünü şeirlərin müəllifi ilan etdi. Mirzə Fətəli Axundof Mirzə Şəfiini şairliyinə (23) yüksək qiymət verib öz tərcümə halında belə dəyir. "Gəncə mescidinin hücrələrindən birində (24) bu vilayət əhalisindən Mirzə Şəfi adlı birisi yaşayırdı! Bu adam növbənöv elmlərdən (25) başqa nəstəliq yazısını da çox yaxşı yazırdı. Bu həman Mirzə Şəfidir ki Almaniya (26) məmləkətində onun həyatı

və Farsca şeirdə malik olduğu fəziləti haqqında məlumat yazılıpdır. (27) Bununla belə Mirzə Şəfiin şeirlərinin əsli bugün əldə olmadığı içün şairin dil, (28) vəzn qafiyə və sairə şəkil xüsusiyyətləri haqqında fikr söyləmək çətindir. Kitabçada verilən (29) şeirlərdən məlum olur ki müəllif klassik şeirin rübai qitə müxəmməs, mərsiyə, qəzəl və sair (30) növlərində şeir yazmış və bunlardan qəzələ daha çox əhəmiyyət vermişdir. Aşiqanə (31) və hakimanə qəzəllərində Hafız ruhu açıq hiss olunur. Onu şeirlərində Hafız təmləriylə **[148]** (1) uyğunlaşdırılmış sağlam bir realizm vardır.

(2) Aşiqanə parçalarında təsvir olunan Züleyxa, Hafizə, Sevsəni də Tiflis gözəlləri, (3) həyatdan alınmış müəyyən və bəlkə də şəxsən şairin həyatda təsadüf etdiyi insanlardır. Züleyxa (4) haqqındakı şeirində belə bədii bir müqayisə vardır: "Elə bilirdim ki o, qızıl güldür (5) gül isə onun kimi gülə bilməz. Onu günəş bilirdim; lakin günəş gecələri işıq saçmaz. (6) Dədim bəlkə mələkdir; Mələk isə, onun kimi məhəbbət duymaz."

(7) Hafizə haqqında yazdığı şeirlərinin birində şair gözəli:

(8) "Başında çadranı at ki gözəlliyin aləmə ayan olsun, sən qızıl gülsən, (9) qızıl gül gözlərə şadlıq vermək içün yaradılmışdır. Sənin gözəlliyin qarşısında (10) İstanbulda sultanın haramxanəsindəki gözəllər bilə solqun sönükdürlər" diyə vaqe və (11) həyatı müqayisələrlə təsvir etmişdir.

(12) Mövhumata və mütləqiyyətə qarşı tənqidi şeirləri Zaqafqaziya şeyxülislamını, İran (13) şahının həcv şairin Tiflis dövründə yaradılmış siyasi satirik əsərlərindəndir.

(14) **"Sual-cavab"** şeirində istilacı müharibələrin aləyhinə çıxaraq insanpərvər (15) fikirlər təbliğ edir. Onun ən qüvvətli əsərlərindən biri də **"Tiflis ilə Əlvida"** şeiridir. (16) Bu şeir Vaqif və Bakıxanof şeirlərindən sonra gərçi paytaxtını və gözəllərini təsvir və (17) mədh edən ən gözəl bir şeirdir. 1864-də yazılan bu şeirdə Tiflis içün belə deyir (18) "Sən mənim əziyyətlərimin və sevinçlərimin dəryasısan". Tiflis ilə Əlvida, Züleyxa və Hafizə (19) haqqındakı aşiqanə parçaları, şikayət şarqıları (təsnif) və satiralarından bəziləri (20) onun şəxsi həyatıyla əlaqədar olan əsərlərdir.

(21) Şikayət şeirlərinin əksəriyyəti ömrünün axırlarında həyatdan naümid olduğu zamanlarda (22) yazılmışdır. Mirzə Şəfi Qriqoryef ilə birlikdə qimnaziya və qəza məktəbləri içün bir (23) dərslik kitabı "Azərbaycan Dili Müntəxəbatı" tərtib etmişdi.

Müntəxabatda Ərəbcə və (24) Farscadan Türkcəyə tərcümə edilmiş kiçik parçalar, hakimanə sözlər, kiçik məzhəkələr, (25) hekayələr, təmsillər, Füzulidən, Rövzatüs-səfa, Dərbəndnamə və Qarabağnamədən nümunələr və (26) kitabın sonunda Türkcə-Rusca sözlərinin lüğəti verilmişdir. Mirzə Şəfi bu kitabın (27) nəşrini görmədən 1852 vəfat etdi və əsər 1855-də nəşr edildi. Mirzə Şəfi ədəbiyyat (28) tariximizə maarifçi realist və mütəfəkkir bir şair kimi daxil olmuşdur.

(29) **2- Satirik şeirin inkişafi-** Satira ümumiyyətlə cəmaətdə böyük dəğişiklər (30) əmələ gəldiyi və sinifi mübarizənin şiddətləndiyi və şairləriylə mühit və rejim arasında fikr (31) ayrılığı və ixtilafın kəskinləşdiyi bir zamanda əgər bir həddə qədər da azalıq olursa **[149]** (1) inkişaf edər. 19-cu əsrin 5-6-ci illərində Şimali Azərbaycanda belə bir vəziyyət (2) və şərait yaranmışdı. Bir tərəfdən rus kapitalizmi Azərbaycana nüfüz edərək feodalizmi (3) sarsıtmağa (mütəzəlzil etmək) başlayır; bəşəriyyətin qabaqçıl fikirlərindən ilham alan yeni yazıçılar (4) yetişir, o bir tərəfdən isə çarizmin müstəmləkəsinə çevrilmiş ölkedə feodal-patriyarkal (5) təzyiq və əsarət davam edirdi. Çar istilasından sonra Azərbaycanda xalq içün dözülməz (6) bir vəziyyət əmələ gəlmişdi. Bu zaman ölkə zalim və soyqunçu çar hakimləri tərəfindən (7) idarə olunurdu. Xanları arz edən qaza komandanatları yerli bəylərlə əl bir olub (8) xalqı talan edirdilər. Ağır vergiləri (maliyatlar) verə bilmeyən və hökümətin əmrinə itaat (9) etməyən kəndlilər qamçı altında döyülüb məhv edilir, hökümət müəssəsələrində və məhkəmələrində (10) hər cür süründürmələr, haqsızlıklar, öz başınalıq, xəyanət, rüşvətxorluq və sairə (11) həddini aşır, hakimlərinin ədalətsizliyi və rüşvətxorluğu ucundan ölkədə qanunsuzluq, (12) hərc-mərclik, quldurluq şiddət edirdi.

(13) Ölkədə dərin bir cəhalət və mövhumat hakim sürürdü.

(14) Öz doğma ölkəsinə və xalqına dərin bir məhəbbət besləyən Azərbaycan şairləri belə (15) qaranlıq mühitə laqeyd baxa bilmərək onunla mübarizəyə girişirdilər. Beləliklə Azərbaycan (16) ədəbiyyatında satirik şeir cərəyanı yaranırdı. Füzulidən sonra ictimai satiranın ilk (17) nümunələrini 19-cu əsrin 20-ci illərində Bakıxanın və ondan sonra Mirzə Şəfi Vazeh (18) yaradmışdı bu ilk maarifçilər və onların yolunu davam və inkişaf etdirən Mirzə Fətəli (19) Axundof bir qədər ehtiyatlı hərəkət edərək, satiranı bilavasitə Azərbaycanın özündəki (20) soyquncu çar hakim və çinovnik (dəvlət məmuru)lərinə qarşı deyil, İran həyatından (21) və tarixdən aldıqları hadisələrə qarşı çevirir və bununlada

əsərlərini çar sansüründən keçirmeyə (22) müvəffəq olurdular. Onlar **qızım sənə deyirəm gəlinim sən eşit** məsəli əsasında hərəkət (23) edirdilər.

(24) Keçən əsrin qırxıncı illərində Azərbaycanda Nəvahili **Mirzə Baxış Nadim** (25) (1875-1880), Şəmkirli **Məhəmməd Cafer Miskin**, Qarabağlı **Bababəy Şakir** (26) (1770-1845) və Qasım Bəy Zakir (1784-1857) kimi müstəmləkə əsarətinə və təzyiqinə qarşı mübarizəyə (27) qalxışan görkəmli satirik şairlər yetişmişdi. Bu cərəyanın qüvvətlənməsinə Dağıstan xalqının (28) çar istilasına qarşı apardığı azadlıq müharibələri də təsir etməkdə idi bu dövrədə yaşayan (29) Şəki şairlərindən Biçarə təxəllüslü Osman, Müəzzin Türab Şeyx Şamil hərəkətinə dərin (30) bir rəğbət bəsləyirdilər. Şeyx Şamilin Xunzaxdakı galibiyyətindən ruhlanan şair Biçarə, (31) bir şeirində müselmanları bu böyük xalq qəhrəmanın ətrafında birləşməyə çağırırdı.

[150] (1) **Mirzə Baxış Nadim** çar məmurlarını və yerli bəylər aləyhinə şiddətli satiralar yaratmışdır. (2) Kəndlilərin avazinə qoşularaq işlədiyini görən şair, bəy və xanları (3) kəskin satirik qələmiylə qamçılamışdır. Nadim bir şeirində o zamanlar xan tərəfindən kotana[76] (4) qoşdurulmuş Mahmud adlı qoca bir kəndlinin ağır halını təsvir etmişdir:

(5) Mahmud əya rəncbər, ey mərdi-yəganə,

(6) Nahaq yərə rəncidə olub gəlmə fəğanə

(7) Xaliq sizi rəncbər yaradıbdır bəyə xanə

(8) Hərçənd gərəkdir qoşala at bu kotanə,

(9) At olmasa heç incimə insan da qoşarlar

(10) Şahlıq quyular, buğda ilə dolmasa olmaz

(11) Məmur da buna amir əgər olmasa olmaz

(12) Salyani Həsən xan da əgər soymasa olmaz

(13) Sal gərdəninə gərdənbənd, gir bu xəzanə

[76] Cüt

(14) Lal ol dilini kəs xışa insan da qoşarlar

(15) Nadim Dağıstan və Şimali Qafqazın Çar Rusiyası tərəfindən istilasını xalqın çekdiyi (16) zülm və dəhşətləri təsvir edən uzun tarixi bir mənzumədə yazmışdır.

(17) **Məhəmməd Cəfər Miskin** bu əsrin görkəmli xalq satirik şairlərindəndir. Çarizm (18) siyasətinə qarşı kəskin şeirləri vardır. Miskin yerli çar hakimlərini "tüfəyli və həşərata" (19) qan içici "cəllada" oxşadaraq onların haqqında acı və nifrətli sözlər demişdir.

(20) **Şakir** ictimai satiranın banilərindən biri də Qarabağlı şair Baba bəy Şakirdir. (21) O da bəy ailəsinə mənsub olub Pənah Xan Cavanşirin nəslindəndir. Qasım bəy Zakir ilə (22) qohum və dost olduğu şeirlərindən anlaşılır. Hər iki şair arasında səmimi məktublaşma (23) və müşaərə davam etmişdir. Zakir, Şakirin ölümünə dair söylədiyi bir şeirində onu (24) özünün ustadı adlandırmışdır.

(25) Mütəəssifanə Şakirin bütün şeirləri əldə yoxdur. Məlum olan altı şeirindən üçü (26) tezar istilası və onun müstəbid hakimləri aləyhinə yazılmış siyasi satiradır. Qasım Bəy (27) Zakirə yazdığı mənzum bir məktubda Şakir, Qarabağ bəylərinin dəputat (nümayində) seçmək **[151]** (1) için birbirləriylə dalaşdıqlarını bəyləri çar hakim və rəisləri qarşısında qorxudan (2) tir-tir əsib yaltaqlanmalarını təsvir edərək çar idarə üsulunu tənqid etmişdir. Şakirin, (3) Əmr Aslan bəy haqqında yazdığı həcv də çox maraqlıdır. Bu həcvi ilə şair, xalqı soyub (4) talan edən çar komandantlarını və yerli bəyləri tənqid və ifşa etmişdir.

(5) **Qasım Bəy Zakir.** (1784-1857) 19-cu əsrin ən böyük satirik şairi (6) Qasım Bəy Zakirdir. O Qarabağ xanlığının əsasını qoyan Penah xan nəslindəndir. Çar (7) hakimlərinə yerli bəylər ilə apardığı mübarizə nəticəsində hökumət tərəfindən Bakıya sürgün (8) (təbid) edilmişdir. Oğlu Nəcəfqulu bəy və qardaşı oğlu İskəndər bəy də Rusiyanın (9) içərilərinə sürüldülər şair dostum F. Axundofa yazdığı mənzum bir məktubda vətənindən (10) dərbədər olduğunu acı şikayətləriylə bildirmişdi:

(11) Piranəsərlikdə çərxi-kəcrəftar Eylədi dərbədər vətəndən məni

(12) Nəyləmişəm bilməm dövrü-zəmanə İncidər düşəndə bu qədər məni

(13) Zakir həyatının çox qismətini Mehdiqulu xanın ona bağışladığı Xındırıstan kəndində (14) keçirmiş və kəndlilərlə bərabər yaşamışdır. Şeirlərindəki xalq məişəti təsviri və xalqçılığı (15) şairin bu həyatıyla əlaqədardır.

(16) Zakir şeirə Vaqifin təsiriylə başlamış və realist şeir üslubunda davam etdirmiş (17) və bu yolda çox yüksəlmişdir. Şairin qoşmaları ən parlaq şeirləridir. Şeirlərində (18) xalq əhvali-ruhiyyəsi məhəlli və milli xüsusiyyətlər, Azərbaycan gözəli onun milli geyimi və (19) adətləri təsvir edilmişdir:

(20) Siyah zülfün dal gərdəndə bir qulac[77]

(21) Sona çıqqası tək ucları qıyqac

(22) Belə türə, belə geysu, belə saç

(23) Belə qəmzə, belə qaşla göz olmaz

(24) Barmağında xatəm, belində kəmər

(25) Telində güşvarə, düymə tamam zər

(26) Qərq olsun yaşıla, ala sərasər

(27) Naz ilə sallana sallana gəlsin

(28) Bəzi qoşmalarında qüvvətli istiarələr işlətmişdir:

[152] (1) Müsəlsəl geysulər ruxi al üzrə

(2) Bir buluda bənzər məhcəmal üzrə

(3) Pərtövi hüsnündür xəttü xal üzrə

(4) Yoxsa gün düşübdür dodaq üstünə

(5) Zakirin klassik şeir üslubunda yazdığı müxəmməs, müstəzad, tərcibənd və tərkibibəndləri, (6) qəzəlləri və sair mənzum parçalar da vardır. Bunların bəziləri Xətaiyə,

[77] Ənbüh zülf və xirmən

Füzuliyə (7) Nəşat və Aqa Məsih Şirvaniyə Vidadiyə və Vaqifə nəzirə olaraq yazılmışdır. Zakir bir çox (8) təmsillər mənzum hekayələr də yazmışdır. Təmsillərinin bir qismi Kirilofdan tərcümə və iqtibasdır, (9) bir qismi də Sadinin təsiri altında yazılmışdır.

(10) Mənzum hekayələrindən "Zövci-axər" adlı əsəri çoq calibdir. Bu əsərdə şarq (11) qadınlarının feodal dünyasında əyləncə (əsbabi-təfrih) olduğunu və hüquqsuz bir halda (12) yaşadığını təsvir etmişdir.

(13) Öz zamanında ədalət məhəbbət görməyən şair tarixin keçmiş səhifələrini araşdırmış (14) və Berdə[78]nin böyük Nizami və Xaqani dövürlərindəki ədəbiyyatı və şən günlərini arzulayaraq (15) "gəzim" rədifli şeirini yazmışdır:

(16) Tülək[79] tərlan ovlağıydı bu yerlər Bərdə torpağına eyləyim güzər

(17) Görüm qalıbdırmı şirindən əsər Baxım hər tərəfə nigaran gəzim

(18) Bülbüli-biçarə verdi xəbəri Dədi ki qalmayıb şənlik əsəri

(19) Mən Zakirəm onu görəndən bəri Gərək məcnun olub bəyaban gəzim

(20) Zakirin satirik şeirləri daha çox çar hakimlərinə və çarizmin müstəmləkə siyasətinə (21) qarşı söylənmişdir:

(22) Birindən şikayət edəsən əgər

(23) Danışmağa qoymaz sözünü kəsər

(24) Qardaş malı kimi ortadan bölər

(25) Muroflar olublar oğruya ortaq[80]

(26) Görsən tanımazsan yarım saqqalı

(27) Çıxıb əndazədən dövləti, malı

---

[78] Berdə və ya Berağa Azərbaycanın qədim şəhərlərindən və Nizami nüşabəsinin paytaxtı olmuşdur və Qarabağ məhalına mütabiqdir.
[79] İti uçan sürtülmüş.
[80] Şərik

[153] (1) Xandəmirov çaldı, çapdı məhəli

(2) O ki var, tutub özün keçəl qurumsaq

(3) Bakıda sürgün olduğu zaman Vidadinin Durnalar şeirinə yaxın olan məşhur (4) Durnalar şeirini yazmışdır:

(5) Bu bəlada hər gün tökülür qanlar

(6) Yavaş keçin səs-səmiriniz[81] anlar

(7) Laçin[82]yatağıdır bizim məkanlar

(8) Qorxuram sıranız çaşa[83], durnalar

(9) **3- Aşiqanə Xalq Şeiri Cərayanı**: Vaqif üslubu 19-cu əsrin birinci (10) yarısında da qüvvətli bir cərəyan şəklində davam etmişdir. Təbiidir ki bu növ şeir, qıdasını zəngin (11) xalq yaradıcılığından və aşıq şeirindən alırdı. Bu səbəbdən şifahi xalq ədəbiyyatında (12) gördüyümüz köçəri xalq məişət təsvirləri, milli və yerli xüsusiyyətlər, nikbin dünya (13) görüşü nəcib və incə insan ehsasları, sədaqət, səmimiyət, hörmət və məhəbbət, (14) kama çatmaq arzuları bu şeirdə dərin bədii ifadəsini tapa bilmişdir. Bu şeir cərəyanının (15) əsas möhtəva və mündəricəsini **sevgi** təşkil edir. Bu növ şeirin dili sadə və mahiyyəti (16) realistdir.

(17) Bu dəvürdə yetişən yüzlərcə şairin hər birinin fərdi yaradıcılıq xüsusiyyəti (18) olmasına, bəzilərində realizmin, bəzilərində isə romantizmin üstün gəlməsinə, (19) bəzilərində nəşəli və nikbin, Vaqifanə ruhun, digərlərində isə hüznün, kədərin və şikayətin (20) ifadə olunmasına rəğmən hamısı bir üsluba tabe olur və birləşirdilər, hamısı bir mənbədən, (21) şifahi xalq ədəbiyyatından ilham alır, sadə xalq dilində, heca vəzniylə yazır, xalq məişətini (22) təsvir edir və beləliklə də xalq şeiri cərəyanını yaradırdılar.

(23) Aşiqanə xalq şeiri cərəyanı Azərbaycanın üç böyük məntəqəsində: **Qaradağ** məhəlində, (24) **Qarabağ və Qazax**da daha çox inkişaf edərək yayılmışdır.

---

[81] Səs səda.
[82] Şahin, aqab.
[83] Rədifimiz pozula.

(25) Cənubi Azərbaycanda bu cərəyanı təmsil edənlər Seyid Ebülqasım **Nəbati**, **Andəlib** (26) **Qaracadağı**, Qırx Bulaqlı Məhəmməd Xəlifə **Aciz** və Erdəbili Qaraqax Baba **Zakiri** kimi (27) görkəmli şairlər olmuşdur.

(28) Nəbati bütün Azərbaycanda yetişən aşiqanə xalq şairləri içərisində ən böyük və ən (29) şərəfli yeri tutmuş və onun barəsində daha əvvəl bəhs edilmişdir.

[154] (1) **Andəlib Qaracadağı** Əhərdə anadan olmuş əvvəla Təbrizə sonra İrəvana gedərək (2) sərdar divanxanasında mənşilik etmişdir. İrəvanın çar ordusu tərəfindən fəthini təsvir (3) edən bir şair Füzuliyə nəzirələr və xalq ədəbiyyatının qoşma, heydəri, gəraylı kimi şəkillərində (4) aşiqanə parçalar yazmışdır.

(5) Aciz haqqında daha qabağdan məlumat verdiyimiz içün təkrar yazmaya niyaz (6) görmürük.

(7) **Baba Zakiri-** (1795-1869) bu şairin əsərlərində tösvif əqidələriylə aşiqanə (8) ehsasların birləşdiyini görə bilirik. Sufiyanə şeirlərində asi bir ruh ifadə etdiyi (9) kimi, aşiqanə parçalarında da bəzən zəmanənin ağırlığından doğan şikayətçi bir əhvali-(10) ruhiyyənin bədii ifadəsini vermişdir. Onun üzərində **Nəbati**nin təsiri açıq hiss (11) olunur ehtimal ki Nəbatinin Qaradağda təşkil etdiyi sofi təriqətinin muridlərindən (12) olmuşdur. Zakirinin Vaqifa nəzirə yazdığı "görmədim" şeiri şikayətlə doludur. Xalq (13) arasında böyük bir nüfuz qazanmış qoca şair 1869-da Xan tərəfindən idam edilmişdir. (14) Xalq şeiri Qarabağda da geniş inkişaf edirdi. Burada **Aşıq Valeh, Aşıq Qənbər**, (15) **Aşıq Pəri, Mirzəcan Mədədof, Məhəmməd Bəy Aşıq, Zakir, Cani oğlu** (16) **Abdullah, Mirzə Həsən Mirzə və Cəfərqulu xan Nəva** kimi görkəmli şairlər yetişmişdir. (17) Vaqifin təsiri bu şairlərdə daha bariz olmuşdur.

(18) **Aşıq Valeh:** Kərbəlayı Səfi Valeh qoşmalarıyla bərabər qəzəl müxəmməs və dini mənzumələr (19) yazmışdır. Məşhur **"Vücudnamə"**sində insanın ana badnına düşdüyü andan yüz yaşına (20) qədər keçirdiyi müxtəlif dövürləri, öləndən sonrada (qəbir əzabı)nı (qiyamət günlərini) təsvir (21) etmişdir. Aşıq Valeh Azərbaycan aşıqları içində ustad bir şair kimi tanınmışdır.

(22) Çəhar ünsürdən şəş cəhətdən Bir qətrə mənidən olmuşuz peyda

(23) Adəm dəryasında qaldım altı ay Qüdrət qədər və xalıq eşya

(24) Rahm içində əvvəl bünyad oldu dil İki nöqtə gözüm oldu müqabil

(25) Bir damaq bir ciyər olundu hasıl Doquz gündə tamam oldu bu aza

(26**) Aşıq Perinin** həyatı haqqında məlumatımız azdır belə nəzərə gəlir ki Qarabağda Maralyan (27) kəndində doğulmuş və gənc yaşında Şuşaya getmiş və 1833-də gənc yaşında ölmüşdür. (28) Bu şairənin Məhəmməd Bəy Aşıq, Mirzəcan Mədədof, Mirzə Hesən Mirzə, Əsəd Bəy və Cəfərqulu (29) xan Nəva kimi müəsirləriylə yetişməsi və onlara galib çıxması məlumdur. Mirzəcan **[155]** (1) Mədədofla şeirləşməsi onun yaradıcılığında mühüm bir yer tutur. (2) Mirzəcan Mədədofun ölümü Aşıq Pəriyə çox təsir etmiş və bu şeirləri dünyaya (3) xitabən Mirzənin vəfatı münasibətiylə söyləmişdir:

(4) Dünya sənin etibarın yox imiş Bir xəbər ver Mirzəcanı nəylədin

(5) Neçə bəylər ilə neçə xan ilə Göftarı xoş əhli-canı nəylədin

(6) Neçə şəhər üstdə cəng edib savaş

(7) Cari edib sel yerinə qanlı yaş

(8) Fələk etdin taci-təxtini tarac

(9) Nökər, nayib, xanimanı nəylədin

(10) Puç dünya səndə bir yaranan hanı Günbəgün artırdın şövkəti şanı

(11) Tiflisin sağ əli sərdarın canı Viran qoyub Dağıstanı nəylədin

(12) O fələkdir düyün[84] yeri dağlayan Əzəl şad eyləyib sonra ağlayan

(13) Sinəsində şeirü kitab bağlayan Sahibi-huş, gövhər kanı nəylədin

(14) **Mirzəcan Mədədof-** (1887) Qarabağ Ermənilərindən idi, Çanaqçı kəndində (15) anadan olmuş və 20-30-ci illərdə Tiflisdə sərdar divanxanasında mütərcim vəzifəsində

[84] Toy.

(16) çalışmışdı. Aşıq Pərinin Qarabağdakı şöhrətini eşidincə Qarabağa gəlmiş və ən (17) yüksək gınai şeirini bu gözəl şairəyə təqdim etmişdi.

(18) Tapmışam Qüdsi-Xəlili, mahrasanı nəylərəm?

(19) Əldə təsbih ilə zünnarü əsanı nəylərəm

(20) Bir Pəri şeyda siyam, İsa Musanı nəylərəm

(21) Sevmərəm Tövrat, Zəbur sən çalan tardan danış

(22) **Canioğlu Abdullah** da görkəmli bir şair idi (tamaşa) rədifli cığalı (23) müxəmməsində (könlüm quşu pərvaz eylə) diyə[85] başlayan şeirində şadu nikbin hisslərini (24) tərənnüm etmişdir. O satirik parçalar, həcvlərdə yazmış və bu sahədə çox bacarın (25) göstərmişdir.

[156] (1) Ey iki gözüm qıl belə şahbazə tamaşa

(2) Xəncər nəkəradır, hər yarəsi göyçək hər muyə tamaşa

(3) Mövsümdü güşad et iki dərvazə tamaşa

(4) Xoşsövt, xoşəlhan, xoşavazə tamaşa

(5) Bu nazu nəzakətdə sərəfrazə tamaşa

(6) Könlüm quşu pərvaz elə pərvazə tamaşa

(7) Gör nəcə gözəldir

(8) Məhbubi-əzəldir

(9) Ləylayə bədəldir

(10) Məcnunə məhəldir

[85] Bu şeirin mətləyi Firidun bəy Köçərlinin edəbiyat tarixində belədir: ey iki gözüm qıl belə şahbaze temaşa.

(11) Xoşbuyə tamaşa

(12) Ahuyə tamaşa

(13) Giysuyə tamaşa

(14) Əbruyə tamaşa

(15) Ey bülbüli-can çıx belə rəftarına bax bax

(16) Qıl seyrü səyahət gülü gülzarına bax bax

(17) Yüz canalıcı işveyi-ruxsarına bax bax

(18) Gör kim nəcə candır

(19) Can içrə nihandır

(20) Mənzuri-cahandır

(21) Hər qəmzəsi qandır

(22) Mən öldüm amandır

(23) Şirin dilə bir bax

(24) Nazik belə bir bax

(25) Şümşad ələ bir bax

(26) Mişkin telə bir bax

(27) Ənbər nəkəradır

(28) Kövsər nəkəradır

(29) Ruxsarəsi göyçək

[157] (1) Getmə, hələ bir bax

(2) Gəl indi sən et bu yərişə nazə tamaşa

(3) Yüz püstələbü ləli-Bədəxşan buna pişkəş

(4) Yüz laləüzar afəti-dövran buna pişkəş

(5) Cümlə nə qədər var isə xuban, buna pişkəş

(6) Abdulla kimi neçə qəzəlxan buna pişkəş

(7) Dur söhbəti-meyxanəyə gəl sazə tamaşa.

(8) Bir huri mələkdir

(9) Qılmanə köməkdir

(10) Bu simbiləkdir

(11) Rizvan nə dəməkdir

(12) Rizvan buna pişkəş

(13) Bostan buna pişkəş

(14) Reyhan buna pişkəş

(15) Cövhər nəkəradır

(16) Həm zər nəkaradır

(17) Xunxarəsi göyçək

(18) Bu can buna pişkəş

(19) **Məhəmməd Bəy Cavanşir Aşıq** da Vaqifanə, şux şairləriylə şöhrət qazanmış, (20) müasirləriylə şeirləşmiş və Aşıq Pəriyə hərarətli şeirlər yazmışdır. Çar hökuməti tərəfindən (21) Ordubada sürgün edilən şair həyatının son illərində yazdığı lirik parçalarında (22) həyatdan incik və düşgün bir ruh ifadə etmişdir. (tubanamə).

(23) Qazax xalq şairlərindən Kazım Aqa Salik, Mustafa Arif, Əbdürrəhman Dilbazoğlundan (24) qabaxcadan bəhs etməmişdik.

(25) **Mənabi və Müraciə:**

(26) 1- Azəri Ədəbiyyatında Təcəddüd Dövrü (19-20-ci əsr) İslam Ansiklopedisi. (27) Professor Fuad Köprülü Cild 2- İstanbul.

[158] (1) 2- Azərbaycan Ədəbiyyatı. Əhməd Cəfəroğlu. Türk Dünyası Əl Kitabı 1977- (2) Ankara.

(3) 3- Azərbaycan Ədəbiyyatı. Firidun bəy Köçərli. Birinci cild. Elm Nəşriyyatı (4) 1977- Baku.

(5) 4- Azərbaycan Ədəbiyyatı Tarixi. İkinci Cild. F. Qasımzadə, Məhəmməd Arif və (6) Haydar Hüseynof Elmlər Akadəmiyası, Azərbaycanqolu Nəşriyyatı, Bakı 1946

(7) 5- Abbasqulu Aqa Bakıxanlı Qüdsi- Türk Xalq Ədəbiyyatı Ansiklopedisi. Birinci Cild. (8) Professor Fuad Köprülü 1935- İstanbul.

(9) 6- Abbasqulu Aqa Bakıxanlı-Türk Kültürü Aylıq Dərgi. Aralıq 1964-Ankara. (10) Hüseyn Bayqara.

(11) 7- Azərbaycan Mizah Ədəbiyyatına Bir Baxış Mustafa Haqqı Türkequl. Türk Kültürü (12) Aylıq Dərgi. Temmuz. 1963.

[159] (1) Azərbaycan Ədəbiyyat Tarixinə Bir Baxış

(9)

(2) Yazan: Doktor Cavad Heyət

(3) **4- 19-cu Əsrin İkinci Yarısında Ədəbiyyat-** Bu əsrin ortalarında (4) və ikinci yarısında məxsusən Şimalı Qafqaz dəmiryolu çəkildiyindən sonra, Rusiyanın (5) sənəti malları Azərbaycan şəhərlərinə dolmağa başladı. Gəncə, Şəki və Şuşanın bazarlarında (6) bu zaman Rus malları satılırdı. Rusiya ilə iqtisadi münasibət genişlədikçə ticarət (7) artır və canlanırdı.

(8) Kiçik bir limandan (bəndər)dən ibarət olan Bakı şəhəri, 1870-dən sonra nəft (9) sənəyinin inkişafı ilə, sürətlə böyüməyə başladı, Rusiya və Avraponın kapitalistləri (10) Bakıya axın edərək onun zəngin və əl dəyməmiş nəft qaynaqlarını (mənbə), ucuz (11) fəalə qüvvəsini istismara başladılar. Bu əsrin sonlarında Bakı artıq (digər) sənəyi mərkəzinə (12) çevrilmişdi.

(13) 19-cu əsrin 20-ci illərində Rusiyada maarifçilik hərəkəti ən böyük (14) və mütərəqqi ictimai cərəyan olaraq inkişaf edirdi bu cərəyanın nümayəndələri xalqı köhnə (15) nizami yıxmağa və Rusiyanı hər tərəfli "Avropalaşdırmaq" və kəndlilərin mənafenin müdafiə (16) etməyə çağırırdılar. Moskva və Petersburg darülfununlarında inqilabçı rus tələbələriylə (17) bir yerdə oxuyan Azəri tələbələr qabaxcıl fikirlərlə vətənlərinə qayıdırdılar. Həsən bəy (18) Məlikzadə Zərdabi, Nəcəf bəy Vəzirof, Əhməd bəy Cavanşir, Əsgər Adıgözəlof belə **[160]** (1) münəvvərlərdən idilər. Beləliklə Azərbaycanda Rus və Arvopa mədəniyyəti təsiri daha qüvvətlənir, dəmokratik (2) və maarifçi fikirlər yayılmağa başlayırdı.

(3) Azərbaycan ədəbiyyatı da belə bir tarixi və ictimai şəraitdə sürətlə inkişaf etdi. (4) Bakıxanofla başlayan yeni maarifçi realist ədəbiyyat, Mirzə Fətəli Axundofun yaradıcılığında (5) ədəbi səviyyəsinə yüksələbildi.

(6) Axundof Rus və Avropa klassiklərini oxuyur, müəsir Avropa fəlsəfəsini izləyir (7) (təqib edir) və 1850-də yaratdığı komedilərıylə Azərbaycan milli dramaturgiya (nümayişnamənüvis)sının (8) binasını qoydu. O bir tərəfdən Ərəb əlifbasının

dəyiştirilməsi məsələsini (9) irəli sürərək bu xüsusda tərəhlar verir, şarqda fərhəngi və mədəni inqilab yaratmaq (10) istəyir, müəsir yazıcılardan Mirzə Malkam Xanın, Rzaqulu Xanın, şair süruşun və sairənin (11) əsərləri haqqında ədəbi-tənqidi məqalələr yazır və nəhayət fanatizmi tənqid edən "Kəmalüddövlə (12) Məktubları" kimi çox kəskin, bir əsərin müəllifi kimi meydana çıxırdı. Bu illərin ədəbi (13) yeniliklərindən biri də Azərbaycan mətbuatının yaranması idi.

(14) Həsən bəy Zərdabi 1875-də ilk dəfə olaraq, Bakıda, Türkcə Əkinci qəzetesini (15) nəşr etməyə başladı. Bu nəşriyyəsi də Əzim Şirvani, Nəcəf bəy Vəzirof, Əsgər Aqa Adıgözəl (16) kimi mütərəqqi yazıcıları öz ətrafına topladı və kəskin (qəti və tiz) məqalələriylə cəhalətə, (17) fanatizmə qarşı çıxır, maarifçi-dəmokratik fikirləri təbliğ edirdi. Bu ruznamə ayda (18) iki dəfə müntəşir olurdu mütəssifanə üç ildən sonra çar idarəsi tərəfindən təvsif (19) edildi. Maarifçi realist ədəbi cərəyanı yanında başqa ədəbi cərəyanlar da var idi.

(20) Şeirdə qəzəlçilik daha geniş yayılaraq inkişaf etməkdə idi.

(21) 1860-70 illərində Qarabağda "Məclisi Üns" və "Məclisi Fəramuşan", Şamaxıda (22) "Beytüs-səfa" Bakıda "Məcməüş-şüəra" kimi şeir məclisləri yaranır və bu məhfillərdə yüzlərcə (23) qəzəlsəralar toplanırdı. Qarabağda Abdullah bəy Asi, Xurşidbanu **Natəvan**, Şamaxıda (24) Mirzə Nəsrullah **Bahar**, Hacı **Seyid Əzim Şirvani**, Bakıda Yusif **Xalik**, Məhəmməd Aqa **Cürmi**, (25) Gəncədə Mirzə Əhmədi **Nuqi,** Şəkidə İsmayıl Bəy **Nakam**, Dərbənddə **Qəməri** kimi görkəmli (26) qəzəl şairləri yetişmişdir. Bu dövürdə canlanan qəzəl şeirinin ilhamcısı Seyid Əzim (27) Şirvani idi. O maarifçi-satirik şeirləriylə maarifi təbliğ edir və xalqı oyandırmağa (28) çalışırdı. Bu əsrdə eyni zamanda mərsiyə şeiri və irfanı şeir hər iki Azərbaycanda (29) yazılırdı. Mərsiyə şeiri haqqında daha əvvəl məlumat verilmişdir. İrfani şairlərin (30) başında **Nəbati** gəlirdi. **Seyid Nigari və Şah Nigar Xanım Rəncur** sufiyanə və gınai şeirləriylə **[161]** (1) o birlərindən seçilirlər. (2) 19-cu əsrin ikinci yarısında şifahi xalq ədəbiyyatı da inkişaf edərək (3) yayılmaqdaydı. Bu dövrün ən görkəmli xalq şairləri Aşıq Ələsgər, Şəmkirli Aşıq (4) Hüseyn, Şəkili Aşıq Molla Cami, Aşıq Mahmud idi. Aşıq Ələsgər aşıq şeirinin (5) böyük bir ustadı kimi yüksəlmişdir.

(6) Bu dövrədə inkişaf edən şifahi xalq ədəbiyyatında **Qaçaq Nəbi** haqqında bir sıra nəğmələr (7) və xatirələr yaranmışdır. Bu xatirə və nəğmələrdə təsvir olunan Qaçaq Nəbi düşmənlə mərd və (8) cəsarətli vuruşan, qorxmaz bir xalq qəhrəmanıdır.

(9) Yoqarıda yazdıqlarımızı xülasə edərsək bu dövrədə dramaturgiya, mətbuat yaranmış, (10) ədəbi məhfillər qurulmuş və görkəmli və nüfuzlu şairlər yetişmiş və ədəbiyyatda dəmokratik (11) fikirlər inkişaf etmişdir.

(12**) Mirzə Fətəli Axundof-** (1812-1878). Mirzə Fətəli Axundzadə 1812-də (13) Noxa (Gəncə məhəllatından) da anadan olmuş, atası Xamenevi və anası Nuxalıdır. (14) Səkkiz yaşında babasından ayrılmış və anasının əmisi Hacı Ələsgərin himayəsinə (15) keçmişdi. O Hacı Ələsgərdən ilahiyat, Ərəbcə və Farscayı öyrənmiş və islam (16) fərhənginə dərindən bələd olmuşdu. 1832-də Mirzə Şəfi Vazeh ilə tanış olduqdan (17) sonra ondan nəstəliq yazısını öyrənirkən onun təsiri altında ruhani olmaqdan (18) vaz keçmiş (sərfi-nəzər eyləmiş) və müasir elmlərə maraq (əlaqə) tapmışdır. 1834-də Mirzə (19) Fətəli Tiflisə köçmüş və orada dövlət idarəsində şarq dilləri mütərcimi olmuşdur. (20) Çalışdığı vəzifədə bacarıq və ləyaqət göstərdiyindən tez yüksəlmiş və 1848-də çar hökuməti (21) tərəfindən Nəsrəddin Şahın taxta çıxmasını təbrik içün göndərilən nümayəndələrlə İrana (22) gəlmiş və bu fürsətdə Mirzə Taqi Xan Əmir Kəbir ilə görüşmüş və İranın vəziylə yaqından (23) tanış olmuşdur 1842-də Axundof Axund Hacı Ələsgərin qızı Tubi Xanımla evlənmiş (24) və Axundzadə adını özünə soyadı (nam famil və ləqəb) seçmişdir. 1850-55 arasında (25) məşhur altı komedisini yazmış və 1857-də "Aldanmış Kəvakib" hekayəsini və 1860-da da (26) "Kəmalüddövlə Məktubları"nı yazmış və ondan sonra yeni əlifbanı qəbul və mütədavil etdirmək (27) içün çalışmış və 1878-də Tiflisdə ürək xəstəliğindən vəfat etmişdir. Axundof (28) bədii yaratıcılığa[86] şeirlə başlamışdır. İlk şeirini məşhur rus şairi Puşkinin (29) ölümünə dair və Farsca yazmışdır (Puşkinin Qətli Haqqında Şarq Poeması). Bu şeir **[162]** (1) Morlinskiy tərəfindən Ruscaya tərcümə edilərək çap olmuş və gənc şairə böyük bir şöhrət (2) qazandırmışdı.

[86] Hünəri-halqiyat və fəaliyyət.

(3) Bu poemada şair təbiətin gözəl təsvirini verdikdən sonra, Puşkinin ölüm (4) xəbərindən doğan dərin kədərini, ruhi-ələm və həyəcanlarını ifadə etmiş və Puşkinin Rus (5) ədəbiyyatındakı mövqeyini təyin və tərsim etmişdir.

(6) Bu mənzumədən başqa Axundof Türkcə və Farsca müxtəlif şeirlər yazmış! Bəzən (7) Vaqif səbkində aşiqanə qoşmalar, bəzən də dostlarına (Qasım Bəy Zakir və növa başqaları) (8) mənzum məktubları və hətta əlifba uğrunda (yolunda) apardığı mübarizələr haqqında şeirlər yazmışdır. (9) Şeirlərində Səbuhi təxəllüsünü seçmiş lakin şeirlə kifayətlənməyərək ədəbiyyatın başqa sahələrinə, (10) dramaturgiya (nümayişnamə) və nəsrə geçmişdir.

(11) Keçən əsrin 20-ci illərində Tiflisdə Tatar həyatı canlanmaya başlamışdı. O (12) zaman varlı Gürcü xanlarının əvvəllərində bəzən də açıq havada musiqi konsertləri və Tatar (13) tamaşaları təşkil olunur və Rus və Gürcü yazıcılarının əsərlərindən kiçik parçalar (14) oynanırdı. 1851-də Tiflisdə böyük bir Tatar binası tikildi, Mirzə Fətəli bu Tatar (15) tamaşalarını izlədikçə Şekspir, Moliyər, Griboyədof və Gogol kimi böyük nümayişnamə (16) yazanların əsərlərini Oqur və Tatarın böyük fərhəngi rolunu düşünərək Tatar əsərləri (17) yazmağa həvəslənirdi.

(18) Beləliklə 1850-55 arasında yazdığı altı komedi nümayişnamə **(Hekayət Molla İbrahim (19) Xalil Kimyager, Hekayəti Müsyö Jordan və Dərviş Məstəli Şah Cadüger (20) Məşhur, Hekayəti xırsi-quldurbasan, Sərgüzəşti-vəziri-xani-Lənkəran, Sərgüzəşti (21) mərdi-xəsis və ya Hacı Qara və Mürafiə vəkillərinin hekayəti**)ləriylə Azərbaycan (22) dramaturgiyasının təməlini qoydu.

(23) Axundof bu sahədə "banikar" olmasını bu şəkildə izah edir.

(24) Çün Əmir Əzim Kinyaz[87] Burunsof Fermanruyi məmləkəti Qafkaziya 1266-ci sənədə (25) şəhəri-Tiflisdə bir imarət-aliyyə teatır ismiylə bərpa edib, balada məzkur olan münafi külliyənin (26) və sayılı iktisabına məxaric kəsirə sərf etmək içün külli himayət və inayət zahir buyurdu (27) ləhza mən daxi milləti islamı bu əmri qəribdən müstəhzir etmək içün bir səbil imtahan bir (28) hekayət təsnif edim indi cümləsini bir mücəllid içində ərbab kəmala məruz edib (29) başqa müsenniflər kimi təvəqqə etmərəm ki nik və

[87] Xan.

bedindən iğmaz etsinlər! Bəlkə tamnam budur ki **[163]** (1) bu elmi cədidə mixbər olub biqədər qüvvəyi-xəyal əmsalına təsnif etməyə iqdam edələr ki onların (2) ehtimamından bu fənni acib islam arasında daxı şöhrət tapa. Məndən ancak əndəzə və nümunə (3) göstərmək banikar olmaq idi.[88]

(4) Axundof Avropalılar kimi teatır, insan əxlaqini islah edən bir **İbretxanə** (5) **və Məktəb** kimi baxırdı və komedilərində insanı tərbiyə yolu ilə düzlətmək və ona doğru bir (6) cəhət vermək məqsədini izliyirdi.

(7) Təmsillərinin müqəddiməsində dramaturgiyadan bəhs edərkən yazır ki: "faidəyi nəqli- (8) müsibət və bəhcət bəni-növi-bəşərin əxlaq və xavasını bəyan etməkdir ki müstəmə yaxşılarına (9) xoşhal və yamanlarından mütəəzzi və qafil ola və həm nəfsi-əmmarə bugünə hekayətin istimainə (10) məşğul olmaqla ləzzət görüb məasi və mənahidən cəlb sərvər etmə meyil eyləmə". (11) Axundof nümayişnamə yazmaqda nəqli-bəhcət yəni komedi yolunu seçmiş və yazdığı satirik (12) komedilərində o zamanki ictimai həyatın mənfiliklərini kəskin gülüş və nişhand ilə ifşa və (13) tənqid etmişdir.

(14) Hekayə Molla İbrahim Kimyager nümayişnaməsində şarqda çox yayılmış olan yalancı (15) kimyagerlik və mövhumat aləyhinə çıxmışdır. Əsərdə tərsim etdiyi Noxalı tacirlərin (16) və Molla İbrahim Xalilin simasında köhnə cəmiyyətin tamakar, avam və yalancı tiplərini təsvir etmiş (17) və bu mənfi tiplərə qarşı müsbət sima olaraq şair Hacı Nurini irəli sürmüşdür. (18) Hacı Nuri Molla İbrahim Xalinin fırıldığına inanaraq meşin qızıla çevrildiyini yəqin **[164]** (1) edən tacirləri öz kəskin və məqul sözləriylə məzəmmət və məlamət edir və əksəriyyən iksirin, insanın (2) öz hünəri də və bacarığında olduğunu irəli sürür! Lakin onun sözləri tacirlərə xoş (3) gəlmir və məclisdən qovulur. Müəllif Hacı Nurinin simasında o zamanki qabaqçıl Azərbaycan (4) münəvvərlərini təsvir etmişdir.

(5) Hekayəti Müsyö Jordan həkimi-nəbatat və dərviş Məstəli Şah Cadüger nümayişnaməsində (6) qaranlıq şarq aləmiylə Avropanın müqayisəsini vermişdir. Məstəli

[88] Axundofun bu nəzəri tarixi baxımdan doğru dəyildir. Çünki komedi nümayiş Avropada (Fransa) 15-ci əsrdə başladığı halda müsəlman Selçuq Türklərində, 850 il bundan qabax mərsum idi. Bizans imparatoru Aləksiyusun qızı Anna Komnini babasının səltənət dövrünə aid yazdığı Aləksyad adlı tarix kitabında aləyhində belə yazır: 1116 da Bizians imparatoru Qılıc Arslan oğlu Melikşah ordusuya hərbə hazırlandığı zaman niqris xəstəliyinə tutulur və hərbə gedə bilmir. Türklər bu məsələni tamaraz tələqqi edib həqiqi səbəbin imparatorun Türklərlə hərbdən qorxmasına bağlamışlar və hadisəni bir komedi şəklində nümayiş vermişlər. Bu nümayişdə imparatoru bir arabanın üstündə doktor və pərəstarlarıyla birlikdə səhnəyə çıxarmışlar.

Şah simasında (7) fırıldaqçı Cadüger dərvişləri ifşa və tənqid etmiş, Nəbatat aləmi Müsyö Jordanın simasında (8) isə Avropa mədəniyyətinin qabaqçıl fikirlərini və Azərbaycanın Avropalılaşdırmaq fikrini (9) irəli sürmüşdür.

(10) Sərgüzəşti-vəziri-xani-Lənkəran komedisi ilə Axundof feodal idarə üsuluna qarşı (11) kəskin bir satira yaratmışdır. Əsərdə xanın sarsaq hərəkətləri, vəzirin iki üzlü (12) yaltaq siması məharətli ifşa olunmuşdur. Teymur Aqa isə, idarə üsulundə müəyyən bir (13) dəyişiklik yaratmaq istəyən liberal düşüncəli və aqıllı bir xandır bu əsər eyni zamanda (14) bir məişət komedisidir.

(15) Xırs quldurbasan komedisi Azərbaycan kəndli həyat və keçimini (məişət) əks etdirən (16) realist bir əsərdir. Türkcə və yerli xüsusiyyətləri bilmədikləri içün çətin və gülünç (17) bir vəziyyətə düşən çar məmurları, ölkədə cəhalət və quldurluğun çoğalması və qadın (18) əsarəti təsvir olunmuşdur.

(19) Hacı Qara Axundofun ən məşhur və qüvvətli komedilərindəndir. Əsərin birinci qəhrəmanını (20) Hacı Qara xəsis bir tacirdir və bu səbəbdən gülünç bir vəzə düşmüşdür. Əsərin ikinci (21) siması Heydər bəydir.

(22) O bu dövürdəki bəy və maliklərin ifadəsini və bunun nəticəsində hər işə baş vurup (23) çarizmə bəndəlik etmələrini göstərmişdir.

(24) Mürafie Vekilləri komedisi üç il sonra yazılmışdır. Bu əsərdə məhkəmə işlərindəki (25) haqsızlıqlar, rüşvət vekillərin fırıldaqçılığı şiddətli surətdə tənqid edilmişdir. (26) Müəllif çar sansorunun diqqətini cəlb etməmək içün hadisəni qəsdən Təbrizə (27) köçürmüşdür.

(28) Təbrizdə hiyləgərliklə məşhur olmuş mürafie vekili (vekili-adələt) aqa Mərdan, (29) ölən qardaşı Hacı Qafurdan Səkinə Xanıma yetişəcək altmış min tümənlik mirasa (30) məhkəmə yoluyla onun əlindən çıxarmaq içün hiylə işlədir, yalancı şahidlər düzəldir, **[165]** (1) hakim şəri öz tərəfinə çəkməyə çalışır lakin mühakimə əsnasında onun şahidləri işin (2) həqiqətini söyləyirlər və beləliklə haqq və ədalət galib gəlir.

(3) Axundofun komedilərində yalnız mənfi tiplər deyil, əsrin qabaqçıl, müsbət adamları da (4) mühüm yer tuturlar. Müəllif mənfi tipləri daha dərindən ifşa etmək içün müsbət

simalardan (5) istifadə etmişdir. Əsərlərdəki mənfi tiplər o zamankı mühitin ictimai mənfiliklərini təmsil (6) edirdilər. Müsbət tiplərin ciddi simaları və bəzən kəskin mübariz çıxışları və aşiqanə (7) macəraları Axundof komedilərini bir həddə qədər "ciddi drama" yaxınlaşdırır.

(8) Axundof komedilərini özü Rusçaya tərcümə etmiş və 1858-də Tiflisdə çap (9) etdirmişdi. Türkcə çapına bir çoq zəhmətdən sonra 1859-da müvəffəq ola bilmişdi. (10) Altı nümayişnaməsini Aldanmış Kəvakib adlı hekayəsiylə birlikdə **Külliyat,** adlıyla çap etmişdir.

(11) Külliyat 1872-də Mirzə Məhəmməd Qaracadağı tərəfindən Farscaya tərcümə edilərək (12) İranda çap olunmuşdu. 1882-də Sərgüzəşti-vəziri-xani-Lənkəran Qaracadağının Farsca (13) tərcüməsində İngilizcəyə tərcümə edilərək Farsca mətniylə birlikdə Londonda nəşr (14) edildi. Mürafie Vəkillərinin Fransızca tərcüməsi də ondan bir il sonra nəşr (15) edildi və bu sürətlə birinci il içərisində Axundofun komediləri Avropada yayılıb, (16) müəllif içün böyük bir şöhrət qazandırdı Avropada ona şarqın Molyeri və Qafqazın (17) Gogolu ləqəbi verdilər.

(18) **Aldanmış Kəvakib** hekayəsi birinci Şah Abbasın istibdadına qarşı yazılmış (19) bir satiradır. Şah Abbas onun ətrafına toplanan vəzirlərin, ruhani, münəccimbaşı və sairənin (20) simalarında İran istibdadının nümayəndələri təsvir edilmişdir. Şah iki üzlü, yaltaq (21) vəzirlər və dərbarı ruhanilərin əliylə İran xalqını talan edir, adam yaqalayıb, burun, (22) qulaq kəsir göz çıxardır və bu kimi vəhşiyanə cəzalarla insanları məhv və ya məlul edir; (23) Şəxsi haraz və arzusunu ırza etmək içün xalqın qız və gəlinlərini zorla hərəmxanasına (24) gətirdir; ətrafındakılarda öz mövqeyyetlərini saxlamaq içün şaha yaltaqlanır və onun (25) zalimanə hərəkətlərini alqışlayırlar.[89]

(26) Vəzir Cəng Sərdar Zaman xanı özünü astanəyi aliyənin qoca iti sayır, maliyyə vəziri (27) Mirzə Möhsün dəvlət məmurlarının hüququnu verməmək yoluyla padşahlıq xəzinəsini (28) doldurmağı özünə böyük bir müvəffəqiyyət bilir, Mollabaşı Axund Səməd də vəzirlər kimi yaltaq (29) və iki üzlüdür. Oda şahı tərifləyir, ona dua oxur, səni məzhəbinə qarşı mübarizəsindən (30) və xalqa zorla şia məzhəbini qəbul etdirməsindən

[89] Təhsin etmək, çəpik çalmaq.

danışıb öyünür[90] və şahın **[166]** (1) xilaf şər işlərini tövciyə edir, müəllif bu tüfəyli zümrəyə qarşı **Yusif Sərracı** (2) müəbbət bir sima olaraq meydana çıxarır.

(3) Yusif Sərrac şahlığı əlinə keçirdikdən sonra işlərində böyük dəyişikliklər (4) yaradır, əvvəla hökümət idarələrini təsviyə edir, yaltaq və əhməq vəzirlərin yerinə aqıllı və (5) bacarıqlı adamlar gətirir, münəccim başılıq vəzifəsini ləğv edir, və haşiyanə cəzaları (6) aradan qaldırır, məhkəməsiz heç bir kimsəyə cəza verilməmək haqqında qanun qoyur və adilə (7) məhkəmələrinin təşqilinə başlayır və eyni zamanda valilərə xalq ilə yaxşı rəftar etmək (8) için yollar göstərir.

(9) Xalq içərisindən çıxıb hökümət başına keçən Yusif Sərrac müəllifin yeddi il qabax (10) yazdığı komedilərdəki Hacı Nuri və Teymur Aqa simalarının daha inkişaf etmiş və tam yetişmiş (11) bir davamıdır. Yusif Şah geniş siyasi bir bərnamə ilə harəkət edir. O böyük bir islahatçı (12) dövlət adamıdır.

(13) Aldanmış Kəvakib dastanı Azərbaycan ədəbiyyatı tarixində satirik hekayənin ən yüksək (14) nümunələrindəndir. Bu dastanı yazdıqdan sonra Axundof özünü daha çox yeni əlifba, (15) fəlsəfə və ədəbi tənqidə həsr etmişdir. Əlifbanın dəyişməsinə aid dörd tərh (ləyihə) (16) və bir çox məqalə və məktublar yazmışdır. İran, Türkiyə və Rusiya dövlət adamlarına yazdığı (17) məktublarında ərəb əlifbasının nəvaqisindən, təhsil və tədrisdə çətinlik törətməsindən[91], (18) xalqın fərhəngi inkişafına mane olmasından şikayət edərək bu əlifbanın latin əlifba ilə ərz (19) edilməsini istəmişdi. Şəhzadə İtizadüs'saltənə göndərdiyi tarixi məktubunda (20) (1874) belə yazır: Beli mən özümdə anlayıram amma yazıram və diri olduqça yazacağam da ta ki, (21) əlifbanı dəyişdirmək fikri bütün millətin arasında yayılmış olsun necə ki on beş ilə (22) yaxındır ki bu fikrin toxumunu İran və Türkiyə torpağında səpmişəm. Şübhəsiz ki toxum (23) xələflərimizin əsrində özün göstərəcəkdir. Axundof bu iş içün Türkiyədə (24) müsafirət etmişdir.

(25) Axundofun "Kəmalüddövlə Məktubları" adındakı əsəri onun fəlsəfi fikirləri və (26) siyasi fəaliyyətinin gözəl ifadəsidir (1865). İstibdad və məzhəbi təəssübat aləyhinə yazdığı (27) bu əsərin əvaqibindən qorunmaq[92] içün öz müəllifliyini gizlədir və özünü

[90] Fəxr etmək.
[91] İcad etmək.
[92] Məhfuz qalmaq.

əsərin mütərcimi (28) göstərməyə çalışırdı. Bir müddət sonra Kəmalüddövlə məktublarını özü tərəfindən nə məqsəd (29) ilə yazıldığına işarə edir və əsil hədəfi mədəniyyətə mane olan məzhəbi fanatizmi qaldırmaq **[167]** (1) və islamda protestanizm yaratmaq olduğunu bəyan edir.

(2) Kəmalüddövlənin birinci məktubu İranın Cəmşidu Gəştasib zamanındakı dövlət qanunnaməsi (3) olan "Peymani Fərhəng" in təsviriylə başlanır və bunun ardınca müasir İranın (4) hər tərəfli təsviri verilir: "Yolların xərab, qəryələrin viran, şəhərlərin birövnəq, (5) köçələrin "biəncam" olması, hamamların natəmizliyi, maliyə işlərindəki hərcü-mərc, (6) məhkəmələrindəki qansuzluq və öz başınalıq, mətbuat, tarix, şeir sahələrindəki əsaslı (7) nöqsanlar, cəhalət və mövhumat, münəccimlərin, dərbarı ruhanilərin "yaltaq və alçaq təbiətları", (8) padşahların zülm və sairə təsvir olunur və İran xalqı inqilaba dəvət edilir: "ey (9) əhli İran" əgər sən nəşəti-azadidən və hüququ-insanidən xəbərdar olsaydın belə übudiyyətə (10) belə rəzalətə mütəhəmmil olmazdın, kəsbi-elmə talib olub **fəramuşxanalar** açardın, (11) məcmələr yapardın, vəsaili ittifaqı dəryaft edərdin. Sən ədəddə və istitaətdə dəspotdan bəməratib (12) artıqsan. Sənə ancaq yəkcəhətliq və yəkdillik lazımdır, əvvəlcə revolyusiya[93] edib übudiyyətdən (13) nəcat tapardın, əgər bu halət yəni ittifaq sənə müyəssər olsaydı özünə bir fikir çəkərdin (14) və özünü puç əqaidin qeydindən, dəspotun zülmündən nəcat verərdin"

(15) Axundofun fəlsəfə görüşü ataist nəzəriyyəsinə yaqındır; onun nəzərincə kainat (16) bütöv maddi bir varlıqdan ibarətdir ki bu da sayısız-hesabsız zərrələrdən mütəşəkkildir. (17) O zaman və məkanın xarcında varlığın qeyri mümkün olduğuna inanır. Onun fəlsəfi (18) görüşlərində bir tərəfdən 18-ci əsr Fransız mütəfəkkirlərinin (Volter, Monteskyö, Russo, (19) Mirabo və məxsusən Ernest Renan) bir tərəfdən də Şəmsi Təbrizi, Molla Rumi, (20) Şəbüstəri kimi vəhtədi-vücuda mütəqid filosofların təsiri görünür. O aqlın ıslatına və (21) hökümətinə inanırdı; ədəbiyyatda realizmi təbliğ edərkən ədəbiyyatın ictimai, tərbiyəvi rolunu (22) əsas bir vəzifə kimi irəli sürürdü. O öz bədii-ictimai əsərləriylə Azərbaycan (23) xalqının ictimai fikir inkişafında mühüm bir rol oynamışdır.

(24) **19-cu əsr ədəbiyyatında klassik şeir cərəyanı:** 19-cu əsrda (25) Azərbaycan ədəbiyyatında klassik şeir cərəyanı da mühüm yer tutaraq davam etməkdə idi. Zəngin

[93] İnqılab.

(26) ədəbi ənənələrə və yüzlərcə, istedadlı şairə sahib olan bu şeir cərəyanı çox geniş (27) yayılmışdı. Bu cərəyan gınai (qəzəl) və irfanı və mərsiyə şeiri kimi üç əsas xəttdə (28) davam edirdi.

(29) Mərsiyə şeir və ədəbiyyatından daha qabax bəhs etdiyimiz içün təkrar yazmağa zaid **[168]** (1) görürüx. Gınai şeir və şairlərimizdən, Cənubi Azərbaycana aid olanları, keçən (2) məqalələrimizdə şərh verdik; Şimali Azərbaycan qəzəlsərallarını da bu məbhəsin sonunda xülasə (3) olaraq izah edəceyik. Arif və sufi şairlərimizdən, Nəbatidən də, Cənubi Azərbaycan (4) şairləri arasında bəhs etdik Şimali Azərbaycandakı sufi şairlərin ən görkəmliləri (5) Seyid Hamza Nigari, Rəncur Xanım, Vahidi, Taləbi və Əsgəridir.

(6) **Mir Hamza Əfəndi Seyid Nigari** Qarabağlıdır (1815-1885). Əsərlərinin (7) çoğunu Nəbati təsiriylə yazmışdır. Gənc yaşda Türkiyədə təhsil almış və bir müddət Amasyada (8) qaldıqdan sonra Qazağa dönmüş və xanlıqlar kəndində bir sufi mürşidi kimi çoxlu müridlər (9) ətrafına yığmışdır. Qəzəl, qəsidə, müxəmməs və müstəzad və bir də çaynamədən mürəkkəb bir divanı (10) vardır, ayrıca Farsca da divan sahibidir. Divanı Türkiyə və Tiflisdə dəfələrlə nəşr (11) olunmuşdur. Qazax şairlərindən **Vahidi** təxəllüslü Rəhim Dilbazov (1826-1873) (12) və **Rəncur** təxəllüslü Şah Nigar Xanım (1850-1899) onun ən yaxın müridlərindən idilər.

(13) 19-cu əsrdə Şimali Azərbaycan şeirlərinin canlanması, mədrəsə və məktəblərdə (14) Füzuli divanının oxunması qəzəl şeirinin yayılmasına yardım (kömək) etdi. Bu əsrin (15) ikinci yarısında Gəncə, Şəki, Şuşa, Şirvan, Quba, Bakı və Təbrizdə yüzlərcə görkəmli (16) qəzəl şairləri yetişdi. Bundan başqa dövrün müxtəlif ədəbi cərəyanına mənsub olan (17) şairlərdə qəzəl yazırdılar. Qəzəl şairlərinin ən mühümlərindən Sağəri, Qasım Zakir, Mustafa (18) Aqa Nəsr, Mirzə Nəbi Ganibof, Mirzə Nəsrullah Didə, Nasrullah Behar, Seyid Əzim Şirvani, (19) Nakam və daha bir çoqlarını saya bilirik.

(20) **Sağəri-** (1790-1845) Qarabağlı ruhani ailəsinə mənsubdur, atası Axund (21) Sadiq və başqa alimlərdən dərs almış və 40 il mollaxanada müəllimlik etmişdir. Türkcə (22) və Farsca yazılmış iki böyük divanı vardır. Füzuli təsiriylə yazmış. Qəzəllərinin (23) dili sadə, bədii və parlaqdır:

(24) Ey Şanə utan, türreyi-əfşanıma dəymə

(25) Canım çıxır, ol zülfi-pərişanına dəymə

(26) Etmə günümü qarə mənim, zülf, həzər qıl

(27) Çin-çin tökülüb məhri-dərxəşanına dəymə

(28) Ey sürmə həya eylə günüm eyləmə tirə

(29) Çeşmi-siyahi-nərgizi-fəttanına dəymə

(30) Ey zülfü heya qıl, məni sən etmə pərişan

(31) Her dəm dökülüb ol mahı tabanına dəymə

[169] (1) **Molla Qasım Zakir** keçən əsrin birinci yarısında yaşamış Nəxali (Gəncə)dir və qəzəl (2) və müxəmməsləriylə məşhur olmuşdur.

(3) **Mustafa Aqa Nəsr-** Zakir və Şirvanlı Molla Qədir Naci ilə müasirdir. Nizamidən (4) "Xosrov və Şirin" şeirini Türkcəyə tərcümə etməyə başlamış lakin vəfat etdiyindən tərcümə (5) yarımçılıq qalmışdır. Keçən əsrin ortalarında Qazaxdan Mirzə Nəbi **Ganibof**, (6) **İskəndər Aqa Şair**, Şamaxıdan Mirzə Nəsrullah **Didə** kimi əsil karakterli şairlər (7) çıxmışdır.

(8) Mirzə Nəbi Ganibof çar məmurlarına qarşı şeirlər, İskəndər Aqa Şair, Xəyyam ruhunda (9) şeirlər və mənzum hekayələr yazmış, Mirzə Nəsrullah Didə də tacirlərin, aç gözlü tamakar ruhani (10) nümaların və pulpərəstlərin aləyhinə bir sıra, mənzum əsərlər yaratmışdır.

(11) Didə mənzum parçalarında dünya malına oyan tacirləri tənqid edərək, onları (12) yoxsullara yardıma çağırırdı. Pulun və dünyanın aləyhinə çıxarkən xalqı pərhizqar olmağa (13) dəvət edirdi.

(14) Bir yuxu surətidir vaqieyi kulli cəhan

(15) Belə əfsanə yeri cayı səfa ilə eyləməyin

(16) Oymayın dövlət dünyayə xəta mədənidir

(17) Bu xəta mənbəyini başayla eyləməyin

(18) 19-cu əsrin ikinci yarısında qəzəl şeiri daha canlı və sürətli inkişaf (19) etmişdir. Bu dövrədə Bahar, Seyid Əzim Şirvani və Nakam kimi müqtədir şairlər yetişmiş, ədəbi (20) məhfillər yaranıb, şairlər arasında müşairə, nəzirəçilik, mənzum hekayələr, fəlsəfi və aşiqanə (21) qəzəllər yazılmışdır.

(22) Bu dövrədə Azərbaycan şairləri əsas etibariylə ədəbi məclislər ətrafında toplaşırdılar.

(23) 70-ci illərdə Qarabağda "Məclisi-üns" və "Məclisi-fəramuşan" Şamaxıda (24) "Bəytüs-səfa", Bakıda "Məcmuəuş-şüəra" kimi şeir məclisləri təşkil edilmişdi.

(25) Məclisi-üns Xurşidbanu **Natəvan**ın ibtikarı və Mirzə Rahim **Fəna**nın iştirakıyla (26) qurulmuşdu.

(27) Məclisi-fəramuşanın banisi Mir Möhsün Nəvvab idi. Şamaxıdakı Bəytüs-səfa məclisinə (28) Seyid Əzim Şirvani, Bakıdakı Məcmuə-şüəraya Məhəmməd Aqa Cürmi başçılıq edirdi. Qəzəl (29) şeirinin inkişafında bu ədəbi məclislərin böyük rolu olmuşdur. Bu Məclislərdə Firdövsinin (30) Şahnaməsi, Nizaminin Xəmsəsi, Hafızın, Nəvainin və Füzulinin divanları mütaliə **[170]** (1) edilərək ədəbi mübahisələr və mühakimələr yürüdülür, nəzirələr yazmaq içün şairlər (2) arasında yarış (müsabiqə) ilan olunurdu. Bəzən də məclislər arasında ədəbi münasibət (3) və müraciələr olurdu.

(4) Bu dövrədə qəzəl şeirinin başçısı Seyid Əzim Şirvani idi. Onun şöhrəti yalnız (5) Şamaxıda qalmayıb bütün Azərbaycana yayılmışdı, Bəytüs-səfaya Seyid Əzimdən başqa (6) Molla Aqa **Bixud** (1830-1892), Molla Məhəmməd **Fuzuli**, Qafar **Rağib** (1818-1892), (7) Aqababa **Zühuri** (1848-1892), Ələkbər **Qafil** (1818-1891) və Məhəmməd **Səfa** kimi (8) şairlər də daxil idilər.

(9) Bakıdakı Məcmuə-şüəra məclisi Bəytüs-səfa və xüsusilə Seyid Əzim Şirvani təsiriylə (10) quruldu.

(11) Məcmuə-şüəraya Məmmədaqa **Cürmi**, Mirzə Əbdülxalıq **Yusif**, Ağadadaş **Sürəyya** və (12) Müniri, Əli Abbas **Müştaq**, Mirzə Aqa **Dilxun**, İbrahim **Zəlali**, Vahab **Vəhib**, (13**) Həzarə, Məhdi**, Məhəmməd **Müsəvvir**, Əbdülxalıq **Cənnəti**, Hadi **Sabit**, Hüseyn Bəy **Vəhdəti** (14) və Əbülhəsən **Vaqif** kimi şairlər daxil idilər.

(15) Bakı şairlərindən **Cürmi** və Əbdülxalıq **Yusif** dərin mənalı qəzəlləriylə digərlərindən (16) seçilirdilər, Yusif için müasirlərindən Əbdülşahin:

(17) Ey olan məmləkət nizamda Sultan Yusif

(18) Vey qulam həbəşin nəsrdə Loqman, Yusif

(19) Mətla ilə başlanan mədhiyyəsində onu şeir aləminin sultanı adlandırır.

(20) Mirzə Əbdülxalıq Yusifdən bir qitə və bir tək bəyit nümunə için dərc edirik:

(21) Bəzm içrə şəm ruyi-cananə bir tərəfdə Mən bir tərəfdə yannam pərvanə bir tərəfdə

(22) Bir yanda hüsn-Ləyli bir yanda ahi-Məcnun Zəncir bir tərəfdə divanə bir tərəfdə

(23) Məsciddə xəlq yatmış vaiz nəsihət eylər Əfsürdə bir tərəfdə əfsanə bir tərəfdə

(24) Yusif cahanda get oxu eşqin risaləsin Həll oldu külli məsələlər bu risalədə

(25) Məmməd Cürmini də Seyid Əzim Şirvani şeirin peyğəmbəri dərəcəsinə qaldırır.

(26) Əgər Məhəmməd edə iddia nübüvvət şeir Onun nübüvvətinə əvvəli mənim qail

(27) Bu dövrədə Qarabağ məclisləri daha böyük nüfuza sahib idilər burada həm şair çox (28) idi həm də yaradıcılıq işi daha müntəzəm və mütəşəkkil qurulmuşdu.

(29) Məclisi-fəramuşanda şeirdən başqa nəqqaşi, musiqi və elmi yaradıcılıqlarla məşğul (30) olanlar vardı.

[171] (1) Məclisə başçılıq edən Mir Möhsün Nəvvab gözəl rəsmlər çekdiyi kimi musiqi (2) elmindən də xəbərdar idi musiqiyə dair "Vüzuhül-ərqam" adlı əsərindən başqa, heyət, (3) tarix, ədəbiyyat haqqında elmi əsərləri və dərs kitabları vardır. Məclisi-fəramuşan xarici (4) ölkələrlə də münasibət saxlayırdı, Bakıdan **Əkinçi**, Kırımdan **Tərcüman** İstanbuldan (5) **Sabah** və Hindistandan **Həblül-Mətin** ruznamələrini alırdı alınan qəzete və məcmuələr oxunur, (6) ədəbi, elmi, siyasi məsələlər ətrafında qızqın mübahisələr aparılırdı.

(7) Məclisi-ünsə Natəvan Xanım və Fəna, Məxfi, Yüzbaşıvof Həsən, Piran, Agah və daha bir (8) çoq şair daxil idilər.

(9) Bu dövr şairlərindən bəziləri Füzuli yolunu izləməklə bərabər Nəvai yaradıcılığına (10) daha artıq meyil göstərirdilər. Asi, Həsən, Əbdülşahin, Yusif Dilxun Nəvai şeirinə (11) pərəstiş edənlərdən idilər. Əlbəttə Xəyyam, Hafız, Nizami və Xaqani şeirinə də əlaqəmənd olanlar (12) vardı. Şəki şairlərinin ən müqtədiri olan Nakam Nizami təsiriylə yazırdı.

(13) Mirzə Nasrullah Bahar və Seyid Əzim Şirvani Hafız şeirinə daha artıq meyil göstərirdilər.

(14) Mirzə Nəsrullah Bahar (1834-1883) Şamaxıda tacir ailəsində doğulmuş və daha (15) əvvəl yazdığımız kimi gənc yaşda İrana göçmüş və Nəsrəddin Şahın sarayında məliküş-şüəra (16) ünvanını almışdı.

(17) **Asi-** Abdulla Asi (1840-1874) məşhur Qasım Bəy Zakirin növesidir. (18) Gənc yaşında içkiyə (məşruba) aludə olan şair keçirdiyi məyus həyatıyla əlaqədar (19) olaraq özünə (asi) təxəllüsünü qəbul etmiş və Nəvai və Hafız təsiri altında yazdığı (20) qəzəlləriylə böyük şöhrət qazanmışdır. Şamaxı şairləri onu səramədi-dövran, qibləyi-ürfan (21) adlandırırdılar. Seyid Əzim onun haqqında bu sözləri yazmışdır.

(22) Nə Asi, ol ki, dəri-izzətində Seyidi-zar

(23) Qulamı olmaq ilə sahib-etibar olacaq

(24) Nə Asi, ol ki, xəyali, rəhi-məhəbbətdən

(25) Könül səraçəsinə şahi-tacdar olacaq

(26) Səfa ilə gələcək nəzmü nəsri Şirvanə

(27) Görüb o nəzmləri Zövi şərmsar olacaq

(28) Asinin “gözlər” rədifli qəzəli həqiqətən yüksək şeir nümunəsidir:

(29) Edər sehr ilə daim bu xəta kanı qara gözlər,

(30) Könül şəhrinə yəğma Türki-Türkanı qara gözlər

[172] (1) Genə sultani-hindutək, sipəhi-xəttə hökm etmiş

(2) Ki tutsun dövrü-ləlində Bədəxşanı qara gözlər

(3) Qəzəli çinə bənzətdim bu cadanu xəta etdim

(4) Ki onda kaç nigahın şivəsi hanı qara gözlər

(5) **Nakam-** (1829-1905) İsmayıl bəy Nakam Nöxada Sədrəddin bəy ailəsindəndir. (6) Türkcədən başqa Farsca və Ərəbcə dillərini mükəmməl öyrənmiş və şarq mədəniyyətini yaxşı bilən (7) bir şairdir. **Divani-bədi və Xəyalati-pərişan, Gəncineyi-ədəb, Leyli və Məcnun**, (8) **Fərhad və Şirin**, **Dörd Əfəndi və Lətifənamə** adlı yeddi əsər təlif etmişdir.

(9) Divanı-bədi və Xəyalati-pərişan, qəzəl, tərcibənd və tərkibibəndlərdən ibarətdir. Gəncineyi-ədəb, (10) Leyli və Məcnun və Fərhad və Şirin əsərləri Nizaminin təsiriylə yazılmışdır.

(11) Otuz bir mənzum "məqal"dan ibarət olan Gəncineyi-edəb əsərini Nizamiyə nəzirə (12) olaraq sözün (süxən) mədh və tərifiylə başlamışdır. Lətifənamə sadə nəsrlə yazılmış (13) şirin lətifə və məzhəkələrdən ibarətdir.

(14) **Hacı Seyid Əzim Şirvani-** Seyid Əzim Şirvani 1835-də Şamaxıda ruhani (15) ailəsində anadan olmuşdur. Atası Seyid Məhəmməd Şamaxının tanınmış adamlarından idi. (16) Seyid Əzim yeddi yaşında ikən atası vəfat etdi, Seyid anasıyla birlikdə Dağıstana köçüb (17) Yaqsay kəndində ata babası Molla Hüseynin yanına getdilər. Molla Hüseyn nəvəsində ruhaniliyə hazırlamaq (18) içün ona Farsca, Ərəbcə və ilahiyat öyrətməyə çalışdı. Bundan sonra Seyid Əzim (19) təhsilini dərinləştirmək məqsədiylə Nəcəf, Kərbəla, Şam, Misir və Beytül-müqəddəsə getdi və Şamaxıya (20) döndükdən sonra Üsuli-cədid ilə məktəb açaraq xüsusi dərs verməklə məşğul oldu. (21) Seyid Əzim Şirvani tədris işiylə yanaşı Şamaxıda **Beytüs-səfa** ədəbi məhfilini təşkil (22) edib Bixud, Rağib, Qafil, Zuyi, Zühuri və Sofa kimi şairləri buraya toplamış və (23) onlara rəhbərlik etmişdir. Seyid Əzimin başqa məhfillərin şairləri xüsusilə Bakı şairləri (24) içərisində çoq nüfuz və hörməti vardı. O tez-tez Bakıya gəlir və burada təşkil edilən (25) şeir və ədib məclislərində iştirak edirdi. Seyid Əzim Mövləvi, Sadi, Füzuli və (26) Camidən

tərcümələr edir bəzən də onlara nəzirələr yazırdı. Özünün söylədiyi qəzəllərdə (27) Hafız və Füzuli yolunu izləmişdir; o Füzulidən sonra Azərbaycanın ən görkəmli (28) qəzəl şairidir.

(29) Şairin şux və nikbin dünya görüşünü ifadə edən qəzəlləriylə bərabər zaman və həyatdan (30) şikayət edən qəzəlləri də vardır. Belə qəzəllərində hicran qəmini, fələk sitəmini tənəyi **[173]** (1) rəqib və dərdi-dil bimarı ifadə edir:

(2) Mən bilmirəm ki hansı qəmi eyləyim bəyan

(3) Yoxdur şümarəsi ələmi bişümarımın.

(4) Hicran qəmi, fələk sitəmi, tənəyi rəqib

(5) Kəsmiş qərarını bu dili biqərarımın.

(6) Qəzəllərində Füzuli kimi sevgidən və gözəllərdən gələn cövrü-cəfanı və bəlanı özü (7) içün böyük bir səadət bilmişdir.

(8) Cismdən can almağa gər olsa fərmanın sənin

(9) Cana minnətdir olam ey dust qurbanın sənin.

(10) Gər tökərsən ey Xəlilim qanımı qəm etmərəm

(11) Qəm odur kim, gər bata al qana damanın sənin.

(12) Füzuli təsiriylə yazdığı bir neçə kədərli fəlsəfi qəzəlləri müstəsna Seyidin qəzəllərində (13) ümumiyyətlə nikbin, qəmə çatmış nəşəli bir ruhun ifadəsi görünür. Onun qəzəllərinin (14) çoxu onun şəxsi həyatı ilə əlaqədardır. Bu qəzəllərdə bəzən yaxın dostu və (15) yoldaşlarına öz səmimiyyət və məhəbbət, bəzm məclislərində rast gəldiyi gözəlləri, şərabı (16) və zövqü-safanı tərənnüm etmişdir:

(17) Dünən gecə mənə həmbəzm bir səmənbər idi

(18) Məhi cəmalı ilə gözəllərim münəvvər idi.

(19) Başımda nəşəyi mey, xətirimdə zövqü-səfa

(20) Bir əldə türrəyi dilbər bir əldə sağər idi.

(21) Gecə o hur cəmələilə ruz tək rövşən

(22) Yərim behişti bərin badəm abi-kövsər idi.

(23) Şair bəzi qəzəllərini klassik şeir üslubundan fərqli olaraq, sadə və açıq dildə (24) xalq şeirinə yaqın bir tərzdə yazmışdır.

(25) Dolanım başına ey nazlıca yarım bəri bax

(26) İşvəli qəmzəli çəm-xəmli nigarım bəri bax.

(27) İşvə ağaz qılıb səbrimi tarac etmə

(28) Getdi dildən dəxi aramü qərarım bəri bax.

(29) Seyid bəzi qəzəllərində Hafız kimi məcaz, təşbeh və istiarələr işlətmişdir və bu yüzdən (30) (səbəbdən) bəzi kimsələr onu ateist sanmaq istəmişlərdir:

[174] (1) Zahid çağırma Kəbəyə meyxanədən məni

(2) Yüz Kəbədən səfalıdı meyxanənin biri

(3) Min həccdən şərafəti əfzun olur əgər

(4) Şəmə dolanuban yana pərvanənin biri

(5) Ya cənnəti verillə bizə ya cəhənnəmi

(6) Seyid məqamımızdı bu viranənin biri.

(7) Burada təvaf kəbə ilə pərvanənin şəmi ətrafına dolanmasını müqayisə edərkən məşuq (8) və məbud yolunda fəna olmağı məqsəd bildiyini ifadə etmək istəyir.

(9) Seyid Əzimin qəzəlləri həmişə xalq tərəfindən söylə söylə oxunmuş və onlara bir (10) çoq nəzirələr yazılmışdır.

(11) Qəzəldən başqa klassik şeirin qəsidə, müxəmməs, rübai kimi bütün ədəbi növlərində (12) bədii əsərlər yaratmışdır. Şirvan gözəllərini yazdığı müxəmməsi məcaz, təşbeh və istiarələr (13) və şairanə təsvirlərlə doludur.

(14) Şəhri Şirvanın acəb dilbər dilcuları var

(15) Kəlbdən qönçə dəhan sadə və məhruları var.

(16) Bu xata mələkudur hər yanda çox əhvalləri var

(17) Yüz ləb şəhidu şəkər zülf səmən buları var.

(18) Yüz qat suru səhi gözləri caduları var.

(19) Musiqi haqqında yazdığı müxəmməsdə mugni dəmini dəm İsaya bərabər sayır və xalqı (20) musiqidən haz almağa və istifadə etməyə çağırır:

(21) Tut bərabər dəm İsaya mugni dəmini

(22) Qılıb ihya özünü sirr ilə ruh aləmini

(23) Zir qəm olma işit naməyi ziru bemini

(24) Çəkmə aqıl sən əgər dəher müxalif qəmini

(25) Şura gəl namə ilə çek qəm dünyaya hisar

(26) Seyid Əzimin parlaq qəsidələrindən biri də Abdulla Asiyə yazdığı "olacaq" rədifli (27) qəsidəsidir. Bu qəsidədə Beytüs-səfa şairlərindən qısa və yığcam bir tərif vermiş və Qarabağ (28) şairlərindən Asiyə səmimi münasibətini bildirmişdir.

(29) Seyid Əzimin bədii əsərləri arasında mənzum məktubları da böyük bir yer tutur. (30) Dostlarına göndərdiyi məktubların çoğunu şeirlə yazırdı. Bu məktublarda qabaqcıl **[175]** (1) fikirləri təlqin edir, onları şeir yazmağa təşviq edirdi; bəzən də şeirlərindəki (2) nöqsanlarını düzəldərək onları gözəl və dərin mənalı yazmağa çağırırdı. Qasirə, (3) Asiyə və Növrəsə yazdığı mənzum məktubları bu qabildədir.

(4) Gülüstan və Bustan Sədidən tərcümə etdiyi və ya Sədi səbkində yazdığı **mənzum** (5) **hekayələri** müasirlərində çoq təsir buraxmışdır. Bu hekayələrdə riyakar və yaltaq (6) abidlər, axmaq tacir və qazilər, əxlaqı düşgün ruhani nümalar və zülm hakimlər təsvir (7) olunmuşdur.

(8) Seyid Əzim Şirvani ictimai və mədəni hadisələrdən mütəəssir olan bir şair idi. (9) 1875-də Bakıda nəşrə başlayan Əkinci ruznaməsi onun müasir məsələlərə yaxınlaşmasına (10) və satiraya keçməsini sürətləndirməyə yardım etmişdir. Şamaxı Dövlət Məktəbində müəllimlik (11) edən şair tədris və təlimin yeni üsullərilə tanış olduqdan sonra, özü xüsusi (12) bir məktəb açdı. Bu zaman Sədi və Girilofdan tərcümə etdiyi kimi özü də bir sıra (13) nəsihətamiz şeirlər yazırdı və bu şeirləriylə xalqı elmə və fərhəngə doğru çağırırdı. (14) Vətən gənclərini müasir Avropa elmlərini öyrənməyə, məişət içün sənət və ziraət kəsb (15) etməyə çağırırdı:

(16) Demə bu kafir o Müsəlmandır Hər kimin elmi var o insandır!

(17) Həsən bəy Zərdabiyə göndərdiyi "Qafqaz Müsəlmanlarına Xitab" şeirində belə xitab (18) edirdi:

(19) Babi-elm olmayıb bizə məsdud Kəsb edən yoxdur anı ləyk nə sud

(20) Bundan əqdəm əgərcə kəsbi-ülum Müşkül idi və ləyk, ey məxdum

(21) İndi işlər çıxıbdır asanə Rəsmi-dünya düşübdü samanə

(22) Tapıp övzai-masiva təğyir Göyə çıxmağa xəlq edib tədbir

(23) Paraxod[94] oldu gəştiyi-yəlkan[95] Özgə samanə düşdü xəlqi-cahan

(24) Ləyk biz bilmirik göz açmaqı Köhnə işlərdə qalmışıq baqi

(25) Babamızdan nə görmüşük əvvəl Dahı ondan sevaya olmaz əməl

[94] Motorlu gəmi.
[95] Yəlkənli gəmi.

(26) Satirik şeirlərinin bir qismində ictimai quruluşu tənqid edib çar məmurlarının (27) rüşvətxorluğu və öz başınalığı ifadə edir:

(28) Nə pristav[96] nə köməkçi nə kvartal[97] nə qazaq

(29) Hamısı qurd kimi soymaqlığa xəlqi ki qoçaq

[176] (1) Məsləhətçin eləyiblər neçə əşxası qaçaq

(2) Neçə kəs var ki nahəqdən olubdur dustaq

(3) Kimi öldürdü görək hansı sinib qan eylədi

(4) Seyid Əzim təlim və tərbiyə məsələlərinə həsr olunmuş mənzum hekayələrində satirik (5) üsulundan istifadə etmişdir. Şair bəzi təmsillərinin məzmununu Sədidən və başqa (6) fars və rus yazıçılarından iqtibas etmiş və satirik təmsillərində pedaqoji fikirlərini (7) bəyan etmişdir. Rus dilini öyrənəndən sonra rus ədəbiyyatına maraqlanmış və Puşkindən (8) bir neçə mənzumə Fars dilinə tərcümə etmişdir.

(9) Seyid Əzim Şirvani ədəbiyyat tariximizdə Axundzadədən sonra istedadlı lirik, (10) görkəmli bir maarifçi satirik şairi kimi yüksəlmişdir. Onun qüdrətli və zəngin (11) yaradıcılığı M. A. Sabir kimi dahi bir şairin yetişməsində böyük rol oynamışdır.

(12) Seyid Əzim Şirvani 1888-də Şamaxıda vəfat etmiş və Şaxəndan (Şaxandan) (13) qəbristanında dəfn edilmişdir.

(14) **Xurşidbanu Natəvan-** (1837-1897) bu əsr ədəbiyyatının uç qrup (15) ətrafında təmərküz etdiyini qeyd etmək lazımdır. Bunlardan biri məhəlli klasizmi davam (16) etdirən Qasım Bəy Zakir ilə Məhəmməd bəy Aşıq ətrafında qərar tutur. İkinci qrupa (17) Mirzə Fətəli Axundzadənin qərbi fikirləri və nəsrciliklə təvəssü imkanı tapan cərəyan (18) tərəfdarları daxil idi. Üçüncü qrup Məclisi-üns şairlərindən təşkil edib qəzəlciliyi (19) və lirizmi incəltməyə (zərifləşdirmək) çalışanlardır, bu son qrubun nümayəndəsi Natəvan (20) Xanımdır. Seyid Əzim Şirvani və məsləkdaşları isə bu cərəyanlar arasında qalmaqla

[96] Rəyis.
[97] Mahallə muhtarı, kədxüda.

bərabər (21) xüsusi bir üsyançılıq ilə köhnə zəncirləri qırmaq fikrində idi. Natəvanın nüfuzu (22) digər iki cərəyan tərəfdarlarından qat-qat qüvvətli idi.

(23) Natəvan Xanım Qarabağın son xanı Mehdiqulu Xanın qızı və İbrahim Xalil Xanın (24) nəvəsidir. Buna görə də hər yerdə **Xan Qızı** ləqəbiylə tanınmışdır. Anası Bedircihan Begüm də (25) Gəncə xanı Cavad Xanın nəvəsidir. Natəvan 1253=1837-də Şuşa şəhərində doğulmuşdur. (26) Doğulduğu zaman Qarabağın son dərəcə fəlakətli zamanı olmuşdur çünki İbrahim (27) Xalil Xan bütün ailə və xidməsiylə Mayor Lisanoviç tərəfindən öldürüləndən sonra (28) Qarabağda ardı-arası kəsilməyən qırqın, mühacirət vaqe olmuşdur. O zamanlar həyatda (29) pərişanlıq olduğu kimi ədəbiyyatda da bir sönüklüq zahir olmuşdu. Bu evza həssas (30) şairənin ruhunda dərin təsir qoyub onun dərd aşina və hüzünlü bir qəzəlsəra olmağına **[177]** (1) yardım etdi. Şəxsi həyatında da gördüyü nakamlıq və oğlunun ölümü bu haləti-ruhiyyəni (2) daha şiddətləndirdi.

(3) Natəvan saraya mənsub olan alimlərdən dərs almışdır. Zirək və aqıllı bir qadın (4) olup Türkcə, Farsca və Ərəbcəni öyrənmiş və ömrünün çoğunu mütaliə ilə (5) keçirmişdir.

(6) Natəvan Xanım Dağıstan nücəbasından Xasay xanı ilə evlənmiş və ondan bir oğlu (7) (Mehdiqulu Vəfa) və bir də qızı (Xanbikə) olmuş, lakin bu evlənmə Qafqaz ümumi vəlisi (8) Maraşal Vorontsofun israrıyla və siyasi səbəblərdən ötürü evlənmişdir. Natəvan Xanım (9) bir müddət sonra Xasay Xandan boşanmış və 1869-da Şuşada Aqa Seyid Hüseyni ilə (10) evlənmişdir. İkinci ərindən də beş uşağı olmuşdur.

(11) 1872-də **Mirzə Rəhim Fəna**nın iştirakı ilə Məclisi Üns adlı ədəbi məhfilini (12) qurmuş və daha sonra Mir Möhsün **Nəvabın** qurduğu **Məclisi Fəramuşan**ın təşkilinə (13) yardım etmişdir. **Məclisi Üns**ə maddi yardım göstərir və məclis uzuvlarını şeir yazmağa (14) təşviq edirdi.

(15) Natəvan xanın yoxsullara kömək edən, xalqın qaygısına qalan, əli açıq və xeyirxah (16) bir qadın idi. Qarabağın abadlığına çalışaraq yolları və körpüləri təmir etdirdi və (17) 1872-də altı kilometrliq bir məsafədən Şuşa qaləsinə su kəməri çekdirdi. Bu su kəməri (18) hal-hazırda Xan qızı bulağı məşhurdur.

(19) 1885-də 17 yaşında oğlu Mir Abbasın sel mərəzindən ölməsi şairəyə ağır təsir (20) etdi. Bir oğlunun ölümü və digər oğlunun (Mehdiqulu xan) uzaqlarda yaşaması, (21) bu arada malikanələrinin də əlindən çıxması Natəvanı həyatdan narazı və naümid etdi. (22) Bu hadisələr Natəvanın şeirlərində iz buraxdığı kimi qəzəllərində də münəkis olmuşdur. (23) Onun içün göz yaşları, həsrət, dua və sıla arzusu, hicran qəm, ümidsizliq və şikayət (24) Natəvanın şeirlərinin ruhunu təşkil edir. Bu xüsusiyyətlər ilə Natəvan Azərbaycan ədəbiyyatı (25) tarixində hissi romantik şeirin görkəmli nümayəndəsi kimi tanınır.

(26) Natəvan Xanım digər şəhirlərdəki ədəbi məhfilləriylə də şeir və müşaərə münasibətləri qurmuş (27) və müasir şairləri onun şeirlərinə nəzirələr yazmışlar. Bir çoq şairlər yazdıqları (28) şeirləri təyid içün ona göndərirdilər. O zamanın ən böyük qəzəl şairi Seyid Əzim (29) Şirvani və digər görkəmli şairlər (Fəna, Nakam, Nəvvab, Sadiq, Piran, Vəfa, Bixud, (30) Xəyali və Asi və sairə) onun şeirlərinə nəzirələr yazmışlar. Şairə uşaqlarıyla da **[178]** (1) şeir ilə yazışardı, indi nümunə içün bir neçə qəzəl və qəzəllərinə yazılan nəzirələrdən (2) dərc edirik:

(3) Ölürəm rədifli qəzəli oğlu Mehdiqulu xan Vəfadan ayrı düşdüyündə yazmışdır:

(4) Varımdı sinədə dərdü qəmi-nəhan, ölürəm

(5) Fəda olum sənə gəl eylə imtəhan ölürəm

(6) Fəraqdan gecələr yatmaram səbahə kimi

(7) Xəyali-zülfünə bağlı gedibdi can ölürəm

(8) Bahari-hüsnün ara gör necə xəzanəm mən

(9) Bahar laləsi tək bağrım oldu qan ölürəm

(10) Vərəq-vərəq dilu can hicrin içrə odlandı

(11) Misali-çəncə[98] sədparə oldu can ölürəm

(12) O xaki-payini mən aşiyanə etmiş idim

[98] Parça parça olmuş et kebabı (orijinal nüsxədə gəncə yazılmış lakin çəncə doğrudur).

(13) Vətəndən ayrı düşüb indi laməkan ölürəm

(14) Fəda o qamətinə kim qəza nə xoş cəkmiş

(15) Qədər büküb belimi eyləyib kəman ölürəm

(16) Fəraqdan tükənüb[99] tabu taqətim billah

(17) Vüsalə yətməz elim zaru Natəvan ölürəm

(18) Qəzəllərinin çoğunda Füzuli kimi dəhridun ün vəfasızlığından şikayət edir:

(19) Zəmanə saldi əcəb möhnətü məlalə məni

(20) O mahrudən iraq verdi qəm zəvalə məni

(21) Tükəndi tabu təvan ey xudayi-ləmyəzəli

(22) Ya tez bu canımı al ya yetir vüsalə məni

(23) Nə yaxşı günlər idi kim səninlə münis idim

(24) Zəmanə indi edib sinə dağlı lalə məni

(25) Vusalə yətməyibən zaru Natəvan qaldım

(26) Edib fələk yənə həsrət o məhcəmalə məni

(27) "Olaydı" rədifli qəzəlində həyatın mənasızlığını düşünərək, Allaha, nə içün (28) bu aləmi və məni yaradıb "hicri atəşinə odlanırdı" diyə şikayət edir.

[179] (1) Nə bən olaydım ilahi nə də bu aləm olaydı

(2) Nə də bu aləm ara dil müqəyyədi-qəm olaydı

(3) Nə hicr atəşinə odlaşub yanaydı dilim ki

(4) Nə eşqin içrə könül böylə şadu xürrəm olaydı

[99] Tamam olub.

(5) Nə sərv qəddin olaydı nə həsrətiylə gözüm kör

(6) Nə rüzgari-fəraqində qamətim xəm olaydı

(7) Nə bəhr olaydı nə umman nə böylə gözyaşı cari

(8) Nə gül yüzündə ilahi bu növ-şəbnəm olaydı

(9) Nə gül olaydı nə gülzari-gülşənin dəxi seyri

(10) Nə xari-möhnəti-bülbül sənlə möhkəm olaydı

(11) Nə cah olaydı nə zindan nə karvan güzəri

(12) Nə Yusif nə bəladə görən bir Adəm olaydı

(13) Nə bəzm olaydı nə bazarı Yusif əhvali

(14) Nə rəhgüzərdə Züləyxa qəmiylə həmdəm olaydı

(15) Nə ah olaydı nə əfsüs nə parə-parə könül

(16) Nə Natəvanın ilahi həvası hərdəm olaydı

(17) Şeirlərində aruz vəzninin ən oynak və ahəngdar bəhrlərindən istifadə etdiyi kimi, (18) ən parlaq və seçilmiş qafiyələr işlənmişdir. Bir iki şeiri müstəsna edilirsə bütün (19) şeirləri rədif ilə yazılmışdır. Şeirlərində **təkrir** (Nə mən olaydım qəzəli kimi), **qoşa** (20) **qafiyələr** (bilən bu dərdimi yoxdur, bu halətdə bu halətdə-qoyubdur intizarında niçün gəlməz (21) niçün gəlməz) ustalıqla işlədilmişdir.

(22) Bilən bu dərdimi yohdur bu halətdə bu halətdə

(23) Dudubdur könlümü möhnət bu firqətdə bu firqətdə

(24) Nəçün əhvalimi bilməz o mahi mehriban ya rab

(25) Nədən heç dadıma yətməz bu müddətdə bu müddətdə

(26) Gidübdü taqətim dizdən tükənmiş nur həm gözdən

(27) Niçün ülfət kəsib bizdən bu qürbətdə bu qürbətdə

(28) Xəyalim yar ilə getmiş dilim hicr ilə odlanmış

(29) Cəsəd həm Natəvan kalmış bu zillətdə bu zillətdə

[180] (1) Natəvanın qəzəllərində Füzulidə olduğu kimi fikr və hiddəti və bəyitləri arasında məntiqi (2) və fikri rabitə mühafizə edilmişdir.

(3) Qoyubdur intizarında nəçin gəlməz nəçin gəlməz

(4) Həmişə ahu zarında nəçin gəlməz nəçin gəlməz

(5) Üzüldüm karivanımdan əl üzdüm xanimanımdan

(6) Fələk incir fəğanımdan nəçin gəlməz nəçin gəlməz

(7) Gedibdir qafiləsalar olubdur gözlərim xunbar

(8) Nə bir yaru nə bir qəmxar nəçin gəlməz nəçin gəlməz

(9) Könüldə ahu zarını var nə səbru nə qərarım var

(10) Dəməz bir dufikarım var nəçin gəlməz nəçin gəlməz

(11) O zulfi-nərgisi-məstə könüll çoxdandı pabəstə

(12) Məni hicran edib xəstə nəçin gəlməz nəçin gəlməz

(13) Səri-kuyin gəzər könlüm guli-ruyin sevər könlüm

(14) Vüsalın çox dilər könlüm nəçin gəlməz nəçin gəlməz

(15) Alubdur canımı hicran olubdur gözlərim giryan

(16) O məhvəş nazənin canan nəçin gəlməz nəçin gəlməz

(17) Mənə hicran məşəqqətdir fərağin dərdu möhnətdir

(18) Nigarım xeyli müddətdir nəçin gəlməz nəçin gəlməz

(19) Əzizim gözyaşım qandır işim fəryadu əfqandır

(20) O yarım harda mehmandır nəçin gəlməz, nəçin gəlməz

(21) Yanar canım fərağından tutar könlüm sorağından

(22) Ki çıxsın yar otağından nəçin gəlməz nəçin gəlməz

(23) Əlimdə ixtiyarım yox gedib-səbri-qərarım yox

(24) Yanımda gülzarım yox nəçin gəlməz nəçin gəlməz

(25) Səba ol məhliqa dilbər alıbdır canımı yəksər

(26) Könül ancaq onu istər nəçin gəlməz nəçin gəlməz

(27) Yətibdir ərş üzə dadım tutub dünyanı fəryadım

(28) Mənim ol sərvi-azadım nəçin gəlməz nəçin gəlməz

(29) Qalıbdır Natəvan nalan gecə-gündüz olar giryan

(30) Onun yox dərdinə dərman nəçin gəlməz nəçin gəlməz

[181] (1) Natəvanın qoşa qafiyəli bu qəzəlini oxuyanda Füzulini xatırlamamaq mümkün deyil (2) oğlu Mir Abbasın ölümü Natəvan xanımı bu səbutun pərişan etmiş, müddətlər ağlamaqdan (3) başqa işi olmamışdır. Oğlunun firaqında bir çoq qəmli qəzəllər yazmışdır onun (4) bu müsibətinə bütün şairlər iştiraq etmişlər və qəzəllərinə nəzirələr yazmışlardır.

(5) Hicran edibdi könlümü bərbad ağlaram

(6) Çoxlar dutar bu halıma irad ağlaram

(7) Könlüm evi xərabtər oldu fəraqdən

(8) Vəslin bu mülkü etmədi abad ağlaram

(9) Dami fərəqdə ki çox ilhahü ləbələr

(10) Etdim nə sud etmədi azad ağlaram

(11) Çəkdikcə cövri hicrini könlüm fərəh tapar

(12) Şadam bu əmrə bəs niyə naşad ağlaram

(13) Kuyində məhrəm etdi rəqibi səfa ilə

(14) Qəhr ilə etmədi məni həm yad ağlaram

(15) Hicrində xoşdur ağlamaq ahü fəğan ilə

(16) Səs verməsə bu naləvü fəryad ağlaram

(17) Çün Natəvani zari zəifem fəraqdan

(18) Bu gündə yar etməsə imdad ağlaram

(19) Mirzə Rəhim Fəna və başqaları da həm nəzirə həm də Natəvanın dərdinə şərik olaraq (20) şeir yazmışlar:

(21) Hicran edibdi könlüm evin qürbət ağlaram

(22) Bu ağlamak olubdu beni adət ağlaram

(23) Söhbət məcali olmadı bir dəm sənlə hayıf

(24) Hər dəm edüb xəyalin ilə söhbət ağlaram

(25) Ruyun firaqıdır səbəb qəribə **Fəna**

(26) Didarına qoyubdu fələk həsrət ağlaram

(27) Burada Natəvanın qəzəllərinə yazılan nəzirələrdən nümunə içün birər mətlə dərc etməklə (28) iktifa edirik: Yadıma (100)

(29) Düşdü gecə yadıma o sehi qamet ağlaram

(30) Ey mah qıyamətə kimi hər saat ağlaram

(31) Seyid Əzim (Seyid)

[182] (1) Nolurdı bəzmdə ya Rab mənim də yarım olaydı

(2) Alub piyalə ələ yar mey-güsarım olaydı.

(3) Seyid Əzim (Seyid)

(4) Dilbəra dərdi-dilimdən belə ünvan etdim

(5) Ki qəmi-hicrdə dil mülkünü viran etdim

(6) Natəvan

(7) Şəbi hicran o qədər naləvü-əfğan etdim,

(8) Ta ki, çeşmi fələki halıma giryan etdim

(9) Seyid Əzim (Seyid)

(10) Son olaraq Natəvanın Farsca qəzəllərindən bir necə bəyt dərc edirik:

(11) گذشت موسم گل رفت نوبهار افسوس

(12) بماند بلبل بیچاره خوار و زار افسوس

(13) شکفته بود گلی در ریاض عز و شرف

(14) ربود ناگه گلچین روزگار افسوس

(15) گلی که رشك گل گلستان رضوان بود

(16) بزیر خاک گرفته کنون قرار افسوس

(17) Nətəvan Xanım əsrinin ən nüfuzlu şairi olmaqla yanaşı musiqi aşıqı və (18) ən dəyərli nəqqaşı olmuşdur. Natəvan 1897-də Şuşada vəfat etmiş və onun ölümündən (19) sonra Qarabağ şüərası başsız və avarə qaldığı kimi Qarabağın maarifidə onunla sönüb (20) getmişdir.

(21) **19-cu əsrin ikinci yarısında mətbuat: Əkinçi qazeti-**

(22) 1832-də Tiflisdə **Tatarskiyə və Domosti** adlı ilk dəfə Türkcə bir varaqa nəşr (23) olunmağa başladı. Bu ruznamə yalnız hökümətin və vergi (maliyat) və sair haqqında qanun və (24) əmrləri yerli xalqa çatdırmaq məqsədiylə çap olurdu və bir neçə sayı çıxdıqdan (25) sonra da bağlanmışdı.

(26) 1879-də Həsən bəy Melikzadə Zərdabinin (1837-1907) təşəbbüsüylə (iqdam) Əkinçi (27) adlı qəzetin birinci sayısı nəşr olundu və bununla da Azərbaycan mətbuatının əsası (28) qoyuldu (22 Septamber 1875) Həsən bəy 1837-də Zərdab kəndində anadan olmuş və orta (29) təhsilini Tiflisdə aldıqdan sonra Moskovada darülfünun təbiət fakültəsində oxumuş (30) və 1855-də məzun (lisans) olmuşdur.

[183] (1) Həsən bəy Bakıda Əkinçi ruznaməsində və daha sonralar Həyat və İrşad (2) ruznamələrində maarifçi məqalələr yazmış və hifzi-səhhə və sairəyə aid elmi kitablar (3) çıqarmışdır.

(4) Əkinçi ruznaməsi ayda iki dəfə nəşr olunurdu və 1877-nin son aylarına qədər cəmən (5) 56 sayı nəşr olmuşdur.

(6) Bu ruznamə **daxiliyyə, əkin və ziraət xəbərləri, məktubat, elmi xəbərlər və taza** (7) **xəbərlər** başlıqlar altında beş əsas qismətə ayrılırdı. Elmi və ziraət xəbərləri qəzetin (8) əsas hissəsi idi və burada kənd iqtisadı işlərini yeni üsulda qurmaq içün elmi (9) məqalələr yazılır və yol göstərilirdi bu məqalələrin çoxu Zərdabi tərəfindən yazılırdı. (10) Əkinçi şəhr dəsti sənəyeni tənqid edir və Azərbaycan şəhərlərində karxanalar qurulmasına (11) çalışırdı.

(12) Ruznamənin məktubat qismində müxtəlif yerlərdən gələn məktublar dərc olunurdu. (13) Bu qismətdə **Nəcəf Bəy Vəzirli, Əsgər Bəy Adıgözəl** və **Gəncədən Məhəmməd Sadıq** (14) **Gəncəvi** (Əhsənül-Qəvaid)in Dərbənddən **Həydərin**in və Şamaxıdan Seyid Əzim Şirvanının (15) məqalələri dərc olunurdu. Əkinçinin əsas məfkurəsi (idəolojisi) feodal və sənəti (16) Azərbaycanı yeni inkişaf (təkamül) yoluna çəkmək idi buna görə də elmi məqalələr ilə yanaşı (17) cəhalət, mövhümat və fanatizmə qarşı çıxaraq köhnə qaidələrin yeni qaidələrlə ivaz (18) edilməsini təbliğ edirdi. Əkinçi yazıçıları xalq kütlələrini "təqazayi-zəmənəyə müvafiq" (19) tərbiyə etməyə say edirdilər. Nəcəf bəy Vəzirli də Zərdabi kimi köhnə şeirin aləyhinə (20) çıxaraq şairləri müasir həyatdan

yazmağa, xalqı cəhalət və qəflət yuxusundan ayıltmağa (21) və müasir ruhda tərbiyə etməyə çağırırdı.

(22) Əkinçi ruznaməsi dəmokratik, azadlıq fikirləri təbliğ edirdi. Şarqın geriliyini (23) (dali qalmasını) bu ölkələrdə azadlığın olmamasında və köhnə qaidələrin hələ də (24) hökm sürməsində görürdü. Əkinçi qəzeti Azərbaycan ictimai fikir inkişafında böyük (25) rol oynamışdır. Şiddətli sansor, yersiz hücumlar, müştərilərin narazılığı, maddi zarar (26) və sairə ruznamə nəşrini çətinləşdirdi. Bütün bu məşəqqətə baxmayaraq Həsən Bəy Zərdabi (27) qəzetin nəşrinə davam etdi lakin 1877-də hökümət əmriylə ruznamə bağlanıb Həsən Bəy də (28) mərkəzdən uzaqlaşdırıldı.

(29) **Nümayişnamə və Teatır (Dramaturgiya)ın İnkişafı.**

(30) Azərbaycanda qərbi şəkildə teatırın və nümayişnamə yazmağın binası M. F. Axundzadənin (31) altı komediyasıyla qoyuldu. Lakin bu piyəslər yerli artistlərin yetişmədiyi içün Azərbaycan **[184]** (1) dan qabax Rusiya və Ordubadda oynandı. Məsəla "Hekayəti Müsyö Jordan Həkimi-Nəbatat və Dərviş Məstəli Şah (2) Cadüger Məşhur" komediyasının Rusçası 1851-də Peterzburg da oynandı. 1852-də (3) Hekayəti Xırsi-Quldurbasan komediyasında Tiflis teatırında rus dilində oynandı. Bu xüsusda (4) o zamanki Tiflis mətbuatında belə yazılmışdı:

(5) "Cuma axşamı yanvarın 31-də ədəbiyyat və teatır aləmində bu zamana dək məsəli (6) görülməmiş bir əhvalat olacaqdır. O gün birinci dəfə olacaq səhnədə Türk (7) adətlərini, Türk paltarını, Türk çadırlarını və Türk Hekayətini görəcəyik. Ən mühüm budur ki (8) ilk dəfə afişa (ilan)larda qüdrətli bir Türk yazıcısı M. F. Axundzadənin adı (9) görüləcəkdir."[100]

(10) Bu dövürdə Həsən Bəy Zərdabi və Nəcəf bəy Vəzirof milli teatırın yaradılmasıyla ciddi (11) şəkildə məşğul olub, bilaxarə 1873-də Bakıda orta məktəb şagirdlərinin köməyilə (12) M. F. Axundofun "Sərgüzəşti-vəziri-xani-Lənkəran" komediyasını ilk dəfə olaraq Türk (13) dilində oynamağa müvafiq oldular. Azərbaycan teatırının əsil tarixi də bu zamandan başlar. (14) M. F. Axundzadənin piyəsləri Azərbaycan səhnələrində oynandıqca tamaşaçılara dərin (15) təsir edir. Ədəbiyyat maraqlılarını (əlaqəmənd) teatır

[100] Qafqaz qəzeti 1852 nomre 7.

əsərləri yazmağa təşviq edirdi. Nəcəf (16) bəy Vəzirof (1854-1926). Əsgər Aqa Adıgözəlof, Rəşid Bəy Əfəndiyof, Əbdürrəhim (17) Haqverdiyəf kimi gənc (cavan) yazıçılar Axundzadənin yaradıcılığından ilham alaraq (18) nümayişnamə yazmağa həvəslənirdilər.

(19) Bakının sürətli iqtisadi və mədəni inkişafı da bu hünərin canlanmasına yardım etdi. (20) 90-cı illərdə Həsən bəy Zərdabi başda olmaq üzərə Bakıda "drama cəmiyyəti" quruldu. (21) Bu dövrdə bir tərəfdən Rus və Avropa klassiklərinin əsərləri (Şekspirin) Otellası, (22) Şillərin Qaçaqları, Gogolun Revizoru və sairə Azəri Türkcəsinə tərcümə edilir, bir (23) tərəfdən Nəcəf bəy Vəzirof A. Haqverdiyəf, Süləyman Axundof kimi onlarca nümayişnamə (24) yazan yetişir və Azəri teatırı qüvvətlənirdi və məişət dramaları, komediyalar və tarixi (25) trajediyalar yaranırdı.

(26) Nəcəf bəy Vəzirofun "Müsibəti–Fəxrəddin", "Yağışdan Çıxdıq Yağmura Düşdük", (27) "Pəhləvanı–zəmanə" və A. Haqverdiyəfin "Dağılan Tifaq" kimi piyəsləri bu dövrdə (28) yaradılmışdır.

(29) Azərbaycan nümayişnamə yazanları Axundzadənin ədəbi ənənələrini davam etdirdiyi **[185]** (1) kimi Şekspir, Moliyər, Gogol və Ostorovski kimi dünya və Rus dramaturgiya (2) ustadlarından da öyrənirdilər. Azəri nümayişnamə yazanların yaradıcılığında **demokratik** (3) **və maarifçi fikirlər** əsas mənbəi təşkil edirdi. Köhnə cəmiyyətin mənfi tərəflərini (4) açığa vurmaq, ictimai xəstəlikləri tənqid yoluyla sağaltmaq nümayişnamələrin esas (5) məfkurəvi istiqamətini təşkil edirdi. Nümayişnamələrdə bey və maliklərin həyatı təsvir (6) edilirdi. Bu yazıçılar köhnə cəmiyyətdəki nadanlığın, oğurluğun, quldurluğun (7) və sair ayıbların əsas səbəbini, maarifsizlikdə gördükləri içün xalqı maarif yoluna (8) çəkməyə çalışırdılar.

(9) **Mənabi və Müraciə:**

(10) 1- Azəri Ədəbiyyatında Təcəddüd Dövrü (19-20-ci əsr) İslam Ansiklopedisi. (11) Professor Fuad Köprülü Cild 2-İstanbul.

(12) 2- Azərbaycan Ədəbiyyatı. Əhməd Cəfəroğlu. Türk Dünyası Əl Kitabı 1977-Ankara.

(13) 3- Azərbaycan Ədəbiyyatı. Firidun Köçərli. Birinci Cild. Elm Nəşriyyatı (14) 1978- Bakı.

(15) 4- Azərbaycan Ədəbiyyatı Tarixi. İkinci cild. F. Qasımzadə, Məhəmməd Arif və Hüseyn (16) Haydarof. Elmlər Akadəmiyası. Azərbaycan Qolu Nəşriyyatı. Bakı 1946.

(17) 5- Əndişəhayı Mirzə Fətəli Axundzadə. Firudin Adəmiyyət. Tehran

(18) 6- Natəvan Xurşidbanu. Redaqtoru. Hanəfi Zeynallı. Azerşəhər. Baku 1928.

(19) 7- Süxənvani-Azərbaycan. Əziz Dövlətabadi.

BEŞİNCİ BÖLÜM

TÜRKİYE TÜRKÇESİNE AKTARMA

5.1. Türkiye Türkçesine Aktarma

[1] Mukaddime Yerine

"Azerbaycan Edebiyat Tarihine Bir Bakış" Varlık mecmuasında müselsel makaleler şeklinde yayımlandıktan sonra bir kitap hâlinde bırakılmıştır. Kitabın hacmi küçük, adı iddiasız ve yazarı da bir cerrahi doktordur. Bütün bunlara karşı, bu hadiseyi yürekten selamlamalı, onunla iftihar etmeli ve sevinmeliyiz. Neden?

***

Bu büyük işin derin manasını, genç neslin yeterince anlamamasından korkuyorum. Düşmanlarımız uzun zamandan beri millî kimliğimizin sembolü olan unsurları silerek ortadan kaldırmak ve bunun mümkün olmadığı durumlarda ise tabir ve tefsir yolu ile en zayıf rivayete dayanarak delileri hiçe saymak ve unutturmak istediler. Bu işte kasıtlı ve planlı bir şekilde ihanet edenler olduğu gibi hâkim muhitin umumi atmosferine uyarak istemeyerek de o yolda gidenler çok oldu.

Bu düşmanların ve düşmanların dostlarının tabiidir ki ana hedefleri dilimizdi. Elbette dili inkâr edebilselerdi edebiyatımız ve onun tarihi de kendi kendine yok olurdu.

Dediğimiz gibi ana hedef dilimizdi. Birkaç taraftan ona hücuma geçtiler. İlk olarak Azerbaycan Türkü münevverlerin Fars dili ve medeniyetine[101] duydukları samimi ve

[101] Bu kelime Fransızların kültür ve Arapların sekafe sözlerinin karşılığıdır.

kadimî alakayı suistimal ettiler. Bu alakaya dayanarak ana diline karşı soğukluk yaratmak istediler.

Ana dilinin eğitim ve öğretimi mümkün olmayınca ve dil ancak gündelik, sathı münasebetlere hasredilince, kelimeler unutulur, hazinesi tükenir ve dil **[2]** fakirleşir.[102] Bu fakirleşme daha sonra münevverin başına kakınç olur ve münevver bu propagandadan habersiz olduğu için tebliğ yalanına inanır.

Hakaret hissi ile kimliğini ve dilini inkâr etmeye başlar. Çocuğuna millî adlar yerine Azerbaycan Türkünün düzgün telaffuz edemeyeceği Fars ve Frengi adlar koyar, çocuğuyla ana dilinde konuşmaz ve sonunda da "iki cami arasında kalmış beynamaz" ve از آنجا رانده از اینجا مانده yani kimliksiz, şahsiyetsiz "vatansız" (Heimatlos) olur. Firdevsi'nin dediği gibi:

"نه ترك و نه دهگان نه تازی بود سخنها به کردار بازی بود"

Bu olayı tespit etmek için İranlı olmak ile Fars olmayı bir tutmak ihanetine kadar gidildi.

Hâlbuki İranlı olmak bu memlekette yaşayan bütün halkın şanlı ve ortak sıfatıdır. Azerbaycan Türkünün kendisine has dili, medeniyeti ve diğer hususiyetleri ile İranlı ve Farslardan geri değildir. Biz bunu laf olsun diye söylemiyoruz. Temiz işlerimizle, kanımızla, sayısız şehit ve kahramanlarımızla, Settar Hanlarımız ve şehitliklerimizle binlerce kez tasdik ettik.

Bu durumda utanmadan İranlılığı Farslılık kabul ettikleri gibi İran'da yaşayan başka halkları da Fars kabul etmek istiyorlar. Asimilasyon siyasetleri devrime kadar devam etti. Burada siyasetin içtimai, nizami, iktisadi ve jeopolitik taraflarını bir kenara bırakarak meseleyi dil, edebiyat ve medeniyet penceresinden kısaca anlatmaya çalışacağız.

Bugüne kadar İran halklarına dair doğru düzgün bir tarih yazılmadı. Tarih diyerek beyinlere işlenmeye çalışılan bilgiler Aryani şovenizm hizmetinde olan bilgilerden öteye

